# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ BİRİNCİ KİTAB

## DEKABR 2013 - APREL 2014

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Davosda keçirilən Dünya İqtisadi Forumunda «Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol» mövzusunda çıxışı və digər mötəbər tədbirlərdə Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, sürətli iqtisadi tərəqqisi və xalqın rifahının yaxşılaşdırılması istiqamətində aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Dövlət başçısının Belçika Krallığına, İsveçrəyə, Rusiya Federasiyasına və Niderland Krallığına səfərləri və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana işgüzar səfəri zamanı, ölkəmizə gələn xarici dövlət və hökumət rəhbərləri, mədəniyyət xadimləri, nümayəndə heyətləri ilə görüşləri, söhbətləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları, həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycan Prezidentinin prinsipial mövqeyini əks etdirən materiallar da bu cilddə yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{М - 651(07) - 2018}$** **ББК - 32**

© Azərnəşr, 2018

## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYA BİNASININ AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin Akademiya binasının açılışı mərasimində iştirak etmişdir.*

*2005-ci ildə prezident İlham Əliyevin sərəncamına uyğun olaraq Azərbaycanda Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə ölkədə mülki müdafiə, ərazilərin təbii, həmçinin texnogen xarakterli fövqəladə hallardan qorunması və əhalinin təhlükəsizliyinin təmin edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə başlanıldı. Dövlətimizin başçısının diqqəti sayəsində nazirliyin maddi-texniki bazası gücləndirildi, kadr hazırlığının təşkili, məlumat mübadiləsinin aparılması və digər sahələrdə nailiyyətlər əldə olundu. Ən müasir texnika, xilasetmə ləvazimatları, xüsusi geyimlər, texniki vasitələr, cihazlar alındı. Bu illərdə nazirliyin strukturuna daxil olan 9 regional mərkəz yaradıldı, yeni inzibati binalar tikilərək istifadəyə verildi. Bütün bunlar 2010-cu ildə baş verən Kür daşqınlarının, 2012-ci ildə respublikanın qərb bölgəsində qeydə alınan zəlzələnin nəticələrinin uğurla aradan qaldırılmasında mühüm rol oynadı. Ötən dövrdə nazirliyin kadr potensialının artırılması və bu istiqamətdə mühüm tədbirlərin görülməsi də prezident İlham Əliyevin diqqət mərkəzində oldu. Odur ki, dövlətimizin başçısının 2008-ci ildə imzaladığı sərəncama əsasən yaradılan Fövqəladə Hallar Nazirliyinin Akademiyası da bu baxımdan mühüm əhəmiyyətə malikdir. 2009-cu ildən fəaliyyətə başlayan və elə həmin il də ilk qəbulu həyata keçirən akademiya 2013-cü ildə ilk məzunlarını buraxmışdır. Heç şübhəsiz ki, ölkəmizdə və onun hüdudlarından kənarda baş*

verən təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında əsl fədakarlıq göstərən nazirliyin qüvvələri bundan sonra da vətəndaşlarımızın təhlükəsizliyinin keşiyində dayanacaqlar.

Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin akademiyanın həyatində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev akademiyanın binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, akademiya müasir tələblərə cavab verən xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanmasını, Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri üzrə əlavə təhsilin həyata keçirilməsini və fövqəladə hallar sahəsində fundamental və tətbiqi elmi-tədqiqat işlərinin aparılmasını təmin edən xüsusi təyinatlı təhsil müəssisəsidir. Bu təhsil ocağının ixtisaslı kadrlarla komplektləşdirilməsi, tədris prosesinin normativ-hüquqi aktlara və normativlərə uyğun qurulması, fövqəladə hallar sahəsində elmi tədqiqatların aparılması və digər mühüm vəzifələrin yerinə yetirilməsi üçün son illərdə bir çox işlər görülmüşdür. Hazırda akademiyada 502 kursant təhsil alır və 62 professor-müəllim heyəti çalışır. 2013-cü ildə akademiyanı 100 nəfər bitirmişdir. Onlar həyat fəaliyyətinin təhlükəsizliyi və yanğın təhlükəsizliyi mühəndisliyi ixtisaslarına yiyələnmişlər.

Məlumat verildi ki, akademiyanın strukturuna həyat fəaliyyətinin təhlükəsizliyi, yanğın təhlükəsizliyi, əlavə təhsilin təşkili, qiyabi təhsil fakültələri və 6 kafedra daxildir. Fəaliyyətə başladığı ilk gündən akademiyada təhsilin məzmununun «Boloniya» prosesinin prinsiplərinə, tədrisin Avropa Kredit Köçürmə Sisteminin tələblərinə uyğun keçirilməsi təmin edilmişdir.

Yüksək tədris prosesinin hökm sürdüyü, fənn kabinetlərinin, auditoriyaların hər cür zəruri avadanlıqla təchiz olunduğu akademiyanın peşə ixtisası və xüsusi hazırlıq kompleksində yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki,

burada xilasetmə, tibbi hazırlıq, dalğıc və alpinist hazırlığı, siqnalizasiya və digər sahələr üzrə xüsusi tədris kabinetləri mövcuddur. Bundan əlavə, zəruri avadanlıqla təchiz edilən laboratoriyalar da tədrisin yüksək səviyyədə aparılmasına geniş imkanlar açır.

Qeyd olundu ki, tədris prosesi, eləcə də imtahanların qəbulu kompüter və internet texnologiyalarının tətbiqi ilə həyata keçirilir. Akademiyada tədris prosesi ilə yanaşı, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət göstərilir. İndiyədək müxtəlif ölkələrin müvafiq tədris müəssisələri ilə səmərəli əməkdaşlıq yaradılmışdır. Akademiyanın əməkdaşları və kursantları bir sıra beynəlxalq konfranslarda və tədbirlərdə iştirak etmişlər. Akademiyanın həyətində böyük stadion da inşa edilmiş, kursantların idmanla məşğul olmaları üçün hər cür şərait yaradılmışdır.

Prezident İlham Əliyev son vaxtlar Fövqəladə Hallar Nazirliyinin istifadəsinə verilən texnikalara baxdı.

Sonra dövlətimizin başçısı akademiyada yaradılan Heydər Əliyev Mərkəzində oldu. Bu Mərkəz ulu öndərin zəngin həyat yolunun səhifələrini vərəqləməyə, Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmağa imkan verir. Ulu öndərin irsinin geniş əks olunduğu bu Mərkəzdə yaradılan şərait, geniş ekspozisiya və fotoguşələr imkan verəcəkdir ki, akademiyanın kursantları ümummilli lider Heydər Əliyev irsinə dərindən yiyələnsinlər. Burada ulu öndərin zəngin irsinin gələcək nəsillərə çatdırılması üçün virtual tədris sinfi, kitabxana, ümummilli liderə aid sənədlərin saxlandığı xüsusi guşə fəaliyyət göstərir.

Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Akademiyasında yaradılan muzeyə də baxdı. Burada akademiyanın yaranma tarixi və son 5 ildə əldə olunan uğurlar barədə geniş məlumatlar toplanmışdır. Akademiyanın bayrağı da bu muzeydədir. Xatırladaq ki, prezident İlham Əliyev bu ilin martında akademiyanın bayrağının əsasnaməsi haqqında fərman imzalamışdır.

*Daha sonra prezident İlham Əliyev akademiyanın kollektivi ilə görüşdü.*

**B a h a r  C ə f ə r o v a** *(akademiyanın kafedra müdiri):* Cənab Prezident, akademiyamıza xoş gəlmisiniz! Sizi görməyimizə çox şadıq. Bu gözəl binanı bizə bəxş etdiyinizə görə Sizə təşəkkür edirik. Sizin sərəncamınızla Aydın Qafarov Əməkdar elm xadimi adını almışdır. Mən isə Əməkdar müəllim adına layiq görülmüşəm. Sizə çox minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Bayramlar ərəfəsində akademiyanın yeni binasının açılışını qeyd edirik. Çox gözəl binadır. Ən müasir avadanlıqlar, trenajorlar quraşdırılıbdır. Yəni tədris prosesi üçün bütün şərait yaradılıbdır. Gözəl zövqlə, keyfiyyətlə tikilibdir. Ümumiyyətlə, Fövqəladə Hallar Nazirliyinin Akademiyası qısa müddətdə gözəl bir tədris mərkəzinə çevrilib. Ümid edirəm ki, biz gələcəkdə bu akademiyanın bazasında beynəlxalq tədris və təlim mərkəzi yaradacağıq. Burada mövcud olan imkanlar bunu deməyə əsas verir. Çünki hesab edirəm ki, bu bölgədə, yerləşdiyimiz regionda bu akademiyanın, əlbəttə, öz yeri var. Əminəm ki, burada təhsil almaq üçün qonşu ölkələrdən də vətəndaşlar gələcəklər. Bu bazada beynəlxalq tədris mərkəzini yarada bilərik. Əlbəttə, burada xilasedicilərimiz öz biliklərini artıracaqlar. Gənclər müxtəlif peşələr üzrə öz ixtisaslarını təmin edəcəklər. Buna böyük ehtiyac var.

Ümumiyyətlə, Fövqəladə Hallar Nazirliyi yaranandan bu günə qədər böyük bir yol keçib, ölkə daxilində və xaricdə böyük işlər görüb. Əfsuslar olsun ki, təbii fəlakətlər bizdən də yan keçmədi. Həm sel, daşqın, ondan sonra zəlzələ iqtisadiyyatımıza, insanların yaşayış səviyyəsinə böyük zərbə vurdu. Ancaq xoşbəxtlikdən nə daşqın, nə sel, nə də son zəlzələ zamanı heç bir bədbəxt hadisə, ölüm hadisəsi olmadı. Bütün vətəndaşlar vaxtında müvəqqəti yaşayış yerlərinə köçürüldü. Ondan sonra, əlbəttə ki, gərgin iş başlandı. Çünki daşqın nəticəsində 10 minlərlə hektar torpaq, minlərlə ev su altında qalmışdır. Biz qısa müddət ərzində bütün bu

vəziyyətdən əziyyət çəkən insanları yeni evlərlə təmin etdik. Dövlət hesabına minlərlə yeni ev tikildi, vətəndaşlara pulsuz, hədiyyə kimi verildi. Məktəblər tikildi. O cümlədən deyə bilərəm ki, biz zəlzələ zonasında da bir il ərzində əsas işlərin görülməsinə nail olduq. Ondan sonrakı dövrdə də tamamlama işləri aparılmışdır.

Bəyan etdiyim kimi, heç bir təbii fəlakət bizi sarsıda bilməz. Azərbaycan dövləti güclü dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bərpa işlərini və evlərin tikintisini Azərbaycan dövləti öz üzərinə götürüb. Dövlət bütün maliyyə xərclərini çəkib. Texniki tərəfdən bu işləri Azərbaycan mütəxəssisləri görmüşlər. Fövqəladə Hallar Nazirliyinin bu işlərdə böyük rolu var. Bu bir daha onu göstərir ki, vaxtilə nazirliyin yaradılmasında böyük məna var idi. Bu gün bizim xilasedicilərimiz xarici ölkələrdə xilasetmə missiyasını icra edirlər. Bir neçə ölkədə zəlzələ, daşqın, yanğınlar zamanı bizim qruplarımız xilasetmə işlərində iştirak etmiş, yüksək qiymətə layiq görülmüş, xarici ölkələrin yüksək mükafatları ilə təltif edilmişlər. Mən hesab edirəm ki, bu təcrübə də bizim üçün çox önəmlidir. Xilasedicilərimiz həm daha çox təcrübə toplayırlar, eyni zamanda, Azərbaycan bu sahədə də xoş niyyətini göstərir. Çünki mən dəfələrlə demişəm ki, bizim beynəlxalq siyasətimiz əməkdaşlıq əsasında qurulur. O cümlədən biz də çətin vəziyyətdə olan ölkələrə yardım əlimizi uzatmalıyıq, bunu edirik.

Bütövlükdə bu gün texniki təminat yüksək səviyyədədir. Son illərdə lazım olan bütün texniki avadanlıq alınıb. Burada quraşdırılan trenajorlar da bunun bir hissəsidir. Yəni bu gün texniki təchizatla bağlı heç bir problem yoxdur. Düzdür, köhnədən bəzi avadanlıq hələ qalıbdır. Tədricən o da yenilənəcəkdir. Bir sözlə, Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazası möhkəmdir, işçilərin peşəkarlığı artır, tədris prosesi düzgün təşkil edilir. Akademiyanın yeni binası bunu bir daha göstərir. Əminəm ki, gələcəkdə nazirliyin funksiyaları ilə bağlı heç bir problem olmayacaqdır.

Bu yaxınlarda nazirliyə əlavə funksiyalar verildi, o cümlədən strateji obyektlərin mühafizəsi. Xüsusilə, Mingəçevir və Ceyranbatan su anbarlarının mühafizəsi nazirliyə tapşırılıbdır. Qısa müddət ərzində bütün mühafizə tədbirləri görülübdür. Həm müşahidə kameraları, həm mühafizə sistemi, siqnalizasiya ən müasir səviyyədə qurulubdur. Yəni strateji obyektlərimiz lazımi səviyyədə qorunmalıdır və qorunur. Əminəm ki, gələcəkdə də nazirliyin əməkdaşları ləyaqətlə işləyəcək, doğma Vətəninə sədaqətlə xidmət edəcəklər.

Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Volqoqrad dəmir yolu vağzalında baş vermiş terror aktı nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən sarsıtdı.

Biz terrorizmin bütün formalarını və təzahürlərini qətiyyətlə pisləyirik.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2013-cü il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Kuba əlaqələri, dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daha da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kuba xalqına daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2013-cü il*

## QIZ QALASINDA HƏYATA KEÇİRİLƏN KONSERVASİYA İŞLƏRİ VƏ YENİ YARADILAN MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞLIQ

*30 dekabr 2013-cü il*

*Paytaxtımızın qədim tarixi rəmzlərindən biri, milli memarlığımızın nadir nümunəsi, YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilən Qız qalasında konservasiya və yeni muzey ekspozisiyasının yaradılması işləri başa çatmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 30-da Qız qalasında həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası ilə tanış oldular.*

*Son illər tarixi abidələrimizin qorunub saxlanması və bərpası məqsədilə dövlət səviyyəsində silsilə kompleks tədbirlər həyata keçirilir. Qədim İçərişəhərdə yerləşən abidələrin konservasiyası və bərpası istiqamətində görülən işlər də bu tədbirlərin tərkib hissəsidir. Maddi mədəniyyət nümunələrinin mühafizəsinə və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu Azərbaycanın tarixi memarlıq ənənələrini və irsini dolğun şəkildə əks etdirən İçərişəhərdə aparılan təmir və bərpa işlərinə də dəstəyini əsirgəmir.*

*Əsrlər bir-birini əvəzlədikcə Qız qalası təbii proseslərin təsiri nəticəsində zədələnərək ciddi təhlükə ilə üz-üzə qalsa da, bu möhtəşəm abidə tarixin bütün sınaqlarına sinə gərərək ümumilikdə öz ilkin görkəmini və struktur quruluşunu qoruyub saxlaya bilmişdir. Ötən əsrin 60-cı illərində aparılan bərpa işlərindən sonra bu abidə muzey kimi fəaliyyət göstərmişdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün prezident İlham Əliyevin tapşırıqları əsasında 2009–2013-cü illərdə burada konservasiya işləri aparılmışdır. Konservasiya işləri Avstriyanın məşhur bərpaçı*

*eksperti, dünyanın müxtəlif yerlərində 400-dən çox abidəni, o cümlədən İçərişəhərdəki Məhəmməd məscidini bərpa edən Erix Pummerin rəhbərliyi altında xarici və yerli mütəxəssislərə həvalə edilmişdir. Həmin layihə çərçivəsində həyata keçirilən konservasiya tədbirlərində başlıca məqsəd tikilinin zahiri görünüşünə xələl gətirmədən təbii dağılma prosesinin və insan amilinin abidəyə əsrlər boyunca vurduğu ziyanın aradan qaldırılması idi. Elmi araşdırmalara əsaslanan bu layihənin reallaşdırılması zamanı müasir texnologiyalardan geniş istifadə edilib. Burada aparılan işlər nəticəsində Qız qalasının təkrarolunmaz görkəmi tam bərpa edilmiş, bu bənzərsiz abidə yenidən istifadəyə verilmişdir.*

*Dövlətimizin başçısı və xanımı Qız qalasında mövcud olan xarakterik zədələri, abidənin müqayisəli görüntülərini, köçəri quşların (uzunqanadlıların) alternativ yuvalarla təmin edilməsi ilə bağlı görülmüş işləri əks etdirən stendə baxdılar.*

*«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Samir Nuriyev Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Qız qalasında həyata keçirilən yenidənqurma işləri barədə ətraflı məlumat verdi.*

*Qeyd olundu ki, 2013-cü ilin oktyabrında Qız qalasının həm fasadında, həm də daxilində bərpa və konservasiya işləri uğurla yekunlaşdırılib. Bununla yanaşı, qalanın daxilində beynəlxalq standartlara uyğun müasir muzey ekspozisiyası yaradılmışdır. Konservasiya prosesi dövründə abidənin tarixinin və təyinatının öyrənilməsində mühüm rol oynaya biləcək elmi tədqiqatlar da aparılıb. Milli-mənəvi dəyərlərimizin, maddi mədəniyyət abidələrimizin qorunub saxlanmasına və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu konservasiya tədbirləri zamanı yaxından dəstəyini, o cümlədən ekoloji məsələlərin həllinə hərtərəfli köməyini əsirgəməmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva görülən işlərlə yaxından tanış oldular.*

*Bildirildi ki, yeni muzey ekspozisiyası təcrübəli mütəxəssislərin köməyi ilə yaradılıb. Qaladakı pilləkən yenisi ilə əvəz edilib. Qız*

qalasının mərtəbələrində xüsusi monitorlarda bu abidənin tarixi, daxili strukturu, tikintisində məqsəd, təyinatı və sair məsələlərlə bağlı fərziyyələr, əfsanələr və digər maraqlı faktlar əks olunub. Ekspozisiyadakı stenddə qədim sənətkarlıq məmulatları barədə məlumat verilir. Hər bir mərtəbədə ekspozisiyaya uyğun işıqlandırma sistemi quraşdırılıb. Burada Qız qalasının müdafiə, istehkam, dini, rəsədxana və digər təyinatı barədə fərziyyələrlə, elmi araşdırmalarla tanış olmaq mümkündür. Monitorlarda Qız qalasının təyinatı barədə film nümayiş etdirilir.

Ekspozisiyada Qız qalasının özünəməxsus və bənzərsiz memarlığı geniş əksini tapmışdır. Burada orijinal maket qurulub. Maketin üzərindəki monitorda qalanın daxili strukturu barədə müfəssəl məlumat yerləşdirilib. Qalada aparılan bərpa işlərindən sonra hər bir mərtəbədə ən müasir təhlükəsizlik, yanğından mühafizə və digər müvafiq sistemlər quraşdırılıb.

Qız qalası hazırda dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakının əsas rəmzlərindən biridir. Bu reallıq muzey ekspozisiyasının «Bakının qəlbi» bölməsində geniş əksini tapıb. Köhnə Bakını əks etdirən monitorda şəhərin iqtisadi, gündəlik həyatı, dini və şəhərsalma mövzularına geniş yer verilib.

Burada Qız qalası haqqında əfsanələrlə də tanış olmaq mümkündür. Ekspozisiyanın növbəti bölməsində Qız qalasının müdafiə obyekti rolunu oynaması ilə bağlı fərziyyə və elmi araşdırmalardan bəhs edilir. Buradakı stenddə qədim silah nümunələri nümayiş olunur. Monitorlarda İçərişəhərin hərbi tarixi və burada baş verən döyüşlər əksini tapıb. Qalada uşaqların böyük marağına səbəb olacaq «İçərişəhərin müdafiəsi» adlı interaktiv oyun da təqdim edilir.

«Qədim məbəd» bölməsindəki heliodispley də orijinallığı ilə diqqəti cəlb edir.

Ekspozisiyada Qız qalasının qədim rəsədxana rolunu oynaması fərziyyəsinə də geniş yer ayrılmışdır. Bəzi fikirlərə əsasən, Qız qalası əsas etibarilə Günəşin illik dövriyyəsini izləmək və bu prosesin önəmli məqamlarını öyrənmək məqsədilə ucaldılıb.

*Qız qalasının ən üst qatına çıxış insanların rahatlığını və təhlükəsizliyini təmin etmək şərti ilə yenidən* qurulub. *Burada damın ortasında quraşdırılan* stendin *üzərində müxtəlif obyektlərin təsvirləri təqdim* olunur.

*Ümumilikdə,* bu maddi *mədəniyyət abidəsində həyata keçirilən* konservasiya *işləri və* yeni *yaradılan* muzey ekspozisiyası *zəngin təəssürat və xoş* ovqat *yaradır, insanı Qız qalasının doğurduğu heyranlığın mahiyyətinə* daha *dərindən varmağa yönəldir.*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ**

Hörmətli cənab Prezident!

Myanma İttifaqı Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Myanma arasındakı münasibətlər dostluq və əməkdaşlıq zəminində daha da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 dekabr 2013-cü il*

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2013-cü il arxada qalır. 2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Qarşımızda duran bütün məsələlər öz həllini tapmış və ölkəmizin hərtərəfli inkişafı davam etmişdir.

2013-cü il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Ölkəmizin bütün istiqamətlər üzrə inkişafı hər bir Azərbaycan vətəndaşını sevindirir. Bizim beynəlxalq mövqelərimiz möhkəmləndirilmişdir. Azərbaycanın həm ikitərəfli və həm də çoxtərəfli formatda beynəlxalq əlaqələri artmış, güclənmişdir. Biz iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda fəal siyasət aparmışıq və böyük beynəlxalq dəstək qazanmışıq. Bu il Azərbaycan BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətini başa çatdırır. 2 il ərzində Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasında çox fəal iştirak etmişdir. Beynəlxalq hüququ, ədaləti müdafiə etmişdir.

Əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları pozulur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması bunu bir daha göstərir. Əfsuslar olsun ki, bizim torpaqlarımız uzun illərdir işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ancaq Ermənistan buna məhəl qoymur. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatının da bu məsələ ilə bağlı qərar və qətnamələri var. Ancaq əfsuslar olsun ki, onlar da icra edilmir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variant ola bilməz. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaradılsın. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək və işğal edilmiş bütün torpaqlarda Azərbaycan vətəndaşları yaşayacaqdır. Gələcəkdə isə azərbaycanlılar bütün tarixi torpaqlara qayıdacaqlar. Mən buna əminəm, buna şübhə etmirəm. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq, daha da güclü orduya malik olmalıyıq və iqtisadi inkişafı təmin etməliyik.

Ordu quruculuğu işində böyük uğurlarımız vardır. Azərbaycan Ordusu bu gün dünyanın güclü orduları sırasındadır. Bu istiqamətdə hələ görüləcək işlər çoxdur, islahatlar davam etdirilməlidir. Ancaq deyə bilərəm ki, ölkəmizin hərbi potensialı kifayət qədər güclüdür. Ən müasir texnika, silah-sursat alınır. Azərbaycanda müasir hərbi məhsullar istehsal olunur. Bir sözlə, ordumuzun hərbi potensialı, döyüş qabiliyyəti artır və bu bizi sevindirir. Çünki hər bir güclü dövlətin güclü ordusu olmalıdır. Biz bu istiqamətdə bundan sonra da fəal siyasət aparacağıq.

İqtisadi siyasətə gəldikdə, bu sahədə son 10 il ərzində Azərbaycan kimi inkişaf edən ikinci ölkə olmamışdır. Bütün beynəlxalq maliyyə qurumları və statistik məlumatlar bunu təsdiqləyir. Son 10 il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmışdır ki, bu, dünya miqyasında ən böyük göstəricidir. 1 milyon 200 mindən artıq yeni iş yeri açılmışdır. Yoxsulluğun azaldılmasında böyük nailiyyətlər əldə edilmişdir. Hazırda yoxsulluğun səviyyəsi 5 faizdən bir qədər çoxdur. İşsizliyə qarşı mübarizə gözəl nəticələr vermişdir. Azərbaycanda işsizliyin səviyyəsi 5 faizdən aşağıdır.

Beynəlxalq aparıcı reytinq agentlikləri hətta böhranlı illərdə Azərbaycanın kredit reytinqlərini artırmışlar. Dünyanın bir nömrəli iqtisadi forumu olan Davos İqtisadi Forumu ölkələrin rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 39-cu yerə layiq görmüşdür. Bu çox böyük nailiyyətdir, çox böyük nəticədir, onu

göstərir ki, ölkəmiz uğurla inkişaf edir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır, təkcə neft amilinə bağlı deyildir. Son illər ərzində apardığımız iqtisadi islahatlar, iqtisadi siyasət ölkə iqtisadiyyatının şaxələndirilməsinə gətirib çıxarmışdır. Əminəm ki, növbəti illərdə iqtisadi sahədə daha da böyük uğurlar əldə ediləcəkdir. Bizim iqtisadi siyasətlə bağlı proqramımız ardıcıl şəkildə icra edilir.

Eyni zamanda, güclü iqtisadiyyat, əlbəttə ki, sosial məsələlərin həllinə də kömək edir. Azərbaycan bu sahədə də ardıcıl siyasət aparır. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ona görə güclü sosial siyasət bizim əsas istiqamətimizdir. 2013-cü ildə maaşlar, pensiyalar qaldırılmış, sovet vaxtlarından qalmış əmanətlər tam olaraq əhaliyə kompensasiya şəklində verilmişdir. Digər sosial proqramlar uğurla icra edilir. Əminəm ki, sosial sahədə siyasətimiz növbəti illərdə davam etdiriləcəkdir. Bunu deməyə əsas verən bizim güclü iqtisadi potensialımızdır. İqtisadi müstəqillik olmadan heç bir ölkə özünü tam azad, müstəqil hesab edə bilməz. Ona görə hesab edirəm ki, iqtisadi sahədə müstəqilliyin əldə olunması bizim ən böyük nailiyyətimizdir.

Eyni zamanda, ölkəmizdə siyasi islahatlar davam etdirilir və davam etdiriləcəkdir. Azərbaycanda demokratik cəmiyyətin qurulması istiqamətində çox müsbət addımlar atılır, qanunun aliliyi təmin edilir, bütün azadlıqlar vardır. Azərbaycan siyasi islahatların aparılması istiqamətində də qabaqcıl ölkələrin birinə çevrilməkdədir.

Cəmiyyəti ən çox narahat edən korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə 2013-cü ildə daha da böyük miqyasda aparılıb. Biz daha da böyük uğurlara nail olmuşuq. Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Burada həm cəza tədbirləri, inzibati tədbirlər öz rolunu oynayır, eyni zamanda, sistem xarakterli islahatlar da bu sahədə böyük irəliləyişə nail olmaq üçün bizə imkan yaradıb. İlin əvvəlində yaradılmış

«ASAN xidmət»in fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Qısa müddət ərzində cəmiyyətdə böyük rəğbət qazanmış «ASAN xidmət» bu gün dünyada da özünü Azərbaycan brendi kimi təsdiqləyir. İl ərzində bu xidmətə 500 mindən artıq vətəndaş müraciət edib. Gələcəkdə «ASAN xidmət»də göstərilən xidmətlərin sayı artırılacaq və eyni zamanda, elektron xidmətlərin sayı da artırılmalıdır.

Azərbaycan bu il dünyanın humanitar mərkəzi kimi, özünü bir daha təsdiq etdi. Bu il Azərbaycanda III Beynəlxalq Humanitar Forumu, II Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bu 2 tədbir dünya ictimaiyyətinin diqqətini özünə cəlb etmişdir. Azərbaycan artıq dinlərarası, millətlərarası dialoqun aparılması üçün özünü bir mərkəz kimi göstərir. Ölkəmizdə mövcud olan dini və milli dözümlülük, tolerantlıq, bütün xalqların bir ailə kimi yaşaması bizim böyük nailiyyətimizdir, böyük sərvətimizdir, böyük üstünlüyümüzdür. Deyə bilərəm ki, ölkəmizin bu sahədə təcrübəsi dünyada öyrənilir və təqdir edilir.

Əlbəttə ki, neft-qaz sektoru da ölkəmizin gələcək inkişafı üçün çox böyük məna daşıyır. 2013-cü ildə bir neçə vacib məsələ öz həllini tapmışdır. Onlardan biri də Trans–Adriatik kəməri layihəsinin seçilməsidir. TAP layihəsi artıq əsas qaz ixrac marşrutu kimi təsdiq edilmişdir. 2012-ci ildə Trans–Anadolu qaz kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmişdir və bu il bu istiqamətdə böyük işlər görülmüşdür. Dekabrın 17-də «Şahdəniz-2» layihəsinə start verildi. Bu, tarixi layihədir, tarixi hadisədir. Bu layihə XXI əsrin layihəsidir, Avropanın ən böyük infrastruktur və ən böyük enerji layihəsidir. TANAP, TAP, «Şahdəniz-2» layihələri Azərbaycanın tarixi uğurudur, tarixi nailiyyətidir. Bir daha Azərbaycan xalqını bu böyük qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu layihə xalqımızın uğurlu gələcəyi, yaşaması, ölkəmizin dayanıqlı inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir layihədir.

Bu il Azərbaycanda prezident seçkiləri azad, ədalətli şəkildə keçirilmişdir. Seçkiləri müşahidə edən xarici qonaqlar seçkilərə

çox yüksək qiymət vermişlər. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı seçkilərin keçirilməsinə yüksək qiymət vermişdir. Seçkilərdə Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapmışdır. Mənə yenidən böyük diqqət və dəstək göstərdiyi üçün doğma xalqıma minnətdaram. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin uğurlu inkişafı, gələcəyi üçün var gücümlə çalışacağam.

Bu il Azərbaycan kosmik dövlətə çevrildi. İlin əvvəlində «Azərspace-1» peykinin fəzaya buraxılması tarixi nailiyyətdir. Bu onu göstərir ki, ölkəmiz böyük işlərə, böyük uğurlara imza atır. Kosmik sənayenin inkişafı ölkəmizin ümumi, intellektual və iqtisadi potensialını bir daha təsdiqləyir.

Əziz bacılar və qardaşlar, bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün güclü Azərbaycan dövləti var. O dövlət ki, öz vətəndaşları üçün çalışır, vətəndaşlarının qayğıları ilə yaşayır. Müasir, dinamik, demokratik dövlət ki, bu gün bütün azərbaycanlıların Vətənidir.

Mən bütün Azərbaycan xalqını bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə xoşbəxtlik, firavanlıq, əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2013-cü il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə xoşbəxtlik arzulayıram.

Azərbaycanda bir çox xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluğunu, dil və mədəniyyətini qoruyub saxlayırlar. Bu gün Azərbaycan dövləti sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun hökm sürdüyü, yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi bir cəmiyyətə malikdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün milli azlıqları, o cümlədən pravoslav xristian icması millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, Azərbaycanda vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində, inkişaf və quruculuq prosesində yaxından iştirak edirlər.

Hər il Azərbaycanda təntənə ilə qeyd olunan Milad bayramı yeniliyi, əmin-amanlığı, həmrəyliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 yanvar 2014-cü il*

## «TUFAN» DAĞ-XİZƏK YAY-QIŞ İSTİRAHƏT KOMPLEKSİNİN BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞI MƏRASİMİ

*3 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 3-də Qəbələdə «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinin birinci mərhələsinin açılışı mərasimində iştirak etmişlər.*

*Son illər iqtisadi inkişaf templərinə görə dünyada ön sırada olan Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir. İqtisadiyyatımızın neft amilindən asılılığının azaldılmasına xidmət edən qeyri-neft sektorunun inkişafı indi bir çox sahələrin tərəqqisi ilə müşayiət olunur. Prezident İlham Əliyev bir neçə mühüm sahə ilə yanaşı, Azərbaycanda turizmin inkişafını da qeyri-neft sektorunun əsas sahələrindən biri elan etmişdir və bu istiqamətdə atılan addımlar artıq öz bəhrəsini verir. Qəbələdəki «Tufan» dağ-xizək yay-qış istirahət kompleksi bu sırada mühüm yer tutur. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. Paytaxt ilə yanaşı, indi bu prosesə regionlar da cəlb olunmuşdur və bölgələrimizdə irimiqyaslı turizm layihələri icra edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, son bir neçə ildə dünyanın ən məşhur hotel brendləri Azərbaycana gəlmiş, ölkədə çoxsaylı beşulduzlu hotellər istifadəyə verilmişdir. 2011-ci il Azərbaycanda «Turizm ili» elan edilmişdir. Son 2 ildə inşası sürətlə davam edən «Tufan» dağ-xizək yay-qış istirahət kompleksi də ölkəmizdə turizmin yeni istiqamətinin meydana çıxması baxımından xüsusi əhəmiyyətə malikdir. Dövlətimizin başçısı respublikanın bütün regionlarına olduğu kimi, Qəbələyə*

etdiyi mütəmadi səfərlər zamanı kompleksə gələrək burada aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Layihə çərçivəsində indiyədək «Tufan» dağ-xizək yay-qış istirahət kompleksində nəhəng infrastruktur yaradılıb, avtomobil yolunun çəkilməsi, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri görülüb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir. Xizək kompleksinə yaxın ərazidə «Qolf resort» idman və istirahət mərkəzinin tikintisi də nəzərdə tutulub.

Prezident İlham Əliyev «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdi. Qeyd edildi ki, kompleksin tikintisinin birinci mərhələsi çərçivəsində 4 kanat xətti tam inşa olunub, 10 xizək yolundan 5-də inşaat işləri başa çatıb. Digər işlər isə mərhələli şəkildə həyata keçirilir. Bu qış mövsümündə kanat xətlərində gəzinti, xizəklə sürüşmək və iaşə obyektlərinin xidmətlərindən istifadə etmək mümkün olacaq. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılıb. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, hotel və digər xidmətlərdən istifadə etməyə imkanlar verir.

Prezident İlham Əliyevə kompleksin yönləndirici planı və ikinci mərhələ çərçivəsində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin tras sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Hər bir qonaq enmə zolağı, maillik və çətinlik dərəcəsinə görə tras seçə bilər. Bütün dağ-xizək trası süni qaryaratma generasiya sistemi ilə təchiz edilib. Bütünlükdə «Tufan» dağ-xizək yay-qış istirahət kompleksi gün ərzində 3 min nəfərə xidmət göstərmək imkanına malikdir.

*Bu layihənin reallaşdırılması respublikada dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün də hərtərəfli imkanlar açır. Bu, gələcəkdə qış idman növlərində milli idmançılarımızın yetişməsində əvəzsiz rol oynayacaq.*

*Azərbaycan isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradır. Bu da təbii ki, ölkəmizin hərtərəfli sürətli iqtisadi tərəqqisinin, turizmin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin təzahürüdür.*

*Həm Qusar rayonundakı «Şahdağ» qış-yay turizm, həm də Qəbələdəki «Tufan» dağ-xizək qış-yay istirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə etdiyi uğurların miqyasını göstərir. Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində Qəbələdə bir neçə il əvvəl turizmin inkişafı ilə bağlı görülən işlər, bu çərçivədə onlarla hotelin tikilməsi də indi bu prosesə mühüm töhfə verir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin «Riverside» kanat xəttinin aşağı stansiyasında oldular. Bu stansiyanı kompleksin girişi də adlandırmaq olar. Burada turistlərin istirahəti üçün hər cür şərait yaradılıb, xizəklərin satışı və kirayəsi xidmətlərini göstərən ayrıca bölmə qurulub. Bundan əlavə, ərazidə idman malları mağazası və kafe də fəaliyyət göstərir.*

*Yaradılan şərait bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qəbələyə qonaq gələcəklər. Yay mövsümündə minlərlə qonağı qarşılayan Qəbələ bundan sonra qışda da turistlərin maraq göstərdiyi əsas məkanlardan birinə çevriləcəkdir. Artıq «Tufan» dağ-xizək yay-qış istirahət kompleksi ölkəmizin turizm brendi kimi çıxış etməyə başlamışdır.*

## BAKI SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*7 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 7-də paytaxtda Azərbaycanın ən böyük tibb müəssisəsi olan Bakı Sağlamlıq Mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Son illərdə Azərbaycanda səhiyyə yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikilməsi, mövcud tibb ocaqlarının yenidən qurulması geniş vüsət almışdır. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturun təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında mühüm uğurlar əldə edilmişdir. Bu məqsədlə səhiyyənin prioritet sahələri üzrə 9 Dövlət Proqramı qəbul olunmuşdur.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü siyasətin mühüm tərkib hissəsi kimi, ölkənin dövlət tibb ocaqlarında pulsuz xidmət göstərilməsinə başlanılıb. Aztəminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanların dərmanlarla pulsuz təmin olunması və müalicəsi diqqət mərkəzində saxlanılıb. Ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması sahəsində də ölkədə ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə 6 perinatal mərkəz fəaliyyətə başlayıb. Son 10 ildə səhiyyə sahəsində görülən işlər nəticəsində ümumilikdə 500-ə yaxın tibb müəssisəsində təmir və*

tikinti işləri aparılıb. Onlardan təxminən 70 faizi regionların payına düşür. Bundan əlavə, son illərdə ölkədə tibb kadrlarının hazırlanması, tibbi təhsil və tibb elminin inkişafı sahəsində də ciddi uğurlara nail olunub.

Bakı Sağlamlıq Mərkəzində yaradılan şərait bir daha təsdiqləyir ki, ölkəmizin iqtisadi qüdrəti artdıqca, sosial sahəyə daha çox diqqət göstərilir və bu proses davamlı xarakter alıb. Təsadüfi deyildir ki, Azərbaycan Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması, həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlərin yaradılması nəzərdə tutulur. 2014-cü ilin ilk günlərində prezident İlham Əliyevin iştirakı ilə Qəbələdə dağ-xizək kompleksinin, daha sonra Bakı Sağlamlıq Mərkəzinin açılması Azərbaycanda sosial sahənin inkişafına və əhalinin sağlamlığına göstərilən dövlət qayğısının əsas göstəricilərindəndir.

Azərbaycan Prezidenti və xanımı Bakı Sağlamlıq Mərkəzində yaradılmış şəraitlə tanış oldular.

Bakı Sağlamlıq Mərkəzi prezident İlham Əliyevin 2010-cu il 6 avqust tarixli Sərəncamı əsasında inşa olunub. Dövlətimizin başçısı 2011-ci ilin iyulunda mərkəzin təməlqoyma mərasimində iştirak etmişdir.

Səhiyyə naziri Oqtay Şirəliyev yeni tibb ocağı barədə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi. Qeyd edildi ki, 50 min kvadratmetr sahəsi olan bu tibb müəssisəsi 550 çarpayılıqdır. Mərkəz ən müasir avadanlıqlarla təchiz edilib. Burada tibbin ən son elmi-texniki yenilikləri tətbiq olunub. Mərkəzdə tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait yaradılıb. Bütün şöbələr dünyanın ən müasir tibbi texnika və avadanlıqları ilə təchiz olunub. Bu texnikanın bir çoxu ölkəmizin tibb sistemində ilk dəfə tətbiq edilir. Bunların arasında müasir maqnit-rezonans aparatı, LED sistemli cərrahi işıqlandırıcılar, mərkəzləşdirilmiş sterilləşdirmə sistemi mühüm yer tutur. Bundan əlavə, Bakı Sağ-

*lamlıq Mərkəzində istifadəyə verilən kompüter tomoqrafiyası, rəqəmsal rentgen, ultrasəs aparatları və digər müasir tibbi cihazlar xəstələrin müalicəsində əhəmiyyətli rol oynayacaqdır. Cərrahi asma panellər, masalar, kameralar və rentgen aparatları, həmçinin barokamera, mərkəzi oksigen sistemi, yeni doğulmuşlar üçün küvezlər və reanimasiya otaqları mərkəzin əhəmiyyətini daha da artırır.*

*Dövlətimizin başçısı və xanımı sağlamlıq mərkəzinin ayrı-ayrı şöbələrində yaradılan şərait və müasir tibbi avadanlıqlarla tanış oldular.*

*Bildirildi ki, mərkəzdə müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi üçün ən yüksək şərait yaradılıb.*

*Dövlətimizin başçısı Bakı Sağlamlıq Mərkəzi ilə tanışlıqdan sonra həkim kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi Bakı Sağlamlıq Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Gözəl mərkəzdir, müstəqillik dövründə tikilmiş ən böyük tibb müəssisəsidir. 550 çarpayılıq mərkəzdə bütün lazımi şərait yaradılıb. Bu ən böyük mərkəzdir. Burada bir neçə şöbə fəaliyyət göstərir. Bütün əsas şöbələr vardır. Müasir avadanlıq quraşdırılıb. Burada yüksək tibbi xidmət göstərmək üçün bütün imkanlar var. Əminəm ki, burada çalışan həkimlər də xəstələrə qayğı və diqqətlə yanaşacaqlar.

Mərkəzin tikintisi əlamətdar hadisədir. Son illər Azərbaycanda səhiyyə sahəsinin inkişafı ilə bağlı böyük işlər görülüb. Bütün rayonlarda müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilib. Son illərdə yüzlərlə tibb mərkəzi açılmışdır ki, bu gün Azərbaycan vətəndaşlarına xidmət göstərir. Belə mərkəzlərin yaradılması Azərbaycanda sosial sahəyə göstərilən diqqətin əlamətidir. Bu sahə 2014-cü ildə də prioritet olaraq qalacaqdır. Çünki Azərbaycanın artan iqtisadi inkişafı, iqtisadi potensialı imkan verir ki, sosial sahəyə diqqət daha da böyük olsun.

Əlbəttə, sosial sahənin əsas istiqaməti insanların sağlamlığıdır. Bu sahəyə də daim böyük diqqət göstərilir. Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar statistik göstəricilərdə də özünü əks etdirir. Çünki ana ölümü, uşaq

ölümü kəskin dərəcədə aşağı düşmüşdür. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda aparılan islahatları təqdirlə qeyd edir. Bir sözlə, son illərdə ölkəmizdə və xüsusilə Bakıda müasir tibb müəssisələrinin yaradılması geniş vüsət almışdır. Əminəm ki, gələcək illərdə hazırda təmirə ehtiyacı olan tibb müəssisələrində də təmir-bərpa işləri aparılacaq və gözəl şərait yaradılacaqdır.

Bir daha qeyd etmək istəyirəm ki, son illər belə mərkəzlərin tikintisinə nadir hallarda rast gəlmək olar. Çünki dünyada hələ ki, iqtisadi böhran davam edir, bəzi ölkələrin iqtisadi vəziyyəti o qədər də yaxşı deyildir. Deyə bilərəm ki, belə böyük xəstəxanaların tikintisi hazırda dünyada çox nadir hallarda mümkündür.

Ancaq belə mərkəzlər Azərbaycanda tikilir və tikiləcəkdir. Mən yaxşı xatırlayıram ki, biz bu yerdə təməl daşını qoyduq. O vaxt bura, demək olar ki, boş ərazi idi, 2 il yarım ərzində gözəl mərkəz tikildi.

Əminəm ki, bu mərkəzdə vətəndaşlara yüksək xidmət göstəriləcəkdir. Bu, həkimlər üçün də yeni iş yerlərinin açılması deməkdir və burada işləmək də hər bir həkim üçün xoş olacaq. Çünki burada olan şərait dünyanın ən yüksək standartlarına uyğundur. Bu gün Azərbaycan səhiyyə sahəsində, xüsusilə avadanlıq, təchizat və tikinti işlərində öz standartlarını da təqdim edir.

Ancaq səhiyyə sisteminin əsas göstəricisi həkimlərin peşəkarlığıdır. Hesab edirəm ki, bu istiqamətdə – həm təhsillə, həm həkimlərin təkmilləşdirilməsi ilə bağlı hələ görüləsi işlər çoxdur. Ümid edirəm ki, bizim bütün həkimlərimiz dünyada bu gün səhiyyə sahəsində gedən yenilikləri izləyəcəklər. Azərbaycanda ən mütərəqqi metodlar tətbiq ediləcəkdir. Bax, peşəkarlıq da bu şəraitə uyğun olmalıdır. Belə olan halda hesab edirəm ki, Azərbaycanda səhiyyə sahəsində arzu etdiyimiz nəticə əldə olunacaqdır.

Ancaq o da həqiqətdir ki, buradakı avadanlıqdan səmərəli şəkildə istifadə etdikdə, nəticələr də gözəl olacaq. Çünki diaqnostika vaxtında aparılmalıdır. Burada diaqnostika üçün bütün

imkanlar vardır. Müalicə düzgün aparılmalıdır. Düzgün diaqnoz qoyulmalıdır. Elə etməliyik ki, Azərbaycanda səhiyyə sahəsində daim inkişaf olsun.

Bir daha qeyd etmək istəyirəm ki, 2014-cü ildə səhiyyə sahəsi, ümumiyyətlə, sosial sahə prioritet olaraq qalacaqdır. Biz 2014-cü ilin birinci həftəsində görüşürük. Deyə bilərəm ki, artıq 2014-cü ildə ölkəmiz üçün əhəmiyyətli olan 2 obyektin açılışı olmuşdur. Ayın 3-də biz Qəbələdə müasir «Tufan» dağ-xizək mərkəzinin açılışını qeyd etdik. Bu gün isə burada Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edirik. Nəzərə alsaq ki, bu gün 2014-cü ilin birinci iş günüdür, əminliklə demək olar ki, 2014-cü ildə belə açılışlar çox olacaqdır. Əminəm ki, 2014-cü il də ölkəmiz, xalqımız üçün uğurlu il olacaq. Biz qarşımıza qoyduğumuz bütün vəzifələrə çatacağıq. Sizi keçən bayramlar münasibətilə bir daha təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzu edirəm.

## NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2014-cü İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK *

*9 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 9-da Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü toplantısında biz 2013-cü ilin yekunlarını müzakirə edəcək, 2014-cü ildə qarşıda duran vəzifələr haqqında danışacağıq.

Deyə bilərəm ki, keçən il bütövlükdə ölkəmiz üçün uğurlu il olmuşdur. Azərbaycanda böyük işlər görülmüşdür. Bu işlərin hamısını sadalamaq üçün bir neçə saat vaxt lazım olacaqdır. Biz bu gün əsas məsələlər ətrafında fikir mübadiləsi aparacağıq. Ancaq bir daha demək istəyirəm ki, 2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Azərbaycanda böyük layihələr icra edilib. Ölkəmizin beynəlxalq nüfuzu artmış,

* Назирляр Кабинетинин 2013-ъц илин сосиал-игтисади инкишафынын йекунларына вя 2014-ъц илдя гаршыда дуран вязифяляря щяср олунмуш иъласынda Малиййя назири Самир Шярифов, Rabitə və İнформасийа Технолоэийалары назири Яли Аббасов və Сящиййя назири Огтай Ширялийев çıxış etdilər.

aparılan islahatlar daha da dərinləşmiş, bir sözlə, ölkəmizin uğurlu inkişafını təmin edə bilmişik.

Azərbaycanın beynəlxalq nüfuzu artıb. Beynəlxalq əlaqələrimizin inkişafı üçün gözəl imkanlar var. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. 2013-cü ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı fəaliyyəti başa çatdı. 2 il ərzində Azərbaycan öz mövqeyini ortaya qoydu. Mən bəyan etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında biz beynəlxalq hüququ və ədaləti müdafiə etmişik, hər bir məsələ ilə bağlı konkret mövqe sərgiləmişik, prinsipial mövqe tutmuşuq. Deyə bilərəm ki, bu 2 il ərzində beynəlxalq birlik tərəfindən Azərbaycana olan inam və dəstək daha da artıb. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasına seçiləndə 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdi, hal-hazırda hesab edirəm ki, bu dəstək daha da böyükdür.

Bu onu göstərir ki, beynəlxalq aləm dövlətimizin mövqeyini müdafiə edir, dəstəkləyir, addımlarımızı təqdir edir. Çünki Azərbaycan bütün beynəlxalq təşkilatlarda özünü ləyaqətlə aparır, prinsipial mövqeyini və öz milli maraqlarını hər şeydən üstün tutur. Şübhəsiz ki, beynəlxalq birlik bu amilləri nəzərə alaraq Azərbaycana dəstəyini daha da artıracaqdır.

2013-cü ilin əvvəlində Avropa Şurası Parlament Assambleyasında da əlamətdar hadisə baş vermişdir. Yanvar ayında sessiyada Azərbaycana qarşı əsassız, qərəzli, ikili standartlar əsasında təşkil edilmiş hücum fiaskoya uğradı. Assambleyada böyük əksəriyyət antiazərbaycan kampaniyasına qoşulmamış, bu kampaniyanın təşəbbüskarlarını, o cümlədən pərdəarxası təşəbbüskarlarını məyus etmiş və Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. Siyasi amillərlə şərtlənən qətnamənin layihəsi keçmədi, Azərbaycanın mövqeyi üstünlük təşkil etdi. Beləliklə, Azərbaycan beynəlxalq arenada növbəti qələbə qazandı.

Bu hadisə bir də onu göstərmişdir ki, haqq-ədalət həmişə zəfər çalmalıdır. Azərbaycan öz prinsipial, ədalətli mövqeyini nümayiş etdirdi və Assambleyanın qərarı antiazərbaycan

qüvvələrinə vurulan ən böyük zərbələrdən biridir. Hesab edirəm ki, bundan sonra onlar və onların arxasında dayanan antiazərbaycan qruplaşmalar özləri üçün nəticə çıxaracaqlar.

2013-cü ildə Azərbaycanda bir sıra beynəlxalq tədbir keçirilmişdir. Mən onlardan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə konfransı qeyd etmək istəyirəm. Azərbaycan bu konfransın keçirilməsində təşəbbüskar kimi çıxış etmişdir. Hesab edirəm ki, bu bizim mövqemizi əks etdirir. Fələstinli qardaşlarımıza olan dəstəyi biz bir daha nümayiş etdirdik. Bakıda İslam Əməkdaşlıq Təşkilatının, üzv ölkələrin nazirlərinin iştirakı ilə böyük donor konfransı keçirilmişdir və Azərbaycan öz tərəfindən Fələstinə maddi yardım da etmişdi.

Keçən il Avropa İttifaqı ilə vizaların sadələşdirilməsi istiqamətində önəmli saziş imzalandı. Bu bizim Avropa İttifaqı ilə olan münasibətlərimizin təzahürüdür. Bu münasibətlər gələcəkdə də inkişaf edəcəkdir. Hazırda – təbii ki, 2014-cü ildə Avropa İttifaqı–Azərbaycan strateji əlaqələrinin gələcək formatı müəyyən edilməlidir.

Mən dəfələrlə bəyan etmişəm ki, biz Avropa İttifaqı ilə və üzv olmadığımız bütün başqa təşkilatlarla səmərəli işgüzar münasibətlər qurmaq istəyirik. Biz buna nail ola bilmişik. Üzv olmadığımız bütün təşkilatlarla münasibətlərimizin prinsipləri açıqdır, aydındır və beynəlxalq prinsiplərdən kənarda deyildir, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, qarşılıqlı dəstək, anlaşma və hərtərəfli əməkdaşlıq prinsipləridir. Əminəm ki, biz növbəti illərdə Avropa İttifaqı ilə daha da səmərəli formatın yaradılmasına nail olacağıq.

Bakıda III Beynəlxalq Humanitar Forum keçirildi. Bu, artıq gözəl ənənədir və dünya ictimaiyyətinin diqqətini çəkir. Tanınmış siyasətçilər, elm xadimləri, 10-dan çox Nobel mükafatı laureatı bu tədbirdə iştirak etmişlər. Artıq Azərbaycan dünya gündəliyində dözümlülük, tolerantlıq, humanitar əməkdaşlıq məsələləri ətrafında öz böyük rolunu ortaya qoymuşdur. Bakı və Azərbaycan artıq dünyanın multikulturalizm, tolerantlıq,

dözümlülük mərkəzlərindən birinə çevrilibdir. Artıq beynəlxalq ictimaiyyət də bunu qəbul edir, dəstəkləyir.

II Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Təxminən bu forumun da gündəliyi oxşardır. Yəni bir sözlə, Azərbaycanda keçirilən çoxsaylı tədbirlər, o cümlədən dünyanın bir nömrəli iqtisadi qurumu olan Dünya İqtisadi Forumunun – Davos Forumunun toplantısının Bakıda keçirilməsi ölkəmizin önəmini artırdı, beynəlxalq imicini möhkəmləndirdi və Azərbaycanı dinamik, müasir dövlət kimi, bir daha dünya ictimaiyyətinə təqdim etdi. Mən bu gün cəmi 1 il ərzində keçirilən əsas beynəlxalq tədbirləri sadaladım. Görün nə qədər böyük işlər görülmüşdür və Azərbaycanın mövqeyi nə qədər möhkəmləndirilmişdir.

Bizim başqa ölkələrlə ikitərəfli formatda münasibətlərimiz də inkişaf edib. Mənim çoxsaylı xarici səfərlərim, xarici qonaqların Azərbaycana səfərləri bu əlaqələri daha da möhkəmləndirib. Əminəm ki, bu il də bu meyil davam etdiriləcəkdir.

Xarici siyasətimizin əsas məsələsi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində, əfsuslar ki, heç bir irəliləyiş olmayıb. Ermənistan tərəfi il ərzində danışıqlar prosesini yenə də müxtəlif bəhanələrlə uzatmaq taktikasını seçib. Demək olar ki, il ərzində danışıqlar prosesində heç bir irəliləyiş olmayıb, durğunluq hökm sürübdür. Sadəcə olaraq, ilin sonunda müəyyən canlanma müşahidə edildi. Əgər Ermənistan məsələnin həlli ilə bağlı konstruktiv mövqe nümayiş etdirərsə, qısa müddət ərzində razılaşmaya gəlmək mümkün olacaqdır. Müəyyən ümidlər, müəyyən nikbin məqamlar vardır, ancaq 2014-cü ildə biz bunları araşdıracağıq. Hər halda, 2014-cü ildə Ermənistanın həqiqi niyyəti tam bəlli olacaqdır. Sözün düzü, keçən dövr nikbinliyə o qədər də əsas vermir. Çünki Ermənistan bütün danışıqlar prosesi zamanı qeyri-konstruktiv mövqe sərgiləmişdir, vaxtı uzatmaq taktikasını seçmiş və beləliklə, danışıqlar prosesini iflic vəziyyətə salmışdır.

Əgər Ermənistanda realist yanaşmalar üstünlük təşkil edərsə, hesab edirəm ki, qısa müddət ərzində münaqişə ilə bağlı irəliləyiş

ola bilər. Realist yanaşma isə gerçəyə, real güclər nisbətinə söykənməlidir. Azərbaycanın artan gücü də burada öz rolunu oynayır və oynayacaqdır. Bu gün Ermənistan ilə Azərbaycan arasında müqayisə apardıqda bizim üstünlüyümüz hər bir sahədə açıq-aydın özünü büruzə verir. Bizim dövlət büdcəmiz Ermənistanın dövlət büdcəsindən 10 dəfə böyükdür. Ümumi daxili məhsul 8 dəfə, əhali 6 dəfə çoxdur. Bizim bütün potensialımız güclənir, böyüyür, artır, Ermənistanda isə həm çox ağır iqtisadi, həm də demoqrafik vəziyyət yaşanır. Deyə bilərəm ki, demoqrafik fəlakət yaşanır və bunu Ermənistanın rəsmi orqanları da təsdiq edir. Ona görə əgər Ermənistan rəhbərliyi məsələyə ciddi yanaşarsa və Ermənistan dövlətinin maraqlarını üstün tutarsa, açıq-aydın anlayar ki, Azərbaycan ilə bundan sonra rəqabət aparmaq üçün onlarda nə imkanlar var, nə də ki, potensial.

Hesab etmirəm ki, hansısa bir ölkə üçün ancaq xarici yardıma arxalanmaq böyük şərəf gətirir. Hər bir ölkə hər halda çalışmalıdır ki, öz müstəqilliyini qorusun, öz seçimini müdafiə etsin, öz dövlətinin gələcəyi haqqında düşünsün. Hər halda, güclər nisbəti çox ciddi şəkildə Azərbaycanın xeyrinə dəyişildi. Mən bu barədə hələ 5-6 il bundan əvvəl demişəm, öz fikirlərimi bildirmişəm. Artıq biz buna nail ola bilmişik və bundan sonrakı dövrdə şübhəsiz, Azərbaycan dövləti üstünlüyünü daha da möhkəmləndirəcəkdir.

Ümid edirik ki, danışıqlar prosesində müsbət dəyişikliklər olacaqdır. Beynəlxalq vasitəçilər çalışırlar ki, burada irəliləyiş olsun. Ancaq mən bunu qeyd etməliyəm, onların fəaliyyətinin hələ ki, heç bir nəticəsi olmayıb. Bu da reallıqdır. Biz vasitəçilər tərəfindən, onların dövlət başçıları tərəfindən müsbət bəyanatları eşidirik. Onların içində xüsusilə qeyd etməliyəm ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının birgə bəyanatlarında status-kvonun qəbuledilməzliyi haqqında sözlər deyilmişdir. Bu çox müsbət haldır. Onlar daim təkrarlayırlar ki, danışıqlara alternativ yoxdur. Bilirsiniz, müasir dünyada hər bir sahədə kifayət qədər alternativ vardır. Sadəcə olaraq, biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll edilsin. Azərbaycan öz konstruktiv

mövqeyini ortaya qoyur və ümid edirəm ki, danışıqlarla bağlı prosesdə vasitəçilər daha da fəal rol oynayacaqlar. Sadəcə olaraq, Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməlidir, işğal edilmiş torpaqlardan çıxmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Razılaşmanın prinsipləri bundan ibarətdir.

Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Mən buna şübhə etmirəm və buna nail olmaq üçün biz hələ ki, danışıqları davam etdirəcəyik, ancaq öz gücümüzü də artıracağıq.

O cümlədən hərbi gücümüz də artır. 2013-cü ildə ordu quruculuğu ilə bağlı önəmli addımlar atılıb. Biz çox ciddi islahatlara başladıq. Bu islahatlar öz nəticəsini verməkdədir, döyüş qabiliyyətimiz artır, 2014-cü ildə xeyli dərəcədə artacaq. Qeyd etməliyəm ki, bizim hərbi potensialımız, orduda aparılan islahatlar, yeni prinsiplər, döyüş taktikası ilə bağlı yeni yanaşmalar tamamilə yeni bir situasiyanın yaranmasına gətirib çıxarır. Nəzərə alsaq ki, son illərdə Azərbaycan böyük həcmdə silah-sursat, texnika almışdır – ən müasir texnikadır – bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artacaq, artır və bu, danışıqlar prosesinə ancaq müsbət təsir göstərəcəkdir.

Bəzi hallarda bu məsələ ilə əlaqəsi olmayan qurumlar, yaxud da, Ermənistanın dəyirmanına su tökən siyasətçilər bizi tənqid etməyə çalışırlar ki, nə üçün Azərbaycan hərbi büdcəsini artırır. O ölkələrin nümayəndələri bunu deyir ki, onların hərbi büdcəsi göylərə qalxıb. Bizim təbii hüququmuzdur, biz öz hərbi potensialımızı artırırıq, artıracağıq. Dağlıq Qarabağ məsələsinin ədalətli, beynəlxalq normalara uyğun şəkildə həll edilməsi üçün bizim hərbi gücümüz həlledici rol oynayacaq. Biz bu gün güclü ordu yaradırıq. Bizim ordumuz dünyanın ən güclü orduları sırasındadır. Əlbəttə, ordu quruculuğu işi davam etdiriləcəkdir.

Erməni işğalından əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il həll olunmuşdur, 20 min köçkün yeni evlərə,

mənzillərə köçürülmüşdür. Bu il də ən azı 20 min köçkünün yeni evlərə köçürülməsi nəzərdə tutulur. Faktiki olaraq, biz il ərzində bir şəhər yaradırıq və bu siyasəti davam etdirəcəyik. Çünki hələ ki, məktəblərdə, uşaq bağçalarında, hərbi hissələrin ərazilərində, yataqxanalarda ağır vəziyyətdə yaşayan köçkünlər kifayət qədərdir. Artıq bu proses də başlanmışdır və davam etdiriləcəkdir.

Əlbəttə ki, ölkəmizin əsas inkişaf dinamikasını iqtisadi gücümüz müəyyən edir və iqtisadi islahatların dərinləşməsində Azərbaycan böyük uğurlara imza atıb. Əgər biz güclü iqtisadiyyat yaratmasaydıq, əminəm ki, nə beynəlxalq aləmdə, nə də regionda bu uğurlara nail ola bilməzdik. 2013-cü ildə iqtisadiyyatımız inkişafını davam etdirmişdir. Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Bu çox böyük göstəricidir. Nəzərə alsaq ki, bu gün dünyanın əksər ölkələrində ümumi daxili məhsul 0,5 faiz, 1 faiz, 1,5 faiz artır, təxminən 6 faiz səviyyəsində artan ümumi daxili məhsul böyük nəticədir. Ən sevindirici məsələ ondan ibarətdir ki, qeyri-neft sektorumuz 9,8 faiz artmışdır. Yəni təxminən 10 faiz və bu da son illərdə aparılan islahatların nəticəsidir. Aparılan islahatlar bunu təmin edib. Qeyri-neft sektorunun gələcək illərdə də inkişafını təmin etmək üçün indi ciddi proqramlar icra edilir və növbəti illərdə də icra ediləcək. Əminəm ki, biz bu dinamikanı saxlayacağıq. Əhalinin pul gəlirləri 8 faiz artmışdır. İnflyasiya isə cəmi 2,4 faizdir. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələyir. Bu onu deməyə əsas verir ki, vətəndaşların rifah halı yaxşılaşır və müsbət dinamika burada da özünü göstərir.

İl ərzində ölkə iqtisadiyyatına 28 milyard dollar investisiya qoyulmuşdur. Bu, rekord göstəricidir. Heç vaxt il ərzində bu qədər investisiya qoyulmamışdır. Son bir neçə il ərzində orta hesabla 20–21–22 milyard dollar investisiya qoyulurdu, artıq 28 milyard dollar investisiya qoyulur. Onun 17,5 milyard dolları daxili sərmayədir. Bu da artıq neçə ildir ki, davam edən tendensiyadır. Daxili sərmayə xarici sərmayəni üstələyir. Bu, hesab edirəm ki, müsbət haldır. Əlbəttə ki, daxili sərmayənin

içində əsas sərmayə dövlət sərmayəsidir. Ancaq özəl sektor da Azərbaycan iqtisadiyyatına böyük yatırımlar edir.

Bizim valyuta ehtiyatlarımız da rekord həddə çatıbdır. Mən dəfələrlə demişəm, yenə də qeyd etmək istəyirəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artmalıdır və artır. Son illər ərzində elə bir il olmamışdır ki, valyuta ehtiyatlarımız aşağı düşsün. Baxmayaraq ki, çoxlu investisiya layihələri icra edilir, keçən il də artmışdı. Hazırda Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatıb. Bu da ümumi daxili məhsulun 70 faizini təşkil edir. Dünya miqyasında bu göstəriciyə görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Bunu biz yaratmışıq, bunu bizim siyasət, bizim iqtidar yaradıbdır. Bu, Azərbaycanın böyük üstünlüyüdür, bizə əminlik, inam və imkan verir ki, bundan sonra da ölkəmizin inkişafı ilə bağlı böyük layihələri icra edək.

Keçən il işsizliklə bağlı olan problemlər öz həllini tapmışdır. 110 min yeni iş yeri açılmışdır ki, onlardan 80 mini daimi iş yeridir. İşsizliyin səviyyəsi 5 faizə düşmüşdür. Yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür – 5,3 faizdir. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. Bu da dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür.

Budur bizim əsas iqtisadi göstəricilərimiz. Şübhə etmirəm ki, biz iqtisadi inkişafı gələcək illərdə də təmin edəcəyik. Bu barədə biz bir qədər sonra danışacağıq ki, 2014-cü il də ölkəmiz üçün uğurlu olsun.

Keçən il sosial məsələlərin həlli işində önəmli addımlar atılmışdır. İlk növbədə, sovet vaxtından qalan əmanətlərin qaytarılması, daha doğrusu, kompensasiya şəklində əhaliyə verilməsi prosesi başa çatmışdır. Deyə bilərəm ki, MDB məkanında bu əmanətlərin kompensasiya şəklində verilməsində Azərbaycan təcrübəsi birinci yerdədir. Biz bunu ən qısa müddətdə – 2 il ərzində təmin etmişik. Biz bu vəsaiti əhaliyə ən böyük əmsalla çatdırmışıq. Baxmayaraq ki, müstəqil Azərbaycan dövləti bu məsələ ilə bağlı heç bir məsuliyyət

daşımırdı – nə hüquqi, nə mənəvi məsuliyyət. Ancaq siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayandığı üçün biz bunu etdik. Böyük vəsait ayırdıq və qısa müddət ərzində bu məsələni həll edə bildik.

Keçən il maaşlar və pensiyalar qaldırılmışdır. Bu da müsbət haldır. Biz yaxşı bilirik ki, bəzi ölkələrdə pensiyalar, maaşlar kəsilir, iş yerləri, xərclər ixtisar edilir. Azərbaycanda heç bir sosial proqrama toxunulmadı, əksinə, biz insanların rifah halının yaxşılaşması üçün əlavə tədbirlər gördük. Həm sosialyönümlü, həm investisiyayönümlü. Əlbəttə, bu özünü real həyatda da göstərir.

2013-cü ildə qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır və statistik göstəricilər də bunu təsdiqləyir. Mən onların içində kosmik sənayenin yaranmasını qeyd etmək istəyirəm. 2013-cü il Azərbaycanda kosmik sənayenin yaranması ili kimi tarixdə qalacaqdır. Təsadüfi deyil ki, biz ilin əvvəlində 2013-cü ili «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan etdik. Birinci Azərbaycan peyki «Azərspace-1» fəzaya qaldırılmışdır. Bu, xalqımızın, dövlətimizin böyük tarixi nailiyyətidir. Biz kosmik kluba üzv olmuşuq.

Turizmin inkişafı ilə bağlı böyük addımlar atılmışdır. Xüsusilə bölgələrdə bir neçə beşulduzlu hotel istifadəyə verilib. Yeni turizm mərkəzləri açılır. Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Əminəm ki, Azərbaycan vətəndaşları getdikcə daha çox ölkə daxilində istirahətə üstünlük verəcəklər. Çünki Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Bunu bizim vətəndaşlar da, xaricdən gələn turistlər də qeyd edirlər. Yəni qeyri-neft sektorunun inkişafı ilə bağlı bu istiqamət də çox önəmlidir.

Əlbəttə, kənd təsərrüfatının inkişafı qeyri-neft sektorunun deyə bilərəm ki, əsas istiqamətlərindən biridir. Keçən il kənd təsərrüfatı təxminən 5 faiz artmışdır. Ancaq potensial daha da böyükdür. Mən hesab edirəm ki, 2014-cü ildə və ondan sonrakı

illərdə kənd təsərrüfatının inkişafı ilə bağlı daha da böyük işlər görüləcəkdir. Böyük proqramlarımız, planlarımız vardır. Həm struktur xarakterli islahatlar, həm də idarəçilikdə təkmilləşmə getməlidir. İndi subsidiyalarla bağlı yeni təkliflər müzakirə edilir. Əlbəttə ki, dövlət investisiyaları, infrastruktur layihələri, xüsusilə suvarma ilə bağlı olan layihələr hesab edirəm ki, kənd təsərrüfatının inkişafına yeni təkan verəcəkdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ən böyük vəsait fermerlərə verilir. Bu il də bu, davam etdiriləcəkdir. Yəni qeyri-neft sektorunun inkişafı bu il də bizim iqtisadi sahədə prioritet olaraq qalır.

Əlbəttə, neft sektorunu da, nəqliyyat sektorunu da unutmamalıyıq. Nəqliyyat sektorunda da böyük işlər görülmüşdür. 500 kilometr yol çəkilmişdir. Həm magistral yollar, həm də 400 yaşayış məntəqəsini birləşdirən kənd yolları çəkilmişdir. Həm dövlət büdcəsinin, həm də Prezidentin ehtiyat fondunun hesabına. Bu sahəyə də böyük önəm verilir. Qlobal nəqliyyat layihələri icra edilir. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi gedir. Bu il də bu işin böyük hissəsi görüləcək. Ümid edirəm ki, biz yaxın vaxtlarda artıq yolun açılışını qeyd edə bilərik. Gəmiqayırma zavodunun açılışı – bu da həm sənaye, həm qeyri-neft, həm də nəqliyyat sektorunun güclənməsinə xidmət göstərəcək. Ələt Dəniz Ticarət Limanı tikilir. Bu il biz onun birinci mərhələsinin açılışını gəzləyirik. Dəmir yolunun, hava nəqliyyatının yenilənməsi prosesi gedir. Yəni bütün nəqliyyat sektoru inkişaf edir.

Əlbəttə ki, neft-qaz sektorunda da 2013-cü il tarixdə qalacaqdır. 2013-cü ildə Azərbaycanın neft-qaz potensialının inkişafı və möhkəmləndirilməsi üçün tarixi sazişlər bağlanmışdır. 2012-ci ildə TANAP layihəsi ilə bağlı sazişin imzalanması buna gətirib çıxardı ki, 2013-cü ilin iyun ayında Trans–Adriatik boru xətti əsas marşrut kimi seçilib. Ondan sonra müvafiq kontraktlar bağlanıb. Artıq Azərbaycan qazının 2018-ci ildən sonra Avropada satılması ilə bağlı bütün kontraktlar bağlanmışdır. Bu da çox önəmli bir hadisə idi. Nəhayət, ilin sonunda – dekabrın 17-də Bakıda «Şahdəniz-2» İnvestisiya

Sazişi bağlanmışdır. Bu, tarixi nailiyyətdir, tarixi qələbəmizdir. Bu layihə XXI əsrin layihəsidir.

Bu layihə Azərbaycana böyük dividentlər gətirəcək – həm iqtisadi, həm siyasi. Ölkəmizin nüfuzu, bizim iqtisadi gücümüz artacaqdır. Ölkəmizə böyük həcmdə investisiyalar gətiriləcəkdir. «Şahdəniz-2», TANAP, TAP – yəni bu məsələ ilə bağlı olan layihələrin icrası ancaq ilkin hesablamalara görə, 45 milyard dollar investisiyanın cəlb edilməsinə xidmət göstərəcəkdir. Nəzərə alsaq ki, artıq Azərbaycanda tikinti sektorunda, infrastruktur layihələrinin icrasında, neft-qaz əməliyyatlarının aparılmasında böyük təcrübə toplamış həm dövlət, həm özəl qurumlar, şirkətlər vardır, əlbəttə, bu şirkətlərə böyük sifarişlər veriləcəkdir. Beləliklə, bizim biznesimizdə qeyri-neft sektorumuz yeni imkanlara çatacaqdır. Əlbəttə, biz çalışacağıq və bunu artıq demişik ki, harada mümkündür, harada bizdə standartlara uyğun işlər görülür, bütün kontraktlar Azərbaycan şirkətlərinə verilsin və onlara şərait yaradılsın. Bu layihə Azərbaycanı dünyaya qaz ixrac edən əvəzolunmaz bir ölkə kimi təqdim edir.

Yaxşı bilirsiniz ki, bu layihə beynəlxalq birliyin də böyük dəstəyini qazanıb. Azərbaycanda aparıcı ölkələrin, yüksək vəzifəli şəxslərin iştirakı ilə təntənəli mərasim keçirildi. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarı kimi, burada da öz həlledici rolunu oynadı. Mən tam əminliklə deyə bilərəm ki, əgər Azərbaycan bu tarixi məsuliyyəti öz üzərinə götürməsəydi və həlledici anlarda cəsarət, uzaqgörənlik, prinsipial mövqe göstərməsəydi, bu layihə icra edilməzdi. Biz «Cənub Qaz Dəhlizi» ilə bağlı artıq 10 ilə yaxındır ki, müxtəlif tədbirlərdə iştirak edirik. Mən şəxsən bəlkə 10-a yaxın beynəlxalq konfransda, tədbirdə, müşavirədə iştirak etmişəm. Ancaq gördük ki, bu məsələ inkişaf etmir, yəni elə yerində sayır, tərpənmir, qabağa getmir. Ona görə biz yenə də məsuliyyəti öz üzərimizə götürdük. Biz anlayırdıq ki, bu layihənin lideri olmalıdır və liderlik funksiyasını öz üzərimizə götürdük. Bu, böyük məsuliyyətdir. Həm siyasi məsuliyyətdir, həm maliyyə məsuliyyətidir. Ancaq son illər ərzində yaratdığımız güclü iqtisadiyyat bu gün imkan verir ki, biz bu layihələrdə də,

qlobal xarakter daşıyan layihələrdə də liderlik keyfiyyətlərimizi ortaya qoyaq. Bu gün Avropanın enerji təhlükəsizliyi məsələlərinin bir hissəsi Azərbaycan tərəfindən irəli sürülmüş layihələr hesabına təmin ediləcəkdir. Bu layihənin əhəmiyyəti o qədər böyükdür ki, gələcək illər mənim sözlərimi bir daha təsdiqləyəcəkdir.

Nəhayət, 2013-cü ildə Azərbaycanda ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə baş verdi – prezident seçkiləri keçirildi. Azərbaycan xalqı bir daha öz səsini bizim siyasətimizə, real siyasətə verdi, boşboğazlığa, boş vədlərə yox, real siyasətə, real işlərə öz səsini verdi. Doğma xalqıma bir daha minnətdarlığımı bildirmək istəyirəm ki, 10 illik fəaliyyətimi yüksək qiymətləndirərək, mənə yenidən böyük etimad göstərmişdir. Bildiyiniz kimi, seçkiləri müşahidə edən bütün mötəbər təşkilatlar seçkilərə çox müsbət qiymət vermişlər. Avropa Şurası, Avropa İttifaqı, ATƏT-in Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər mötəbər təşkilatlar, yəni qlobal təşkilatlar seçkilərin keçirilməsini birmənalı olaraq yüksək qiymətləndirmişlər və öz bəyanatlarında seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi haqqında rəsmi rəy ortaya qoymuşlar. Ancaq bir daha demək istəyirəm ki, əsas rəyi Azərbaycan xalqı vermişdir. Səsvermə günü və səsvermədən sonrakı dövrdə cəmiyyətdə hökm sürən vəziyyət bir daha seçkilərin nə qədər şəffaf, ədalətli keçirilməsini təsdiqləyir. Əlbəttə ki, bu böyük etimad bizim hamımızı yeni işlərin görülməsinə sövq edir, sövq etməlidir. Biz bundan sonra da fəal işləməliyik, ölkəmizi gücləndirməliyik, Azərbaycan xalqının rifah halını təmin etməliyik.

## YEKUN NİTQİ

2014-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilməlidir. Hesab edirəm ki, əvvəlki illərdə qəbul edilmiş qərarlar və 2014-cü ildə görüləcək işlər imkan verəcək ki, biz cari ili də uğurla başa vuraq.

İnvestisiya proqramı kifayət qədər böyük olacaq. İnvestisiya proqramında əsas infrastruktur layihələri öz əksini tapıb. Hələ infrastruktur layihələrinin icrasına böyük ehtiyac vardır. Düzdür, son illərdə böyük işlər görülmüşdür, ancaq hələ ki, görüləsi işlər çoxdur. İstisna edilmir ki, Azərbaycana 2014-cü ildə qoyulacaq investisiyalar keçən ildə qoyulan investisiyaların səviyyəsində olacaqdır. Belə olan halda, əlbəttə, makroiqtisadi vəziyyətin sabitliyi əsas şərtdir. Azərbaycanda iqtisadi islahatların aparılmasında böyük təcrübə toplanmışdır. Hətta maaşların qaldırılması, əmanətlərin verilməsi və milyardlarla dollar həcmində qoyulan sərmayə makroiqtisadi sabitliyə mənfi təsir göstərmir. Keçən il inflyasiyanın cəmi 2,4 faiz səviyyəsində olması bunu göstərir. Bu çox müsbət göstəricidir.

Çalışmalıyıq ki, bu il də inflyasiya lazımi səviyyədə olsun. Biz həmişə deyirik ki, birrəqəmli inflyasiya olmalıdır. Ancaq 9 da birrəqəmli ədəddir. Keçən il ölkədə inflyasiyanın 2,4 faiz səviyyəsi, əlbəttə ki, bizi çox sevindirir. Çalışmalıyıq ki, təxminən bu səviyyə bu il də saxlanılsın. Belə olan halda, əlbəttə ki, insanların rifahının yaxşılaşması üçün daha da gözəl imkanlar olacaqdır. Beləliklə, investisiya proqramının icrası, xarici investisiyaların cəlb edilməsi, makroiqtisadi sabitlik, onun qorunması – bütün bu amillər ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Əminəm ki, 2014-cü ildə bizim statistik göstəricilərimiz də, ümumi daxili məhsul da, qeyri-neft sektorunun inkişafı da yüksək səviyyədə olacaqdır.

Sahibkarlara dəstək davam etdiriləcəkdir. Burada rəqəmlər səsləndi ki, keçən il sahibkarlara güzəştli şərtlərlə 275 milyon manat kredit verilmişdir. Bu həm də iqtisadiyyatımızın real

sektoruna qoyulan əlavə sərmayədir. Çünki bu kreditlərin ancaq iqtisadiyyatın real sektoruna verilməsi nəzərdə tutulur. Eyni zamanda, bu, yerli sahibkarlığın inkişafı üçün də böyük dəstəkdir. Çünki həm bu pul vəsaiti, həm də İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən tərtib edilən tövsiyə proqramları da vardır ki, sahibkarlar onlardan da səmərəli şəkildə istifadə edirlər. Ancaq gəlirli sahələrə, gəlir gətirə biləcək layihələrə vəsaitin ayrılması nəzərdə tutulur. Məhz bunun nəticəsidir ki, verilən bütün kreditlər, demək olar, vaxtında qaytarılır. Bu gün Sahibkarlığa Kömək Milli Fondunun portfelində qaytarılmış kreditlər də önəmli bir hissə təşkil edir. Bu il biz 3-cü regional inkişaf proqramını qəbul edəcəyik. Keçən il 2-ci proqram icra edilmişdir. Artıq onun icrası başa çatmışdır. Bu 2 proqramın icrası, onların qəbul edilməsi deyə bilərəm ki, bölgələrdə ciddi dönüşün yaranmasına səbəb olmuşdur. Biz bunu həm statistik göstəricilərdə, həm də həyatda əyani görürük. Bölgələr canlandı, abadlaşdı, müasir infrastruktur yaradıldı. O cümlədən sosial infrastruktur obyektlərinin tikintisi geniş vüsət aldı.

Bölgələrdə iş yerləri açılmışdır. Son 10 il ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılmışdır. Onların böyük hissəsi bölgələrin payına düşür. Bu həm bölgələrdə gedən canlanmaya müsbət təsir göstərir, şəhərlərə miqrasiya meyillərinin qabağını alır, yerli istehsalın artımına imkan yaradır, həm də idxaldan asılılığımızı azaldır. Bir sözlə, bu sahədəki fəaliyyət cari ildə də davam etdiriləcəkdir. Konkret layihələr vardır və sahibkarlara kömək dövlət tərəfindən davam etdiriləcəkdir.

Əlbəttə, qəbul ediləcək regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin fəaliyyət planı da təsdiq ediləcək. İnvestisiya proqramı bütövlükdə təsdiq edildikdə, əlbəttə ki, regional proqram da nəzərə alınıbdır.

Bu il – yəqin ki, yaxın günlərdə Bakı və onun ətraf qəsəbələrinin inkişafı ilə bağlı yeni proqram qəbul ediləcəkdir. 2013-cü ildə bu proqram başa çatmışdır və yeni proqram hazırlanır. Hesab edirəm ki, növbəti 3 illik proqramın icrası

nəticəsində Bakı qəsəbələrində mövcud olan bütün problemlər öz həllini tapmalıdır. İnfrastruktur, sosial infrastruktur, məktəblər, tibb məntəqələri, yollar, su xətləri, kanalizasiya, qaz, işıq – yəni bütün əsas məsələlərin həlli, o cümlədən iş yerlərinin yaradılması nəzərdə tutulur. Ümid edirəm ki, biz növbəti 3 il ərzində bu proqramın tam şəkildə icra edilməsinə nail ola biləcəyik.

Kənd təsərrüfatının inkişafı ilə bağlı mən giriş sözümdə fikirlərimi bildirdim. Bir daha demək istəyirəm ki, bu, növbəti illər üçün qeyri-neft sektorunun inkişafı istiqamətində prioritetlərdən biri olacaq. Ərzaq təhlükəsizliyinin təmin edilməsi proqramı da icra edilir. Son illər bu istiqamətdə böyük addımlar atılıb, idxaldan asılılığımız xeyli dərəcədə azalıb. Bu gün Azərbaycanda bütün əsas ərzaq məhsulları istehsal edilir, bəzi məhsulların istehsalı tələbatımızı tam ödəyir, bəzi sahələrdə hələ ki, idxaldan asılıyıq. Bildiyiniz kimi, mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Bu gün də demək istəyirəm ki, Azərbaycanda bütün əsas ərzaq məhsulları tam şəkildə öz tələbatımızı təmin etməlidir. Yəni bizdə istehsal olunan ərzaq məhsulları tam şəkildə tələbatımızı təmin etməlidir. Biz buna yaxınlaşırıq və çalışmalıyıq ki, növbəti 5 ildə, bəlkə də ondan da tez bir müddətdə 3-cü regional inkişaf proqramının icrası başa çatanda artıq ərzaq təhlükəsizliyi ilə bağlı olan bütün məsələlər öz həllini tapsın.

Bu məsələlər elə həll edilməlidir ki, biz perspektivi də nəzərə alaq. Çünki burada da səsləndi və biz hamımız yaxşı bilirik ki, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bu göstəriciyə görə biz Avropada birinci yerdəyik və getdikcə Azərbaycan əhalisi daha da artacaq. Əhalinin artımı birbaşa iqtisadi inkişafla bağlıdır. Əgər biz iqtisadi inkişafın dinamikasına nəzər salsaq görərik ki, bunun əhalinin artımı ilə birbaşa bağlılığı var. Ona görə ərzaq təhlükəsizliyimizlə bağlı məsələlər indiki əhaliyə hesablanmamalıdır, gələcəyə hesablanmalıdır. Əlbəttə, kənd təsərrüfatının intensiv inkişafı prioritetdir.

Meliorasiya və irriqasiya layihələri nəticəsində 10 minlərlə hektar torpaq sahəsi dövriyyəyə buraxılacaq. Artıq Taxtakörpü su

anbarı istifadəyə verilib. Şəmkirçay su anbarının tikintisi gedir. Burada ən qabaqcıl texnologiyalar tətbiq edilməli, inkişaf etmiş ölkələrin təcrübəsi dərindən öyrənilməlidir. Biz indi görürük ki, bəzi fermer təsərrüfatlarında məhsuldarlıq ənənəvi məhsuldarlıqdan ən azı 2 dəfə çoxdur. Ona görə biz mövcud torpaq fondundan səmərəli şəkildə istifadə etsək, məhsuldarlığı daha da artıra bilərik. Hesab edirəm ki, lazım olan bütün əsas ərzaq məhsullarını biz 100 faiz Azərbaycanda istehsal edə bilərik.

Gələcəkdə, əlbəttə, böyük ixrac potensialımız yaranacaq və biz əhalinin artımını da nəzərə almalıyıq. İslahatlara gəldikdə, burada struktur islahatlarının aparılmasına ehtiyac var və daha da səmərəli struktur formalaşmalıdır. Subsidiyaların verilməsi ilə bağlı məsələlər var. Mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, biz bu sahədə də tam işlək mexanizm yaradacağıq, şəffaflığı tam şəkildə təmin edəcəyik. Beləliklə, bu bizə imkan verəcək ki, bundan sonra da kənd təsərrüfatının artımına nail ola bilək. Taxılçılıq üzrə iri fermer təsərrüfatlarının yaradılması prosesi də getməlidir. Artıq birinci təcrübə var. Təcrübə müsbətdir və biz bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

Kənd təsərrüfatı texnikasının alınması və Azərbaycanda istehsalı ilə bağlı konkret fikirlər, təkliflər vardır. Biz texnika parkımızı yeniləşdiririk, yeniləşdirəcəyik. Dövlət vəsait ayırır və ayıracaqdır. Şəmkirçay su anbarının tikintisi bu il başa çatmalıdır. Bu, qərb zonasında kənd təsərrüfatının inkişafına böyük təkan verəcəkdir. Qeyd etdiyim kimi, 10 minlərlə hektar torpaq suvarılacaq. Artıq suvarılacaq torpaqların konturları müəyyən edilməlidir. Biz dəqiq bilməliyik ki, neçə min hektar torpaq sahəsi suvarılacaqdır. Ona görə torpaq fondunun uçotu aparılmalıdır. Biz bu layihəni başa çatdırmalıyıq. Bir daha demək istəyirəm ki, dünyada mövcud olan ən müasir praktika tətbiq edilməlidir. Biz öz imkanlarımızı tam dəqiqliyi ilə bilməliyik və buna görə də fəaliyyət planımızı da tutmalıyıq.

2013-cü ildə 100-dən çox kənddə subartezian quyuları qazılmışdır. Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Bu il

hesab edirəm ki, ən azı 200 kənddə subartezian quyuları qazılmalıdır. Əhalinin içməli su ilə təmin edilməsi işində bu layihənin də böyük əhəmiyyəti olacaqdır. Bu il infrastruktur layihələrinin icrası davam etdiriləcəkdir.

Elektrik enerjisi ilə bağlı əsas məsələlər öz həllini tapıb. Burada qeyd edildi ki, biz keçən il «Cənub» Elektrik Stansiyasının istifadəyə verilməsini qeyd etdik. Təxminən 800 meqavata yaxın gücü olan elektrik stansiya bütün cənub zonasının tələbatını təmin edəcəkdir. Hazırda Bakıda «Şimal-2» Elektrik Stansiyasının tikintisi davam etdirilir, yəqin ki, bu il istifadəyə veriləcək. Orada da təqribən 400 meqavata yaxın elektrik gücü yaranacaqdır. Son illər biz öz enerji potensialımızı böyük dərəcədə möhkəmləndirə bilmişik, ancaq tələbat artır. Biz iqtisadiyyatın və sənayenin inkişafını, gələcək inkişafı nəzərə alaraq bundan sonra da generasiya layihələrinə investisiya cəlb etməliyik. Yəqin ki, Bakıda yeni böyük elektrik stansiyasının tikintisi məsələsi öz həllini tapacaq. Buna ehtiyac var. Bizim enerji potensialımız bütün dövrlərdə tələbatdan artıq olmalıdır.

Ona görə gələcək illərdə generasiya işlərinə diqqət azalmamalıdır. Ancaq, əlbəttə ki, biz bu layihələri icra edəcəyik. O cümlədən bərpa olunan enerji mənbələrinin yaradılması ilə bağlı işlər daha da ciddi getməlidir. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Artıq, əlbəttə ki, müəyyən layihələr icra edilir, xüsusilə su-elektrik stansiyaları tikilir, həm də Naxçıvanda. İndi demək olar ki, Naxçıvanın elektrik enerjisinə olan tələbatının təxminən 100 faizi su- elektrik stansiyaları tərəfindən təmin edilir. Bu, Naxçıvanın enerji təhlükəsizliyinə də böyük dəstəkdir, töhfədir. Ölkəmizin digər bölgələrində – Füzulidə 25 meqavatlıq su-elektrik stansiyası tikilib. Ondan sonra Taxtakörpü su anbarında təxminən 25 meqavatlıq su-elektrik stansiyası inşa edilib. Şəmkirçayda da o həcmdə olacaqdır. Balaxanı Məişət Tullantıları zavodunda da alternativ enerji mənbələri yaranıbdır. Kiçik çaylarda stansiyalar da tikilir. Bu işlər daha da sürətlə getməlidir. Mən dəfələrlə demişəm ki, bizdə bütün su mənbələrimizin xəritəsi

vardır və bilirik ki, haradan nə qədər güc götürə bilərik. Sadəcə olaraq, investisiyalar daha da çox qoyulmalıdır.

Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Mən bu barədə öz fikirlərimi bir neçə dəfə bildirmişəm. Hətta indi Azərbaycanda günəş panelləri istehsal edən müəssisələr də vardır. Ancaq günəş enerjisinin inkişafı ilə bağlı işlər ləng gedir. 2014-cü ildə burada düzəlişlər edilməlidir, işlər daha da sürətlə getməlidir. Nəzərə alsaq ki, Azərbaycanda günəşli günlər kifayət qədər çoxdur, bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı.

Qazlaşdırma ilə bağlı olan layihələr davam etdirilir. Mənə mütəmadi qaydada məlumatlar verilir. Demək olar ki, hər ay bir neçə kənddə qazlaşdırma işləri başa çatır, Bakıda 96 faizə çatmışdır. Yaxın aylarda əminəm ki, 100 faiz olacaq. Bütövlükdə ölkə üzrə qazlaşdırmanın səviyyəsini 95 faizə çatdırmalıyıq və biz növbəti illərdə buna nail olacağıq.

Kənd yollarının tikintisi keçən il xüsusilə geniş vüsət almışdır. Həm Prezidentin ehtiyat fondundan, həm dövlət büdcəsindən böyük vəsait ayrılmışdır. Bu il də o sahəyə xüsusi diqqət göstəriləcəkdir. Bunun çox böyük mənası, faydası var. Kəndlərdə yaşayan vətəndaşlar üçün biz gözəl imkanlar yaradırıq və bu il də bu məqsədlər üçün vəsait nəzərdə tutulur. İlk növbədə, başlanan layihələr sona çatmalıdır, çünki bəzi layihələrin icrası yarımçıqdır. Yeni layihələr vardır. İndi yerlərdən təkliflər gəlir. Yerli icra orqanları və mənim bölgələrə səfərlərim zamanı vətəndaşların müraciətləri əsasında biz bu işləri görürük və əminəm ki, bu il də yaxşı nəticələr olacaqdır.

İnfrastruktur layihələrinin içində deyə bilərəm ki, hazırda ən böyük önəm daşıyanı içməli su, kanalizasiya layihələridir. Keçən il mən bir neçə şəhərdə içməli su layihələrinin açılışında iştirak etmişəm və bu il də bu proses davam etdiriləcək. Bütövlükdə respublika üzrə əhalinin 55 faizi 24 saat ərzində içməli su ilə təmin edilir. Əlbəttə, bu çox aşağı göstəricidir. O da həqiqətdir ki, içməli su, kanalizasiya məsələləri bütün dövrlərdə çox kəskin problem olmuşdur. Bölgələrimizdə

kanalizasiya xətləri, ümumiyyətlə, olmayıb. Bakının kanalizasiya xətləri köhnəlmişdir, bugünkü standartlara uyğun deyildir. Ona görə bu, böyük maliyyə və texniki resurslar tələb edən layihələrdir. Biz artıq bu layihələrə başlamışıq və işlər uğurla gedir.

Hazırda Bakıda əhalinin 78 faizi 24 saat ərzində içməli su ilə təmin edilir. Bu, böyük irəliləyişdir. Biz bu layihələrə başlayanda həmin rəqəm 50 faizdən aşağı idi. 50 faizdən az əhali 24 saat ərzində su alırdı. İndi 78 faizdir. Yaxşı irəliləyişdir. Amma Bakı kimi gözəl şəhərdə bu təminat 100 faiz olmalıdır. Bakıda və bizim bütün şəhər və qəsəbələrimizdə əhaliyə keyfiyyətli, təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun su verilməlidir.

Əlbəttə, burada əsas işləri «Azərsu» Açıq Səhmdar Cəmiyyəti icra edir. Qeyd etdiyim kimi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin xətti ilə subartezian quyularının qazılması işləri də aparılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğuların quraşdırılmasını təmin edir. Artıq yüzlərlə kənd o layihələrlə əhatə edilir. Keçən il birinci pilot layihəsi icra edilmişdir. Bu da ilk növbədə, suvarma məqsədləri üçün Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihəsidir. Artıq bu pilot layihəsi icra edilibdir. Biz bu praktikanı genişləndirməliyik. Gələcəkdə isə lazım gəldikdə Xəzər dənizinin suyundan içməli su kimi istifadə etmək üçün də imkan olacaqdır. Yəni bu layihələr deyə bilərəm ki, bu gün sosial infrastruktur layihələri arasında prioritet yerlərdən birindədir. Mən bu layihələrə ona görə infrastruktur layihələri deyirəm ki, bu layihələr sırf sosial məna daşıyır və vəsaitlər ancaq insanların sağlamlığı, rahatlığı üçün qoyulur.

Nəqliyyat sektorunda bu il yol tikintisi layihələri davam etdiriləcək. Bütün bu layihələrin siyahısı artıq təsdiq edilib. Avtomobil yollarının tikintisi davam etdirilir. Mən hesab edirəm ki, biz Bakı–Astara yolunun tikintisinə xüsusi diqqət yetirməliyik, orada işlər bir az ləng gedir. Bakı–Qazax–

Gürcüstan sərhədi, ondan sonra Bakı–Rusiya sərhədi yollarında işlər daha sürətlə gedir. Ancaq biz Bakı–Astara–İran sərhədi yolunun tikintisində lazımi tempi əldə edə bilməmişik. Ona görə bu il bu layihəyə üstünlük daha çox verilməlidir.

Qeyd etdiyim kimi, Ələt Dəniz Ticarət Limanının birinci mərhələsi bu il icra edilməlidir. Hesab edirəm ki, bu il biz şəhərin mərkəzində yerləşən Bakı Ticarət Limanının köçürülməsinə nail ola bilərik. Beləliklə, şəhər sakinləri üçün yeni gözəl ictimai zonalar yaranacaqdır. O ərazilərdə ictimai yerlər, parklar, bağçalar, gəzinti yerləri salınacaqdır. Bulvar uzadılacaq, Dəniz vağzalından sonra «Ağ şəhər» istiqamətində tikilən bulvarla birləşəcək və beləliklə, gəzinti üçün bir neçə kilometri əhatə edən gözəl bulvar yaranacaqdır.

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi qrafik üzrə gedir. Hesab edirəm ki, vaxtında icra ediləcəkdir. Biz bu yolun əhəmiyyəti haqqında dəfələrlə danışmışıq. Əlavə etməyə ehtiyac görmürəm. Sadəcə olaraq burada da, əlbəttə ki, 3 ölkənin əməkdaşlığı bir daha özünü göstərir. Azərbaycan, Gürcüstan, Türkiyə həm enerji, həm də nəqliyyat sahələrində artıq uzun illərdir ki, uğurlu əməkdaşlıq edirlər. Hesab edirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi də bu əməkdaşlığın gözəl nəticəsi olacaqdır.

Bakı şəhərində metro tikintisi davam edir, bir neçə stansiya tikilir. Metro ilə bağlı biz əvvəlki dövrdə böyük proqram qəbul etmişik. 50-yə yaxın yeni stansiya tikiləcək. İnvestisiya proqramında bu məsələlər öz həllini tapacaq.

Sənaye istehsalının artırılması ilə bağlı texnoparkların fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə artıq ilkin nəticələr var. Sumqayıt Texnoparkı fəaliyyət göstərir. Yeni Kimya Texnologiya Parkı artıq fəaliyyətə başlayır. Digər şəhərlərdə, Mingəçevirdə texnoparkın yaradılması nəzərdə tutulur. Balaxanı Texnoparkının yaradılması prosesi gedir. Bu istiqamətdə bu il daha da ciddi addımlar atılmalıdır. Ümumiyyətlə, mən dəfələrlə demişəm ki, bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir.

Ümumi daxili məhsulumuzun artımı da sənaye istehsalının hesabına mümkün olacaqdır.

2014-cü ildə metallurgiya sənayesinin inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır. Bu çox perspektivli bir sahədir. Xüsusilə nəzərə alsaq ki, metallurgiya sənayesinin inkişafı üçün bizdə kifayət qədər yerli xammal, təbii resurslar vardır. Müasir metallurgiya kombinatının tikintisi, əlbəttə ki, çox böyük bir nailiyyət olacaqdır. Hesab edirəm ki, bu il bu sahəyə xüsusi diqqət göstərilməlidir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması işləri hər il diqqət mərkəzindədir. Kompleks tədbirlər görülür. Daha da ciddi tədbirlər görülməlidir. Xüsusilə havanı çirkləndirən amillər bir daha təftiş edilməlidir. Əlbəttə ki, «Avro-3» standartına keçid sürətləndirilməlidir. «Avro-3» də son hədd deyildir. «Avro-4», «Avro-5» ilə bağlı işlər daha da sürətlə getməlidir. Əlbəttə ki, bu işlərdə Azərbaycanda fəaliyyət göstərən neftayırma zavodlarının da böyük rolu vardır. Orada da yenidənqurma aparılmalıdır. Bakıda yeni Neftayırma zavodunun tikintisi nəzərdə tutulur. Ancaq o tikilənə qədər mövcud zavodlarda ekoloji tədbirlər görülməlidir. Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılmalıdır.

Mənə verilən məlumata görə, əsas amil minik maşınlarıdır. Keçən il Azərbaycana 100 mindən çox avtomobil idxal edilib. Bu, vətəndaşların rifah halının yaxşılaşmasını təsdiqləyən bir faktdır, ancaq bizim yol infrastrukturumuza nə qədər böyük yükdür. Biz yollar çəkirik, qovşaqlar, tunellər tikirik. Bəlkə də Bakıda, Azərbaycanda olan bu layihələr heç bir başqa ölkədə yoxdur. Nə qədər yollar, tunellər tikilib və tikilir. Nə qədər vəsait ayrılır. Ancaq 100 min maşının – onların da böyük hissəsinin Bakıya gəlməsi tıxac problemlərini yaradır, ekoloji vəziyyəti pisləşdirir. Vaxtilə biz ekoloji standartlara, yaxud da ki, texniki şərtlərə uyğun olmayan maşınların idxalını dayandırmışıq. Hesab edirəm ki, bu il Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar və Nazirlər Kabineti bütövlükdə bu məsələyə bir də baxmalıdır. Ekologiyanı çirkləndirən maşınlar Azərbaycana buraxılmamalıdır. Sıradan

çıxmış maşınlar, ümumiyyətlə, gətirilməməlidir və mənə konkret təkliflər verilməlidir ki, biz bu məsələni birdəfəlik həll edək.

Havanı çirkləndirən müəssisələrdə ciddi yoxlamalar aparılmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar belə müəssisələrin siyahısını mənə təqdim etsinlər və orada ciddi tədbirlər görülməlidir. Ya o müəssisələri işlədənlər – istər dövlət, istər özəl qurumlar – lazım olan təmizləyici qurğuları quraşdıracaqlar, ya da ki, o müəssisələr bağlanmalıdır. Birmənalı şəkildə. Havanı çirklədən, insanları zəhərləyən müəssisələr lazım deyildir. Deyə bilərəm ki, cərimələr burada işləmir. Çünki cərimələrin tutulması prosesi çox mürəkkəbdir. Cərimələrin məbləği də o qədər böyük deyil ki, bu cərimələrə görə kimsə öz fəaliyyətini dayandırsın. Ona görə ya təmizləyici qurğular quraşdırılmalıdır, ya da müəssisə bağlanmalıdır. Heç bir tərəddüdsüz. Hesab edirəm ki, bu, ekoloji vəziyyətin yaxşılaşmasına böyük təsir göstərəcək. Biz milyonlarla ağac əkirik, ictimai zonalar yaradırıq, içməli su-kanalizasiya xətləri çəkirik. Ancaq havanı çirkləndirən müəssisələr işlərimizin üstündən elə bil ki, xətt çəkir. Ona görə bu çox ciddi, hər bir Azərbaycan vətəndaşının sağlamlığı məsələsidir. Sağlamlıq isə birinci yerdədir. Digər ekoloji tədbirlər də görüləcək. Böyükşor gölünün təmizlənməsi layihəsi bu il başlanacaq və gələn il onun birinci mərhələsi başa çatmalıdır. Artıq İqtisadiyyat və Sənaye Nazirliyi mənə bu barədə məlumat veribdir. İşlər bu il başlayacaq və Böyükşor gölünün üçdəbir hissəsi bəndlə ayrılacaq, orada ekoloji tədbirlər görüləcəkdir. Əminəm ki, bu təcrübə uğurlu olacaqdır. Ondan sonra qalan hissə təmizlənəcək. Böyükşor gölünün ümumi ərazisi 1000 hektardan çoxdur. Çox böyük bir göldür. Şəhərin mərkəzində yerləşir və o gölə axıdılan çirkab suları, lay suları, neftlə çirklənmiş sular Bakının ekoloji vəziyyətini xeyli dərəcədə pisləşdirir. Ona görə bu layihələr icra edilməlidir və digər göllərlə də bağlı vaxt gəlib çatıb ki, biz ciddi məşğul olaq. Mən bir neçə il əvvəl bu barədə öz fikirlərimi bildirmişəm. Hətta o göllərin hamısının adlarını da sadalamışam. Vaxt gəlib çatıb. Göllərin təmizlənməsi haradakı mümkün deyil, onların

qurudulması, yəni kompleks tədbirlər planı olmalıdır. Biz xüsusi proqram da qəbul edə bilərik və edəcəyik.

Burada digər sahələrlə bağlı məlumat verildi. Kosmik sənayenin inkişafı ilə bağlı. Birinci peykin orbitə çıxarılması, qeyd etdiyim kimi, böyük tarixi məsələdir. İkinci, üçüncü peyklərin də hazırlanması ilə bağlı bu il konkret addımlar atılmalıdır. Yəqin ki, tender prosedurları açılmalıdır. Bizimlə əməkdaşlıq etmək istəyən şirkətlərin sayı kifayət qədər çoxdur. Ona görə Azərbaycanda kosmik sənaye inkişaf edəcək. Bu il növbəti peyklərin fəaliyyəti üçün konkret addımlar atılmalıdır.

Sosial obyektlərin tikintisi davam etdiriləcəkdir. Bütün bunlar investisiya proqramının tərkib hissəsidir. Deyə bilərəm ki, keçən il 300-ə yaxın məktəbdə, 80-dən çox tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır. Bu istiqamətdə işlərin böyük əksəriyyəti görülübdür. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

Keçən ildə olduğu kimi, bu il də korrupsiyaya və rüşvət-xorluğa qarşı çox ciddi mübarizə aparılacaq. Bu mübarizənin gözəl nəticələri var. Kompleks tədbirlər görülür. Keçən ilin əvvəlində «ASAN xidmət»in fəaliyyətə başlaması bu sahədə böyük bir dönüş yaratdı, bir yenilik gətirdi. «ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycan ixtirasıdır, Azərbaycan brendidir. Qısa müddət ərzində 100 minlərlə insan bu xidmətə müraciət etmişdir. Bu günə qədər eşitməmişəm ki, hər hansı bir şikayət və ya narazılıq olsun. Bütün xidmətlər şəffaf, mədəni şəkildə göstərilir. «ASAN xidmət»də göstəriləcək xidmətlərin sayı artırılmalıdır və bu il regional mərkəzlər də yaranmalıdır. Artıq Gəncə, Sumqayıt şəhərlərində mərkəzlər vardır və səyyar xidmət də göstərilir. Biz bu il bölgələrdə ən azı 4, bəlkə də 5 «ASAN xidmət» mərkəzi tikməliyik, yaratmalıyıq və bu, investisiya proqramında da öz əksini tapmalıdır.

Ancaq korrupsiyaya qarşı mübarizə «ASAN xidmət»in fəaliyyəti ilə bitmir. Bütün dövlət idarələrində, xüsusilə vətəndaşlarla təmasda olan dövlət qurumlarında korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılmalıdır. Biz bilirik

yaralı yerlərimiz haradır. Bu yaraları sağaltmaq üçün nə etməyin lazım olduğunu da bilirik. Siyasi iradə də var, kifayət qədər güclü iradədir. Yerlərdə, mərkəzi icra orqanlarında, yerli icra orqanlarında korrupsiyaya bulaşmış şəxslər vəzifədən kənarlaşdırılmalıdır. Onlara qarşı cinayət işləri açılmalıdır. Düzdür, indi Korrupsiyaya Qarşı Mübarizə İdarəsində bu işlər gedir, cinayət işləri açılır. Daha da ciddi tədbirlər görülməlidir ki, biz bu bəladan özümüzü xilas edək. 2014-cü ildə bu sahədə, hesab edirəm ki, daha da böyük addımlar atılacaq.

Neft-qaz sektorunda işlər yaxşı gedir. Giriş sözümdə dediyim kimi, «Şahdəniz-2», TANAP, Trans–Adriatik boru kəmərləri layihəsi tarixi qələbəmizdir. Bu, Avropanın ən böyük infrastruktur layihəsidir və icrasına artıq başlanılıb. Hesab edirəm ki, bütün işlər vaxtında görüləcək.

Biz Avropa oyunlarına hazırlıq üçün həlledici ilə qədəm qoyuruq. Bildiyiniz kimi, Avropa oyunları 2015-ci ildə keçiriləcək. Hazırlıq üçün bizə cəmi 2 il yarım vaxt verilib. Baxmayaraq ki, Olimpiya oyunlarına hazırlıq 7-8 il davam edir. Biz 2 il yarım ərzində Yay Olimpiya oyunları səviyyəsində Avropa oyunlarını keçirmək niyyətindəyik. Əminəm ki, buna nail olacağıq. Təşkilat Komitəsi formalaşıb, fəaliyyət göstərir. Bütün aidiyyəti qurumlar bu işlərə daha da böyük diqqət yetirməlidir ki, biz hazırlıq işlərinin əsas hissəsini bu il başa çatdıraq. İdman obyektlərinin böyük əksəriyyətinin tikintisi bu il başa çatmalıdır. Olimpiya stadionu Milli Gimnastika Arenası, Su İdmanı Sarayı, Stend Atıcılığı Mərkəzi – onların tikintisi gedir. Heydər Əliyev İdman Kompleksi, Əl Oyunları Sarayı əsaslı təmir edilir, digər idman obyektləri yaradılır.

Əminəm ki, bu istiqamətdə heç bir problemimiz olmayacaq. Ancaq bu oyunların hazırlanması təkcə olimpiya obyektlərinin tikintisi ilə məhdudlaşmır, təhlükəsizlik məsələləri də çox böyük əhəmiyyət daşıyır. Nəqliyyat məsələləri, qonaqların, idmançıların yerləşməsi, olimpiya şəhərciyinin yaranması və digər məsələlər çox ciddi diqqət tələb edir. Bu il oyunlara hazırlıq üçün həlledici ildir. Əminəm ki, biz bu oyunları ən yüksək səviyyədə keçirəcəyik.

Nəzərə alsaq ki, bu birinci oyunlardır, Azərbaycanda qoyulan standartlar bundan sonra Avropa oyunları üçün bir standart kimi qəbul ediləcək. Keçən il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilmişdi. Bunun əsas səbəbi ondan ibarət idi ki, keçən il biz birinci peyki orbitə buraxdıq və bütövlükdə İKT sahəsinə böyük diqqət verilmişdir. Hesab edirəm ki, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət verilməlidir. Texnoparklar, yeni sənaye müəssisələri, ixracyönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması – bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir.

Bütün bu amilləri nəzərə alaraq, mən hesab edirəm ki, biz 2014-cü ili «Sənaye ili» elan edək. Müvafiq sərəncam imzalanacaq. «Sənaye ili»ndə sənayenin inkişafı ilə bağlı görüləcək konkret tədbirlər planı tərtib və təsdiq ediləcəkdir.

2014-cü il başlayır. İlin birinci həftəsində artıq 2 böyük obyektin açılışı olmuşdur. Qəbələdə «Tufan» dağ-xizək istirahət kompleksi, Bakıda müstəqillik dövründə tikilmiş ən böyük tibb ocağı – Bakı Sağlamlıq Mərkəzi açılmışdır. Biz ili artıq gözəl hadisələrlə başlayırıq. Əminəm ki, 2014-cü il də ölkəmiz, xalqımız üçün uğurlu olacaqdır. Sağ olun.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin keçmiş Baş naziri, görkəmli dövlət xadimi və siyasi xadim Ariel Şaronun vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar kədərinizi bölüşür, Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün İsrail xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2014-cü il*

## BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*14 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*Brüssel*

*15 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Brüsseldə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ GÖRÜŞ

*Brüssel*

*15 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Brüsseldə NATO-nun baş katibi Anders Foq Rasmussen ilə görüşmüşdür.*

*NATO-nun baş katibi Anders Foq Rasmussen prezident İlham Əliyevi alyansın mənzil-qərargahında qarşıladı.*

*Anders Foq Rasmussen dövlətimizin başçısı İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyevin NATO-ya, özünün isə 2012-ci ildə Bakıya etdiyi səfərləri xatırladan Anders Foq Rasmussen keçirilən görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını dedi. NATO–Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini deyən baş katib Əfqanıstanda həyata keçirilən sülhyaratma əməliyyatları zamanı Azərbaycanın tranzit, maliyyə yardımı və digər sahələrdə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi. NATO-nun baş katibi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin, o cümlədən Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından mühüm ölkə olduğunu dedi, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

*Prezident seçkilərində qələbəsi münasibətilə təbrikə görə minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev NATO–Azərbaycan əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində fəal iştirak etməsinin önəmini vurğuladı. NATO ilə əlaqələrin Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyasının mühüm tərkib hissəsi olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığın gələcəkdə də genişləndiriləcəyinə ümidvar olduğunu vurğuladı.*

## NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*15 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun baş katibi Anders Foq Rasmussen ilə görüşü başa çatdıqdan sonra yanvarın 15-də birgə mətbuat konfransı keçirilmişdir.*

*Baş katib Anders Foq Rasmussen və prezident İlham Əliyev əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.*

### NATO-nun baş katibi Anders Foq Rasmussenin bəyanatı

Cənab Prezident!

Brüsselə bir daha xoş gəlmisiniz!

Bu gün keçirdiyimiz görüş NATO-nun və Sizin tərəfdaşlığımıza olan sadiqliyinizi əks etdirir. Bu o deməkdir ki, biz Cənubi Qafqaz regionuna sadiqik və sadiq qalacağıq. Azərbaycan Avropanın enerji təhlükəsizliyi, Qafqazda isə sülh və sabitlik üçün həyati əhəmiyyət kəsb edən ölkədir. Eyni zamanda, Azərbaycan NATO üçün vacib və əhəmiyyətli tərəfdaşdır. Biz qoşunlarınızın Əfqanıstanda aparılan əməliyyatlara verdiyi qətiyyətli dəstəyə görə minnətdarıq. Biz həmçinin NATO-nun əməliyyatlarına hava məkanından istifadə və tranzit marşrutları formasında verilən siyasi dəstəyə görə təşəkkür edirik. Nəhayət, Əfqanıstanın təhlükəsizlik qüvvələrinin təlimlərinə verdiyiniz xeyirxah dəstəyinizə görə də «Çox sağ olun» – deyirik.

Cənab Prezident, 2014-cü ildən sonra əfqan təhlükəsizlik qüvvələri üçün təlim keçirmək, məsləhətlər vermək və yardım etmək kimi Əfqanıstandakı yeni missiyamıza verəcəyiniz davamlı dəstəyə görə minnətdaram. Bu Sizin Avroatlantik təhlükəsizliyin dəstəklənməsinə açıq şəkildə sadiq olduğunuzu göstərir.

Bu gün biz NATO ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini müzakirə etdik. Biz siyasi dialoqumuzu, o cümlədən enerji təhlükəsizliyi və terrorçuluğa qarşı mübarizə kimi strateji məsələlərin müzakirəsini möhkəmləndirmək əzmindəyik. İslahatların davam etdirilməsi, həmçinin Azərbaycan üçün əhəmiyyətlidir. NATO Sizə yardımı davam etdirəcəkdir. İnanıram ki, biz tərəfdaşlığımızın bir çox sahələri üzrə dialoqumuzu və əməkdaşlığımızı dərinləşdirə bilərik.

Bu ay biz «Sülh naminə tərəfdaşlıq» Proqramımızın 20-ci ildönümünü qeyd edirik. Sülh naminə tərəfdaşlığımız demokratik dəyərlərə və prinsiplərə sadiqliyə əsaslanır. Azərbaycan əvvəldən bu proqramın güclü tərəfdarı olub.

Cənab Prezident, bizim dialoq və əməkdaşlıq üçün möhkəm çərçivəmiz vardır. Bu gün biz möhkəm və uzunmüddətli tərəfdaşlığımızı davam etdirmək barədə razılığa gəldik.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, cənab baş katib! Dəvətinizə görə minnətdaram. NATO-ya yenidən gəlməyimə və NATO ilə Azərbaycan arasında strateji dialoqa aid müzakirələrimizi davam etdirməyə çox şadam.

Bu mənim NATO-nun mənzil-qərargahına beşinci səfərimdir. Bu fakt əməkdaşlığımızın səviyyəsini göstərir. Bu əməkdaşlıq illəri və bizim NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına 20 il ərzində üzv olmağımız göstərir ki, münasibətlərimiz artıq strateji əməkdaşlıq səviyyəsinə qalxıb.

Cənab baş katib, Sizin 2012-ci ildə Azərbaycana etdiyiniz səfəri və apardığımız müzakirələri xatırlayıram. Bu gün əməkdaşlığımıza dair bir çox məsələlər ətrafında müzakirələrimizi

davam etdirdik. Cənab baş katibin qeyd etdiyi kimi, biz Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrində iştirakımıza aid məsələləri müzakirə etdik. Biz 2014-cü ildən sonrakı dövrdə Əfqanıstanda təhlükəsizliyin təmin edilməsinə sadiq qalacağıq. Bu gün məhvetmə gücünə malik olmayan malların, demək olar ki, 40 faizi Əfqanıstana Azərbaycan ərazisi vasitəsilə aparılır. Azərbaycandan keçən marşrut ən etibarlı və təhlükəsiz marşrutdur. Bir sözlə, biz regionumuzda sülhü və sabitliyi təşviq etmək üçün səylərimizi davam etdirəcəyik.

Biz həmçinin keçmişdə Kosovoda aparılan sülhməramlı əməliyyatlarda iştirak etmişik. Bizim NATO-nun sülhməramlı əməliyyatlarında iştirakımız əməkdaşlığımızın mühüm hissəsidir. Biz terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq edirik. Mən Silahlı Qüvvələrimizdə aparılan islahatlara NATO-nun verdiyi dəstəyə görə minnətdaram. Silahlı Qüvvələrimiz NATO standartlarına uyğunlaşdırılır. Biz həmçinin NATO-nun yardımı, o cümlədən maliyyə dəstəyi ilə Azərbaycanda minalardan təmizlənmə layihələrini həyata keçiririk. Eyni zamanda, Azərbaycan Əfqanıstanın Milli Ordusunun Etimad Fonduna öz töhfəsini verir. Biz artıq 1 milyon avro məbləğində maddi yardım göstərmişik və daha 1 milyon avro yardım göstərəcəyik. Bu gün bildirmək istəyirəm ki, biz Əfqanıstanın Milli Ordusunun Etimad Fonduna əlavə 1 milyon avro ayıracağıq. Biz bu addımı Əfqanıstanda sülh və təhlükəsizliyə verdiyimiz töhfə kimi qiymətləndiririk.

Biz Dövlət Sərhəd Xidməti, Müdafiə Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyinin akademiyalarında, həmçinin Diplomatik Akademiyada əfqan hərbçiləri üçün təlimlərimizi davam etdirəcəyik. Hesab edirəm ki, təlimlər və Əfqanıstanın yenidən qurulmasına göstərdiyimiz yardım Azərbaycanın verdiyi əlavə töhfə olacaqdır.

Biz bu gün, həmçinin Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdik. Ermənistan ilə Azərbaycan arasında münaqişə regional təhlükəsizliyə və sabitliyə əsas təhlükədir. Biz münaqi-

şənin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllinə tezliklə nail olmalıyıq.

Bir aydan az müddət öncə Azərbaycan XXI əsrin layihəsi hesab oluna biləcək layihəyə imza atdı. Azərbaycan qazını istehlakçılara çatdıracaq nəqliyyat infrastrukturunun tikintisi bu yaxınlarda başlayacaqdır. Azərbaycan bu layihənin vaxtında həyata keçirilməsi üzrə təşəbbüsü irəli sürüb və məsuliyyəti öz üzərinə götürüb. Bu, enerji şaxələndirilməsi, enerji təhlükəsizliyi və əməkdaşlığı layihəsi olacaq və Avropanın ən iri infrastruktur layihəsinə çevriləcəkdir. Bu layihə iştirakçı ölkələrin və şirkətlərin əlavə əlaqələndirmə səylərini tələb edəcəkdir. Əlbəttə, biz bu layihəni vaxtında həyata keçirmək məqsədilə Azərbaycanın ən mühüm enerji infrastrukturunun qorunmasını təmin etməliyik.

Bir sözlə, NATO ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam edir. Bu gün biz baş katiblə həmin əməkdaşlığın perspektivlərini, bunun hansı yollarla dərinləşdirilməsini və gələcək münasibətlərimizin yeni formalarını müzakirə etdik. Gələcəkdə biz NATO-nun daha yaxın və etibarlı tərəfdaşı olmaq istəyirik və əminəm ki, bu belə də olacaqdır.

Sağ olun, cənab baş katib.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**N ə s i b  M u x t a r o v** (*Azərbaycan Televiziyasının əməkdaşı*)**: Sualım cənab baş katibədir. Siz qeyd etdiniz ki, Azərbaycan–NATO münasibətləri uğurla inkişaf edir. Bu gün keçirilmiş görüş bu əlaqələrə əlavə bir töhfədir. Tərəfdaşlığımızın perspektivlərini necə görürsünüz? Sağ olun.**

**A n d e r s  F o q  R a s m u s s e n:** Dediyim kimi, bizim artıq yaxşı işləyən tərəfdaşlığımız vardır. Lakin bununla belə, mən tərəfdaşlığımızın daha da inkişaf etdirilməsi potensialını görürəm. Əməkdaşlığımızın bir hissəsi apardığımız birgə əməliyyatlardır. Prezidentin qeyd etdiyi kimi, olduqca vacibdir ki, biz birgə işləmək və əməliyyat aparmaq bacarığımızı inkişaf

etdirək, daha doğrusu, silahlı qüvvələrimiz birgə işləmək bacarığını əldə etsin. Beləliklə, biz sülhməramlı əməliyyatlarda birgə iştirak edə bilərik. Bununla mən ikinci arqumentə gəlirəm: Silahlı Qüvvələr daxilində islahatları davam etdirməliyik. Bu elə bir sahədir ki, NATO-nun yaxşı ekspert bilikləri var, bizim Azərbaycan ilə artıq gözəl əməkdaşlığımız qurulub və onu davamlı şəkildə inkişaf etdirməliyik.

Əlbəttə ki, enerji təhlükəsizliyi ümumi maraq doğuran böyük məsələdir. Onun strateji, daha sonra təhlükəsizlik aspektləri vardır. Bu sahədə də biz tərəfdaşlığımızı daha da inkişaf etdirə bilərik.

Sonda icazə verin qeyd edim ki, bizim konkret praktiki əməkdaşlıq layihələrimiz var. Məsələn, biz partlamamış sursatların təmizlənməsi və 100 hektarlarla torpaqların bundan azad edilməsi üçün Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ilə əməkdaşlıq edirik. Bu, dünyada ən böyük belə layihələrdən biridir və Azərbaycan xalqının rifahına xidmət edən layihədir. Bu, gələcəkdə inkişaf etdirilə biləcək praktiki əməkdaşlığın digər konkret nümunəsidir.

**«A z a d l ı q» r a d i o s t a n s i y a s ı: Mənim cənab Prezidentə 2 sualım var. Dağlıq Qarabağ məsələsi ilə bağlı bu yaxınlarda Ermənistan prezidenti ilə keçiriləcək görüşünüz barədə nə deyə bilərsiniz? Həmçinin ikinci sualım: ötən dəfə Siz burada – Brüsseldə söylədiniz ki, Azərbaycanda siyasi məhbus yoxdur. Cənab Məmmədov və cənab Məmmədli hələ də həbsxanadadırlar. Bununla belə, Siz yenə də söyləyə bilərsinizmi ki, Azərbaycanda siyasi məhbus yoxdur? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Bəli, bu həmçinin Avropa Şurası Parlament Assambleyasının qərarında da təsdiqlənib. Ötən ilin dekabrında Avropa Şurasında bu məsələ ilə bağlı geniş müzakirələr aparıldı. Assambleyanın bəzi üzvləri tərəfindən Azərbaycanda siyasi məhbuslar haqqında irəli sürülmüş qətnamələr keçmədi. Assambleyanın əksər hissəsi bu qətnamələrə

dəstək vermədi. Bu o deməkdir ki, mənim ötən il burada, Avropa Komissiyasında söylədiklərim Avropanın və dünyanın ən mühüm təsisatlarından biri sayılan təşkilat tərəfindən təsdiqləndi. Azərbaycan artıq 10 ildən çoxdur ki, Avropa Şurasının üzvüdür. Biz Avropa İnsan Hüquqları Məhkəməsinin üzvüyük. Bu, öncədən onu təsdiqləyir ki, ölkəmizdə siyasi məhbus ola bilməz. Əgər kiməsə qeyri-ədalətli münasibət göstərilibsə, həmin şəxs Avropa Məhkəməsinə müraciət edə bilər. Biz Avropa Məhkəməsinin qərarlarına hörmətlə yanaşırıq. Həmçinin bildirmək istəyirəm ki, siyasi məhbus tərifi mövcud deyil. Fikrimizcə, əgər siyasi məhbus tərifi Avropa Parlamenti və ya Avropa Şurası tərəfindən müəyyən edilsə, bu, yaxşı ideya olardı. Belə olan halda, kiminsə siyasi məhbus olması və ya olmamasını müəyyən etmək çox asan olardı. Ona görə fikrimcə, verdiyiniz suala ən yaxşı cavab Avropa Şurası Parlament Assambleyasının 2013-cü ilin yanvarında qəbul etdiyi qərarı ola bilər.

Qarabağ məsələsinin həllinə aid suala gəldikdə, biz nikbin olmaq istəyirik. Çünki münaqişənin başlanğıcından çox vaxt ötür və uzun müddətdir ki, torpaqlarımız işğal altındadır. Bu, 20 ildən artıqdır ki, davam edir. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən qətnamələri Ermənistan tərəfindən yerinə yetirilməyib. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Yəqin ki, bilirsiniz, Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda yerləşən bir neçə rayon da 20 ildən çoxdur ki, işğal altındadır. Erməni təcavüzü nəticəsində 1 milyon insan evsiz qalıb.

Mənim Ermənistan prezidenti ilə son görüşüm əvvəlki görüşlə müqayisədə ola bilsin ki, daha nikbin keçib. Ermənistanın danışıqlara getməməsi səbəbindən danışıqlar prosesində uzun durğunluq yaşandı. Biz yenə də tərəddüd edirik: Ermənistan tərəfi danışıqlar prosesində səmimidir, yoxsa sadəcə, mövcud status-kvonu qoruyub saxlamağa çalışır?! Bununla belə, Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri

olduqca aydın şəkildə bəyan etdilər ki, mövcud status-kvo qəbuledilməzdir. Biz bunu Ermənistana ciddi mesaj kimi qəbul edirik, çünki status-kvonu dəyişmək üçün onlar bizim ərazilərimizdən çıxmağa başlamalıdırlar. Baxarıq, xarici işlər nazirlərinə göstəriş verilib. Bizim Vyanada keçirilmiş görüşdən sonra onlar da artıq görüşüblər. Ümidvarıq ki, onlar bu ayın sonunda və ya gələn ay yenidən görüşəcəklər. Ermənistanın danışıqlar prosesində nə dərəcədə səmimi olduğunu görəcəyik. Ümidvarıq ki, əgər Ermənistanda məsələyə real yanaşılarsa, biz onu tezliklə həll edə bilərik.

**Vüqar Seyidov** (*Azərbaycan Dövlət Teleqraf Agentliyinin müxbiri*)**: Sualım cənab baş katibədir. Son illər ərzində dinc nümayişçilərə qarşı zorakılıqdan istifadə edilməsi, özünüifadə azadlığına qoyulan məhdudiyyətlər, miqrantlara qarşı ayrı-seçkilik kimi mənfi meyillər, əfsuslar olsun ki, Avropada, o cümlədən NATO-nun üzvü olan dövlətlərdə artmaqdadır. Azərbaycanda hətta kiçik bir insident baş verdikdə Avropa dərhal reaksiya verir. Sizin fikrinizcə, bu, ikili standart yanaşma deyilmi?**

**Anders Foq Rasmussen:** Xeyr, ikili standart kimi hər hansı yanaşma mövcud deyil. Bütün NATO ölkələrində də siyasi məsələlər əsaslı müzakirə mövzusudur. Digər ölkələrlə apardığımız tərəfdaşlığa gəldikdə, biz dialoqumuzda bir sıra fundamental prinsiplərə əsaslanırıq. Həmin prinsiplərə uyğunluq, məsələlərin açıq və səmimi şəkildə müzakirəsi tərəfdaşlığımızın tərkib hissəsidir. Bir sözlə, siz bunu ikili standart kimi qəbul etməməlisiniz. Əslində biz bununla bir-birimizə daha ciddi yanaşırıq. Hazırda bu sahədə öz ölkələrimizdə də mühüm müzakirələr aparılır. Oxşar müzakirələri, həmçinin tərəfdaşlarımızla da aparırıq, çünki biz onlara hörmətlə yanaşırıq. Biz tərəfdaşlığımızı gücləndirmək istəyirik və bu məqsədlə bizim azad və açıq dialoqa ehtiyacımız vardır. Mən bu cür açıq söhbətin bir neçə dəqiqədən sonra Prezident ilə NATO Şurası arasında da aparılmasını gözləyirəm və bu, tərəfdaşlığımızın daha da gücləndirilməsinə zidd deyil, əksinə.

## NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASINDA ÜZV DÖVLƏTLƏRİN NATO YANINDA DAİMİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Brüssel*

*15 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşmüşdür.*

Görüşdə çıxış edən NATO-nun baş katibi Anders Foq Rasmussen Azərbaycan–NATO əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi, prezident İlham Əliyevin budəfəki səfərinin qarşılıqlı əlaqələrə mühüm töhfə verdiyini vurğuladı.

Sonra prezident İlham Əliyev çıxış etdi. Azərbaycan dövlətinin başçısı NATO–Azərbaycan əlaqələrinin yaxşı tarixə malik olduğunu söylədi və bu əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi, hazırda Azərbaycan hərbçilərinin Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal iştirak etdiklərini dedi. Prezident İlham Əliyev son illərdə ölkəmizin sürətlə inkişaf etdiyini, iqtisadi baxımdan böyük uğurlar qazandığını, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini bildirdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və işğalın ağır nəticələrindən söhbət açdı, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat verdi.

NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri çıxışlarında Azərbaycanın NATO ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdilər, ölkəmizin Əfqanıstandakı sülhyaratma əməliyyatlarında fəal iştirakını vurğuladılar. Daimi nümayəndələr Azərbaycanın tranzit, maliyyə yardımı və digər sahələrdə bu prosesə xüsusi töhfə

*verdiyini bildirdilər.* Onlar *Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin* vacibliyini *diqqətə çatdırdılar. Azərbaycanın Avropanın* enerji *təhlükəsizliyindəki* rolunu *xüsusi* qeyd *edən* daimi *nümayəndələr artıq* bu *sahədə uğurlu əməkdaşlığın qurulduğunu,* Trans–Anadolu, Trans–Adriatik *və «Şahdəniz-2»* kimi *iri* enerji *layihələrinin* bu *prosesə mühüm töhfə* verdiyini *bildirdilər.*

* * *

*Bununla da prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.*

## MİLLİ QƏHRƏMAN ÇİNGİZ MUSTAFAYEV FONDU VƏ ANS ŞİRKƏTLƏR QRUPUNUN «2013-cü İLİN ADAMI» MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİ

*17 yanvar 2014-cü il*

*Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupunun «2013-cü ilin adamı» mükafatının təqdim olunması mərasimi keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz! Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram.

2014-cü il başlayır. Sizi Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Əminəm ki, 2014-cü ildə də ANS Şirkətlər Qrupu uğurla fəaliyyət göstərəcək və Azərbaycan tamaşaçılarını yeni layihələrlə sevindirəcəkdir.

Bugünkü mərasim mənə həsr edilib. Mən bu yüksək mükafata görə sizə minnətdaram. İlk növbədə, Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda, fondun rəhbərliyinə, ANS Şirkətlər Qrupuna minnətdaram ki, siz mənim fəaliyyətimi yüksək qiymətləndirirsiniz. Əslində bu mənim vəzifə borcumdur. Mən çalışıram və çalışacağam ki, öz işimlə doğma ölkəmizi inkişaf etdirək, irəliyə aparaq, qarşımızda duran bütün vəzifələri icra edək. Sizin mənə verdiyiniz belə yüksək qiymət, əlbəttə ki, məni daha da ruhlandırır.

Bu mükafatın öz yeri vardır. Mən artıq Prezident kimi, 10 illik fəaliyyətim dövründə bir çox mükafatlarla təltif edilmişəm, ancaq bu mükafatın xüsusi yeri vardır. Çünki bu mükafatı mənə təqdim edən teleşirkət Azərbaycanda birinci müstəqil telekanaldır və Azərbaycanda müstəqil jurnalistikanın inkişafında ANS şirkətinin

böyük rolu vardır. Mən bu rolu yüksək qiymətləndirirəm və çalışıram ki, sizin verilişlərinizi izləyim. Xüsusilə vətənpərvərlik mövzuları ilə bağlı olan verilişlər daha böyük maraq doğurur. Hesab edirəm ki, cəmiyyətimizin gələcək inkişafı üçün belə verilişlərin sayının artırılması məqsədəmüvafiq olardı.

Əlbəttə, bu gün biz bu mərasimi keçirəcəyik. Bizdə gələcək planlarımızla da bağlı konkret fikirlər, proqramlar var. Bəzi planlar haqqında ictimaiyyət artıq məlumatlandırılıb, bəzi fikirlər hələ ki, öz növbəsini gözləyir. Ancaq əminəm ki, bu il də ölkəmizin dinamik inkişafı davam edəcək.

* * *

*Sonra mükafatlar dövlətimizin başçısına təqdim edildi.*

**İ l h a m Ə l i y e v:** Bir daha bu mükafata görə sizə minnətdaram. Qeyd etməliyəm ki, mən pul mükafatını ənənəvi olaraq Silahlı Qüvvələrin Fonduna köçürürəm. Bu saat da çox gözəl və bahalı saatdır. Ona görə mən bunu bağlaya bilmərəm. Ancaq sizə söz verirəm ki, bu saat muzeydə saxlanılacaq.

Mənim haqqımda dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Doğrudan da 2013-cü il tariximizdə uğurlu il kimi qalacaq. 2013-cü il uğurla başladı, uğurla da başa çatdı. İlin əvvəlində «ASAN xidmət»in yaradılması diqqət çəkdi. Xidmət yarananda bir çoxları bəlkə də təsəvvür edə bilmirdi ki, bu xidmət qısa müddət ərzində böyük rəğbət qazanacaq və Azərbaycanda ictimai xidmətlər sahəsində ciddi bir dönüş yaradacaqdır. Artıq son məlumata görə – statistik göstəricilər, demək olar ki, hər həftə dəyişir – 1 milyona yaxın müraciət olmuşdur.

«ASAN xidmət»in yaradılması Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, bürokratiyaya qarşı aparılan siyasətimiz üçün çox ciddi bir alət, ciddi bir vasitə olubdur. Biz bildiyiniz kimi, bu il də xidmətin fəaliyyətini genişləndirəcəyik. Bütün bölgələrdə yeni ofislər açılacaqdır. Gələcəkdə isə hər bir şəhərdə «ASAN xidmət» olacaqdır. Bununla bərabər, xidmətin funksiyaları da genişlənəcəkdir. İndi biz fikirləşirik ki, daha hansı xidməti oraya əlavə edək. Yəqin ki, sizin – jurnalistlərin də bu işlərdə köməyi ola bilər. Çünki siz cəmiyyətdə

insanları ən çox narahat edən problemləri yaxşı bilirsiniz. Sizin telekanalınız bu barədə mütəmadi qaydada verilişlər hazırlayır. Mən bunu alqışlayıram. Elə etməliyik ki, cəmiyyəti, insanları narahat edən, incidən məsələlər aradan qaldırılsın. Bu məsələləri şərtləndirən amillər də aradan götürülsün. Burada həm inzibati tədbirlər görüləcək, həm də sistem xarakterli tədbirlər də gözlənilir.

İlin sonunda «Şahdəniz-2» layihəsinin imzalanması elə bil ki, 2013-cü ilə gözəl bir yekun vurdu. Bu layihə də «ASAN xidmət» kimi, ölkəmizin gələcək inkişafı üçün müstəsna əhəmiyyətə malik olan hadisədir. Onilliklər bundan sonra ölkəmizin siyasi və iqtisadi maraqlarını təmin edəcəkdir. Azərbaycan bildiyiniz kimi, enerji siyasəti sahəsində liderlik keyfiyyətlərini bu dəfə də ortaya qoydu. Uzun illərdən, uzun müzakirələrdən sonra görəndə ki, artıq «Cənub Qaz Dəhlizi» layihəsi axsayır, Azərbaycan siyasi və iqtisadi məsuliyyəti cəsarətlə öz üzərinə götürdü. «Şahdəniz-2» layihəsi gərgin şəraitdə imzalandı.

İctimaiyyət, əlbəttə, bir çox məsələlər haqqında məlumatlı deyildir. Çünki bildiyiniz kimi, bu məsələ kifayət qədər bağlı qapılar arxasında həll edilirdi. Ancaq yalnız bir şeyi deyə bilərəm ki, son həftəyə qədər «Şahdəniz-2» layihəsinin imzalanması hələ də sual altında idi. Baxmayaraq ki, bir neçə ay ondan əvvəl 17 dekabr tarixi də müəyyən edilmişdi. Baxmayaraq ki, qonaqlar da dəvət edilmişdi və bütün tədbirlər də hazırlanmışdı. Ancaq müəyyən müdaxilələr hesabına son həftəyə qədər layihənin imzalanması dəqiq bəlli deyildi. Ancaq bir şeyi qeyd etməliyəm ki, Azərbaycan və onun tərəfdaşları bütün səyləri birləşdirərək bu tarixi layihənin imzalanmasına nail oldular. Bu 2 önəmli və tarixi əhəmiyyət daşıyan hadisələr arasında, əgər belə demək mümkündürsə, 2013-cü ildə digər önəmli hadisələr də baş vermişdir. Siz də onları qeyd etdiniz. Xüsusilə «Azərspace-1» peykinin orbitə buraxılması tarixi əhəmiyyətə malik olan hadisədir. Bəlkə də 5–10 il bundan əvvəl heç kim, o cümlədən də mən təsəvvür edə bilməzdim ki, Azərbaycan bu gün kosmik kluba üzv, kosmik sənayenin inkişafı ilə məşğul olacaqdır.

Bizim gələcək planlarımız da var. Bu planlar əminəm ki, reallaşacaqdır. Çünki «Azərspace-1» peykinin buraxılması artıq yeni bir səhifənin açılmasına gətirib çıxarmışdır. Bu sahə ölkəmizin hərtərəfli yüksəlişi, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, intellektual səviyyənin qaldırılması üçün çox böyük məna daşıyır. Mən çox şadam ki, artıq neçə aydır peykin idarə olunması Azərbaycan mütəxəssisləri tərəfindən icra edilir. Kosmik sənayenin inkişafında gənc Azərbaycan mütəxəssisləri fəal iştirak edirlər. Necə ki, «ASAN xidmət»də də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Belə gənclərin önə çıxmaları, məsuliyyəti öz üzərlərinə götürmələri gələcək uğurlu inkişafımızı müəyyən edəcəkdir. Çünki hər bir ölkənin inkişafını onun intellektual potensialı müəyyən edir. Xüsusilə indiki zamanda – yüksək texnologiyaların sürətlə inkişaf etdiyi bir vaxtda intellektual potensialı zəngin olan ölkələr üstünlük təşkil edəcəkdir, həm siyasətdə, həm döyüş meydanlarında və iqtisadi sahədə.

Əlbəttə, Azərbaycan gənc müstəqil dövlətdir və bizdə elmin inkişafı hələ ki, lazımi səviyyədə deyildir. Bunun təbii səbəbləri vardır. Ancaq dünyada mövcud olan və yaradılan ən müasir texnologiyalar Azərbaycana gətirilməlidir və gətirilir. Beləliklə, hesab edirəm ki, cəmiyyətdə inkişafla və ölkəmizin strateji xətti ilə bağlı ciddi fikir ayrılığı yoxdur. Cəmiyyət vahid amal uğrunda birləşibdir ki, ölkəmiz daha da güclü, müstəqillik daha da möhkəm olsun, xalqımız daha da yaxşı yaşasın. Buna nail olmaq üçün hazırlıqlı kadrların çox böyük rolu vardır. Mən bilirəm ki, siz ANS-də kadr hazırlığı ilə çox fəal məşğulsunuz. Siz bir çox digər kanallar üçün kadr hazırlayırsınız və mən bunu da çox yüksək qiymətləndirirəm. Hər bir sahədə gənc kadrların hazırlanması prosesi daha da sürətlə getməlidir, məqsədyönlü şəkildə aparılmalıdır ki, biz gələcəkdə də bu inkişaf dinamikasını saxlaya bilək. Əlbəttə ki, kosmik sənayenin inkişafı dediyim həmin məsələlərin həllində bizə gələcəkdə kömək göstərəcəkdir.

2013-cü ildə digər hadisələr də baş verdi. Davos Forumunun Azərbaycanda keçirilməsini siz də qeyd etdiniz. Cənubi Qafqazda və

Orta Asiyada bu forum ilk dəfə məhz Bakıda keçirilmişdir. Mövzu da Cənubi Qafqaz və Orta Asiya məsələləri ilə bağlı idi. Yəni Azərbaycanın burada mərkəz kimi formalaşması iqtisadi sahədə də artıq reallaşıbdır. Bildiyiniz kimi, Davos Forumu Azərbaycanda aparılan iqtisadi islahatları yüksək qiymətləndirir, ölkələrin rəqabətqabliyyətliliyinə görə bizi dünya miqyasında 39-cu yerə layiq görmüşdür. Bu çox böyük göstəricidir. MBD-də birinci yerdəyik və bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq. İqtisadiyyatın rəqabətqabliyyətliliyini artırmaq üçün bizim konkret proqramlarımız vardır.

2013-cü il iqtisadi sahədə də yaddaqalan olmuşdur. Avropa qitəsində iqtisadi inkişaf templərinə görə Azərbaycan birinci ölkə olmuşdur. Artıq biz buna öyrəşmişik. Vahid müəllim dediyi kimi, biz bir çox məsələlərə öyrəşmişik. Əlbəttə ki, mən də bunu qeyd edirəm və çox sevinc hissi ilə qeyd edirəm. Çünki bəzi hallarda mənə də deyirlər ki, insanlar buna öyrəşiblər. Yada salsınlar ki, Azərbaycan 20 il əvvəl hansı vəziyyətdə idi. Dedim, bu çox yaxşıdır ki, öyrəşiblər. Ona görə ki, bu reallıq artıq hər yerdə özünü büruzə verir, hər yerdə özünü göstərir. Biz daha da yaxşı şəraitə öyrəşməliyik və öyrəşəcəyik. Mən həmişə demişəm ki, Azərbaycan xalqı daha da yaxşı həyata layiqdir. Biz hamımız bu həyatı təmin etməliyik.

Ancaq Avropada iqtisadi sahədə, əlbəttə, birinci olmaq hesab edirəm ki, böyük göstəricidir. Əgər mən digər göstəriciləri əlavə etsəm görərik ki, biz inkişaf etmiş Avropa ölkələrini bir çox parametr üzrə geridə buraxmışıq – dövlət borcu, büdcə kəsiri ilə, investisiyalarla bağlı.

Deyə bilərəm ki, keçən il investisiya qoyuluşu istiqamətində rekord il olmuşdur – ölkə iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulmuşdur. Müqayisə üçün deyə bilərəm, bəlkə də bütün müstəqillik dövründə Ermənistanda bu qədər investisiya qoyulmayıb. Yəni biz artıq öz iqtisadi və siyasi potensialımızla, əlbəttə, region çərçivələrindən çoxdan çıxmışıq. Bizim üçün əsas hədəf inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Burada təkcə iqtisadi islahatlar kifayət etməyəcəkdir. Azərbaycan bütün

parametrlər üzrə daha da sürətlə inkişaf etməlidir, siyasi islahatlar, sosial sahədə islahatlar davam etdirilməlidir, sosial ədalət prinsipləri tam bərqərar olmalıdır. Əlbəttə, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Ancaq Azərbaycan bu gün inkişaf etmiş Avropa ölkələri ilə bir neçə meyar üzrə ayaqlaşa bilir.

2013-cü ildə sosial sahədə də ciddi islahatlar aparılmışdır. Əmanətlərin verilməsi təmin edilmişdir. Burada da sevinc hissi ilə deyə bilərəm ki, MDB məkanında sovet əmanətləri ən böyük əmsalla Azərbaycan vətəndaşlarına verilmişdir və ən qısa müddət ərzində qaytarılmışdır. İslahatların dərinləşməsi aparılmışdır. Xüsusilə cəmiyyəti ən çox narahat edən sahələrdə kadr dəyişiklikləri edilmişdir. Siz də bunu yaxşı bilirsiniz və işıqlandırmısınız. Təhsil, ordu quruculuğu sahələrində, sosial sahədə çox ciddi islahatlar başlamışdır. Bu islahatlar artıq öz bəhrəsini verməkdədir. Dediyim sahələrdə və bütün başqa sahələrdə ictimai nəzarətin gücləndirilməsi, əlbəttə, bizə kömək edəcək ki, xoşagəlməz halların qarşısının alınması istiqamətində daha da ciddi addımlar atılsın. Hər halda, kadr və struktur dəyişikliyi, işə yanaşmada dəyişiklik artıq reallıqdır. Bunu cəmiyyət də bilir. Mən də, əlbəttə ki, bunu qiymətləndirirəm və bu işlərə nəzarət edirəm. Elə etməliyik ki, Azərbaycanda bütün istiqamətlər üzrə ən qabaqcıl metodlar, ən mütərəqqi texnologiyalar tətbiq edilsin.

İdarəetmədə ciddi islahatlara ehtiyac var. Mən dəfələrlə demişəm ki, biz, əlbəttə, iqtisadi cəhətdən özümüzü çox rahat hiss edirik. Bu gün heç kimə borclu, möhtac deyilik. Bizim iqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi də şərtləndirir. Ona görə biz inamla prinsipial siyasət aparırıq, nəyin bahasına olursa-olsun Azərbaycan xalqının, dövlətinin maraqlarını müdafiə edirik və bunu edə bilirik. Biri var ki, bunu etmək istəyəsən, biri də var ki, bunu edə biləsən. Biz elə bir güclü iqtisadiyyat yaratmışıq ki, bunu edə bilirik. Ancaq ölkəmizin gələcək uğurlu inkişafı üçün bu, yetərli deyil. Bizim cəmiyyətimiz müasirləşməlidir. Dünyada mövcud olan ən müsbət praktika Azərbaycanda tətbiq edilməlidir,

əgər bizim milli adət-ənənələrimizə zidd deyilsə. Elə bir cəmiyyət qurulmalıdır ki, burada problemlər minimum səviyyəsində olsun. Əlbəttə, siz jurnalistlər də yaxşı bilirsiniz, dünyada elə bir cəmiyyət yoxdur ki, orada bütün problemlər həll edilsin. Ancaq hər halda, hər bir iqtidar və hər bir cəmiyyət buna çalışmalıdır. Mən hesab edirəm ki, Azərbaycanda iqtidarla xalq arasındakı birlik və vahid ideyalar uğrunda mövcud olan vəhdət bizi daha da böyük uğurlara gətirib çıxaracaq.

2013-cü ildə biz BMT Təhlükəsizlik Şurasında fəaliyyətimizi uğurla, ləyaqətlə başa vurduq. 2 il bundan əvvəl demişdim ki, biz BMT Təhlükəsizlik Şurasında ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Belə də oldu. Biz hər bir mövzu ilə bağlı prinsipial mövqe ortaya qoymuşuq. BMT Təhlükəsizlik Şurası elə bir qurumdur ki, orada mövqe bildirməmək mümkün deyil. Ona görə bəzi ölkələr heç can atmır ki, ora üzv olsun. Çünki belə olan halda gərək öz mövqeyini ortaya qoysun. Cəmiyyətdə də, siyasətdə də, xarici siyasətdə də elə insanlar, elə ölkələr var ki, mövqe bildirmək istəmirlər, hamı üçün yaxşı olmaq istəyirlər. Təhlükəsizlik Şurası elə bir qurumdur ki, bu mümkün deyildir və əslində biz heç vaxt belə yanaşmanı düzgün saymamışıq. Ondan əvvəlki dövrdə də, bu gün də, bundan sonra da hər bir mövzu ilə bağlı Azərbaycanın prinsipial mövqeyi vardır və bu mövqe bütün hallarda ədalətə, beynəlxalq hüquqa əsaslanır və əlbəttə ki, dövlətimizin maraqlarına söykənir.

Bu 2 illik təcrübə bizim üçün çox əhəmiyyətli idi. Böyük təcrübə toplamışıq. Dünyada Azərbaycana olan dəstək daha da artdı. Mən bunu inamla qeyd etməliyəm. Çünki bu 2 illik fəaliyyət nəticəsində bizə olan dəstək, rəğbət, Azərbaycanın prinsipial mövqeyi, əlbəttə ki, daha da böyük beynəlxalq diqqətə layiq görülmüşdür. Ancaq onu da qeyd etməliyəm ki, Təhlükəsizlik Şurasına seçilməyimiz də o qədər asan olmamışdır. Siz də yaxşı bilirsiniz ki, Azərbaycan 16 turdan sonra üzv seçilə bilmişdir. Bunun da səbəbləri var. Bu səbəblər hələ tam açılmayıb. Bəlkə də vaxt çatmayıb. Ancaq deyə bilərəm, siz də bilirsiniz ki, ilk səsvermədə və axırıncı səsverməyə qədər

Azərbaycan digər namizədləri böyük fərqlə qabaqlayırdı. Adətən, fərq böyük olduqda digər namizədlər öz namizədliyini geri götürür. Ancaq bu dəfə belə olmadı, 16 tur lazım oldu ki, Azərbaycan üzv seçilsin. Deyə bilərəm ki, bizə qarşı ciddi müxalifət fəaliyyət göstərirdi. Ölkədaxili müxalifətdən fərqli olaraq, doğrudan da ciddi müxalifət idi. Ancaq buna baxmayaraq, biz prinsipial mövqe göstərdik, geri çəkilmədik. Hətta belə təklif edilmişdi ki, bəlkə Azərbaycan namizədliyini geri götürsün və artıq bir seytnot vəziyyət yaranmışdı. BMT praktikasında inanmıram başqa bir hadisə olsun ki, bu proses 16 tur və 3 gün davam etsin. Çünki yadımdadır, bizim Xarici İşlər naziri oraya ezam edilmişdi və mütəmadi qaydada məlumat verirdi. Beşinci gün bu proses dayandı, altıncı, bazar günlərində bəzi ölkələrlə iş aparıldı ki, Azərbaycanın namizədliyini dəstəkləməsinlər. Ondan sonra vəziyyət müəyyən qədər çətinləşdi. Ancaq BMT elə bir təşkilatdır ki, orada təzyiqlə nəyisə əldə etmək mümkün deyil. 200-dən çox üzvü var və üzvlərin əksəriyyəti o qədər də zəngin ölkələr deyil. Ona görə BMT-də ədalət, prinsipiallıq daha çox üstünlük təşkil edir, nəinki təzyiq və hansısa başqa metodlar.

Təhlükəsizlik Şurasına seçilməyimiz 2 cəhətdən tarixi hadisədir. İlk növbədə, bir tarixdir. Dünyanın bir nömrəli qurumu olan Təhlükəsizlik Şurasına Azərbaycan 2 dəfə sədrlik etmişdi. İkinci tərəfi ondan ibarətdir ki, biz buna çətin mübarizə şəraitində nail olmuşuq. Biz bu çətin mübarizəyə öyrəşmişik. Burada da qeyd edildi ki, bəzi hallarda Azərbaycana qarşı aparılan qara piara baxmayaraq, bizim beynəlxalq nüfuzumuz da artır, ölkəmizin inkişafı da göz qabağındadır. Bizə qarşı olan hücumların arxasında bir neçə amil dayanır. Mən bu barədə demişəm, siz də bilirsiniz, dünyada prinsipial mövqe sərgiləyən ölkələrə qarşı, adətən, təzyiqlər olur ki, kimsə onları öz tərəfinə çəksin. Bu istiqamətdə mübarizə gedir. Xüsusilə Azərbaycana – artıq geosiyasi mərkəz kimi formalaşan ölkəyə diqqət həddindən artıq böyükdür.

Sirr deyil ki, bizim mövqemizdən ən azı bölgədə gedən proseslər asılıdır. Hazırda Azərbaycan daha da böyük regionda söz sahibidir. Bizi kənara qoymaq mümkün deyil. Bizimlə

hesablaşmamaq olar, ancaq nəticə olmayacaq. Azərbaycanın mövqeyini nəzərə almadan heç bir layihə burada işləməyəcək, icra edilməyəcək.

Ona görə təbiidir ki, bizə qarşı müxtəlif üsullarla təzyiq göstərilir. Biz buna öyrəşmişik, fikir vermirik. Əsas odur sən əmin olasan ki, düzgün yoldasan. Əsas odur ki, Azərbaycan cəmiyyəti aparılan siyasəti bəyənsin, dəstəkləsin. Mənə prezident və siyasətçi kimi, ən çox güc verən, deyə bilərəm ki, Azərbaycan xalqının inamıdır, dəstəyidir, nəinki Azərbaycanın iqtisadi müstəqilliyi. Çünki bu inam məni daha da gücləndirir və göstərir ki, siyasi iradə olan yerdə və siyasətə sədaqət olan yerdə istənilən məsələ həllini tapa bilər.

Ötən il keçirilən prezident seçkilərində də göstərilən etimad bir daha onu göstərdi ki, bütün qarayaxma kampaniyalarına baxmayaraq, Azərbaycan xalqı öz seçiminə sadiqdir. Deyə bilərəm ki, Azərbaycan cəmiyyətinin yetkinliyi, savadı, intellektual səviyyəsinin yüksək olması ictimai proseslərin müsbət istiqamətdə inkişafına xidmət göstərir.

Ona görə mən gələcək illər üçün əsas mövzulardan birinə – təhsil məsələlərinə bir daha qayıtmaq istəyirəm. Təhsil hər bir ölkənin gələcəyini müəyyən edir. Bu sözlər çox işlədilir. Amma bu həqiqətdir. Savadı olmayan, yaxud da ki, aşağı səviyyədə olan cəmiyyətlərdə xarici müdaxilə uğurla nəticələnə bilər. Xarici təbliğat ölkənin inkişafına təsir edə bilər. Ona görə hazırlıqlı, yetkin, bilikli və savadlı cəmiyyət ekstremizmə, xarici müdaxiləyə və digər xoşagəlməz hallara qarşı bir sığortadır.

Məlumdur ki, tariximizin böyük əksəriyyəti başqa dövlətlərin, imperiyaların tərkibində keçib. Azərbaycan müstəmləkə idi. Müstəmləkəçiliyin müxtəlif formaları var idi, ancaq mahiyyət dəyişmirdi. Ona görə biz hələ çox işləməliyik ki, həm psixoloji sahədə, həm də iqtisadi və siyasi məsələlərdə özümüzü daha da ciddi şəkildə təsdiq edək. Burada təhsil, cəmiyyətin hazırlığı və vətənpərvərlik ön plandadır. Hesab edirəm ki, gələcək illərdə Azərbaycanda bu 2 əsas istiqamət üzrə çox müsbət hadisələr baş verəcəkdir.

Xüsusilə 2013-cü ildə doğrudan da böyük hadisələr baş vermişdir. Əminəm ki, 2014-cü il də Azərbaycan üçün uğurlu olacaqdır. Biz hamımız buna çalışırıq.

Bir daha bu yüksək mükafata görə sizə minnətdarlığımı bildirirəm. Bir daha sizin media layihələriniz haqqında deyə bilərəm ki, mən verilişləri izləyirəm. Burada oturanların, demək olar ki, hamısını qiyabi də olsa tanıyıram. Arzu edirəm ki, gələcəkdə də siz həmişə Azərbaycan xalqının rəğbətini qazanasınız. Sizə inanırlar, sizi izləyirlər və müasir dünyada sözün, medianın, əlbəttə ki, rolu getdikcə artır.

Sonda onu da qeyd etmək istəyirəm ki, 2013-cü il Azərbaycanda müstəqil jurnalistikanın inkişafı üçün də uğurlu olmuşdur. Azərbaycanda bütün azadlıqlar – söz, internet azadlığı mövcuddur. Senzura, heç bir müdaxilə yoxdur. Azərbaycanda azadlıqlarla bağlı hər şey lazımi səviyyədə təmin edilir.

ANS kanalının fəaliyyəti burada, əlbəttə ki, önəmli rol oynayır. Çünki siz birinci müstəqil telekanalsınız, siz bu istiqamətdə pionersiniz və əlbəttə ki, televiziyada yeni yanaşmaların, yeni metodların, yeni layihələrin müəllifi kimi, sizin çox böyük xidmətləriniz olubdur. Mən hesab edirəm ki, siz öz mövqenizi bu gün də saxlayırsınız.

Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, gələcəkdə də siz Azərbaycanda müstəqil, azad jurnalistikanın inkişafında fəal işləyəcəksiniz və ölkəmizin, dövlətimizin gələcək inkişafı üçün öz səylərinizi qoyacaqsınız.

Sizi bir daha salamlayıram, sizə minnətdarlığımı bildirirəm və yeni ildə uğurlar arzulayıram. Sağ olun.

## XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN HƏRBİ ŞƏHƏRCİYİNDƏ APARILAN TİKİNTİ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ, İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*18 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi şəhərciyində aparılan tikinti və yenidənqurma işləri ilə tanış olmuş, Xidmətin idman kompleksinin açılışında iştirak etmişdir.*

*Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik Vaqif Axundov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin hərbi şəhərcikdəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin Situasiya Mərkəzinin fəaliyyəti ilə tanış oldu.*

*Dövlətimizin başçısına son illər hərbi şəhərcikdə həyata keçirilən tikinti və yenidənqurma işləri barədə məlumat verildi. Qeyd olundu ki, hərbi şəhərciyin ərazisində kommunikasiya xətləri yenidən qurulub, köhnə tikililər sökülərək, yeni binalar inşa edilib. Yeni tikilən beşmərtəbəli 2 binada Xidmətin əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bundan əlavə, futbol meydançasında yenidənqurma işləri aparılıb, bütün idman qurğuları, o cümlədən qaçış zolağı, tribuna yenidən qurulub.*

*Sonra prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin idman kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi. Kompleksin girişində ulu öndər Heydər Əliyevin barelyefi vurulub, ümummilli liderin və prezident İlham Əliyevin ölkədə*

*idmanın və olimpiya hərəkatının inkişafına göstərdikləri diqqət və qayğıdan bəhs edən fotoguşə yaradılıb.*

*Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi Vaqif Axundov məlumat verdi ki, 8 min kvadratmetr ərazisi olan kompleksdə idmanın bütün növləri ilə məşğul olmaq üçün hər cür şərait var. Burada yüksək standartlara malik üzgüçülük hovuzu yaradılıb. Xidmətin əməkdaşlarının kompleksdə təlim keçmələri üçün bütün imkanlar mövcuddur.*

*Dövlətimizin başçısı Xidmətin əməkdaşlarının istifadəsində olan xüsusi geyim formalarına və ləvazimatlara baxdı. Qeyd olundu ki, bu müasir avadanlıqlar vasitəsilə sualtı mühafizə tədbirlərinin təşkili yüksək səviyyədə həyata keçirilir. Müxtəlif növ dalğıc kostyumları, hidrokostyum, sualtı xüsusi avtomat, fənər və kompüter saatı, həmçinin nəfəstənzimləyici, məsafəölçən, siqnalgücləndirici, sualtı videoçəkiliş aparatı, sualtı minaaxtaran və digər avadanlıqlar əməkdaşlara xidməti lazımi formada həyata keçirməyə imkan verir.*

*Diqqətə çatdırıldı ki, kompleksdə müasir avadanlıqla təchiz olunmuş tibb məntəqəsi də vardır. Buradakı təlimat zalları yüksək səviyyədə qurulmuşdur.*

*Azərbaycan Prezidenti əlbəyaxa döyüş zalında şəxsi heyətin nümunəvi çıxışlarına baxdı.*

*Məlumat verildi ki, trenajor zalı ən müasir avadanlıqla təchiz olunub. Kompleksdə basketbol, voleybol və digər kütləvi idman yarışlarının keçirilməsi üçün 360 tamaşaçı yerlik zal da yaradılıb. Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olduqdan sonra Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə görüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Xidmətin şəxsi heyətini salamlayaraq dedi:*

– Sabahınız xeyir olsun. Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi şəhərciyində aparılan yenidənqurma-tikinti işləri ilə tanış oldum. İşlər çox yüksək səviyyədə görülür, inzibati binalar tikilir, təmir edilir. Gözəl idman kompleksi tikilmişdir. Burada istənilən yarışı keçirmək mümkündür. Əlbəttə, burada əməkdaşların fiziki hazırlığı üçün bütün imkanlar vardır. Çünki Xüsusi Dövlət

Mühafizə Xidmətinin əməkdaşlarının peşəkarlığının tərkib hissəsi olan fiziki hazırlıq da yüksək səviyyədə olmalıdır. Burada idmanın bütün növləri ilə məşğul olmaq mümkündür. Əminəm ki, əməkdaşlar bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər, yüksək keyfiyyətlə, zövqlə tikilmiş bu idman kompleksi uzun illər uğurla fəaliyyət göstərəcəkdir.

Əlbəttə, burada əməkdaşların xüsusi hazırlığı üçün bütün imkanlar vardır. Mən əvvəlki illərdə Xidmətin müxtəlif obyektlərinin – həm xüsusi hazırlıqla bağlı, həm də digər obyektlərin açılışında iştirak etmişəm. Yəni bu gün Xüsusi Dövlət Mühafizə Xidmətinin maddi-texniki bazası kifayət qədər möhkəmdir. Bir neçə il bundan əvvəl hospital, təlim bazası açılmışdır. Xüsusi hazırlıq, fiziki hazırlıq, eyni zamanda, mühafizə tədbirlərinin gücləndirilməsi üçün bütün imkanlar var.

Bu gün yeni texnologiyalar tətbiq edilir. Əlbəttə ki, biz Xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi işində bu texnologiyalardan istifadə edirik, müşahidə imkanları genişlənir. Yəni texniki təchizat sizin işinizi yüngülləşdirir. Əməliyyat işləri də həmişə böyük önəm daşıyır. Xidmətin əməliyyat işləri də yüksək səviyyədədir.

Xidmətin çox böyük funksiyaları var. Dövlət orqanlarının, dövlət obyektlərinin mühafizəsi məsələləri böyük əhəmiyyət daşıyır. Bu gün müstəqil dövlətimizin uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilməlidir.

Azərbaycanda ictimai-siyasi asayiş təmin edilir, sabitlik mövcuddur və insanlarımız təhlükəsiz şəraitdə yaşayırlar. Əlbəttə ki, gələcək uğurlu inkişafımız üçün təhlükəsizlik tədbirləri həmişə diqqət mərkəzində olmalıdır. Mən Xüsusi Dövlət Mühafizə Xidmətinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirirəm.

Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Azərbaycana gələn çoxsaylı yüksək vəzifəli nümayəndə heyətlərinin mühafizəsi də sizin məsuliyyətinizdir. Nəzərə alsaq ki, bu gün Azərbaycan və Bakı artıq siyasi və iqtisadi mərkəzə çevrilibdir, burada keçirilən tədbirlərin sayı həddindən artıq çoxdur. Bütün mötəbər tədbirlərdə mühafizə məsələləri yüksək

səviyyədə təşkil edilir. Siz Azərbaycana gələn xarici dövlət, hökumət başçılarının mühafizəsini təmin edirsiniz. Zirvə görüşləri, digər beynəlxalq forumlar keçirilir. Əlbəttə ki, bu tədbirlərin mühafizəsi bilavasitə sizin məsuliyyətinizdir. Demək olar ki, Azərbaycanda hər ay, bəlkə də ayda bir neçə dəfə mötəbər tədbirlər keçirilir. Bu tədbirlərin yüksək səviyyədə keçirilməsində Xidmətin əməkdaşlarının rolu böyükdür.

Ölkəmizin iqtisadi təhlükəsizliyini təmin edən enerji sahəsində də sizin xidmətləriniz var. İxrac boru kəmərlərinin mühafizəsi də sizə həvalə edilibdir. Uzun illərdir ki, siz strateji enerji infrastrukturunun mühafizəsi ilə məşğulsunuz və bu illər ərzində bir dənə də xoşagəlməz hadisə olmamışdır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər kəmərlər, onların fəaliyyəti Azərbaycan ərazisində ən yüksək səviyyədə təmin edilir. Bir dəfə də olsun heç bir qanunsuz müdaxilə olmamışdır. Ancaq başqa ölkələrdə belə müdaxilələr, qanunsuz əməllər, o kəmərlərdən neftin oğurlanması halları kifayət qədər çox olub. Bu ilk növbədə, onu göstərir ki, Azərbaycan əhalisi bu məsələyə lazımi səviyyədə yanaşır. Mühafizə sistemi də lazımi səviyyədə qurulub. Həm elektron vasitələrlə müşahidə, həm də vizual müşahidə yüksək səviyyədə təmin edilir. Beləliklə, ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyan əsas ixrac kəmərlərimiz  Xidmət tərəfindən yüksək səviyyədə təmin edilir və qorunur.

Əlbəttə ki, mən Prezident kimi, Xidmətin uğurlu fəaliyyəti üçün həmişə öz dəstəyimi vermişəm. Xidmətin rəhbərliyindən gələn, demək olar ki, bütün təklifləri qəbul etmişəm. Xidmətin maddi-texniki bazasının yaxşılaşdırılması, əməkdaşların məişət problemlərinin həlli üçün lazım olan bütün göstərişlər verilmişdir. Bu gün deyə bilərəm ki, bu idman kompleksinin açılışı bu sahədə nəzərdə tutulmuş bütün işləri tamamlayır: hospital, təlim-məşq mərkəzi, idman kompleksi, situasiya mərkəzi və müasir avadanlıqlarla təchizat – bütün işlər yüksək səviyyədə aparılır.

Son illər ərzində biz sizinlə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşük. Bir daha deməк istəyirəm ki, mən Xidmətin fəaliyyətini yüksək qiymətləndirirəm. Xüsusi Dövlət Mühafizə Xidməti ölkəmizin uğurlu inkişafında böyük rol oynayır. Azərbaycanda təhlükəsizliklə bağlı bütün tədbirlər yüksək səviyyədə təmin edilir. Əminəm ki, bundan sonra da belə olacaqdır. Çünki yerləşdiyimiz region, əlbəttə ki, hamımızdan xüsusi diqqət tələb edir. Azərbaycanın ətrafında gedən xoşagəlməz proseslər, əlbəttə ki, bizi daha da səfərbər etməli, daha da diqqətli olmağa çağırmalıdır. Biz buna hazırıq. Bu gün Azərbaycanın uğurlu inkişafı, o cümlədən daxili sabitlik və təhlükəsizlik hesabına təmin edilir.

Sizə yeni ildə yeni uğurlar arzulayıram. Bu kompleksin, ümumiyyətlə, burada aparılan işlərin yüksək səviyyədə olduğunu bir daha qeyd etmək və sizi bu işlər münasibətilə təbrik etmək istəyirəm.

* * *

*Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsinin təşkili ilə bağlı imzaladığı fərmanla yaradılan bu qurum təsis edildiyi gündən etibarən digər hüquq-mühafizə orqanları kimi, ölkəmizdə sabitliyin və əmin-amanlığın təmin olunması, dövlətin təhlükəsizliyinin qorunması istiqamətində mühüm işlər görmüşdür. Azərbaycanın sürətli iqtisadi inkişafı, enerji sektorunda əldə edilən uğurlar, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rolun getdikcə artması, şaxələndirilmiş enerji marşrutlarının təhlükəsizlik məsələləri Xüsusi Dövlət Mühafizə Xidmətinin qarşısına yeni vəzifələr qoymuşdur. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsinin yaradılması qurumun fəaliyyətini daha da genişləndirmişdir. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Xüsusi Dövlət Mühafizə Xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının daha da artırılması, qurumun ən müasir texniki*

*avadanlıqlarla təchiz olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlandı.*

*Dövlət başçısının sərəncamı ilə Xüsusi Dövlət Mühafizə Xidmətinin Müasir Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Mərkəzi yaradılmışdır. Mərkəzdə dövlət orqanlarının internet informasiya resurslarının, operativlik və təhlükəsizlik tələblərinə cavab verən və hazırda Avropa ölkələrinin əksəriyyətində istifadə edilən «TETRA» radiorabitə sistemi tətbiq olunur. 2013-cü ilin aprelində prezident İlham Əliyevin fərmanı ilə Azərbaycanın xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin mühafizəsinin təmin edilməsi məqsədilə Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində Diplomatik Nümayəndəliklərin Mühafizəsi İdarəsinin yaradılması qurumun üzərinə yeni vəzifələr qoymuşdur.*

*Xüsusi Dövlət Mühafizə Xidməti son illər Azərbaycanda gedən sürətli inkişaf prosesləri, ölkədə nəhəng infrastruktur layihələrinin icrası, dövlət orqanlarının işinin keyfiyyətcə yeni mərhələyə daxil olması və digər beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi ilə bağlı üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla həyata keçirir. Şəxsi heyətin sosial həyat şəraitinin yaxşılaşdırılması, xidmətin səviyyəsinin daha da yüksəldilməsi ilə əlaqədar tədbirlər də ardıcıl olaraq davam etdirilir. Xüsusi Dövlət Mühafizə Xidmətinin idman kompleksinin tikilməsi və bu çərçivədə bir çox digər tədbirlərin həyata keçirilməsi bunun bariz nümunəsidir.*

## QANLI YANVAR FACİƏSİNİN 24-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də–ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.*

*1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. 24 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalmışlar.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğından 24 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə dərin nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir.*

*20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu qanlı qırğın keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsini, beynəlxalq hüquq normalarını, həmçinin iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra*

müddəalarını pozmuşdur. Respublikanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin isə bu faciədən sonra yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən əllərini çəkmədilər. Həmin vaxt Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev onların əksinə olaraq, həyatını təhlükədə qoyaraq faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi və Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

## GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*21 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə şəhərinə gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə yenidən qurulan Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət etdi.*

*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev prezident İlham Əliyevə Heydər Əliyev parkında aparılan yenidənqurma və abadlıq işləri barədə məlumat verdi. Qeyd olundu ki, parkda yenidənqurma işlərinə 2012-ci ildə başlanılıb. Heydər Əliyev parkının girişində möhtəşəm «Zəfər tağı» ucaldılıb. Orijinal layihə əsasında inşa olunan bu istirahət ocağında muzey və kafe də fəaliyyət göstərəcək. Buraya gələn qonaqlar «Zəfər tağı»nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev parkının mənzərəsini seyr edə biləcəklər. Göz oxşayan xiyabanda böyük həcmdə yaşıllaşdırma işləri həyata keçirilmiş və burada istirahət üçün hər cür şərait yaradılmışdır. Parkda yaradılan süni göl və orijinal şəlalə bu məkana xüsusi gözəllik verir. Bundan başqa, park-kompleksində müxtəlif məişət obyektləri, əyləncə mərkəzi, istirahət guşələri və uşaqlar üçün nağıl qəhrəmanlarını canlandıran «Disneyland» əyləncə mərkəzi də fəaliyyət göstərəcək.*

*Hazırda parkda gənclər üçün əyləncə mərkəzi və qış parkının tikintisi davam etdirilir.*

*Qeyd olundu ki, ümummilli lider Heydər Əliyev hələ sovet dövründə burada Gəncənin rəmzi sayılan çinar ağacları əkib. Həmin ağaclar parka xüsusi gözəllik verir.*

*Daha sonra prezident İlham Əliyev Gəncədə möhtəşəm layihə əsasında yeni tikilən Heydər Əliyev Mərkəzinin açılışında iştirak etdi.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Mərkəzlə tanış* olan prezident *İlham Əliyevə burada görülən işlər barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, ulu öndərə gəncəlilərin* sonsuz *məhəbbətinin təcəssümü* olan *Heydər Əliyev Mərkəzinin tikintisinə 2012-ci ildə başlanılıb. Mərkəzin əhatə* etdiyi *ərazidə* orijinal *memarlıq üslubunda fəvvarələr və müasir işıqlandırma* sistemi *quraşdırılıb. Ərazidə əsaslı abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Dövlətimizin başçısına məlumat* verildi ki, *Heydər Əliyev Mərkəzinin* tikintisində *şəhərsalma memarlığının* son *nailiy-yətlərindən, həmçinin keyfiyyətli və müasir* materiallardan *istifadə* olunub. *Binanın fasadında böyük peşəkarlıqla işlənən* milli *memarlıq elementləri diqqəti cəlb* edir. *Mərkəz* perimetr *boyunca səkkizbucaqlı sütunlarla əhatə* olunub. *Üçmərtəbəli Mərkəzdə şüşədən müasir günbəz quraşdırılıb. Günbəzdə Azərbaycanın xəritəsi əks* olunub. Burada *fəaliyyət göstərəcək Heydər Əliyev* Muzeyi *ulu öndərin keçdiyi zəngin həyat* yolu *və çoxşaxəli fəaliyyətini dolğun əks* etdirir. *Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı,* onun *zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat* almaq *mümkündür. Ulu öndərin Naxçıvan* Muxtar *Respublikası* Ali *Məclisinin Sədri və Azərbaycan* Respublikasının Prezidenti *kimi, 1993–2003-cü illərdə həyata keçirdiyi böyük işlərə, Azərbaycanın rifahı, gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasətə, ölkəmizin hərtərəfli* sosial-iqtisadi *inkişafına* yol *açan layihələrə,* ordu *quruculuğu,* xarici *siyasət, mədəniyyət və digər sahələrə* dair maraqlı fotolara, *müxtəlif sənədlərə,* o *dövrlərə* aid kitablara, *qəzetlərə və digər* materiallara *muzeydə geniş* yer verilib. Burada *ümummilli* lider *Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə* tarixi *səfərlərini əks etdirən* kitablar *və qəzetlər də nümayiş* etdirilir.

*Muzeydə Gəncənin* son *illərdə keçdiyi əsaslı* sosial-iqtisadi *inkişaf* yoluna, prezident *İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının* bariz *nümunələrinə də geniş* yer *ayrılıb.* Ekspozisiyada informasiya-kommunikasiya *texnologiyalarının imkanlarından* da *peşəkarlıqla istifadə olunması diqqəti cəlb* edir. *Heydər Əliyev*

*Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, «İDEA» İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hərtərəfli təchizatı olan iclas və konfrans zalları vardır. Akt zalında şəhərin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkündür. Xalçaçılıq tədris mərkəzi, rəqs dərnəyi və sərgi salonu da muzeyin layihəsinin orijinallığına dəlalət edir.*

*Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra prezident İlham Əliyev Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2014-cü il*

Biz bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi və bütün gəncəliləri ürəkdən təbrik edirəm.

Düz 2 il bundan əvvəl – 2012-ci il yanvarın 21-də bu parkın təməl daşı qoyulmuşdur. Gözəl təsadüfdür ki, 2 ildən sonra biz parkın və möhtəşəm Mərkəzin açılışını qeyd edirik. Bu parkın və Mərkəzin yaradılması çox böyük hadisədir. Möhtəşəm Mərkəz ulu öndərin xatirəsinə gözəl abidədir, burada ulu öndərin həyat və fəaliyyətinin bütün anları, bütün mərhələləri əks olunub. Burada istənilən beynəlxalq tədbirin keçirilməsi üçün də gözəl imkanlar vardır.

Bu böyük parkın yaradılması da bir möcüzədir. Deyə bilərəm ki, Azərbaycanın ən böyük parkıdır. Ərazisi 450 hektar, uzunluğu 2 kilometrdir. Gəzinti, istirahət üçün bütün imkanlar var. Cəmi 2 il ərzində, demək olar ki, yeni gözəl bir məhəllə yaradılıb. Əminəm ki, bu parkın ətrafında gələcəkdə yeni yaşayış binaları da tikiləcək. Belə layihələr vardır.

Dünyada bir neçə böyük park vardır. Onlardan biri də Gəncə parkıdır. Dünyanın 5 ən böyük parkı arasında artıq Gəncə parkı da var. Bu bizim hamımızı – nəinki gəncəliləri, bütün Azərbaycan xalqını sevindirir. Çünki boş ərazidə 2 il ərzində belə möhtəşəm parkın, Mərkəzin yaradılması gəncəlilərin öz diyarına olan məhəbbətinin əlamətidir. Mən sizi bütün bu uğurlar münasibətilə ürəkdən təbrik edirəm.

Burada bundan sonra da abadlıq işləri aparılacaq. Minlərlə, bəlkə də 10 minlərlə ağac əkilib və bu ağaclar getdikcə böyüyəcək, yeni ağaclar əkiləcək, yeni binalar, yaşayış binaları tikiləcək. Gözəl bir

göl, amfiteatr yaradılıb, bu doğrudan da bir möcüzədir. Əminəm ki, gəncəlilər və şəhərin qonaqları buraya gələrkən buradan ən xoş təəssüratlarla ayrılacaqlar. Belə möhtəşəm layihənin icra edilməsi üçün gəncəlilər çox böyük səylər göstərmişlər, xüsusilə yerli icra hakimiyyəti və fəallar, Gəncə sakinləri. Bu doğrudan da gözəl hadisədir. Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Belə işlər, sözün əsl mənasında, öz xalqına, öz şəhərinə, diyarına olan məhəbbətin təzahürüdür. Ümumiyyətlə, Gəncə gözəlləşir, abadlaşır. Bu mənim Gəncəyə 12-ci səfərimdir. Mən, demək olar ki, son 10 il ərzində hər il, yaxud da ildə 2 dəfə Gəncədə olmuşam və hər dəfə yeniliklər, dəyişikliklər, abadlıq, quruculuq görürəm. İndi binalar təmir edilir, küçələr genişlənir, gözəl bərpa işləri aparılır. Gəncəyə xas olan xüsusi memarlıq üslubu qorunur, saxlanılır, harada lazımdırsa bərpa edilir, ictimai yerlər salınır. Bu da çox önəmlidir. Mən dəfələrlə demişəm ki, Bakıda və bütün başqa şəhərlərdə ictimai yerlər yaradılmalıdır – parklar, bağçalar, ictimai zonalar ki, insanlar burada öz asudə vaxtlarını keçirsinlər. Bu ictimai yerlərin arasında ən böyüyünü siz yaratmısınız. Ən böyük park, ictimai mərkəz Gəncədədir. Parkın gələcək inkişafı, abadlaşması, yeni mədəniyyət ocaqlarının yaradılması, əlbəttə ki, bütün gəncəliləri buraya cəlb edəcəkdir.

Gəncənin mədəni həyatı zəngindir. Həmişə belə olub. Gəncə Azərbaycanın o cümlədən, mədəniyyət mərkəzlərindən biri olmuşdur. Hazırda şəhərin mədəni həyatı kifayət qədər zəngindir. Yeni muzeylər açılır. Nizami Muzeyi, Məhsəti Gəncəvi Mədəniyyət Mərkəzi, ondan əvvəl bir neçə muzey açılmışdır, filarmoniyanın tikintisi davam edir. Hesab edirəm ki, işlər daha da sürətlə getməlidir. Bu məqsədlə əlavə tədbirlər görüləcək ki, filarmoniya da qısa müddət ərzində istifadəyə verilsin. Bilirəm ki, gəncəlilərin böyük arzusudur ki, filarmoniya olsun, olacaqdır. Artıq daş işləri başa çatmaq üzrədir. Hesab edirəm ki, biz bu il də olmasa, gələn il filarmoniyanın açılışını bərabər qeyd edəcəyik. Yəni şəhərin çox zəngin və dolğun ictimai, mədəni həyatı var və bu məni sevindirir, çünki Gəncə Azərbaycanın qədim şəhəridir, ikinci şəhəridir, Nizami

yurdudur. Əlbəttə ki, Gəncənin tarixi keçmişini, zəngin tarixi irsini qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur.

Gəncə müasirləşir, burada yeni binalar tikilir, o cümlədən sənaye inkişaf edir, böyük sənaye kompleksləri yaradılır, iş yerləri açılır. Gəncə Azərbaycanın sənaye mərkəzinə çevrilir. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm. Burada yeni sənaye komplekslərinin – alüminium və poladəritmə komplekslərinin tikintisi nəzərdə tutulur. Burada, ümumiyyətlə, iş yerlərinin açılması ilə bağlı gələcək planlar da həyata keçiriləcəkdir. Ola bilər ki, yaxın gələcəkdə başqa rayonlardan da işləmək üçün Gəncəyə gələcəklər. Bir sözlə, şəhərin inkişafı çox sürətlidir, təqdirəlayiqdir. Gəncənin gələcək inkişafı ilə bağlı konkret fikirlər, planlar vardır. Əminəm ki, onların hamısı reallaşacaq və Gəncənin inkişafı üçün əlavə işlər də görüləcəkdir.

Bütövlükdə ölkəmizdə işlər yaxşı gedir. Biz 2013-cü ili yaxşı nəticələrlə başa vurmuşuq. 2014-cü il də yaxşı başlayıbdır. Biz ilin birinci ayında sizinlə görüşürük. Əminəm ki, 2014-cü il də Gəncə, bütün başqa şəhər və rayonlarımız üçün uğurlu il olacaqdır. Çünki iqtisadiyyat artır, sosial məsələlər öz həllini tapır, Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirir. Bir sözlə, bu ili də uğurla başa vurmaq üçün bütün imkanlar vardır. Sadəcə olaraq, biz fəal işləməliyik, hərə öz yerində öz zəhməti, işi ilə doğma Vətənimizin inkişafına töhfəsini verməlidir. Mən gəncəlilərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Siz həmişə öz dövlətinizə çox bağlı olmusunuz, müstəqilliyimizin möhkəmlənməsində də fəal olmusunuz. Azərbaycan Demokratik Respublikası da Gəncədən başlayıbdır. Bu dövlətçilik ənənələri yaşayır, yaşayacaqdır. Ölkəmizin inkişafı üçün bütün lazımi tədbirlər görülür, görüləcəkdir. Azərbaycan bundan sonra da yalnız irəliyə gedəcəkdir. Bir daha sizi ürəkdən salamlayıram və təbrik edirəm.

**E l ç i n Z e y n a l o v** *(olimpiya çempionu Toğrul Əsgərovun məşqçisi):* Cənab Prezident, mən Sizə gəncəlilərin səmimi salamını çatdırıram.

**İ l h a m Ə l i y e v:** Biz keçən ay görüşmüşdük.

**E l ç i n  Z e y n a l o v:** Bəli, Qusarda. Gəncəlilər Sizinlə fəxr edir. Mən də fəxr edirəm, sevincimdən səhərədək yatmamışam.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, Toğrul necədir?

**E l ç i n  Z e y n a l o v:** Yaxşıdır, Allaha şükür.

**İ l h a m  Ə l i y e v:** Məşq edir?

**E l ç i n  Z e y n a l o v:** Bəli, edir, bu Olimpiadada bizi sevindirəcək.

*Sonra Prezident Toğrul Əsgərovla görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Toğrul qəhrəmandır, Gəncənin və Azərbaycanın şöhrətini ucaldıb.

**P ə r v i n  K ə r i m z a d ə** *(Gəncə Dövlət Universitetinin elmi işlər üzrə prorektoru):* Möhtərəm cənab Prezident, icazə verin, Sizi milli-mənəvi dəyərlərin beşiyi olan doğma Gəncəmizdə salamlayaq, bütün gəncəlilər adından Nizami yurduna «Xoş gəlmisiniz!» – deyək. Qarşısında dayandığımız, Sizin də vurğuladığınız kimi, möhtəşəm Heydər Əliyev Mərkəzi bütün gəncəlilərin cahanşümul şəxsiyyət olan Heydər Əliyevə dərin məhəbbətinin və hörmətinin rəmzi ifadəsidir. İnanın ki, bu Mərkəzin ərsəyə gəlməsində hər bir gəncəlinin öz töhfəsi vardır. Bizim bu Heydər Əliyev Mərkəzində ulu öndərin irsi öyrəniləcək, azərbaycançılıq fəlsəfəsi, dövlətçilik məfkurəsi, Azərbaycan dili, tarixi, mədəniyyətinin təbliği sahəsində mühüm işlər görüləcəkdir. Amma ən əsası burada «Toefl AJax» kursları təşkil olunacaq ki, onlar gənclərimiz üçün xaricdə təhsil almağa geniş imkan yaradacaqdır. Gənclərin asudə vaxtının səmərəli təşkili üçün xüsusi yaradıcılıq dərnəkləri, xalçaçılıq tədris mərkəzi, eyni zamanda, «10D sinema» da fəaliyyət göstərəcəkdir. Bir sözlə, biz əminik ki, bura tezliklə bütün gəncəlilərin üz tutduğu ən sevimli məkana çevriləcəkdir.

Cənab Prezident, bizim şəhər son dövrlərdə özünün intibah dövrünü yaşayır. Gəncəyə daxil olanda biz Nizami möhtəşəmliyi ilə qarşılaşırıq. Nizami Gəncəvinin «Xəmsə»sindən olan daş kitabələr, yenidən qurulan Nizami məqbərəsi, Nizami Muzeyi – bütün bunlar insanların qəlbini riqqətə gətirir. Əlbəttə ki, bunlar Sizin xüsusi diqqət və qayğınız nəticəsində mümkün

olmuşdur. Son dövrlərə qədər Gəncədə əgər bir muzey var idisə, bu gün 5 muzey öz zənginliyi ilə hər birimizin qürur mənbəyinə çevrilib. Gəncəlilər hər zaman öz şəhərləri ilə qürur duyublar. Amma bu gün bu qürurun həddi-hüdudu yoxdur. Bizə bu fəxarət hissini bəxş etdiyiniz üçün gəncəlilər adından Sizə təşəkkürümüzü bildiririk.

Bütün dünya XXI əsrin əvvəllərində gender bərabərliyindən, qadınların cəmiyyətdəki mövqeyindən danışır. Halbuki bizim gəncəli xanım Məhsəti Gəncəvi hələ 900 il öncə cəmiyyətdə öz mövqeyini təsdiqlədi. Bir şairə, şahmatçı, filosof, musiqiçi kimi, adını tarixə yazdı. Məhz Sizin dəstəyinizlə Məhsəti Gəncəvi yaradıcılığının 900 illiyi təkcə Azərbaycanda deyil, ən yüksək səviyyədə YUNESKO-nun xətti ilə qeyd olundu. Məhsəti Gəncəvi bütün dünyada maraq və məhəbbətlə qarşılandı.

İcazə verin, fürsətdən istifadə edib, Azərbaycan mədəniyyətinin, eləcə də onun tərkib hissəsi olan Gəncə mədəniyyəti nümunələrinin dünyada təbliği sahəsində misilsiz xidmətləri olan Heydər Əliyev Fondunun prezidenti, xanımlar xanımı Mehriban Əliyevaya bütün Gəncə ictimaiyyəti adından öz təşəkkürümüzü bildirək. Xüsusilə qeyd etmək istəyirəm ki, Mehriban xanımın sayəsində Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin əsərləri Avropada sərgiləndi, bir daha bu insanların dühası Avropada öz təsdiqini tapdı. Hələ onu da deyim ki, təsəvvür edin, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin yaratdıqları, yazdıqları dövrdən bu günə qədər nə qədər kitab çıxmışdısa, son dövrdə ondan daha da artıq Azərbaycan, rus, fransız, ingilis və digər dillərdə kitablar çap edildi və yayıldı.

Cənab Prezident, biz hər zaman Sizin siyasətinizi izləyirik. Sizin apardığınız məqsədyönlü, cəsarətli siyasətin uğurları göz qabağındadır. Bütün Azərbaycanda olduğu kimi, son prezident seçkilərində Gəncəmizdə də insanlar böyük fəallıq göstərdilər. Bu bizi çox sevindirir. Bütün insanlar öz düzgün seçimlərini etdilər. Çünki xalqımız doğrudan da uzaqgörən və qədirbilən xalqdır. Qədirbilən xalq başa düşdü ki, ulu öndərin ideyaları yaşadıqca,

Azərbaycan da var olacaqdır. Odur ki, biz əminik, bütün gəncəlilər hər zaman Sizinlə olub və gələcəkdə də Sizinlə olacaqlar.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**F u a d Ə l i y e v** *(Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin akademik katibi, Əməkdar elm xadimi):* Cənab Prezident, mən də Gəncəmizdə elm-təhsil sahəsində böyük layihələrin həyata keçirilməsi haqqında qısaca məlumat vermək istərdim. Cənab Prezident, hələ 1980-ci ildə ulu öndərimiz – müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev Gəncə şəhərinin inkişafını, elm-təhsil sahələrini, universitetləri görərək, burada Regional Elmi Mərkəz yaratdı. Həmin elmi mərkəzin yaradılması o dövr üçün çox böyük hadisə idi. Biz, cənab Prezident, Sizə çox minnətdarıq. Siz ulu öndərimizin siyasətini davam etdirərək, Gəncə Regional Elmi Mərkəzin bazasında AMEA-nın Gəncə bölməsini yaratdınız və onun tərkibində 7 institut fəaliyyətə başlamışdır. Bu institutların fəaliyyətə başlamasında Milli Elmlər Akademiyasının rəhbərliyinə, Prezident yanında Elmin İnkişafı Fonduna və şəhər icra hakimiyyətinə dərin minnətdarlığımızı bildiririk. Bu institutlar artıq mütəşəkkil formada fəaliyyət göstərir. Siz də çıxışınızda çox gözəl qeyd etdiniz ki, Gəncə metallurgiya sahəsində böyük ənənəsi olan şəhərdir. Əlvan metallurgiya sənayesi Gəncədə ötən əsrin 60-cı illərindən fəaliyyət göstərir. Biz qarşımıza məqsəd qoymuşuq ki, metallurgiya sənayesinin inkişafında elmi nailiyyətlər, innovativ xarakterli tədqiqatlar tətbiq olunmalıdır.

Cənab Prezident, Siz 2014-cü ili «Sənaye ili» elan etdiniz. Qeyd etdiniz ki, Gəncədə polad emalı kompleksi yaradılacaqdır. Bu çox nəhəng bir kompleksdir. Biz alimlər bunu çox yaxşı başa düşürük və bu sahədə də tədqiqat işləri aparırıq. Gəncəmizdə – qərb bölgəsində yalnız dəmir, alüminium, qızıl deyil, eyni zamanda, metallurgiya üçün vacib olan kobalt, titan filizçay yataqlarında çox zəngin yayılıb. Biz hesab edirik ki, Gəncə gələcəkdə bu sahələr üzrə də öz inkişafını tapacaqdır. Təsadüfi deyil ki, 1 milyon əhalisi olan şəhərin layihəsini biz

icra hakimiyyəti ilə müzakirə etdik və Gəncənin bu böyük inkişafına görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, çox sağ olun ki, şəhərimizdə 5 qəsəbənin yaradılması haqqında sərəncam verdiniz və artıq həmin qəsəbələrin infrastrukturunda böyük işlər görülür. Bütün bunlar sözsüz ki, gəncəlilərdə Sizə böyük fəxarət hissi yaradır, dövlətimizə, dövlətçiliyimizə olan münasibəti bir daha sübut edir. Gözəl bir atalar məsəli var: görünən dağa bələdçi nəyə lazımdır? Cənab Prezident, Siz özünüz də gəzdiniz, gördünüz, çox böyük layihələrin bir neçəsi ilə tanış oldunuz. Gəncəlilər bütün bunlara görə Sizə minnətdarlıq edirlər. Çünki Gəncəmiz çox qədim mədəniyyət ənənələrinə malik bir şəhərdir. Siz ötən səfərinizdə, 2012-ci il yanvarın 21-də Cavad xan küçəsində gəncəlilərə çox gözəl bir söz dediniz ki, burada Cavad xanın ruhu hiss olunur. Alimlər qədim Gəncənin tarixi köklərini araşdırmalıdırlar. Bu məqsədlə 150-dən artıq tarixi abidə yenidən pasportlaşdırıldı, onlar Gəncə memarlıq üslubunda yenidən bərpa olundu.

Nizaminin adını daşıyan böyük küçədə heç də Cavad xan küçəsindən geri qalmayan, ənənəvi Gəncə üslubunda, Nizami Gəncəvi demişkən, qırmızı kərpiclə Gəncə memarlığına xas olan böyük bir şəhər yaradılır. Siz dediyiniz kimi, Gəncəmizdə 4 xiyaban vardır. Ən böyüyündə klassiklərimizin tarixi abidələri bərpa olunur. ABŞ-dan bizə arxeoloqlar, alimlər gəldilər. Biz onları abidələrimizlə tanış etdikdə heyran qaldılar. Gəncədə Nizaminin əsərlərində təsvir edilən musiqi alətləri ilə tanış oldunuz. Bu heç Avropada olmayanda bizdə var idi. Mirzə Şəfi kimi böyük dühanın əsərlərinə Avropada klassik musiqilər yazılır. Yəni Gəncə çox böyük, çox gözəl bir şəhərdir və biz gəncəlilər Sizə çox minnətdarıq, cənab Prezident. Çünki Siz Gəncəmizdə nəinki elm-təhsil sahəsində, milli dəyərlərimizin bu formada qorunmasına da çox böyük kömək göstərirsiniz. Biz – bütün Gəncə ziyalıları, alimləri Sizə bu dövlətə, dövlətçiliyimizə, elmimizə göstərdiyiniz qayğıya görə bir daha dərin minnətdarlığımızı bildiririk. Sizin verdiyiniz bütün qərarlar

Gəncədə yüksək səviyyədə həyata keçiriləcəkdir. Çox sağ olun ki, yenidən Gəncədəsiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**H ə s ə n b a l a  S a d ı q o v** *(Gəncə Dövlət Universitetinin tarix fakültəsinin dekanı, professor):* Cənab Prezident, mən də Sizi qədim tarixi ənənələrə, parlaq keçmişə, dünya tarixində dərin iz buraxan bir məmləkətin ən mühüm şəhərlərindən birində – Heydər Əliyev kursuna, Azərbaycan dövlətçiliyinə həmişə sədaqətin rəmzi olan Gəncə şəhərində çoxminli ziyalılar adından salamlayıram.

Cənab Prezident, mən ixtisasca beynəlxalq münasibətlər üzrə mütəxəssisəm. Mən bugünkü görüşdə istərdim ki, beynəlxalq münasibətlər kontekstindən Azərbaycanda və Gəncədə həyata keçirilən tədbirlərin qısa xülasəsi haqqında bir neçə kəlmə deyim. Doğrudan da Azərbaycan son illərdə beynəlxalq tədbirlərin ən mühüm mərkəzlərindən birinə çevrilibdir. Mən burada bir ifadəni işlətmək istəyirəm ki, Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlər, sözün həqiqi mənasında, hazırda dünyada təşkil olunan beynəlxalq tədbirlərə yeni bir forma, yeni bir model, yeni bir məna verib yenidən dünyaya qaytarır. Bu bizim çox böyük qələbəmizdir. Çox sevindirici haldır və gəncəlilər çox sevinirlər ki, beynəlxalq tədbirlərin sayının artması həmin tədbirlərin bir qisminin Gəncədə həyata keçirilməsinə çox güclü təsir göstərmişdir. Son bir neçə ildə Gəncə, sözün həqiqi mənasında, beynəlxalq tədbirlərin mərkəzinə çevrilmişdir. Biz buna görə Sizə minnətdarlığımızı bildiririk.

Ən mühüm tədbirlərdən biri 56 ölkənin Prezidenti və Baş nazirini özündə birləşdirən Madrid Klubunun tədbirinin, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin himayədarlar qrupunun iclasının Gəncədə keçirilməsi, nümayəndələrin Sizin tərəfinizdən Bakıda qəbul edilməsi, tövsiyələrinizi verməyiniz, Nizami yurduna, Nizami irsinə, Gəncə şəhərinin tarixinə aid mülahizələrinizi söyləməyiniz, sözün həqiqi mənasında,

gəncəliləri bu əzəmətli işləri, həqiqi mənada bu möcüzələri reallaşdırmağa həvəsləndirir, istiqamətləndirir.

Cənab Prezident, bir məsələni demək istəyirəm. Mən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi barədə bir yazı yazmışdım. Siz də Bakıda çıxışınızda bu məsələyə çox ciddi toxundunuz. Dediniz ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv olması adi tədbir deyil, tədbirlərin zirvəsində dayanan bir tədbirdir. 16 turda mübarizə getdi və necə oldu ki, Azərbaycan qalib gəldi?! Azərbaycan Prezidentinin dünyada həyata keçirdiyi tədbirlər qalib gəldi. Burada ixtisasıma uyğun olaraq bir ifadəni işlədirəm, dünya dövlətlərinin reytinq əmsalı nəyə görə müəyyən olunur? Sözünün bütövlüyünə, əqlin itiliyinə, dünyaya göndərilən mesaja, dünya birliyində tutduğun yerə və dünya ölkələri qarşısında götürdüyün öhdəliklərə görə. Bunların hamısına görə Azərbaycanın hazırda dünyada ən böyük reytinqi vardır.

Sizin qurduqlarınız bu gün üçün, sabah üçün deyildir. Siz Gəncəni, Azərbaycanı əbədiyyət üçün qurursunuz. Allah Sizə kömək olsun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, xoş sözlərə görə sizə minnətdaram. Siz doğrudan da çox vacib mövzulara toxundunuz. Dediyiniz sözlər bir daha onu göstərir ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf edir. Mən bunu dəfələrlə demişəm ki, Azərbaycan hərtərəfli şəkildə inkişaf edir. Hər bir sahə üzrə konkret proqram, planlar, iş planı vardır. Biz hər bir istiqamət üzrə inkişaf görürük. Mədəniyyət sahəsində – ölkə üzrə tikilən mədəniyyət sarayları, tarixi abidələrimizin bərpası, tariximizi, mədəniyyətimizi dünyaya çatdırmağımız, beynəlxalq forumlarda Azərbaycan haqqında dolğun, düzgün məlumatın çatdırılması – bütün bunlar Azərbaycanı dünyaya müasir və eyni zamanda, böyük tarixə, mədəniyyətə malik olan ölkə kimi təqdim edir.

Sənaye ilə bağlı siz tamamilə haqlısınız, Gəncənin çox böyük sənaye potensialı var. Gəncənin inkişaf planı elə tərtib edilməlidir ki, biz uzunmüddətli inkişaf strategiyamızı düzgün

quraq. Çünki Gəncə də böyüyəcək, Azərbaycan da böyüyəcək, əhali də artır. Gəncədə gələcəkdə 1 milyon əhali yaşayacaq. Şəhərsalma strategiyası düzgün qurulmalıdır, gələcəkdə iş yerləri ilə təmin etmək üçün əlavə tədbirlər görülməlidir. Biz 1 milyondan artıq iş yeri yaratdıq. Ancaq əhali artır. Bax, keçən il Azərbaycanda 170 min uşaq doğulubdur. Əhali artır, artacaqdır. Ona görə Azərbaycanın inkişafı, sənayenin inkişafı, şəhərsalma strategiyamız buna uyğun olmalıdır. Sənaye və iqtisadiyyat sahələrindən danışarkən deməliyəm ki, bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Son 10 il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat Azərbaycan iqtisadiyyatı olmuşdur. Təsadüfi deyil ki, dünya iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycan 39-cu yerdədir. 200 ölkə arasında 39-cu yerdə olmaq çox böyük bir nailiyyətdir. Neft strategiyamız, qaz siyasətimiz bu gün dünyanın diqqətini cəlb edir. Bizim qəbul etdiyimiz qərarlar gələcəkdə regionumuzda və müəyyən mənada Avropada enerji təhlükəsizliyi məsələlərini həll edəcəkdir.

Bizim beynəlxalq mövqemiz birmənalıdır, çox prinsipialdır, qeyd etdiyiniz kimi, dünya birliyinin rəğbətini qazanıbdır. Bizə nəyə görə səs verdilər? Ona görə ki, gördülər ədalət bizim tərəfimizdədir. Ona görə ki, gördülər biz ədaləti müdafiə edəcəyik. Biz heç bir təzyiqə boyun əyməyəcəyik. Biz prinsipial, ədalətli mövqeni müdafiə edəcəyik və 2 il ərzində Təhlükəsizlik Şurasında bunu da etdik.

Azərbaycanda hər bir sahə – təhsil, səhiyyə üzrə, ictimai proseslər çox müsbət istiqamətdə gedir. Siz qeyd etdiniz ki, müxtəlif forumlar keçirilir. Biz buna artıq öyrəşmişik. Demək olar ki, Azərbaycanda hər ay zirvə görüşləri, prezidentlər, dövlət, hökumət başçıları səviyyəsində tədbirlər, beynəlxalq forumlar keçirilir. Nizami Gəncəvi Beynəlxalq Cəmiyyətinin işi artıq genişlənir. Bu nəinki bölgədə, dünya miqyasında böyük bir ictimai hərəkata çevrilmişdir. Madrid Klubu dünyanın mötəbər təşkilatlarından biridir, artıq Nizami Gəncəvi Cəmiyyəti ilə elə bil ki, vahid siyasət aparır.

Gəncədə tədbirlər keçirilir, gələcəkdə də keçiriləcək. Gəncə 2016-cı ildə Avropa gənclərinin paytaxtı elan edilibdir. Bir sözlə, ölkəmizin strateji inkişafı ilə bağlı düzgün seçilmiş siyasət artıq özünü göstərir. Ona görə ictimai proseslər də müsbət istiqamətdə gedir, Azərbaycan xalqı rahat, təhlükəsiz şəraitdə yaşayır. Biz indi dünyada gedən prosesləri izləyirik. Yaxın ətrafda hansı hadisələr baş verir. Bu barədə danışmaq istəmirəm. Amma biz bu gün informasiya əsrində yaşayırıq. Hər kəs hər şeyi görür, bilir. Bizim yerləşdiyimiz bölgədə proseslər mürəkkəbdir. Ancaq Azərbaycan bir sabitlik, inkişaf adasıdır, həmrəylik diyarıdır. Bu bizim ən böyük üstünlüyümüzdür. Humanitar forumlar, Mədəniyyətlərarası Dialoq forumları – bu gün Azərbaycan artıq dünya miqyasında milli və dini münasibətlər məsələlərinin həllində nümunə ölkə kimi göstərilir. Əslində bu həmişə belə olubdur. Azərbaycan xalqı həmişə xeyirxah, dözümlü xalq olub. Ancaq bunu dünyada bilmirdilər. Biz bunu dünyaya çatdırdıq. Ona görə biz gələcəkdə ölkəmizin, əlbəttə ki, uğurlu inkişafını təmin edəcəyik, ancaq müxtəlif tədbirlərlə Azərbaycan haqqında dünyaya daha da dolğun məlumat çatdırmalıyıq. Bunların içərisində ən gözəl tədbirlər Azərbaycanda keçirilən tədbirlərdir. Çünki son 10 il ərzində mən, bildiyiniz kimi, dəfələrlə xaricdə müxtəlif forumlarda, tədbirlərdə, konfranslarda Azərbaycan haqqında danışmışam, reallıqları təqdim etmişəm. Əlbəttə, bunun da böyük əhəmiyyəti vardır. Ancaq yenə də bəziləri fikirləşir ki, Prezident gəlib öz ölkəsini tərifləyir. Amma Azərbaycana, Gəncəyə, başqa şəhərlərə gələndə bunu artıq öz gözləri ilə görürlər ki, Azərbaycan necə ölkədir. Azərbaycanın uğurlu inkişafı deyə bilərəm ki, bəzilərini qıcıqlandırır, bəzilərini, necə deyərlər, paxıllıq hisslərinə sürükləyir. Bu da inkişafın və uğurun qiymətidir. Eybi yoxdur, qoy həmişə bizə paxıllıq etsinlər ki, biz həmişə irəliyə gedək.

Bir daha sizi ürəkdən salamlayıram, təbrik edirəm, sizə cansağlığı arzulayıram. Bizim görüşlərimiz, Gəncədə gözəl hadisələr hələ çox olacaqdır. Sağ olun.

* * *

*Heydər Əliyev Mərkəzində Müasir İncəsənət Muzeyi və Amfiteatr da inşa edilmişdir. Burada tanınmış rəssamların müxtəlif əl işləri və digər sənət nümunələri nümayiş etdirilir.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin həyatində ağac əkdi.*

## Olimpiya parkının təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Gəncədə Olimpiya parkının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına respublika əhəmiyyətli, o cümlədən Gəncə bölgəsi üzrə idman yarışlarının keçirilməsi məqsədilə müasir tələblərə uyğun tikiləcək Olimpiya parkının eskiz layihəsi haqqında geniş məlumat verildi. Qeyd olundu ki, Olimpiya parkı Beynəlxalq Olimpiya Komitəsinin standartlarına tam cavab verəcəkdir. Nəhəng idman qurğusunun layihələndirmə işləri qısa müddətdə başa çatdırılmışdır.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, əsas korpus çevrə və onun ətrafında yığılmış qövs, həmçinin digər əyri xətlərdən quraşdırılmış konfiqurasiyadan ibarətdir. Olimpiya parkında atıcılıq tiri və stolüstü oyun zalı fəaliyyət göstərəcəkdir. Burada idmanın boks, ağırlıqqaldırma və aerobika növləri üzrə məşqlər və yarışlar üçün hərtərəfli şərait yaradılacaqdır. İdmançı və mütəxəssislərin səmərəli fəaliyyəti və istirahəti də layihədə maksimum nəzərə alınıb. Universal salonda yarışların gedişini 1500 tamaşaçı izləyə biləcəkdir.*

*Respublikamızda, o cümlədən Gəncədə idmanın üzgüçülük növünə maraq ilbəil artır. Olimpiya parkında da ən yüksək səviyyəli üzgüçülük yarışlarının keçirilməsi və idmanın bu növü ilə məşğul olmaq üçün müvafiq tədbirlər həyata keçirilməsi nəzərdə tutulub. Güləş və gimnastika zalları da müasirliyi ilə seçiləcəkdir. Ümumilikdə, gələcəkdə bu kompleksdə keçiriləcək müxtəlif idman yarışları zamanı tamaşaçılar üçün ən müasir standartlara cavab verən şərait yaradılacaqdır. İdman yarışlarının informasiya təminatı üçün bütün lazımi tədbirlər görüləcək və bu məqsədlə müasir infrastruktur formalaş-*

*dırılacaqdır. Bütün otaqlar təyinatından asılı olaraq, yüksək keyfiyyətli inventar və avadanlıqlarla təchiz olunacaqdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Olimpiya parkında beynəlxalq standartlara uyğun futbol stadionu inşa ediləcəkdir. Basketbol, voleybol və tennis meydançaları da ən son elmi-texniki yeniliklərə əsaslanacaqdır. Olimpiya parkında mehmanxana tikintisi də nəzərdə tutulub.*

*Prezident İlham Əliyevə inşaat işləri zamanı istifadə olunacaq tikinti materialları haqqında da məlumat verildi. Qeyd olundu ki, tikinti işləri 2017-ci ildə başa çatdırılacaqdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Gəncə Olimpiya parkı böyüklüyünə və xidmət səviyyəsinin müxtəlifliyinə görə MDB məkanında yeganə belə idman obyekti olacaqdır. Burada idmanın bütün növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaqdır. Olimpiya parkı son illərdə sürətlə inkişaf edən Gəncənin ümumi görünüşünə əlavə yaraşıq verəcəkdir.*

*Prezident İlham Əliyev Gəncə Olimpiya parkının təməlini qoydu.*

*Dövlətimizin başçısı Olimpiya parkının inşasının yüksək səviyyədə aparılması üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Məhsəti Gəncəvi Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Məhsəti Gəncəvi Mərkəzinin açılışında iştirak etmişdir.*

*Qədim İpək yolunun əsas mərkəzlərindən sayılan Gəncənin abadlaşdırılması istiqamətində son illərdə həyata keçirilən tədbirlər bu tarixi şəhərin simasına maraqlı elementlərin əlavə olunması ilə yadda qalır. Bu gün Gəncə həm də öz tarixini yaşadır, yetişdirdiyi şəxsiyyətləri təbliğ edir, onların xatirəsini əbədiləşdirir. Prezident İlham Əliyev 2013-cü il yanvarın 16-da Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncam çərçivəsində*

çoxsaylı tədbirlər, sərgilər, konsertlər təşkil edilmişdir. Sənədə əsasən Gəncədə Məhsəti Gəncəvi Mərkəzi inşa olunmuşdur. Məhsəti Gəncəvinin zəngin irsinin sərgiləndiyi mərkəzin qarşısında şairənin möhtəşəm heykəli qoyulmuş, Məhsəti bağı salınmışdır.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanılmışdır. Klassik memarlıq üslubunda tikilmiş binada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyası, tədqiqatçılar üçün oxu zalı və yardımçı otaqlar yerləşir. Oxu zalında ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və mədəniyyətimizin hamisi olan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat və fəaliyyətlərini işıqlandıran kitablar yer alıb. Buradakı elektron köşkdə Məhsətinin rübailəri Azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Məhsəti və Nizaminin ədəbi irsini, Azərbaycan xalçaçılığının zənginliyini işıqlandıran kitablar da burada sərgilənir. Azərbaycanın zəngin mədəniyyətini Fransada yaxından tanıtmaq məqsədi ilə müxtəlif tədbirlər hazırlayıb həyata keçirən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ötən ilin noyabr və dekabr aylarında bu ölkənin qədim Reyms və Miluz şəhərlərində Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunan sərgi və konsertlər təşkil edilmişdir. Həmin tədbirləri əks etdirən fotolar da mərkəzdə nümayiş olunur.

Mərkəzdə milli musiqi alətləri sərgisi yaradılıb. Burada Məhsəti Gəncəvinin həyat və yaradıcılığı ilə yanaşı, Azərbaycanın görkəmli şair və mütəfəkkirləri və musiqisi haqqında geniş elmi məlumatlar əldə etmək mümkündür. Mərkəzin milli geyimlər sərgisində əsas diqqət Məhsəti dövrü, xüsusilə də İntibah dönəmində xanımlara xas milli geyim nümunələri sərgilənir. Rəsm qalereyasında Məhsəti Gəncəvi obrazı və rübailərinə həsr edilmiş müxtəlif tablolar, sənət nümunələri, monumental əsərlər nümayiş etdirilir. Məhsəti otağında şairənin heykəli ucaldılıb. Burada proyektor vasitəsilə miniatür və rəsm əsərləri təqdim edilir.

*Mərkəzdə musiqi studiyası, not kitabxanası, muğam, fortepiano şöbələri və iclas zalı vardır.*

*Prezident İlham Əliyev mərkəzin ətrafını və Məhsəti parkını gəzdi.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi və müvafiq tapşırıqlarını verdi.*

**1500 məcburi köçkün ailəsi üçün tikilmiş yeni yaşayış məhəlləsi ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncədə 1500 məcburi köçkün ailəsi üçün tikilmiş yeni yaşayış məhəlləsi ilə tanış olmuşdur.*

*Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Qarabağ müharibəsi zamanı doğma yurd-yuvalarından didərgin düşmüş insanların müvəqqəti yaşayış yerlərindən və çadır şəhərciklərindən müasir qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi yüksək diqqətin bariz təzahürüdür. Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsidir ki, bu gün ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmamış, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşdür. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilmiş, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Respublikanın bir çox yerlərində salınan bu qəsəbələr bir reallığı da ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman öz vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli həyata keçirilən siyasətin mühüm istiqamətini təşkil edir. Bunu prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Gəncə şəhərində 1500 məcburi köçkün ailəsi üçün tikilən yeni çoxmərtəbəli yaşayış binalarından ibarət məhəllədə yaradılan şərait də təsdiqləyir.*

Ümumilikdə 2001–2013-cü illərdə qaçqın və məcburi köçkünlər üçün yeni salınan 82 qəsəbədə və ya məhəllədə 40 min mənzil istifadəyə verilib. Son 10 ildə isə 77 qəsəbə və ya məhəllə, 120 məktəb, 6 musiqi məktəbi, 33 uşaq bağçası, 37 tibb müəssisəsi tikilib. Bu təbəqədən olan insanların sosial müdafiəsi üçün ümumilikdə indiyədək 4,4 milyard manat vəsait sərf olunub. Bu vəsaitin 84 faizi son 10 ildə ayrılıb. Bu illər ərzində məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,6 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin illik büdcəsi isə 4,6 dəfə artıb. Ötən il 1 məcburi köçkünə xərclənən vəsaitin həcmi təqribən 1100 manat təşkil etmişdir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstəricidir. Son 10 ildə məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 15 faizədək azalıb.

Məhəlləyə gələn dövlətimizin başçısı əvvəlcə Kəlbəcər Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanış oldu.

Prezident İlham Əliyevə məlumat verən Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirdi ki, lazımi avadanlıqlarla təchiz olunan binada işçilərin rahat fəaliyyəti üçün bütün tələblər nəzərə alınıb.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin məcburi köçkünlərlə görüşlərini əks etdirən fotostendlər yaradılıb.

Dövlətimizin başçısı iş otaqlarında və akt zalında yaradılan şəraitlə maraqlandı.

Sonra prezident İlham Əliyev Mədəniyyət sarayında oldu. Qeyd edildi ki, Mədəniyyət sarayı bu günədək istifadəyə verilən məhəllələrdə inşa olunan sarayların arasında ən böyüyüdür. Saraydakı 500 yerlik zalda ən müasir texnologiya əsasında işıqlandırma və səs sistemləri quraşdırılıb. Mədəniyyət sarayında həm rayon, həm də respublika əhəmiyyətli tədbirlər

*keçirmək mümkündür. Sarayın nəzdində fəaliyyət göstərən musiqi məktəbində də yüksək şərait yaradılıb.*

*Prezident İlham Əliyev 1200 şagird yerlik Kəlbəcər rayon 9 saylı tam orta məktəbində də oldu.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin iştirak etdiyi beynəlxalq tədbirləri, ümummilli liderin və prezident İlham Əliyevin məcburi köçkünlərlə görüşlərini əks etdirən fotostendlər quraşdırılıb.*

*Dövlətimizin başçısı məhəllənin baş planına baxdı.*

*Bu məhəllə prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Prezidentinin 2007-ci il 31 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən Əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunub. Kompleksə beşmərtəbəli 25 yaşayış binası və digər zəruri sosial infrastruktur obyektləri daxildir. Yeni binalara 1400-ü Kəlbəcərdən, 100-ü Ağdam, Cəbrayıl, Füzuli, Laçın, Şuşa, Zəngilan, Xocalı, Xocavənddən olmaqla, 1500 ailə və ya 6750 məcburi köçkün köçürüləcəkdir. Burada klub-icma mərkəzi, inzibati bina, tibb məntəqəsi və ATS tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Gəncə şəhərinin kommunikasiya xətlərinə qoşulub. Ümumiyyətlə, son 5 ildə bütün sosial-texniki infrastruktura malik 23 müasir qəsəbə salınmış, 16 min ailə və ya 76 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.*

*Məktəblə tanışlıq zamanı bildirildi ki, yüksək şəraiti ilə seçilən, müasir avadanlığı ilə diqqəti cəlb edən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait vardır. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə təşkilinə də xidmət göstərir. Dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət*

*proqramına Heydər Əliyev Fondunun verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.*

*Prezident İlham Əliyev məktəbin idman zalı ilə tanış oldu. Diqqətə çatdırıldı ki, məhəllədə tikilən bağçada da yüksək səviyyədə şərait yaradılıb.*

*Daha sonra dövlətimizin başçısı Kəlbəcər rayonundan məcburi köçkün Ofeliya Məmmədovanın evində yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, ailə üzvlərinin sayı 5 nəfərdən ibarət olan Ofeliya Məmmədovanın dördotaqlı mənzilində hər cür şərait yaradılmışdır.*

*Dövlət başçısı çay süfrəsi arxasında ailə üzvləri ilə söhbət etdi.*

**İlham Əliyev:** Gəncədə çox gözəl şəhərcik tikilibdir. Son illər ərzində tikilən ən böyük köçkün şəhərciyidir. Burada bütün işlər yüksək səviyyədə görülübdür. Böyük ərazidir, 25 bina tikilib və burada 7 min köçkün yaşayacaqdır. Son illər ərzində tikilən ən böyük layihədir. Əslində şəhər içində bir şəhərdir. Mən görürəm ki, çox gözəl işlər görülüb. Böyük məktəb, uşaq bağçası, tibb məntəqəsi, 500 nəfərlik Mədəniyyət sarayı tikilib. Yəni bütün şərait – idman meydançaları, açıq, qapalı stadion var. Burada rahat yaşamaq üçün bütün imkanlar var. Siz buna layiqsiniz. Uzun illər ağır şəraitdə yaşamısınız. Bundan sonra rahat yaşayacaqsınız. Sizi təbrik edirəm.

**Ofeliya Məmmədova** *(məcburi köçkün):* Çox sağ olun, cənab Prezident! Bu gün Sizinlə görüşməyimizə çox şadıq. Biz hərtərəfli sevinc hissi yaşayırıq. Birincisi, bizə Sizinlə – möhtərəm cənab Prezidentimizlə görüşmək nəsib olub. İkincisi, Siz bizim ailəyə hər cür şəraitli olan belə gözəl mənzil hədiyyə etmisiniz. Siz birinci dəfə deyil, həmişə bizlərə qayğı göstərmisiniz. Dünyanın heç bir ölkəsində məcburi köçkünlərə belə qayğı göstərilmir. Göstərdiyiniz bu qayğıya görə ailəmiz adından Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Son illərdə köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün çox böyük işlər görülür. Bildiyiniz kimi, bu işlərin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. İlk dəfə Dövlət Neft Fondundan birinci ödəmələr köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. O ildən bu günə qədər bu siyasət davam etdirilir. Biz çalışırıq ki, hər il yeni mənzillərlə, evlərlə təmin olunan köçkünlərin sayını artıraq. Misal üçün, keçən il 20 min köçkünün evlə təmin edilməsi nəzərdə tutulurdusa, əslində biz təxminən 30 minə yaxın köçkünü evlə təmin etdik. Yəni il ərzində 28 min köçkün yeni mənzillərə, evlərə köçmüşdür və biz 1 il ərzində böyük bir şəhər tikmişik.

2014-cü ildə də bu siyasət davam etdirilir. İlin birinci ayında biz yenə də köçkünlər üçün salınmış ən böyük qəsəbədə görüşürük. Həm dövlət büdcəsindən, həm də Dövlət Neft Fondundan vəsait ayrılır. Keçən il 640 milyon manat vəsait ayrılmışdır. Ondan 300 milyonu Dövlət Neft Fondundan, 300 milyonu dövlət büdcəsindən, cəmi 40 milyonu xarici beynəlxalq donor təşkilatlarından ayrılmışdır. Yəni əslində bu özü göstərir ki, bu gün Azərbaycan bütün bu böyük işləri öz hesabına görür və görəcəkdir. Çünki bu, ən ciddi, ən böyük sosial problemdir. Ölkə qarşısında duran ən böyük problemlərdən biridir.

Son 10 il ərzində 170 minə yaxın köçkün yeni evlərə köçübdür. Ancaq hələ ki, ağır vəziyyətdə yaşayanlar da var. O cümlədən siz bu günə qədər ağır vəziyyətdə yaşayırdınız. Ona görə gələcək illərdə, əlbəttə ki, bu sahədə tikinti işləri davam etdiriləcək, Gəncə şəhərində, digər şəhərlərdə fərdi evlər, mənzillər, şəhərciklər tikiləcək.

Biz elə etməliyik ki, bu gün uşaq bağçalarında, məktəblərdə, hərbi hissələrin ərazilərində yaşayanlar üçün daha yaxşı şərait yaradaq. Ancaq əsas tikinti işləri torpaqlarımız işğaldan azad olunandan sonra başlanacaq. Biz buna hazırlaşırıq, hazır olmalıyıq. Bu gün gücümüz də, texniki imkanlarımız da, peşəkar inşaatçılar da var. Bütün bu şəraiti bizim yerli inşaatçılar yaradırlar, tikirlər. Ona görə işğala son qoyulandan sonra – mən buna əminəm ki, o gün gələcək – biz Kəlbəcərdə, Laçında, bütün başqa şəhərlərdə

gözəl binalar tikəcəyik. Əvvəlki illərdəkindən daha da gözəl binalar olacaqdır.

O gün gələcək. O günü yaxınlaşdırmaq üçün biz hamımız çalışırıq, çalışacağıq. Azərbaycan güclənir, ölkənin gücü, iqtisadi, hərbi potensialı, əhalisi artır. Keçən il Azərbaycanda 170 mindən çox uşaq doğulmuşdur. Yəni il ərzində təbii artım 120 min nəfər olmuşdur, getdikcə daha da artacaqdır. İndi əhalinin sayı 9 milyon 500 mindir, getdikcə artacaqdır. Demoqrafiya, iqtisadiyyat, hərbi güc Qarabağ probleminin həllində əsas rol oynayacaqdır.

Bu gün Ermənistan xarici yardım olmadan yaşaya bilmir. Nəinki inkişaf edə, yaşaya bilmir. Özləri, ən yüksək vəzifəli şəxslər açıq etiraf edirlər ki, biz xarici yardımsız yaşaya bilməyəcəyik. Nəyə görə? Çünki işğalçı siyasət onları bu vəziyyətə salıbdır. Azərbaycan isə bu işğala, çətinliklərə baxmayaraq, son 20 il ərzində müstəqil dövlət kimi, görün nə qədər inkişaf edibdir! İnkişaf hələ daha da sürətlə davam edəcəkdir. Ona görə ərazi bütövlüyümüzün bərpası məsələsi mütləq həll ediləcəkdir. Heç kimdə bu barədə şübhə olmasın. Mən bu barədə demişəm və bir daha demək istəyirəm ki, gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıtmalıdırlar. Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan əslində Azərbaycanın tarixi torpağıdır. Ona görə gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq.

Bilirsiniz ki, 20 ildən artıq işğal çox ağrılıdır, ədalətsizlikdir, insanlara əzab verir, əlbəttə, ölkənin inkişafına böyük maneədir. Ancaq 20 il tarix üçün o qədər də böyük vaxt deyildir. Biz gələcəyə baxmalıyıq, 20 ildən, 30 ildən, 50 ildən sonra necə olacaq, Azərbaycan necə inkişaf edəcəkdir?! Əminəm ki, biz o qədər də uzaq olmayan gələcəkdə bütün tarixi torpaqlara qayıdacağıq. O zaman tarixi ədalət tam şəkildə bərpa ediləcəkdir. Birinci mərhələdə işğal edilmiş torpaqlar boşaldılmalıdır. Dağlıq Qarabağda, ondan sonra bütün başqa yerlərdə azərbaycanlılar

yaşayacaqlar. Biz hamımız çalışmalıyıq ki, bu günü yaxınlaşdıraq. Ancaq müvəqqəti olaraq indi bu şərait vardır. Mən əminəm ki, bu, müvəqqəti bir yaşayış yeridir. Ancaq müvəqqəti də olsa, yaxşı olmalıdır. Burada bütün yüksək standartlar gözlənilib.

**O f e l i y a M ə m m ə d o v a:** Bəli, cənab Prezident, biz də bilirik ki, bu qəsəbə bizim üçün ömürlük deyildir. Bir arzumuz var – Kəlbəcərimizə qayıtmaq, inşallah, belə görüşlərimizi orada etmək.

**İ l h a m Ə l i y e v:** İnşallah.

**O f e l i y a M ə m m ə d o v a:** Biz bunu Sizə, Sizin siyasətinizə, gücünüzə, güclü ordumuza tam əmin olaraq deyirik. İnşallah, biz belə bir günü keçirəcəyik. Bu bizə nəsib olacaqdır. Biz o mənfur ermənilərlə qonşu olaraq yaşamışıq. Onların hər xasiyyətini bilirik. Bilirik ki, onlar güclünün ayağına tez gedirlər.

**İ l h a m Ə l i y e v:** Hələ Azərbaycan bundan sonra da sürətlə inkişaf edəcəkdir. Bilirsiniz, Kəlbəcərin, Laçının, Şuşanın işğalı Qarabağ müharibəsində mənfi tərəfə dönüş yaratdı. Çünki bu işğaldan sonra Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bir bağlantı yarandı. 1993-cü ilin aprelində Kəlbəcərin işğalı böyük bir faciə idi. Bunun səbəbi o vaxt Azərbaycana rəhbərlik etmiş adamların xəyanəti, xəyanətkar hakimiyyətin mövcudluğu və bacarıqsızlığı, səhlənkarlığı idi. Əgər o vaxt ulu öndər Heydər Əliyev Azərbaycan rəhbərliyində olsaydı, bir qarış torpaq da düşmən tapdağına düşməzdi. Bunu hamı yaxşı bilir. Məhz onun 1987-ci ildə siyasi hakimiyyətdən uzaqlaşdırılmasından 2 həftə sonra ermənilər bu məsələni qaldırdılar. Əfsuslar olsun ki, o vaxt Azərbaycana rəhbərlik etmiş şəxslər o böyük məsuliyyəti dərk edə, düzgün siyasət apara bilməmişlər. Onlar xalqdan çox uzaq idilər və bir çox hallarda xəyanətkar siyasət aparmışlar. Ona görə bu gün biz, bax, bu vəziyyətlə üzləşmişik.

Ancaq bu gün Azərbaycan 1993-cü ildəki Azərbaycan deyildir. Ermənistan o vaxtdan bu günə qədər daha da tənəzzülə uğrayıb. Azərbaycan daha da inkişaf edib. O vaxt da – işğal zamanı və bu

gün də Ermənistan xarici yardımsız heç nəyə qadir deyildir. O vaxt da biz yaxşı bilirdik ki, torpaqlarımız necə işğal altına düşdü. Bu işğalda kim iştirak etmişdi. Ermənilərin nə ordusu, nə imkanı, nə də texnikası var idi. Bizdə də, demək olar ki, ordu yox idi. Əlbəttə, torpaqlarımız xarici müdaxilə hesabına işğal altına düşdü. Bu həqiqətdir. Bunu hamı bilir. Siz yaxşı bilirsiniz, mən bilirəm, uşaqlar da bilməlidirlər, bütün xalq bilməlidir. Çünki tarixi həqiqətləri danmaq mümkün deyildir. Müəyyən mərhələdə bəlkə də bu barədə çox danışılmır. Ancaq tarix tarixdir. Bunu heç kim dəyişə bilməz. Özü də bu o qədər də uzaq tarix deyildir, gözümüzün qabağında baş verən hadisələrdir. Biz daha da güclü olmalıyıq, olacağıq. Biz öz gücümüzə arxalanırıq. Bu məsələni öz xeyrimizə, ədalətli həll edəcəyik.

**O f e l i y a M ə m m ə d o v a:** Cənab Prezident, Siz 10 il ərzində Azərbaycan üçün böyük işlər görmüsünüz. Ötən il keçirilən seçki açıq-aydın bunu göstərdi ki, xalq Sizinlədir. Xalq öz inandığı Prezidentini seçdi. Biz bunu tam əminliklə deyə bilərik. Qoy bizə qara yaxanlar Sizdən öyrənsinlər ki, xalqa məhəbbət, ona münasibət, xalqla yaxınlıq necə olmalıdır. Onu Sizdən öyrənməlidirlər.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də xalq üçün, dövlət üçün çalışıram. Çox şadam ki, Azərbaycan doğrudan da sürətli inkişaf dövrünü yaşayır. Sosial problemlər həll olunur, iqtisadiyyat artır. Biz köçkünlər üçün gözəl işlər görürük. 10 il ərzində 170 minə yaxın insan yeni evlərə köçürülübdür. Biz bundan sonra da bu işləri görəcəyik. Tikinti, yardımlar, güzəştlər – hər şey yerində qalacaqdır. Təki siz rahat yaşayasınız.

İndi Gəncə şəhəri də görün necə gözəlləşibdir. Müasir şəhərə çevrilibdir. Bax, bu ərazilər artıq şəhərə, şəhərin mərkəzinə çevrilir, gözəl magistral yol çəkilib, iş yerləri açılır. Gələcəkdə Gəncədə böyük sənaye komplekslərinin tikintisi, digər layihələr nəzərdə tutulur. Yəni yaxın gələcəkdə bəlkə də başqa rayonlardan buraya işləməyə gələcəklər. Ona görə Gəncə də

gözəlləşir, siz də gözəl qəsəbədə yaşayırsınız. Mən buna çox sevinirəm, çox şadam.

**O f e l i y a  M ə m m ə d o v a:** Cənab Prezidentimiz, bir həqiqəti deməyi özümə borc bilirəm. Milli musiqimizi, muğamımızı inkişaf etdirən, Azərbaycanın mədəniyyətini, Xocalı soyqırımını, ümumiyyətlə, Azərbaycan həqiqətlərini dünyaya tanıtdıran birinci xanım Mehriban Əliyevanın, qızınız Leyla Əliyevanın gördüyü işlər hər birimizi qəlbən sevindirir.

**İ l h a m  Ə l i y e v:** Yeni qəsəbənin açılışı, istifadəyə verilməsi münasibətilə bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Uşaqlar yaxşı böyüsünlər, yaxşı vətəndaş olsunlar, ölkəmizin inkişafına töhfələrini versinlər.

**O f e l i y a  M ə m m ə d o v a:** Bütün dünya bizə həsəd aparır, cənab Prezidentimiz. Ulu öndərimiz XX əsrin müqaviləsini imzaladı. Xalqımız indi onun bəhrəsini görür. XXI əsrin müqaviləsini isə Siz imzaladınız. İnşallah, onun da bəhrəsini görərik.

**İ l h a m  Ə l i y e v:** Bəli, əlbəttə, ölkəmizin gələcək inkişafı üçün nə lazımdırsa hamısını edəcəyik.

**O f e l i y a  M ə m m ə d o v a:** Cənab Prezidentimiz, bir daha Sizə minnətdarlığımı bildirirəm. Sizə və ailənizə uzun ömür, cansağlığı, Azərbaycan naminə gördüyünüz işlərdə uğurlar arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

## Gəncədə inşa olunan Nizami Gəncəvi Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunan Nizami Gəncəvi Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nizami Gəncəvi yaradıcılığı 8 əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilib. Böyük sənətkarın bütün*

*həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda, Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınan Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur «Xəmsə»si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir. Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüşdür. Bu proseslərin intensiv şəkil almağa başlaması əsasən Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsinə təsadüf edir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ildə qəbul edilmişdir. Lakin İkinci dünya müharibəsinin başlanması nəticəsində yubileyin yalnız 1947-ci ildə keçirilməsi mümkün olmuşdur. O illərdən etibarən Nizaminin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmışdır. Gəncədə dəfn olunduğu yerdə dahi Nizaminin möhtəşəm məqbərəsi ucaldılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.*

*Ötən əsrin 70-ci illərində respublikamızda klassik ədəbi irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlamışdır. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə qəbul edilən «Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da*

*yaxşılaşdırmaq tədbirləri haqqında» 1979-cu il 6 yanvar tarixli Qərar bu istiqamətdə qarşıya kompleks vəzifələr qoyaraq dahi şairin irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektiv açmışdır. 1981-ci ilin avqustunda Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri dahi sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan vermədi. Bütün bunları nəzərə alan prezident İlham Əliyev 2011-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin geniş şəkildə qeyd olunması üçün sərəncam imzalamışdır. Dövlətimizin başçısının tapşırıqlarına əsasən Gəncədə dahi şairin muzeyi inşa olunmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Nizami Gəncəvi Muzeyinin tikintisinə 2012-ci ilin sonlarında başlanılmışdır. Muzeyin Nizami Gəncəvi məqbərəsinin yaxınlığında tikilməsi buraya gələn turistlərə həm məqbərəni ziyarət etməyə, həm də dahi şairin həyat və yaradıcılığı haqda geniş məlumat almağa imkan yaradır. Muzeyin qarşısında Nizami Gəncəvinin büstü qoyulub.*

*Dövlətimizin başçısı muzeyin binasında yaradılan şəraitlə tanış oldu. Muzeydə ulu öndər Heydər Əliyev və Nizami Gəncəvi guşələri yaradılıb, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılıb. Elmi-tədqiqat şöbəsində elmi araşdırmalar üçün hər cür şərait vardır. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü quraşdırılıb. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir. Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan «Xəmsə» və monoqrafiyalar Avstriya, Rusiya, Almaniya,*

*Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir «Xəmsə» əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılıb. Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq hazırkı mərhələdə respublikamızda gənc nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə olunması, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi məsələləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir. Bütün bunları nəzərə aldıqda Gəncədə inşa olunan bu muzeyin əhəmiyyəti olduqca böyükdür.*

*Muzeydə elmi tədbirlər üçün nəzərdə tutulmuş konfrans zalı fəaliyyət göstərir. Muzeyə gələn qonaqlar və turistlər üçün istirahət guşələri də yaradılıb. Binada Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin yüksək zövqlə toxunmuş xalça-portretləri diqqəti cəlb edir.*

## «DET-AL Alüminium» MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncəyə səfəri çərçivəsində «DET-AL Alüminium» MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının açılışında iştirak etmişdir.*

*Dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və sənayenin əsaslı şəkildə inkişafı başlıca prioritetlərdəndir. Qarşıya qoyulan əsas məqsədlərdən biri də ölkəmizin regionlarında sənayeni daha da inkişaf etdirməkdir. Ölkənin qeyri-neft sektoruna yönəldilən*

investisiyalar Azərbaycan iqtisadiyyatının daha da inkişafına və keyfiyyətli yerli məhsullar istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. Bu baxımdan Gəncədə «DET-AL Alüminium» MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodları da Azərbaycan iqtisadiyyatına mühüm töhfədir. Prezident İlham Əliyevin 2014-cü ilin Azərbaycan Respublikasında «Sənaye ili» elan edilməsi haqqında sərəncamına əsasən bu zavodların fəaliyyəti ölkə iqtisadiyyatının sənayeləşdirilməsinin sürətləndirilməsi, yeni təşəbbüslər nəzərə alınmaqla, sənayenin modernləşdirilməsi, rəqabətqabliyyətli müasir və prioritet istehsal sahələrinin yaradılması sənayenin innovasiyalar əsasında inkişafının və yeni iş yerlərinin açılmasının təmin olunmasına xidmət edir.

Dövlətimizin başçısı əvvəlcə Metaltökmə və fasiləsiz yayma zavodu ilə tanış oldu.

Qeyd edildi ki, bu sənaye kompleksinin təməli 2008-ci ilin martında prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. 2012-ci ilin əvvəlində dövlətimizin başçısının iştirakı ilə kompleksin birinci fazası istifadəyə verilmişdir.

Prezident İlham Əliyev ölkədə alüminium sənayesinin inkişafına və «DET-AL Alüminium» Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının tikinti və quraşdırma mərhələsi, texnoloji və istehsal prosesləri, məhsulların növü və təyinatı haqqında hazırlanan stendlərə və bu prosesi əks etdirən videoçarxa baxdı.

Azərbaycan prezidenti İlham Əliyevə məlumat verən Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov bildirdi ki, kompleksdə dünya standartlarının tələblərinə cavab verən, istehsal gücü 50 min ton olan 2 modern zavod qurulub. Bunlar Metaltökmə və fasiləsiz yayma, Təzyiqlə emal və boyama zavodlarıdır.

Dövlətimizin başçısı Metaltökmə və fasiləsiz yayma zavodunu işə saldı.

*Azərbaycan prezidenti İlham Əliyev zavodun fəaliyyəti ilə bağlı stendlərə və maketə baxdı, istehsal prosesini izlədi, hazır məhsullarla tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, zavodlarda yerüstü sahələrlə yanaşı, texnologiyanın xüsusi tələblərini və texniki təhlükəsizlik qaydalarını əsas tutan, 8–11 metr dərinliyində yerləşən, 8500 kvadratmetr yeraltı istehsal və texniki sahələr də mövcuddur. Yeni tikilən zavodların infrastruktur təminatı sahəsində də bir sıra işlər görülüb. Burada 4 kilometr uzunluğunda yeraltı beton kanallar vasitəsilə yüksəkgərginlikli kabel xətləri çəkilib, müasir tələblərə cavab verən idarəetmə, məişət və digər köməkçi sahələr tikilib.*

*İllik 50 min ton gücə malik Metaltökmə və fasiləsiz yayma zavodu ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada 8 əritmə sobası və 4 metalyayma aqreqatı quraşdırılıb. Elektroliz vannalarından götürülən maye alüminium Metaltökmə və fasiləsiz yayma zavoduna daşınaraq ildə 50 min ton 6–10 millimetr qalınlığında alüminiumdan fasiləsiz tökmə rulonlar və alüminium vərəqələr istehsal ediləcəkdir.*

*Diqqətə çatdırıldı ki, zavod soyuq yayma və boyama sahələrindən ibarətdir. Yeni istifadəyə veriləcək alüminium yarımfabrikat istehsalı zavodunda 3 seriyada müxtəlif markalı yarımfabrikat məhsullar istehsal ediləcəkdir. Həmin məmulatlardan avtomobil, kimya, qida sənayesi, inşaat, elektrik, kommunikasiya və digər sahələrdə geniş istifadə olunacaqdır. Artıq istehsal ediləcək məhsulların ixracı ilə bağlı Türkiyə, İtaliya, Polşa, Misir, Rusiya və Ukrayna kimi ölkələrin şirkətləri ilə danışıqlar aparılır.*

*Vurğulandı ki, gələcəkdə kompleksdə mövcud alüminium yarımfabrikatlarından son məhsulların istehsalı ilə bağlı işlər görüləcəkdir. Zavodların fəaliyyəti nəticəsində 300-ə yaxın yeni iş yeri açılmışdır. Bütövlükdə «DET-AL Alüminium» Kompleksində 1400 nəfər işlə təmin edilmişdir. Bu kompleks ölkədə qeyri-neft sektorunun şaxələndirilməsinə, regionlarda*

*sənaye potensialının gücləndirilməsinə, sənayenin, habelə əlvan metallurgiya sənayesinin inkişafına mühüm töhfə verəcəkdir.*

## Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin inşasına 2012-ci ilin yanvarında başlanılıb. Bu möhtəşəm abidənin yüksək səviyyədə, tarixi ənənələrə uyğun inşası 2014-cü ilin yanvarında başa çatdırılmışdır. Tarixi Gəncə qalasının 5 qapısı olmuşdur. Yeni yaradılan bu abidə şəhərin «Məqbərə qapısı» adlanan qapılarının bərpa olunan variantıdır. Gəncə–Bakı magistral yolunun hər 2 tərəfində inşa edilən, ümumi uzunluğu 50 metr, bürclərinin hündürlüyü 22 metr olan qalanın əsas hissəsi beşmərtəbəli, baş sütun hissəsi ilə birlikdə yeddimərtəbəlidir. Qarşıda 75 metr hündürlüyündə Dövlət bayrağı ucaldılıb, ətrafında park salınıb. Abidə-kompleksinin sağ cinahında Gəncənin gerbi yaradılıb. Uzunluğu 62 metr olan yeraltı tunel hər 2 qalanı birləşdirir. Bakıdan gələn yolun sağ cinahında xronoloji ardıcıllıqla İran–Turan müharibəsinin əks olunduğu pannolarda türk sərkərdəsi Əfrasiyabın fars hökmdarı Keyxosrovu məğlub etməsi və romalıların Gəncəyə hücumu, usta Bəndərin rəhbərliyi ilə gəncəlilərin xarəzmlərə, Cavad xanın isə ruslara qarşı mübarizə səhnələri, sol cinahda isə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi, 1920-ci ilin mayında bolşevizmə qarşı tarixi Gəncə üsyanı və nəhayət, ümummilli lider Heydər Əliyevin Gəncədə vətəndaş müharibəsinin qarşısını alması və Milli Qurtuluş hərəkatının Gəncədən başlaması salnaməsi əks olunub. Kompleksin sol cinahının yol istiqamətinə yönəlmiş hissəsində ulu öndər Heydər Əliyevin, sağ cinahda isə prezident İlham Əliyevin Gəncə ilə bağlı fikirləri həkk olunub. Qalanın sağ hissəsindəki papiruslardan birində Gəncənin Azərbaycan Xalq*

*Cümhuriyyətinin ilk paytaxt şəhəri olması, digərində isə Milli Qurtuluş hərəkatının Gəncədən başlaması göstərilib. Kompleksə xüsusi əzəmət verən dəmir darvazalar quraşdırılıb.*

*Darvazalar 1063-cü ildə gəncəli usta İbrahim Osman oğlu tərəfindən düzəldilən Qədim Gəncə qapılarının eskizləri əsasında hazırlanıb. Həmin qapılar 1139-cu ildə zəlzələ nəticəsində Gəncə dağılarkən, gürcü çarı Demetre tərəfindən Gürcüstana aparılıb və Kutaisinin Helat Monastırında saxlanılır.*

*Qalanın hər 2 tərəfindəki birinci mərtəbələrdə və yeraltı keçiddə dahi Azərbaycan şairi Nizami Gəncəvinin sələfləri və xələflərinin şəkillərindən ibarət qalereya yaradılıb. Burada Gəncənin 26 görkəmli şəxsiyyətinin abidəsi qoyulub. Muzeyin sağ tərəfində ikinci mərtəbədə Gəncənin Hərb Tarixi Muzeyi yaradılıb. Burada xronoloji ardıcıllıqla Gəncənin hərb tarixinin qədim vaxtlarından başlayaraq 1918–1920-ci illərədək olan dövrü əhatə edilir. «1918–1920-ci illərdə Gəncənin hərb tarixi»nə aid vitrində o dövrün silah-sursatı və 1919-cu il Gəncə qarnizonu döyüşçüsünün fotoşəkli nümayiş olunur. Ekspozisiyanın sonunda tərtib edilmiş rəmzi bölmədə Vətən uğrunda həlak olanların şərəfinə «Əbədi məşəl» və döyüşçülərin təsvirləri nümayiş etdirilir.*

*Qalanın üçüncü mərtəbəsində Gəncə əhalisinin məişəti, mədəniyyəti, həyatı haqqında məlumat verən Etnoqrafik Muzey yaradılıb. Tarixboyu sənətkarlıq mərkəzi olmuş Gəncədə 30-dan çox sənət sahəsinin yüksək səviyyədə inkişaf etməsindən xəbər verən nümunələr öz nəfisliyi ilə göz oxşayır. Etnoqrafik Muzeydə xalça məmulatları, Şərq süfrə mədəniyyətinə xas çay dəsgahı, dulusçuluq məhsulları, misgərlik sənəti nümunələri və digər etnoqrafik əşyalar təqdim olunur.*

*Qalanın dördüncü mərtəbəsində Gəncənin qədim və zəngin süfrə mədəniyyətini, qonaqpərvərlik ənənələrini yaşatmaq məqsədilə Milli Kulinariya Mətbəxi Muzeyi yaradılıb. Muzeydə, həmçinin Gəncə şəhərində mövcud olmuş Azərbaycanda ilk dövlət əhəmiyyətli qədim tikililərin rəsm və fotoları nümayiş etdirilir. Dördüncü mərtəbədən qalanın bürclərinə qalxmaq mümkündür. Buradan şəhərin mənzərəsi göz oxşayır. «Azərbaycan milli*

*geyimləri» sərgisində ölkəmizin müxtəlif regionlarına məxsus geyimlər və bəzək əşyaları nümayiş* olunur. *Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında tərtib edilmiş «Azərbaycan – qədim sivilizasiya məkanı» sərgisində müxtəlif bölgələrə aid 120-dən artıq qiymətli arxeoloji eksponat sərgilənir. Muzeydə Azərbaycan xalqının formalaşdığı ərazinin kosmosdan görüntü xəritəsi, Dərbənd qalasının maketi və digər eksponatlar böyük maraq doğurur.*

*Dövlətimizin başçısı kompleksdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Yeni inşa olunmuş Gəncə dairəvi avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də yeni inşa olunmuş Gəncə dairəvi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Yevlax–Gəncə və Gəncə dairəvi, eləcə də Ağstafa–Poylu–Gürcüstan dövlət sərhədi avtomobil yolları ilə bağlı stendlərə baxdı.*

*Son 10 ildə ölkəmizin yol-nəqliyyat strukturunda əsaslı dəyişikliklər baş verib. Nəqliyyat sisteminin təkmilləşdirilməsi, sərnişindaşımalarının beynəlxalq səviyyədə qurulması istiqamətində mühüm layihələr* icra olunur. *Ölkə ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistrallar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət mərkəzi avtomagistralların, regionlarda isə kənd və qəsəbələri birləşdirən avtomobil yollarının təmirinə yönəldilib. Bu proses Gəncə şəhərində də geniş vüsət alıb. Yeni salınan Gəncə dairəvi avtomobil yolu bölgənin inkişafına, o cümlədən nəqliyyatın maneəsiz hərəkətinə mühüm töhfə verəcək.*

*Dövlətimizin başçısına məlumat verildi ki, avtomobil yolunda 4 körpü, müxtəlif səviyyəli 3 yol qovşağı, 9 avtobus*

*dayanacağı inşa olunub. Əlavə 2 zolağın inşası ilə yolun genişləndirilməsi nəzərdə tutulub.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, uzunluğu 37 kilometr olan yolda kifayət qədər piyada və mal-qara keçidləri, suötürücülər inşa olunub. Azərbaycan Prezidentinin sərəncam və göstərişləri ilə regionlarda icra olunan çoxsaylı mühüm layihələrdən biri olan, əhalinin rahatlığının təminatında böyük əhəmiyyətə malik yeni dairəvi yolun əsas səmərəsi ondan ibarətdir ki, avtomobillər və xüsusilə də yük maşınları ölkənin şimal istiqamətinə Gəncə şəhərinə daxil olmadan hərəkət edəcəkdir.*

*Daha sonra prezident İlham Əliyevə Ağstafa–Poylu–Gürcüstan dövlət sərhədi avtomobil yolunun sxemi təqdim olundu. Qeyd edildi ki, Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil magistralının bir hissəsi olan bu yolun uzunluğu 59 kilometrdir. Daxili investisiya hesabına salınan yolun tikintisinə 2011-ci ilin oktyabrında başlanılmış, ötən ilin sonunda başa çatdırılmışdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «ASAN xidmət» Mərkəzinin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Gəncə «ASAN xidmət» Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Son illərdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi baza formalaşdırılmışdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atılmış – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial*

*İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradılmışdır. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.*

*2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı «ASAN xidmət» Mərkəzi fəaliyyətə başlayıb. 2013-cü ilin mayında Sumqayıtda «ASAN xidmət» Mərkəzi istifadəyə verilib. Daha sonra 2 və 3 saylı Bakı «ASAN xidmət» mərkəzləri açılıb. Hər 4 mərkəzdə şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı müraciətlər üstünlük təşkil edir.*

*İlk vaxtlar «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdi. İndi isə əcnəbi və vətəndaşlığı olmayan şəxslərə əmək fəaliyyətini həyata keçirmələri üçün fərdi icazələrin, daşınmaz əmlakla bağlı dövlət reyestrindən arayışların verilməsi göstərilən xidmətlərə əlavə edilib. Bununla da dövlət orqanları tərəfindən göstərilən hüquqi xidmətlərin sayı 25-ə çatıb. Bütün bunlar dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına məlumat verdi ki, Gəncədəki «ASAN xidmət» Mərkəzi ötən il dekabrın 21-dən vətəndaşlara xidmət göstərməyə başlayıb. Gəncə «ASAN xidmət» Mərkəzi şəhərin və bir neçə ətraf rayonun əhalisinə xidmət edir.*

Binanın qarşısındakı park əsaslı surətdə yenidən qurulub. Parkda qurulmuş led-paneldə «ASAN xidmət» Mərkəzində göstərilən xidmətlər, rüsumlar, mərkəzin əhatə etdiyi rayonlar və s. haqqında informasiyalar daim nümayiş olunur. «ASAN xidmət» yaradıcılığa dəstəklə bağlı müxtəlif sosial aksiyalar da keçirir. Mərkəzin həyatində «YARAT» Müasir İncəsənət Məkanının guşəsi də qurulub.

Dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış oldu.

Burada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan İDEA – Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyasının stendi də qurulub. Burada tətbiq edilən yeniliklərdən biri «Exit poll» rəy sorğusunun fəaliyyət göstərməsidir. Bu yenilik göstərilən xidmətlərin keyfiyyətini araşdırır. Sorğunun nəticələri müəyyən məsələlər üzrə lazımi tədbirlərin görülməsinə imkan yaradır.

Dövlətimizin başçısına mərkəzdə tətbiq edilən elektron müraciət köşkü barədə məlumat verildi. Bildirildi ki, vətəndaşlar elə mərkəzin özündən «108 Çağrı» mərkəzinə zəng edərək, canlı videobağlantı ilə xidmətdən yararlanıb razılıqlarını, təkliflərini, müraciətlərini bildirmək imkanı qazanırlar.

Prezident İlham Əliyev mərkəzdə işçilər üçün yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, mərkəzin işçilərinin ümumi sayı 165 nəfərdir, onlardan 55-i könüllüdür.

Gəncə «ASAN xidmət» Mərkəzi bu şəhərin, eləcə də Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı sakinlərinə xidmət göstərir. Xidmətin «Çağrı» mərkəzi vasitəsilə vətəndaş mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb olunan sənədlər barədə məlumat ala və növbə tuta bilər. Mərkəzdə şəffaflığın təmin edilməsi məqsədi ilə xidmət proseduru fasiləsiz videokamera ilə qeydiyyata alınır. Mərkəz müasir İP telefon və İP şəbəkə sistemi ilə təmin edilib. Mərkəzdə xidmətlərin tənzimlənməsi məqsədi ilə elektron monitor və elektron elan tabloları, videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən tablo quraşdırılıb, daim internetə açıq olan

*kompüterlərlə təchiz edilib. Burada vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün yüksək şərait yaradılıb.*

*«ASAN xidmət» Mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Vətəndaşın qəbulu elektron növbə əsasında həyata keçirilir. Bunun üçün ən müasir avadanlıq quraşdırılıb.*

*Diqqətə çatdırıldı ki, xidmətin «asan.gov.az» internet saytında vətəndaşlar üçün onlayn növbəyə yazılma, elektron ərizələri doldurma, sənədləri müvafiq orqanlara elektron qaydada göndərmə və digər imkanlar yaradılıb. Elektron məlumat mərkəzinə müraciət edən vətəndaş bütün məlumatları öyrənə, elektron ərizəni doldura və eyni vaxtda çap etdirə bilər. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini asanlaşdırır. Bundan əlavə, mərkəzdə vətəndaşlara 22 növ funksional yardımçı xidmət göstərilir. Burada «Biometrik məlumatların toplanması sistemi» də yaradılıb. Sistem biometrik şəkillərin çəkilməsi, barmaq izlərinin alınması, elektron imza və digər nadir xüsusiyyətlərə malikdir. «ASAN xidmət» Mərkəzində 9 dövlət orqanı tərəfindən 25 hüquqi xidmət həyata keçirilir.*

*Qeyd edildi ki, mərkəzin fəaliyyətdə olduğu 25 gün ərzində 20 minə yaxın vətəndaş müraciət etmişdir. Gün ərzində isə mərkəzə 1300–1500 müraciət daxil olur.*

*Sonra dövlətimizin başçısı «ASAN xidmət» Mərkəzinin əməkdaşları və könüllülərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Artıq Gəncədə də «ASAN xidmət» fəaliyyət göstərir. Çox gözəl hadisədir. Artıq bu iş regionlarda başlamışdır. İndi bu xidmət Bakı, Sumqayıt, Gəncə şəhərlərində vardır və vətəndaşlar böyük maraq göstərirlər. 1 il ərzində 1

milyona yaxın müraciət olmuşdur və hamı razıdır. Bu yeni bir xidmətdir. Yeniləşən Azərbaycan üçün çox böyük fayda verən bir xidmətdir. Həm insanlara yüksək səviyyəli xidmət göstərilir, eyni zamanda, bütün xoşagəlməz halların qarşısının alınması üçün «ASAN xidmət»in böyük əhəmiyyəti vardır. Əlbəttə, bizim bütün dövlət qurumları, vətəndaşlarla birbaşa ünsiyyətdə olan qurumlar getdikcə bu səviyyədə xidmət göstərməlidir ki, heç bir bürokratiyaya, rüşvətxorluğa, korrupsiyaya yol verilməsin. İnsanlara yüksək səviyyəli mədəni xidmət göstərilməlidir. Mən hesab edirəm ki, «ASAN xidmət»in yaradılması nəinki ictimai xidmətlər sahəsində, bütövlükdə ölkəmizin gələcək uğurlu, müasir inkişafı üçün öz rolunu oynayacaqdır. Bilirəm ki, artıq digər qurumlarda da «ASAN xidmət»də göstərilən xidmətlərin səviyyəsində iş qurulması prosesi gedir.

Biz müasir, güclü dövlət qururuq. Azərbaycan dövlətində heç bir xoşagəlməz hala rast gəlinməməlidir və mövcud problemlər aradan qaldırılmalıdır. «ASAN xidmət»in fəaliyyəti bu istiqamətdə bizim işimizə böyük dayaqdır. Mən çox şadam ki, Azərbaycan vətəndaşları tərəfindən bu xidmətin fəaliyyətinə böyük dəstək, rəğbət vardır və bu addım yüksək qiymətləndirilir. Dəfələrlə dediyim kimi, «ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycanın ixtirasıdır və istisna olunmur ki, başqa ölkələr də bu nümunədən istifadə edəcəklər. Hər halda, məndə olan məlumata görə, başqa ölkələrdə də xidmətin fəaliyyətinə böyük maraq vardır.

Birillik fəaliyyət özlüyündə gözəl göstəricidir. Çünki hamımız bilirik ki, bəzi hallarda yeni yaradılan hansısa bir layihə, yaxud da ki, irəli sürülən təşəbbüs ilk mərhələdə uğurlu olur, sonra bəzi çətinliklər ortaya çıxır, səviyyə aşağı düşür. «ASAN xidmət»də belə deyildir. Mən hesab edirəm ki, xidmət il ərzində öz işini daha da yüksək səviyyəyə qaldıra bilmişdir, səyyar xidmət göstərilir, bölgələrə xüsusi təchiz edilmiş avtobuslar ezam edilir və bu il Azərbaycanda ən azı 4, bəlkə də 5 yeni «ASAN xidmət» Mərkəzi yaradılacaqdır.

Bütün bölgələrdə, ondan sonra hər bir şəhərdə belə xidmət olmalıdır. Bu xidmətin bir əlamətdar tərəfi ondan ibarətdir ki,

burada işlərə könüllülər qoşulurlar. Bu da sizin üçün, cəmiyyət üçün çox gözəl hadisədir. Sizin üçün ona görə ki, artıq gənc yaşlarınızdan çox mühüm bir dövlət işində özünüzü göstərəcəksiniz. Cəmiyyət üçün ona görə ki, könüllülük hərəkatı, ümumiyyətlə, çox böyük təqdirəlayiq hərəkatdır, xoş niyyətin, vətənpərvərliyin təzahürüdür, öz xalqına, dövlətinə olan bağlılığın əlamətidir. Əgər hər bir insan ümumi işə könüllü şəkildə öz töhfəsini vermək istəyirsə, bu ancaq alqışlanır. Könüllülər qruplarının fəaliyyəti hesab edirəm ki, cəmiyyətin uğurlu inkişafı üçün də öz rolunu oynayacaqdır.

Sizi salamlayıram, sizə minnətdaram ki, bu işə qoşulursunuz. Əminəm ki, gələcək illərdə Gəncə «ASAN xidmət»i, əgər belə demək mümkündürsə, qabaqcıl yerdə olacaqdır. Çünki gələcəkdə belə xidmətlər çox göstəriləcək, mərkəzlər açılacaq və bütün mərkəzlər arasında sağlam rəqabət aparılacaqdır. Sizi salamlayıram, sizə uğurlar arzulayıram.

**N i g a r T a ğ ı y e v a:** *(könüllü):* Cənab Prezident, Sizi ilk növbədə, könüllülərimizin adından salamlamaq istəyirəm. Biz eşidəndə ki, keçən il Bakı şəhərində «ASAN xidmət» yaranıbdır, çox şad olduq. Çünki orada biz yaşda könüllülər dövlət orqanında işləyirlər. Ancaq düşünməzdik ki, tezliklə Gəncə şəhərində də bu xidmət fəaliyyət göstərər. Bu bizi çox sevindirdi. Könüllülərimiz adından Sizə minnətdarlığımızı bildiririk ki, bizim üçün belə şərait yaradılıb, gənc yaşlarında dövlət orqanında işləyirik. Bizə göstərdiyiniz diqqətə görə Sizə minnətdarıq. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**F ə r i d S a d ı x l ı** (*«ASAN xidmət» Gənclər Təşkilatı İctimai Birliyinin sədri):* Möhtərəm cənab Prezident, bütün «ASAN» könüllülərini birləşdirən «ASAN» Könüllüləri Gənclər Təşkilatı adından Sizi salamlayırıq. Ümumiyyətlə, könüllülük ölkəmizdə bir mədəniyyətə çevrilib. Son ildə könüllü hərəkatı elə geniş vüsət aldı ki, hətta biz keçən ilin dekabr ayında öz gənclər təşkilatımızı təsis etdik. Gənclər təşkilatı kimi, bizim əsas məqsədimiz hər bir könüllünün fərdi inkişafına

kömək etməkdir. Yəni onların fərdi inkişafı üçün bir platformanın yaradılmasıdır. Sizin də dəfələrlə qeyd etdiyiniz kimi, ölkəmizin sabahını bugünkü gənclər formalaşdırır. Biz onlara diqqət yetirməklə ölkəmizin gələcəyinə diqqət yetiririk. Baxmayaraq ki, qısa müddətdir fəaliyyətdəyik, amma artıq bir sıra layihələrə imza atmışıq. Hər bir layihədə ilk sualımız belədir: könüllünün nə faydası olacaq və cəmiyyətə o, biliklə nə fayda verə biləcəkdir?

Artıq bu gün ölkəmizin sürətli inkişafı danılmaz bir faktdır. Ən azı ona görə ki, bir neçə il öncə beynəlxalq tədbirlərdə Azərbaycanı təmsil edəndə, hər dəfə ölkəmizin coğrafiyasını, mədəniyyətini, tarixini başa salmalı olurduq. Amma bu gün artıq o tədbirlərdə ölkəmizi onun son nailiyyətlərinə və nəhəng layihələrinə görə tanıyırlar. Bu da Sizin siyasətinizin nəticəsidir.

Biz gənclərə göstərdiyiniz qayğı və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Çünki həyatımızın hər bir sahəsində Sizin dəstəyinizi hiss edirik. Sizə sadiq və əmrinizə hər zaman hazır olan, Sizi səmimi-qəlbdən sevən gənclər adından Sizə təşəkkür etmək istəyirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

## Gəncə Dövlət Filarmoniyasının yeni binasında aparılan inşaat işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə Dövlət Filarmoniyasının yeni binasında aparılan inşaat işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı filarmoniya binasının layihəsini əks etdirən stendə baxdı. Gəncə Dövlət Filarmoniyası binasının təməli 2012-ci il yanvarın 21-də Azərbaycan Prezidentinin iştirakı ilə qoyulmuşdur. Filarmoniya binasında hazırda tikinti işləri sürətlə davam etdirilir.*

*Məlumat verildi ki, burada 1200 tamaşaçı yeri olan konsert zalı, açıq yay kinoteatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi yaradılacaqdır. Binada iaşə xidməti obyektləri, həmçinin*

*yeraltı qaraj və yardımçı otaqlar fəaliyyət göstərəcəkdir. Binanın fasadında Azərbaycan musiqi korifeylərinin heykəlləri ucaldılacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## «VEGO» hotelində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində «VEGO» hotelində yaradılmış şəraitlə tanış olmuşdur.*

*«VEGO» hoteli Gəncə şəhərinin mərkəzində yerləşir. Hotel ən müasir standartlar səviyyəsində inşa olunub.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, burada dünya hotel biznesində mövcud olan ən yüksək xidmət göstəriləcəkdir. Otaqlarda qonaqların istirahəti üçün maksimum şərait yaradılıb. Diqqətə çatdırıldı ki, təkcə Gəncə üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyekti olan bu hotel mükəmməl infrastruktura malikdir.*

*«VEGO» hotelinin istifadəyə verilməsi bölgəyə gələn turistlərin sayına da müsbət təsirini göstərəcəkdir. Hotelin ətrafında Şah Abbas məscidi və Çökək hamam yerləşir. Çökək hamam 1606-cı ildə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında tikilmişdir. Bina günbəzlidir. Hamamda yenidənqurma işləri aparılarkən tarixi görkəm olduğu kimi saxlanılıb. Gəncənin tarixi memarlıq abidəsi sayılan Çökək hamama hotelin birinci mərtəbəsindən birbaşa yeraltı tunel vardır.*

## GÖYGÖL RAYONUNA SƏFƏR

*21 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə şəhərinə səfərini başa çatdıraraq Göygöl rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Göygöl şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov prezident İlham Əliyevə abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, bu ərazi rayon sakinlərinin və qonaqların ən sevimli istirahət məkanlarındandır. Burada orijinal fəvvarələr quraşdırılmış, yaşıllıq zolağı salınmışdır.*

### Bayraq Meydanı Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygölə səfəri çərçivəsində Bayraq Meydanı Kompleksinin açılışında iştirak etmişdir.*

*1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayraq ötən əsrin sonlarında yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilmişdir. Bu tarixi iş ümummilli liderin dahiyanə ideyalarından biri idi. Ölkəmiz yenidən müstəqilliyini bərpa etdikdən sonra bu bayrağın ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılması bunun əyani təzahürüdür. Vətənə və dövlətin atributlarına hörmət və ehtiram ulu öndərin bizə ən böyük əmanətidir. Hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir.*

*Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşması da bunu şərtləndirən əsas səbəblərdən biridir. Paytaxtla yanaşı, respublikanın bölgələrində də bayraq meydanlarının inşası dövlətin bu sahədə həyata keçirdiyi siyasətin nəticəsidir. Göygöl rayonunda salınan Bayraq Meydanı Kompleksində ucaldılan üçrəngli bayrağımız, quraşdırılan gerbimiz möhtəşəmliyi ilə diqqəti cəlb edir və hər kəsin qəlbində iftixar və qürür hissləri oyadır. Kompleksdə yaradılan şərait, həmçinin «Azərbaycan Dövlətinin Rəmzləri Muzeyi» milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, kompleksin tikintisinə 2012-ci ilin may ayında başlanılmışdır. Meydanda 50 metr yüksəkliyə qaldırılmış Dövlət bayrağı rayonun hər yerindən aydın görünür. Kompleksdə geniş əraziyə malik gəzinti zolaqları yaradılıb. Nəfis şəkildə işlənən Dövlət gerbi kompleksi daha da gözəlləşdirir.*

*Dövlətimizin başçısına meydanın tikinti prosesini əks etdirən fotostend təqdim olundu. Geniş yaşıllıq işlərinin aparıldığı kompleks rayonda gedən abadlıq-quruculuq tədbirlərinin ardıcıl xarakter daşıdığına dəlalət edir. Müasir səviyyədə inşa olunan bu kompleks indi rayonun ən gözəl yerlərindən birinə çevrilib.*

*Prezident İlham Əliyev «Azərbaycan Dövlətinin Rəmzləri Muzeyi»ndə də oldu. Muzeydə Azərbaycanın müxtəlif dövrlərdəki gerbləri, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzaları və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Burada Azərbaycanın Səfəvilər, Ağqoyunlular, Qaraqoyunlular və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918–1920-ci illər və 1991-ci ildəki xəritələri də vardır. Tarixin müxtəlif dövrlərində atribut kimi qəbul edilmiş bayraqlar da böyük maraq doğurur.*

## Göygölə içməli suyun verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygölə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə tərəqqisi yüksək templərlə davam edən müasir Azərbaycan zaman keçdikcə daha çox yeni nailiyyətlərin müəllifi kimi də tanınmaqdadır. Dövlətin müəyyən etdiyi iqtisadi siyasətin əsas istiqamətlərindən biri əhalinin sosial ehtiyaclarının diqqət mərkəzində saxlanılması, elektrik, qaz, içməli su təminatının daha da yaxşılaşdırılmasıdır. Bu istiqamətdə həyata keçirilən layihələrdən biri də Göygöl şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasıdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Göygöl şəhərinə çəkilmiş yeni su xətti layihəsinin icrası 3 mərhələdə aparılıb.*

*Birinci mərhələdə mənbəyi Murov dağının ətəyində olmaqla, Kürəkçayın başlanğıcında yerüstü suların yığılması və süzülməsi üçün ümumi sahəsi 15 min kvadratmetr olan möhtəşəm hidrotexniki suqəbuledici–təmizləyici–ötürücü qurğular kompleksi tikilib. Kompleksin layihə üzrə gücü saniyədə 132,5 litrdir. Bu qurğular kompleksinə infiltrasiya-drenaj qurğuları sahəsi, suqəbuledici qalereya, keçid məntəqəsi, transformator yarımstansiyası və mühafizə zonası daxildir. Qurğunun normal və fasiləsiz iş rejimini təmin etmək üçün 5 kilometr məsafədən dəmir-beton dirəklərlə yüksəkgərginlikli elektrik xətti çəkilib. Suyun süzülərək təmizlənməsi üçün qurğuya müxtəlif fraksiyalı 41 min kubmetr qum-çınqıl materialı təbəqə-təbəqə yığılaraq, təbii filtr qatı yaradılıb.*

*Kürəkçay mənbəyindən suyun əhaliyə çatdırılması üçün əsas nəqledici magistral içməli su xəttinin tikintisi başa çatdırılıb. Suqəbuledici–təmizləyici–ötürücü qurğular kompleksindən su anbarlarına magistral xətt çəkilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu xətlə Göygöl şəhəri ilə yanaşı, Toğana, Çaykənd, Yeni Zod, Göyçəkənd, Mixaylovka, Hacıkənd, Aşıqlı kəndlərinin əhalisi fasiləsiz olaraq təmiz içməli su ilə təmin ediləcəkdir. Qurğunun potensial gücü əhalinin 2031-ci ilə olan artım proqnozunu nəzərə almaqla, 29 min nəfər şəhər əhalisinin saniyədə 72 litr və 10 min nəfər kənd əhalisinin saniyədə 18 litr su ilə fasiləsiz tam təmin olunmasına imkan verəcəkdir.*

*Layihənin icrasının ikinci mərhələsində şəhərin müxtəlif yüksəkliklərində hər birinin tutumu 1000 kubmetr olan 6 su anbarı və suyun xlorlanması üçün qurğu, yerli «Sukanal» idarəsi üçün müasir cihaz və avadanlıqlarla təchiz edilmiş laboratoriya otaqları olan inzibati bina və istehsalat bazası tikilib. Burada suyun istehlakçılara normal çatdırılması üçün bütün operativ tədbirləri həyata keçirmək məqsədilə hər cür şərait yaradılıb. Bu mərhələdə şəhərdaxili su şəbəkəsində, anbarlar arasında, ev birləşmələrində boru xətləri çəkilib, bütün abunəçilərin evlərində smart tipli su sayğaclarının quraşdırılması nəzərdə tutulub.*

*Bundan başqa, şəhər kanalizasiya sistemində 134 min 555 poqonmetr uzunluqda kanalizasiya xətləri çəkilib, 1948 kanalizasiya quyusu və 4500 abunəçinin həyatinə ev baxış quyusu tikilib, 3 kanalizasiya nasos stansiyası inşa edilibdir. Bildirilmişdir ki, hazırda layihənin icrasının üçüncü mərhələsi çərçivəsində gün ərzində 5500 kubmetr çirkab su təmizləmək gücünə malik qurğular kompleksinin tikintisində və texnoloji avadanlıqların quraşdırılması prosesində tamamlama işləri gedir. Kompleks bu ilin birinci rübündə istismara təhvil veriləcəkdir.*

*Prezident İlham Əliyev şəhərə çəkilmiş yeni su xəttinin açılışını etdi.*

## OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA GÖYGÖL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygöl Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Son 10 ildə Azərbaycan idman sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Prezident İlham Əliyevin idmana diqqəti sayəsində Azərbaycan artıq idman ölkəsi kimi bütün dünyada layiqli yerini tutmuşdur. Bu gün müstəqil Azərbaycanın idmançıları dünya miqyasında böyük uğurlar qazanırlar. Ölkəmiz dünya idman ailəsinə möhtəşəm mərkəz kimi daxil olmuşdur. İndi istər Bakı, istərsə də bölgələrdə region və beynəlxalq əhəmiyyətli idman yarışları ən yüksək səviyyədə keçirilir. Bu məsələdə regionlardakı müasir idman qurğuları müstəsna rol oynayır. Dövlət siyasətinin nəticəsi olaraq indi bütün rayonlarda gözəl və hər cür şəraiti olan idman strukturu yaradılır. Bunlardan biri də, Göygöldə yaradılan Olimpiya İdman Kompleksidir. Belə komplekslər bir daha sübut edir ki, ölkədə idmanın kütləviliyini artırmaq, gənclərin idmana marağını təmin etmək və bu sahədə yeni-yeni qələbələr qazanmaq üçün dövlət tərəfindən məqsədyönlü işlər həyata keçirilir. Azərbaycanda idman sahəsinə göstərilən diqqət artıq bütün dünyada böyük rəğbətlə qarşılanır. Bunun nəticəsidir ki, 2015-ci ildə ilk Avropa oyunları və 2017-ci ildə İslam Həmrəyliyi oyunları Azərbaycanda keçiriləcəkdir.*

*Prezident İlham Əliyev Göygöl Olimpiya İdman Kompleksinin açılışını bildirən rəmzi lenti kəsdi.*

*Dövlətimizin başçısına yeni kompleks haqqında məlumat verən Gənclər və İdman naziri Azad Rəhimov bildirdi ki,*

*«Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən Göygöl Olimpiya İdman Kompleksinin tikintisinə 2010-cu ilin sonunda başlanılmışdır. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Göygöl rayonunda ictimaiyyətin nümayəndələri, həmçinin idmançılarla görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Zallar ən müasir idman qurğuları ilə təchiz olunub. Burada müasir üzgüçülük hovuzu da tikilib. Kompleksdə güləş, universal idman, şahmat və boks zalları, məşqçilər üçün otaqlar, konfrans zalı və digər zəruri otaqlar mövcuddur. Müxtəlif idman tədbirlərinin keçirilməsi üçün hər cür şəraitlə təchiz edilən universal idman zalı 780 tamaşaçı üçün nəzərdə tutulub.*

*Kompleksin infrastrukturu da ən müasir tələblərə cavab verir. Beynəlxalq standartlara uyğun inşa edilən kotteclərdə istirahət üçün ən yüksək şərait yaradılıb.*

*Kompleksin açıq futbol stadionu da vardır. FİFA standartlarına cavab verən stadionun ətrafında yüngül atletika yarışları üçün qaçış zolağı salınıb. Stadionda 1300 tamaşaçı tutumu olan üstüörtülü tribuna tikilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Göygöl rayonunun idmançıları beynəlxalq və respublika səviyyəli idman yarışlarında mühüm nailiyyətlər qazanıblar. Hazırda rayonda idmanın müxtəlif növləri üzrə 2 Avropa və 14 dünya çempionu vardır.*

*Göygöl Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Göygöldə Olimpiya Mərkəzi tikilibdir. Bu gün bu mərkəzin açılışını birlikdə qeyd edirik. Sizi təbrik edirəm. Burada idmanla məşğul olmaq üçün bütün imkanlar vardır. Mən soruşuram, deyirlər ki, ümumiyyətlə, Göygöl rayonunda idman obyektləri, idmanla məşğul olmaq üçün imkan olmayıb. İndi belə gözəl imkan vardır. Ən yüksək səviyyədə tikilibdir – hovuz, oyun, məşq zalları, artıq burada gözəl memarlıq özünü göstərir. Bir də ki, kotteclər, mehmanxana.

Yəni rayonun inkişafı üçün bu mərkəzin çox böyük əhəmiyyəti vardır. Burada şahmat dərnəyi fəaliyyət göstərəcəkdir.

Ona görə biz Göygöl idmançılarından yaxşı nəticələr gözləyirik. Gərək yaxşı nəticələr, qələbələr olsun, həm ölkə çempionatlarında, həm də beynəlxalq turnirlərdə. İndi belə şəraitdən sonra gərək yaxşı da nəticələr olsun. Çünki Azərbaycanda idman sürətlə inkişaf edir. Biz idman aləmində yüksək zirvələrə qalxmışıq. Azərbaycan indi idman dövlətidir, çoxlu medallarımız, idmançılarımız, dünya, olimpiya çempionlarımız vardır. Keçən il təkcə 1 il ərzində olimpiya idman növləri üzrə 4 dünya çempionumuz olmuşdur. 2012-ci ildə Yay Olimpiya oyunlarında böyük qələbə qazanmışıq. Universiadada gənc idmançılarımız Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Yəni biz idman ölkəsi kimi, özümüzü artıq təsdiq etmişik. Gərək bu müsbət dinamika davam etsin. Buna nail olmaq üçün gərək uşaqlar, yeniyetmələr hər yerdə, hər bir rayonda idmanla məşğul olsunlar. Biz bu şəraiti yaradırıq.

Göygöl Olimpiya İdman Kompleksi Azərbaycanda tikilən sayca 41-ci regional kompleksdir. Artıq Bakıdan başqa, 41 şəhərdə idmanla məşğul olmaq üçün gözəl imkanlar vardır.

Bakıda isə Avropa oyunlarına hazırlıq gedir. Yeni idman obyektləri tikilir – Olimpiya stadionu, Su İdmanı Sarayı, Stend Atıcılığı Mərkəzi, Milli Gimnastika Arenası. Əvvəllər tikilmiş idman obyektləri təmir edilir. Biz gələn il Avropa oyunlarını yüksək səviyyədə keçirməliyik və əminəm ki, keçirəcəyik.

Ona görə indi Göygöldə idmanla bağlı problemlər öz həllini tapmalıdır. Burada gözəl məşq prosesi təşkil edilməlidir. Eyni zamanda, yığma komandalarımız da gəlib burada təlim-məşq toplantılarında iştirak etməlidirlər. Bir sözlə, əminəm ki, Göygöl Olimpiya Kompleksinin gözəl gələcəyi olacaqdır.

Bütövlükdə, rayonda bu gün bir neçə tədbirdə iştirak etmişəm. Onların içərisində, əlbəttə ki, su-kanalizasiya layihəsini xüsusi qeyd etmək istəyirəm. Siz yaxşı bilirsiniz ki, Göygöl rayonunda su təchizatı həmişə böyük problem olub. Təmiz, keyfiyyətli içməli su həmişə problem olub. Bu problem artıq aradan qaldırılıb. İndi

ölkəmizdə ən təmiz və keyfiyyətli sulardan biri artıq Göygölə verilir. Şəhər içməli su ilə tam təmin edilir. Bu su kəmərboyu yerləşən 7 kəndə də verilir. Gələcəkdə başqa kəndlərin su problemi də həll ediləcəkdir. Bu, tarixi layihədir, tarixi nailiyyətdir. Çünki bu ərazidə, bu rayonda heç vaxt keyfiyyətli su olmamışdır

Bax, Azərbaycan dövlətinin siyasəti və gücü bunda özünü göstərir. İnsanların sağlamlığı, rahat yaşamaları üçün Azərbaycan dövləti bu böyük layihələri icra edir. Dağlardakı mənbədən 25 kilometr uzunluğunda kəmər çəkilib, böyük vəsait xərclənibdir. Dağların arasında süni göl, yəni su hövzəsi yaradıldı ki, burada yaşayan sakinlər təmiz su içsinlər. Mənə verilən məlumata görə, şəhərin qaz problemi də 100 faiz həll edilib. Göygöl şəhəri 100 faiz qazlaşdırılıbdır. Kəndlərin yarısı da qazlaşdırılıbdır. Bu da heç vaxt olmamışdır. İndi biz buraya da qaz çəkdik, 100 faiz təmin olundu.

Elektriklə bağlı problemlər həll edilibdir. Kənd yolları tikilir. Bir layihə icra edilir, daha bir layihə icra ediləcəkdir. Təkliflər verilib. Elə etməliyik ki, burada bir dənə də təmirsiz kənd yolu qalmasın.

Bütün rayon infrastrukturu inkişaf edir və yeniləşəcəkdir.

Əlbəttə ki, rayonun aqrar potensialı çox böyükdür. Bu istiqamətdə hələ görüləsi işlər çoxdur. Turizm potensialı da vardır. Ancaq turizm potensialının inkişafı, ondan səmərəli şəkildə istifadə etmək üçün şərait olmalıdır. Yol, qalmağa yer, infrastruktur olmalıdır. Bunları da biz yaradırıq və yaradacağıq.

Göygöl rayonunun inkişafı üçün əlavə təbdirlər də görüləcək, vəsait də ayrılacaqdır ki, burada işlər həmişə yaxşı getsin.

Əvvəlki səfərlərimdə xəstəxananın açılışında bərabər olmuşuq. Bu gün Bayraq Meydanının təqdimatı keçirilmişdir. Bu da çox önəmli məsələdir. Bizim bayrağımız dövlətçiliyimizin rəmzidir. İndi hər şəhərdə Bayraq Meydanı vardır. Bu da müasir Azərbaycanın yenilikləridir. Bakıda və hər bir şəhərdə. Bütün digər istiqamətlər üzrə Bakıda nə varsa, bütün şəhərlərdə də olmalıdır. Deyə bilərəm ki, Bakı hələ 100 faiz su ilə təmin edilməyib. Bakıda görülən son işlər hesabına biz davamlı suyun verilməsini ancaq 78 faiz səviyyəsinə qaldıra

bilmişik. Amma Göygöldə 100 faizdir. Qazlaşdırma Bakıda 96 faiz, Göygöldə 100 faizdir. Bunlar regional proqramın icrası nəticəsində mümkün olmuşdur. 2 proqram icra edilibdir. Üçüncü proqram da yaxın gələcəkdə qəbul ediləcəkdir. O da beşillik proqram olacaqdır. Orada hər bir rayon, o cümlədən Göygöl rayonu üzrə konkret beşillik fəaliyyət planı öz əksini tapacaqdır. Hər bir vətəndaş proqramı oxuya bilər ki, onun rayonunda hansı işlər gözlənilir. Artıq proqram daha çox yerlərdən gələn təkliflər əsasında tərtib edilir. Sakinlərin müraciətləri nəzərə alınır. Bildiyiniz kimi, dövlət və hökumət orqanlarının vəzifəli şəxsləri mütəmadi qaydada bölgələrə ezam olunurlar, sakinlərlə görüşürlər, onların problemlərini eşidirlər və həll edirlər. Bax, növbəti proqram da sakinlərdən gələn təkliflər əsasında formalaşıbdır. Növbəti 5 il ərzində qalan infrastruktur, sosial məsələlər öz həllini tapacaqdır, o cümlədən məktəb tikintisi. Hələ ki, Göygöldə də təmirsiz məktəblər, digər sosial və infrastruktur layihələri vardır.

Bu gözəl obyektin – idman kompleksinin açılışı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

**V i d a d i R z a y e v** *(rayon sakini):* Möhtərəm cənab Prezident, Sizi Göygöl rayon ictimaiyyəti, gəncləri və idmançıları adından salamlayır, rayonumuza «Xoş gəlmisiniz!» – deyirəm.

Cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi, Siz respublikamızı daim xoşbəxt gələcəyə aparırsınız. Respublikaya rəhbərlik etdiyiniz 10 il ərzində ölkəmizin siması kökündən dəyişmiş, Azərbaycan dünyanın heç bir ölkəsinin nail ola bilmədiyi sürətli inkişaf yolu keçmişdir.

Cənab Prezident, Sizin qayğınız sayəsində bütün sahələr kimi, idman da sürətlə inkişaf edir. Siz Azərbaycanda idmanın kütləviliyini təmin edirsiniz. Bununla da ölkədə sağlam nəsil formalaşdırırsınız.

Artıq dünyada idman ölkəsi kimi tanınan Azərbaycanda müasir idman qurğuları tikilmiş, olimpiya hərəkatı geniş vüsət almışdır. Yaradılan müasir infrastruktur Azərbaycan idmançılarına dünya və Avropa birinciliklərində möhtəşəm qələbələr qazandırmışdır. Biz

səbirsizliklə 2015-ci ildə Avropa oyunlarının Azərbaycanda keçirilməsini gözləyirik. Bu oyunların Azərbaycanda keçirilməsi barədə qərar Sizin uğurlu siyasətinizin nəticəsidir. Bu çox böyük tarixi hadisə, ölkəmizin möhtəşəm uğurudur. Mehriban xanımın bu oyunların təşkilati işlərini öz üzərinə götürməsi isə digər möhtəşəm beynəlxalq tədbirlərdə olduğu kimi, bu tədbirin də çox yüksək səviyyədə keçəcəyinə bizdə heç bir şübhə qoymur. Ona görə də Sizə və Mehriban xanıma bütün göygöllülər adından dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, bu gün açılışını etdiyiniz Göygöl Olimpiya İdman Kompleksinə gənclərin böyük axını olacaqdır. Bu idman kompleksində gənclərimiz idmanın müxtəlif bölmələrində məşğul olub öz ustalıqlarını artıracaq, tezliklə Azərbaycan yığma komandasının tərkibində Avropa, dünya birinciliklərində ölkəmizin bayrağını yüksəklərə qaldıracaqlar. Buna əmin ola bilərsiniz.

Mən Sizə göygöllülər adından bir daha minnətdarlığımı bildirir, uzun ömür, cansağlığı arzulayıram.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygöl şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Tariximizin şərəfli bir dövrü Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalq və dövlət qarşısında əvəzsiz xidmətləri nəzərə alınaraq, paytaxt Bakı ilə yanaşı, bölgələrdə də dahi şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi üçün çox mühüm işlər görülmüşdür. Göygöl rayonundakı Heydər Əliyev parkında ulu öndərin adını daşıyan möhtəşəm Heydər Əliyev Mərkəzinin yaradılması dahi siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan daha bir mühüm addımdır. Heydər Əliyevin həyat və fəaliyyətinin, onun xalqımıza yadigar qoyduğu zəngin irsin yüksək səviyyədə*

*təqdim edildiyi Mərkəzlə yaxından tanışlıq bir daha sübut edir ki, bütün mənalı ömrünü xalqına və Azərbaycan dövlətçiliyinə həsr edən ulu öndər hər şeydən çox sevdiyi Vətəni üçün tarixi işlər görmüşdür.*

*Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratmış, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi, tarixi missiyanı öz üzərinə götürmüşdür. Ulu öndər güclü dövlət və səmərəli iqtisadiyyat amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixinə şanlı səhifələr yazmışdır. Mərkəz və onun yerləşdiyi Heydər Əliyev parkı indi Göygölün ən gözəl məkanlarından biridir.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev parkı ilə tanış oldu. Dövlətimizin başçısına burada aparılan abadlıq və yenidənqurma işləri barədə məlumat verildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən parkdakı Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, kinoteatr və Uşaq Əyləncə Mərkəzi ən müasir standartlara cavab verir. Burada rayon sakinlərinin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb. Parkdakı Yaşıl Teatr bərpa olunub, stolüstü oyunlar zalı fəaliyyət göstərir və uşaqlar üçün xüsusi attraksionlar quraşdırılıb.*

*Prezident İlham Əliyev parkda tikilmiş Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzin foyesində dahi şəxsiyyətin büstü qoyulub. Burada ulu öndərin siyasi irsini araşdırmaq məqsədi ilə Heydər Əliyev Muzeyi yaradılıb. Muzeydə ümummilli liderin uşaqlıq və gənclik illərinə aid şəkillər, həmçinin müxtəlif dövrlərdə çəkilən digər fotolar böyük maraqla qarşılanır. Muzeyin hər bir eksponatı təsdiqləyir ki, tarix yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur və ulu öndərin taleyi əslində bütün Azərbaycan xalqının taleyidir. Heydər Əliyevin misilsiz xidmətləri milli tərəqqi, qurtuluş və inkişaf salnaməsinə çevrilib. Muzeydə təqdim olunan materiallardan da görünür ki, müstəqil Azərbaycan dövlətinin banisi olan Heydər Əliyevin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik,*

*müasirlik kimi ideyalar cəmiyyətimizin dəyərlər sisteminin ayrılmaz tərkib hissəsinə çevrilib.*

*Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün akt və konfrans zalları yaradılıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün burada rəsm, xalçaçılıq, tikiş dərnəkləri fəaliyyət göstərəcəkdir. Mərkəzdə, həmçinin elektron kitabxana, fotostudiya, şahmat zalı, muğam otağı və 3D kinoteatrı da vardır.*

*Orijinal üslubda inşa edilən Heydər Əliyev Mərkəzi Azərbaycanın milli-mənəvi dəyərlərinin zənginliyini nümayiş etdirmək baxımından da çox mühüm əhəmiyyət kəsb edir. Ümumilikdə isə bu cür mərkəzlərin inşası ulu öndərin siyasi irsinin öyrənilməsi ilə yanaşı, onun gələcək nəsillərə ötürülməsi baxımından da vacibdir. Ulu öndər istər sovet illəri, istərsə də müstəqillik dövründə Azərbaycanın bütün regionlarının inkişafına xüsusi diqqət yetirmişdir. İndi Göygöldə belə bir Mərkəzin yaradılması dahi şəxsiyyətə rayon sakinlərinin verdiyi real qiymətdir.*

## Gənclər Mərkəzi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygölə səfəri çərçivəsində Gənclər Mərkəzi ilə tanış olmuşdur.*

*Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq uğurlu nəticələrlə yadda qalıb. 2005–2009-cu illəri əhatə edən «Azərbaycan Gəncliyi Dövlət Proqramı» bu proseslərdə çox mühüm rol oynamışdır. Hazırda həyata keçirilən «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı» bu tədbirlərin məntiqi davamıdır. Bu gün gənclərin vətənpərvərlik və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyəsi prioritet istiqamətlərdəndir. Bölgələrdə gənclər üçün müasir tələblərə cavab verən sosial*

*infrastruktur obyektlərinin tikintisi də bu amala xidmət edir. Göygöldə Gənclər Mərkəzinin yaradılması da gənclərin rayonun həyatında fəal mövqe tutmalarına yeni stimul vermək məqsədi daşıyır.*

*Gənclər Mərkəzi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, rayon gənclərinin fəallığının artırılması, onların intellektual potensialının üzə çıxarılması məqsədilə yaradılan mərkəz indi gənclərin ən çox üz tutduqları məkandır. Buradakı internet-kafe, diskoteka və digər əyləncə növləri və stolüstü oyunlar gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Burada müxtəlif maraqlı tədbirlərin keçirilməsi üçün müasir zal da gənclərin ixtiyarına verilib. Bütövlükdə belə mərkəzlərin yaradılmasında əsas məqsəd yetişməkdə olan nəslin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir.*

## **İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR**

*21 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.*

## «HOLCİM» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU BERNAR FONTANA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Holcim» şirkətinin sədri və baş icraçı direktoru Bernar Fontana ilə görüşmüşdür.*

*Görüşdə «Holcim» şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd olundu, yeni Sement zavodunun tikintisinin holdinq ilə ölkəmiz arasındakı əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə İsveçrə arasında qarşılıqlı investisiyaların əhəmiyyəti qeyd olundu, bunun iqtisadi əlaqələrimizin daha da genişlənməsinə töhfə verdiyi bildirildi.*

*Görüşdə əməkdaşlığın perspektivi barədə fikir mübadiləsi aparıldı.*

## «AİRBUS GROUP INTERNATİONAL» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN PYER TALAMONİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Fransanın «Airbus Group International» şirkətinin baş icraçı direktoru Jan Pyer Talamoni ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında əlaqələrin sürətlə inkişaf etdiyi bildirildi, iqtisadi sahədə, o cümlədən kosmos sənayesi sahəsində əməkdaşlığımızın genişlənməsindən məmnunluq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə «Airbus Group International» şirkəti arasında əməkdaşlığın genişləndirilməsinə dair məsələlər müzakirə edildi.*

## «SWİSS RE» ŞİRKƏTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ SƏDRİ MARTİN PARKER İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Swiss Re» şirkətinin beynəlxalq əlaqələr üzrə sədri Martin Parker ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Swiss Re» şirkəti arasında əməkdaşlığın inkişafına dair məsələlər müzakirə olundu. Ölkəmizdə sığorta bazarının inkişafı, təbii fəlakətlərdən sığortalanma, iqlimin təsiri nəticəsində kənd təsərrüfatı sahəsində baş verəcək hadisələrin qarşısının alınması ilə bağlı sığortanın təşkilinə dair fikir mübadiləsi aparıldı.*

# İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsrail Dövlətinin Prezidenti Şimon Peres ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə, o cümlədən elm, təhsil, kənd təsərrüfatı sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda son vaxtlar gedən proseslər, iqtisadi inkişaf, qeyri-neft sektoruna göstərilən diqqət və əldə edilən nailiyyətlər, işsizliyin və yoxsulluğun aradan qaldırılması və korrupsiyaya qarşı mübarizədən məmnunluq bildirildi. Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi, hərbi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Respublika Günü münasibətilə Sizi və bütün Hindistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Hindistan əlaqələri zəngin ənənələrə malikdir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin, dostluq və əməkdaşlığımızın inkişafı yolunda səylərimizi xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2014-cü il*

## AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU XANIM KVENTİN BRAYSA

Hörmətli xanım General-Qubernator!

Milli bayramınız – Avstraliya Günü münasibətilə Sizə və xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Son illərdə Azərbaycan–Avstraliya əlaqələrinin genişlənməsi məmnunluq doğurur. Ümidvaram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstraliya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2014-cü il*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN «AVRASİYA – YENİ SƏRHƏDLƏR» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində «Avrasiya – yeni sərhədlər» mövzusunda sessiyada iştirak etmişdir.*

*Bu sessiyanın əsas məqsədinin regionla bağlı yeni məlumatlar əldə etməkdən ibarət olduğunu diqqətə çatdıran aparıcı tədbirə qatılanların əksəriyyətinin ötən ilin aprel ayında Bakıda «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda keçirilən Dünya İqtisadi Forumunda iştirak etdiyini bildirdi və Cənubi Qafqazı maraq doğuran region adlandırdı. O, Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı fikirlərini öyrənmək istədiyini bildirdi.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana gəldikdə, biz regional əməkdaşlığın gücləndirilməsi üçün böyük işlər görürük. Bildiyiniz kimi, Azərbaycan regionda enerji layihələrinin təşəbbüskarı olub və bu, geniş regional əməkdaşlığa öz töhfəsini verib. İlk olaraq, neft boru kəmərini qeyd etmək istəyirəm. Bu layihə regional tərəfdaşlar qismində Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirdi. Layihə başa çatdıqdan sonra Mərkəzi Asiya dövlətləri onun tranzit imkanlarından bəhrələnməyə başladılar.

Burada biz görürük ki, bütün iştirakçı dövlətlər layihədən faydalanırlar. Onlar yeni bazarlara çıxış və yeni ixrac marşrutları əldə edirlər. Əslində Cənubi Qafqaz və Mərkəzi

Asiya ölkələrinin müstəqilliyinin bərpa olunmasından sonra enerji amili regional əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Biz bu işləri daha da sürətləndirməyə müvəffəq olmuşuq və hazırda nəqliyyat infrastrukturu üzərində çalışırıq.

Təbii ki, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında iqtisadi əməkdaşlıq da artmaqdadır. Bu ölkələrdə ümumi daxili məhsulun artımı böyükdür və bu göstərici dünya üzrə orta göstəricilərdən daha çoxdur, həmçinin artım potensialı da böyükdür. Düşünürəm ki, 22 il əvvəl Sovet İttifaqı adlanan böyük bir ailənin üzvləri hesab olunan ölkələr arasında əməkdaşlığı gücləndirmək üçün siyasi iradə mövcuddur. Bu gün bu ölkələr müstəqildir və hər bir dövlət özü üçün həm siyasi, həm də iqtisadi inkişaf yolu müəyyən edib, iqtisadi potensialdan qaynaqlanan sosial proqramlar həyata keçirir. Ancaq regional əməkdaşlıq əlavə fürsətlər də yaradır, daha münbit biznes və sərmayə mühitinin yaradılmasını təşviq edir.

Biz regionumuzda, həmçinin Mərkəzi Asiyada cərəyan edən hadisələri yaxından izləyirik. Xalqlarımız arasındakı ənənəvi dostluq əlaqələri regional əməkdaşlıq formatının yaradılmasına xidmət edir. Azərbaycana gəldikdə biz bu məsələlər üzrə bundan sonra da fəal işləməyə davam edəcəyik və gələcəkdə yeni əməkdaşlıq sahələrinin müəyyən olunması üçün bütün zəruri tədbirləri görəcəyik.

* * *

*Sonra prezident İlham Əliyev sualı cavablandırdı.*

**S u a l: Cənab Prezident, bu əməkdaşlığın yeni təşəbbüslərin yaranmasına və artıq həyata keçirilən işlərə töhfə verdiyini nəzərə alsaq, Azərbaycan üçün hansı prioritetləri müəyyən etmisiniz?**

**C a v a b:** Hazırda əsas prioritet nəhəng enerji layihələrinin icrasıdır. Mən ötən ay icrasına başladığımız «Şahdəniz-2» layihəsini nəzərdə tuturam. Layihəyə əsasən 2 qaz boru kəməri inşa ediləcəkdir – biri Türkiyə ərazisindən, digəri isə Türkiyə–

Yunanıstan sərhədindən İtaliyaya istiqamətlənəcəkdir. Biri Trans–Anadolu, digəri isə Trans–Adriatik kəməri adlanır. Bu 2 layihə nəhəng yataqlardan təbii qazın nəqlini nəzərdə tutur və bu, Avropanın ən iri infrastruktur layihəsi olacaqdır.

Bununla da regional əməkdaşlıq baxımından qarşımızda duran ən böyük çağırışlardan biri bu layihənin olduqca qısa zamanda, yəni 5 il ərzində başa çatdırılmasıdır. Cənubi Qafqazın 2 ölkəsi – Gürcüstan və Azərbaycan bu istiqamətdə fəal şəkildə çalışır. Gələcəkdə isə Mərkəzi Asiya dövlətləri inşa olunacaq infrastruktura qoşula bilərlər, çünki bu, enerji təchizatının şaxələndirilməsi üçün əlavə imkan deməkdir.

Daha bir vacib layihə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirəcək dəmir yolu layihəsidir. Bu, Avropanı və Asiyanı birləşdirəcək layihədir və yeni «İpək yolu» hesab olunur. İnşaat işləri davam etməkdədir. Ümid edirəm ki, dəmir yolu xətti 2015-ci ildə istifadəyə veriləcəkdir. Yəni bu həm nəqliyyat, həm enerji əlaqəsidir, həm də qarşılıqlı sərmayə qoyuluşu deməkdir. Xüsusilə əlavə maddi resurslara malik olan ölkələr yeni sərmayə imkanları axtarırlar və düşünürəm ki, bu gün Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya sərmayə qoyuluşu baxımından əlverişli məkanlardır. Çünki burada inkişaf edən bazarlar mövcuddur, sürətli əhali artımı və dinamik iqtisadi inkişaf potensialı vardır.

Beləliklə, nəqliyyat, enerji və ticarətlə bağlı yeni ideyalar bu il ərzində aparıcı istiqamətlər ola bilər.

## «PHİLİPS» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ RONALD DE JONG İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Philips» şirkətinin vitse-prezidenti və satış üzrə rəhbəri Ronald de Jong ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda həyata keçirilən islahatlar, qazanılmış uğurlar nəticəsində investorların səmərəli fəaliyyəti üçün yaxşı şəraitin yaradıldığı qeyd edildi, «Philips» şirkəti ilə mümkün əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ MARK RUTTE İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Niderland Krallığının Baş naziri Mark Rutte ilə görüşmüşdür.*

*İkitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının qeyd edildiyi görüşdə ölkələrimiz arasında fəal iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, investisiyaların qoyuluşunun iqtisadi əlaqələrin gücləndirilməsinə xidmət etdiyi diqqətə çatdırıldı, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirilməsinin önəmi vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan* Respublikasının *Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi* Forumunun *icraçı sədri* Klaus *Şvab ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Dünya İqtisadi* Forumu *arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə* edildi. *Bu əməkdaşlığın yaxşı imkanlarının olduğu* bildirildi *və əlaqələrimizin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE BURKHALTER İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi. Siyasi, iqtisadi, energetika, sərmayə qoyuluşu, tikinti və bank sektorunda əməkdaşlığın böyük potensiala malik olduğu bildirildi və bu sahələrdə əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Azərbaycanın sürətli iqtisadi inkişafının ikitərəfli əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı imkan yaratdığı qeyd edildi, qarşılıqlı investisiyaların bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.*

## «HEWLETT-PACKARD» ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN ÜZVÜ XANIM ANN LİVERMOR İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Hewlett-Packard» şirkəti İdarə Heyətinin üzvü xanım Ann Livermor ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Hewlett-Packard» şirkəti arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Azərbaycanda həyata keçirilən Ümumistifadəli Data Mərkəzinin və digər layihələrin icrasında «Hewlett-Packard» şirkəti ilə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## «GDF SUEZ» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JERAR MESTRALE İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «GDF Suez» şirkətinin baş icraçı direktoru Jerar Mestrale ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında müxtəlif sahələrdə yüksək səviyyəli əməkdaşlığın yaxşı perspektivlərinin olduğu qeyd edildi, bu əlaqələrin inkişafında «GDF Suez» şirkətinin də xüsusi rolu vurğulandı.*

*Söhbət zamanı «GDF Suez» şirkəti ilə «Abşeron» qaz yatağı üzrə görülən işlərdən məmnunluq ifadə olundu və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ümumi tarixi-mədəni köklərin mövcudluğu xüsusi vurğulanaraq ölkələrimizin və xalqlarımızın qonşuluq və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu bildirildi. Ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, mədəniyyət və digər sahələrdə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin və regional əməkdaşlığın daha da gücləndirilməsi üçün hər iki tərəfin səylərinin artırılacağına əminlik ifadə edildi. Münasibətlərimizin gələcəkdə daha da genişləndirilməsi üçün konkret istiqamətlərin müəyyənləşdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## «MİCROSOFT INTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ JAN FİLİP KURTUA İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Microsoft International» şirkətinin prezidenti Jan Filip Kurtua ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Microsoft International» şirkəti arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Şirkətin ölkəmizdəki fəaliyyətindən, müxtəlif sahələrdə həyata keçirdiyi layihələrdən məmnunluq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycanda proqram təminatı və əqli mülkiyyətin qorunması sahəsində görülən işlər yüksək qiymətləndirildi. Həmçinin «Microsoft»un proqram təminatının müəllif hüququnun qorunması sahəsində Azərbaycan hökumətinin rolu xüsusi vurğulandı.*

## «CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA: QLOBAL İQTİSADİYYATA YOL» MÖVZUSUNDA QƏBULDA İŞTİRAK

*Davos*

*23 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol» mövzusunda qəbulda iştirak etmişdir.*

*Tədbiri Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab açdı.*

**Klaus Şvab:** Cənab prezident İlham Əliyev!

Komissar Ottinger!

Xanımlar və cənablar!

Bu gün Cənubi Qafqaz və Mərkəzi Asiyaya həsr olunmuş xüsusi axşam təşkil edilmişdir. Sizin Davosda şəxsi iştirakınız sayəsində regiona maraq artır. Bugünkü görüşümüz zamanı Sizin baxışlarınız və siyasətinizlə bağlı ətraflı məlumat aldım. Açıqlamaq istərdim ki, 1 ay bundan əvvəl Azərbaycanda olmuşam və hazırda ölkənizin inkişafı ilə bağlı bir sıra ssenarilər üzərində çalışırıq. Bunlar artıq Sizə təqdim olunub. Lakin işlər hələ də davam edir və avqust ayında biz yenidən Sizinlə görüşüb əlavə məlumatlar təqdim edəcəyik. Yekun təqdimat bu ilin sonunda və ya gələn ilin əvvəlində baş tutacaqdır. Müxtəlif ssenarilər nəzərdən keçirilir. Təbii ki, biz əminik, ən müsbət ssenari reallaşacaqdır. Bununla da Sizə xoş axşam və fəal müzakirə arzu edirəm.

**İlham Əliyev:** Sağ olun. Əvvəlcə Cənubi Qafqaz və Mərkəzi Asiyaya həsr edilmiş bu tədbirin təşkilatçılığına görə professor Şvaba minnətdarlığımı bildirirəm. Bizim region hazırda dünyanın diqqətini cəlb edir. Bu səhər təşkil edilmiş paneldə

regional əməkdaşlıq mövzusu müzakirə olundu. Bundan əlavə, ötən ilin aprel ayında Bakıda təşkil olunmuş Davos Forumu da həmin mövzuya həsr edilmişdi. Həqiqətən, regionumuz dinamik inkişaf edir və burada iqtisadi əməkdaşlıq üçün böyük potensial vardır. Azərbaycan öz növbəsində əməkdaşlığın gücləndirilməsi, Cənubi Qafqaz və Mərkəzi Asiyanın inteqrasiyası üçün vacib rol oynayır. Deyə bilərəm ki, ölkələrimizi bir araya gətirmək istiqamətində ilk təşəbbüsü Azərbaycan göstərib. Bu da enerji siyasətimizin başlanğıcı ilə bağlıdır.

Biz geniş boru kəmərləri şəbəkəsi vasitəsilə Xəzər, Qara və Aralıq dənizlərini birləşdirməyə müvəffəq olduq. Bu gün Azərbaycan yalnız enerji resurslarının təchizatçısı deyil, həm də tranzit ölkədir. Mərkəzi Asiya dövlətləri öz təbii sərvətlərini bizim infrastruktur vasitəsilə nəql edir. Bu layihə həm istehsalçı, həm istehlakçı, həm də tranzit ölkələr üçün faydalı şərait yaradıb. Bu layihə tərəfimizdən icra edilən yeni bir layihənin başlanğıcı olub. Mən Türkiyəni və Avropanı əhatə edəcək boru kəməri, həmçinin Avropanın ən iri infrastrukturu hesab olunan «Şahdəniz-2» layihəsini nəzərdə tuturam. Ötən ilin dekabrında 25 milyard dollar dəyərində olan «XXI əsrin müqaviləsi» adlandırdığımız sənədi imzaladıq. Bu nailiyyət göstərir ki, qarşılıqlı dəstək və marağa əsaslanan geniş və səmimi əməkdaşlıq olduğu halda, uğurlu nəticələr əldə edilir.

Bu gün biz nəqliyyat şəbəkəsinin yaradılması istiqamətində Mərkəzi Asiya dövlətləri ilə birgə çalışırıq. Biz eyni zamanda, Mərkəzi Asiyanı Azərbaycan vasitəsilə Avropaya birləşdirəcək mühüm dəmir yolu layihəsi üzərində çalışırıq. Əslində bu, Çindən Böyük Britaniyaya qədər uzanan yeni «İpək yolu»dur və ümid edirəm ki, artıq gələn il istifadəyə veriləcəkdir. Bunların hamısı regional əməkdaşlığın müsbət əlamətləridir.

Təbii ki, siyasət sahəsi də mühüm rol oynayır. Region dövlətləri vaxtilə – 22 il əvvəl vahid bir ölkənin tərkib hissəsi olmuşdur. Bizim tarixən əlaqələrimiz vardır, ancaq əminəm ki, hər bir ölkə müstəqilliyinin bəhrəsini görür. Biz təkcə azadlığa qovuşmamışıq. Biz sistemi dəyişmişik. Ölkələrimizin nailiyyətləri

bazar iqtisadiyyatının və müstəqil siyasi inkişafın üstünlüklərini aydın nümayiş etdirir. Məsələn, 22 il əvvəl özəl sektorun ümumi daxili məhsulumuzda payı sıfır faiz idisə, bu gün bu göstərici 85 faizə bərabərdir.

Siyasi və iqtisadi transformasiya və sərmayələrin cəlb edilməsi istiqamətində aparılan siyasət uğurlu olub. Bu gün artıq Azərbaycan xarici ölkələrə sərmayə qoyur. Bunların hamısı olduqca qısa zamanda baş verib. Bu gün bizim regionumuz nəhəng potensiala, dinamik inkişafa və böyük insan kapitalına malik məkan hesab olunur. Bu məsələdə böyük inkişaf potensialı vardır və bizim göstəricilər dünya üzrə orta göstəricilərdən üstündür.

Azərbaycana gəldikdə, biz bu gün diqqətimizi iqtisadiyyatımızın şaxələndirilməsinə yönəldirik. Ötən il qeyri-neft sektorunda ümumi daxili məhsulun artımı 10 faizə qədər olub və ümid edirəm ki, növbəti 10 il ərzində eyni inkişaf tempi təmin ediləcəkdir.

Onu da qeyd etməliyəm ki, Azərbaycan sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son 10 ildə iqtisadiyyatımız 3 dəfə artıb və iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə Davos İqtisadi Forumu Azərbaycanı dünyada 39-cu yerə layiq görüb. Bu əsasən islahatların və təbii sərvətlərimizin düzgün istifadə edilməsi, insan kapitalına və infrastruktura yenidən sərmayələrin qoyulması və biznes imkanlarının yaxşılaşdırılması sayəsində mümkün olub.

Bir daha regionumuza göstərilən maraq və dəstəyə görə professor Şvaba və Davos İqtisadi Forumuna təşəkkürümü bildirirəm. Bu mənim Davosa səkkizinci səfərimdir və bu, Azərbaycanın təbliği və təmasların qurulmasında çox faydalı olub. Ötən illər ərzində qurduğumuz təmaslar bu gün kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının və indiyədək heç ağlımıza gətirmədiyimiz sahələrin inkişafına xidmət edib.

Bir daha Sizə təşəkkür edirəm və bu mövzunun bundan sonra da diqqət mərkəzində olacağına ümidvaram.

## FRANSA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LORAN FABİUS İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Fransanın Xarici İşlər naziri Loran Fabius ilə görüşmüşdür.*

*Loran Fabius Fransa prezidenti Fransua Ollandın salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı. Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi bildirildi, qarşılıqlı sərmayələrin əhəmiyyətindən danışıldı. Qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyi bildirildi.*

*Əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edilən görüşdə mədəniyyət sahəsində yüksək səviyyədə əməkdaşlığın aparıldığı vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Fransua Ollandın salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.*

**HONDURAS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO ERNANDES ALVARADOYA**

Hörmətli cənab Prezident!

Honduras Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Honduras əlaqələrinin genişlənməsi, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Andiçmə mərasiminə dəvətinizə görə təşəkkür edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Honduras xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 yanvar 2014-cü il*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı münasibətlər inkişaf edərək, dostluğumuzun möhkəmlənməsinə, əməkdaşlığımızın genişlənməsinə töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 yanvar 2014-cü il*

## GÖRKƏMLİ BƏSTƏKAR QARA QARAYEVİN BAKIDA ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*3 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 3-də Bakının 28 May küçəsində Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri, bəstəkar və pedaqoq, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Qara Qarayevin abidəsinin açılışı mərasimində iştirak etmişlər.*

**İlham Əliyev:** Hörmətli xanımlar və cənablar, əziz dostlar! Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Bakının mərkəzində böyük bəstəkar Qara Qarayevin abidəsinin açılışına toplaşmışıq. Böyük bəstəkarın doğum günü ərəfəsində bu abidənin açılışı münasibətilə Qara Qarayevin ailə üzvlərini, Azərbaycanın musiqi ictimaiyyətini, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Qara Qarayev Azərbaycan xalqının böyük oğludur, böyük şəxsiyyətdir, dahi bəstəkardır. O, Azərbaycanı, Azərbaycan xalqını ləyaqətlə təmsil edirdi. Onun fəaliyyəti sayəsində Azərbaycanı sovet məkanında və dünyada daha da yaxından tanıdılar. O, Azərbaycan xalqını, Azərbaycan musiqi mədəniyyətini dünyaya tanıtdırırdı. Onun yaşayıb-yaratdığı dövrdə Azərbaycan müstəqil deyildi və Azərbaycan xalqı ancaq incəsənət, ədəbiyyat, musiqi sahəsində öz istedadını dünya ictimaiyyətinin diqqətinə çatdıra bilirdi. Əlbəttə, Qara Qarayevin əsərlərini dinləyən tamaşaçılar anlayırdılar ki, ancaq istedadlı xalqın nümayəndəsi belə gözəl əsərləri yarada bilər.

Qara Qarayevin əsərləri ölməzdir. Onlar bu gün də yaşayır, bundan sonra da yaşayacaq, əbədi yaşayacaqdır. Bir sözlə, bu

böyük şəxsiyyət bizim milli fəxrimizdir. Azərbaycan klassik musiqisinin inkişafında onun danılmaz və müstəsna xidmətləri vardır. Eyni zamanda, bildiyiniz kimi, o, milli musiqiyə də çox bağlı idi. Xalq mahnıları, bizim milli musiqimiz onun fəaliyyətinə, yaradıcılığına böyük təsir göstərmişdir.

Qara Qarayev gözəl müəllim idi. Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində işləyirdi. Onun davamçıları öz növbələrində Azərbaycan musiqi mədəniyyətini zənginləşdirmişlər. Bir sözlə, çox istedadlı adam idi, dostluğa da çox sadiq idi. Bildiyimə görə, onun dostluqla bağlı fikirləri çox maraqlı idi. Ulu öndər Heydər Əliyev ilə onların çox yaxın münasibətləri var idi. Qarşılıqlı hörmət, qarşılıqlı rəğbət əsasında qurulmuş bu münasibətlər nümunəvi xarakter daşıyırdı. Mən də gənclik, yeniyetməlik dövrümdə bir neçə dəfə onların bir yerdə təşkil etdiyi məclislərdə iştirak etmişəm. O səmimi münasibətləri görürdüm, duyurdum və belə də olmalı idi. Çünki bir daha demək istəyirəm ki, Qara Qarayev Azərbaycan xalqının görkəmli nümayəndəsidir, milli fəxrimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, onun Qara Qarayev kimi böyük nümayəndəsi olmuşdur və vardır.

Qara Qarayev Sovet İttifaqı çərçivəsində ən yüksək mükafatlarla təltif edilmişdir. Haqlı olaraq təltif edilmişdir, gənc yaşlarında bu mükafatlara layiq görülmüşdür. Ona ən yüksək ordenlər, ən yüksək mükafatlar verilmişdir. Əlbəttə, əgər o, müstəqillik illərində yaşasaydı, müstəqil Azərbaycan dövlətinin ən ali mükafatları ilə təltif olunardı. Əfsuslar olsun ki, o, həyatdan tez getdi. Daha çox yaşaya bilərdi, daha çox yarada bilərdi. Ancaq onun yaratdığı əsərlər Azərbaycan musiqisinin zirvəsidir. Biz hamımız bir daha onun ölməz xatirəsi qarşısında baş əyirik. Mən çox şadam ki, bu gün bu gözəl yerdə, tarixi yerdə, onun yaşadığı evin yaxınlığında bu gözəl abidə açılır.

Azərbaycan musiqi mədəniyyəti çox zəngindir. Biz haqlı olaraq fəxr edirik ki, gözəl musiqimiz vardır. Xalq musiqimiz, muğam sənəti ümumdünya musiqi sənətinin zirvəsidir. Bu gün

Azərbaycan musiqisini inkişaf etdirən bəstəkarlar, sənət adamları öz töhfələrini verirlər ki, bu ənənələr davam etsin, bu ənənələr kəsilməsin, istedadlı musiqiçilər, bəstəkarlar yetişsin. Bu məqsədlə Azərbaycan dövləti əlindən gələni edir və edəcəkdir.

Azərbaycanın musiqi həyatı zəngindir, ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər, dünya səviyyəli festivallar, müsabiqələr keçirilir. Biz Azərbaycan musiqisini dünyada da təqdim edirik. Müxtəlif konsertlər, müsabiqələr, festivallar keçirilir. Hesab edirəm ki, bu gün Azərbaycan, o cümlədən bu istiqamətdə də uğurla inkişaf edir. Mədəniyyətlə, tarixlə bağlı olan bütün tədbirlər yüksək səviyyədə keçirilir. Bizim tarixi irsimiz qorunub saxlanılır. Memarlıq abidələri bərpa edilir. Muzeylər, teatrlar, konsert salonları təmir edilir, tikilir. Bakıda, bölgələrdə mədəniyyət mərkəzləri açılır. Yəni bu, Azərbaycan dövlətinin bu sahəyə göstərdiyi diqqətin nəticəsidir.

Hər bir ölkənin inkişafı üçün onun mədəni həyatı xüsusi əhəmiyyət daşıyır. Biz uzun illər, əsrlərboyu müstəqillikdən məhrum idik. Ancaq müstəqilliyə olan sevgimizi ürəyimizdə yaşatmışdıq. Musiqimiz, ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz bizi bir xalq kimi qorudu və bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən dövlətdir.

Qara Qarayevin xatirəsi müstəqil Azərbaycan dövləti tərəfindən əbədiləşdirilib. Onun adına prospekt, metro stansiyası, incəsənət məktəbi vardır. Bu gün onun gözəl abidəsi Bakının tarixi yerində açılır. Bu münasibətlə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bir daha ümumi fikri ifadə edərək demək istəyirəm ki, Qara Qarayevin əziz xatirəsi və onun ölməz əsərləri Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Sağ olun.

**Fərhad Bədəlbəyli** *(Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Bu gün həqiqətən, belə qarlı-günəşli gündə keçirilən bu mərasimdə iştirak etmək böyük bir şərəfdir. Yadımdadır, 32 il bundan əvvəl biz Şuşada qarlı bir gündə bir yerdə Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak edirdik. Biz cavan idik. İllər keçdi, amma nə yaxşı ki, bu ənənə davam etdirilir. Siz, möhtərəm Prezident, musiqi xadimlərinə, incəsənətə böyük diqqət yetirirsiniz. Baxın, son illər Bakımızda bir-birindən gözəl heykəllər qoyulub: Bülbülün, Fikrət Əmirovun və Volfqanq Amadey Motsartın heykəlləri, nəhayət, dahi Qara Qarayevin heykəli. Bunlar, əlbəttə, Bakının yaraşığıdır. Bakıya kim gəlirsə, dərhal bunu qeyd edir.

Əlbəttə, Qara Qarayev çox xoşbəxt bir insan idi. Ona görə ki, dahi bəstəkar idi, ailədə xoşbəxt idi. Onun gözəl, istedadlı uşaqları vardır, bütün əsərləri səslənirdi. Qara Qarayev Şostakoviç, Stakovski, Stravinski və digər dahi insanlarla ünsiyyətdə olmuşdu. Cənab Prezident, Siz tamamilə düz dediniz, Qara Qarayev yaxınlıqdakı evdə yaşayırdı, yolu buradan keçirdi. Onun abidəsi üçün çox rəmzi bir yer seçiblər. 2018-ci ildə Qara Qarayevin 100 illiyi olacaq. Bizim belə arzumuz var. Onun məşhur «İldırımlı yollarla» baleti dünyanın böyük teatrlarının birində – ya Londonda, ya Parisdə, ya da Praqada tamaşaya qoyulsun. Deyirlər ki, Afrika mövzusu müasir deyil, əksinə, indi Afrika od içindədir. Mövzu çox müasirdir. Musiqi də dahiyanə bir musiqidir.

Bu gün Londonda, Parisdə, Nyu-Yorkda, Moskvada, Vilnüsdə, Lvovda – hər yerdə Qara Qarayevin musiqisi səslənir. Onun əsərlərini London simfonik orkestri ifa edir. Biz doğrudan xoşbəxtik və fəxr edirik ki, azərbaycanlıyıq. Ona görə ki, tariximizdə Qara Qarayev, böyük dövlət xadimi Heydər Əliyev, böyük mədəniyyət və elm xadimləri vardır. Sizə cansağlığı arzulayırıq. Çox sağ olun ki, bizə həmişə diqqət yetirirsiniz.

**Arif Məlikov** *(Qara Qarayevin tələbəsi, Xalq artisti, bəstəkar):* Əziz və hörmətli Prezident!

Əziz və hörmətli mərasim iştirakçıları!

Mən deyə bilərəm ki, bu gün tarixi bir gün yaşayırıq. Mən Qara Qarayevin millət tərəfindən tanınmasına heç vaxt şübhə etməmişəm. Amma bu heykəl onun daha yaxından tanınmasına, əsərlərinin səslənməsinə öz təsirini göstərəcəkdir. Bilirsiniz, hərdən daş da səs çıxarır. Bu daşa baxan insanlar Qara Qarayevin musiqisini eşidəcəklər. Bayaqdan baxıram, əvvəl elə bildim ki, burada notlar dekor formasında yazılıb. Amma sonra gördüm ki, çox böyük peşəkar səviyyədə yazılmışdır. Vaxt olanda biz musiqiçilər gəlib əvvəldən axıra qədər oxuyacağıq. Musiqini bilməyənlərdən kimsə maraqlanacaqdır. Biz də tərcümə edərik ki, burada nələr yazılıb.

Qara Qarayev dahi bəstəkar olmaqla yanaşı, böyük müəllim idi. Dəqiqliklə deyə bilmərəm, ola bilər, bir qədər səhv edim, Qara Qarayevin 60-dan çox tələbəsi olub. Onlar başqa-başqa məktəblərdə, orkestrlərdə, xaricdə Qara Qarayevin yolunu davam etdirirlər. Mən xoşbəxtəm ki, tar sinfindən Qara Qarayevin sinfinə gəldim. Bu gün əlimdən gələni edirəm, bu mənim borcumdur. Çünki müəllim sözü o qədər dəyərli, o qədər vacib, həyatda lazım olan sözdür ki, müəllimi olmayan adam böyük uğur qazana bilməz. Bütün insanların gərək gözəl müəllimləri olsun. Fəxrlə deyə bilərəm ki, Rimski-Korsakovdan Şostakoviçə, ondan Qara Qarayevə, ondan da bizim nəslə gəlib çatan bu yolu gələcək musiqiçilər də davam etdirəcəklər. Amma bu gün onların əllərində bir fürsət də olacaqdır. Onlar Qara Qarayevin xatirəsinə ehtiram əlaməti olaraq bu abidənin qarşısına gələrək, önünə gül qoyacaqlar. İnanıram ki, bu qranit abidənin qarşısında bundan sonra həmişə gül-çiçək olacaqdır. Mən hesab edirəm ki, Azərbaycan xalqı öz böyük sənətkarına bu hörməti edəcəkdir. Bugünkü, bundan əvvəlki, bundan sonrakı günlərə görə Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**Anar Rzayev** (*Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı):* Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli tədbir iştirakçıları!

Böyük bəstəkar, alim, pedaqoq, ziyalı, ictimai xadim Qara Qarayev Azərbaycanın yetişdirdiyi ən işıqlı insanlardan biri idi. Azərbaycan ədəbiyyatının klassikləri Nizamiyə və Füzuliyə müraciət edərək, «Leyli və Məcnun» simfonik poemasını və «Yeddi gözəl» baletini yaratdı. Dünya xalqlarının musiqisinə müraciət edərək, «Alban» rapsodiyasını, «Vyetnam» süitasını, «Don Kixot» simfonik qravürlərini və «İldırımlı yollarla» baletini yaratdı. Çağdaş dünya musiqisinin ən yeni texnologiyalarına müraciət edərək, «Üçüncü simfoniya»sını və skripka konsertini yaratdı. Amma nə yaradıbsa, Qara Qarayev ilk növbədə, Azərbaycan bəstəkarı idi. Azərbaycana dünya musiqisini gətirirdi və dünyaya Azərbaycan musiqisinin qədimlərdən gələn ən zəngin ənənələrini, ən böyük sərvətlərini çatdırırdı.

Ömrünün son illərində Qara Qarayev Moskvada yaşayırdı, xəstə idi. Amma mənə deyirdilər, həkimlər deyəndə ki, bu yaxında Bakıya gedəcəksən, onun səhhəti daha yaxşı, daha gümrah olurdu. Nə yazıq ki, Azərbaycana tabutda gəldi. Azərbaycan xalqı, Azərbaycan torpağı müvəqqəti getmiş və əbədi qayıtmış oğlunu öz ağuşuna aldı.

Bu gün Qara Qarayev torpağın altındadır, torpağın üstündə onun bu heykəlidir, göylərdə onun ruhudur, fəzada, efirdə onun ölməz musiqisidir.

Cənab Prezident, mən Sizə təşəkkür edirəm. Siz böyük ulu öndərimiz Heydər Əliyevin yolunu davam etdirərək həmişə bizim sənət adamlarına, ədəbiyyat xadimlərinə diqqətlə yanaşmısınız. Biz bu gün də bunun bir təzahürünü görürük.

Mən bu heykəlin müəllifi, bizim istedadlı heykəltəraş Fazil Nəcəfovu da təbrik edirəm. Hamımızı bu böyük hadisə münasibətilə təbrik edirəm. Çox sağ olun.

**F ə r ə c Q a r a y e v** *(Qara Qarayevin oğlu, Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru, Əməkdar incəsənət xadimi, bəstəkar):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Əziz həmkarlar!

Əziz dostlar!

Əziz bakılılar!

Həqiqətən, bu gün bizim üçün böyük bayramdır. Biz bu gün müəllimimizin, professorumuzun abidəsini açırıq. O, həftədə 2 dəfə – çərşənbə axşamı və cümə günləri indiki Bülbül prospektindəki mənzilindən çıxıb konservatoriyaya gedir, səhər saat 11-dən üçə, dördə və beşədək tələbələrlə məşğul olurdu. Zənnimcə, bu yer çox uğurlu seçilmişdir.

Cənab Prezidentin dediyi kimi, Azərbaycanda həm Qara Qarayev prospekti, həm metro stansiyası, həm də «Qara Qarayev» teploxodu var, Dövlət kamera orkestri də Qara Qarayevin adını daşıyır. Mərhum bəstəkara bu hörmət və ehtiram ötən əsrin 80–90-cı illərində göstərilmişdir. O vaxt respublikaya, daha sonra müstəqil Azərbaycana Heydər Əlirza oğlu Əliyev rəhbərlik edirdi. Cənab Prezident, həmin ənənənin bu gün davam etməsinə görə biz minnətdarlıq və təşəkkür dolu ən səmimi sözlərimizi ifadə edib, Sizə «çox sağ olun» – deyirik. Hazırda çox gözəl incəsənət məktəbinə Qara Qarayevin adı verilib. Bu gün bu gözəl abidənin açılışıdır.

Zənnimcə, abidə həqiqətən maraqlıdır. Biz abidənin eskizlərini müəllif, heykəltəraş Fazil Nəcəfovla müzakirə etmişik. Düşünürəm ki, heykəltəraş abidədə bəstəkarın daxili dünyasını göstərə bilmişdir. Mənə belə gəlir ki, bu, böyük uğurdur.

Fikrimcə, Azərbaycan məşhur oğlu üçün maksimum nə mümkündürsə, onu da etmişdir. Çox sağ olun, cənab Prezident.

* * *

*Sonra prezident İlham Əliyev abidənin açılışını etdi.*

*Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstəsi qoydular və musiqi ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdilər, onlarla səmimi söhbət etdilər.*

* * *

*Qara Qarayevin adı görkəmli bəstəkar və pedaqoq kimi, Azərbaycanın mədəniyyət və incəsənət tarixinə düşüb. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı və bir sıra digər nüfuzlu mükafatların laureatı, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Elmlər Akademiyasının akademiki olmuş Qara Qarayev nəinki Azərbaycan mədəniyyətinə, eləcə də dünya musiqi xəzinəsinə əvəzsiz töhfələr verib. Onun geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfonik poemaları, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqisi dünya mədəniyyətinin incilərindən hesab edilir.*

## NİDERLAND KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ FRANS TİMMERMANSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Niderland Krallığının Xarici İşlər naziri Frans Timmermansın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda Davosda Niderlandın Baş naziri Mark Rutte ilə görüşünü və söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələr apardığını məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı Niderland Krallığının Xarici İşlər naziri Frans Timmermansın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Niderland Krallığının Xarici İşlər naziri Frans Timmermans ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi, iqtisadi və digər sahələrdə daha da genişləndirməkdə maraqlı olduğunu dedi. Frans Timmermans əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkəmizin qeyri-neft sektorunda əldə olunan nailiyyətləri yüksək qiymətləndirən nazir Niderland şirkətlərinin Azərbaycan iqtisadiyyatına, xüsusilə ölkəmizin qeyri-neft sektoruna böyük maraq göstərdiklərini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən informasiya-kommunikasiya texnologiyaları, infrastruktur, təhsil, birgə layihələr və digər sahələrdə inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*4 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMLARININ İCRASINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK *

*5 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunan konfransda iştirak etmişdir.*

*Mərkəzdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasından bəhs edən sərgi açılmışdır.*

*Sərgidə 2003–2013-cü illər üzrə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəriciləri, iqtisadiyyatın sənaye, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, sosial inkişaf, turizm, ekologiya, sahibkarlıq və digər sahələrinin inkişafını əks etdirən göstəricilərə geniş yer verilmişdir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ölkə iqtisadiyyatının dinamik inkişafında və uğurların qazanılmasında regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı dövlət proqramları mühüm rol oynamışdır. Məhz ötən illərdə aparılan məqsədyönlü və kompleks dövlət siyasəti nəticəsində hazırda Cənubi Qafqazın ümumi iqtisadiyyatının dörddə üçü respublikamızın payına düşür.*

---

[*] Реэионларын сосиал-игтисади инкишафы дювлят програмларынын иърасына щяср олунан конфрансда İгтисадиййат вя Sянайе назири Шащин Мустафайев, Няглиййат назири Зийа Мяммядов, Кянд Тясяррцфаты назири Щейдяр Ясядов, Дювлят Нефт Ширкятинин президенти Рювняг Абдуллайев, «Азяренержи» Ачыг Сящмдар Ъямиййятинин президенти Етибар Пирвердийев vә «Азярсу» АСЪ-нин сядри Горхмаз Щцсейнов чыхыш etdilər.

*2003–2013-cü illərdə Naxçıvan Muxtar Respublikası da əsaslı inkişaf yolu keçmişdir.*

*Həmin dövrdə muxtar respublikada ümumi daxili məhsulun həcmi 13,9 dəfə, adambaşına ümumi daxili məhsul 12 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,9 dəfə artmışdır. Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət, infrastruktur və digər sahələrdə hərtərəfli yenidənqurma işləri aparılmışdır.*

*Sərgidə Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, o cümlədən Fondun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumatlar da geniş əksini tapmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransı giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasını müzakirə edəcəyik. Bildiyiniz kimi, ikinci Dövlət Proqramı 1 ay bundan əvvəl başa çatdı. Beləliklə, bu proqramların müzakirəsinə ehtiyac var. Əslində biz hər il bu proqramların icrasını müzakirə edirik. Hər il təhlil edirik və görüləcək işlər haqqında göstərişlər verilir.

2004-cü ildə birinci proqramın qəbul edilməsi Azərbaycan regionlarının inkişafında xüsusi rol oynamışdır. Mən birinci proqramın qəbul edilməsi haqqında hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində fikirlərimi bildirmişdim. Demişdim ki, əgər mənə etimad göstərilərsə, ilk növbədə, Azərbaycanın regionlarının inkişafı ilə məşğul olacağam, xüsusi proqram qəbul ediləcəkdir.

Belə də oldu, proqram qəbul edildi. Birinci beşillik proqram, demək olar ki, regionlarda böyük dönüş yarada bilmişdir. Ondan sonra ikinci proqram qəbul edildi. 2009–2013-cü illəri əhatə edən proqram başa çatdı. Deyə bilərəm ki, regionların

inkişafında, ümumiyyətlə, Azərbaycanın iqtisadi potensialının gücləndirilməsində bu proqramların çox böyük rolu olmuşdur.

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verdi. Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə, nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir.

Son 10 il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmişdir. İqtisadiyyat 3,4 dəfə artmışdır. Heç bir başqa ölkədə son 10 il ərzində iqtisadiyyat bu qədər artmamışdır. Bunun başlıca səbəbi aparılan islahatlar, ölkəmizdə hökm sürən sabitlik, ictimai asayişdir. Əlbəttə ki, sabitlik və düşünülmüş siyasət iqtisadi sahədə inkişafa da gözəl şərait yaratmışdır. Azərbaycanda iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır. Bu 2 istiqamət arasında uzlaşma vardır. Hesab edirəm ki, Azərbaycan təcrübəsi bu baxımdan başqa ölkələr üçün də maraqlı ola bilər.

İki proqramın icra edilməsi nəticəsində sənaye istehsalı 2,7 dəfə artmışdır. Əgər proqramın icrasının ilk illərində iqtisadiyyat və sənaye daha çox neft sektoru hesabına artırdısa, son illərdə qeyri-neft sektorumuz ölkəmizin uğurlu inkişafını təmin edir. Təsadüfi deyildir ki, keçən il qeyri-neft sektorumuzun artımı təqribən 10 faiz təşkil edirdi. Bu da dünya miqyasında ən böyük göstəricilərdən biridir. Ümumiyyətlə, keçən il iqtisadiyyat təqribən 6 faiz artmışdır.

Əlbəttə, 2006-cı ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəyə böyük valyuta axını başlamışdır. O illərdə iqtisadi artım daha çox neft amilinə bağlı idi. Ancaq biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə edə bilmişik. Bu sahədə də Azərbaycan təcrübəsi nümunə ola bilər. Şəffaflıq təmin edildi, neft gəlirləri artırıldı, əldə edilmiş gəlirlər iqtisadiyyatın real sektoruna, infrastruktur layihələrinə istiqamətləndirildi. Yəni hesab edirəm ki, biz burada da çox düzgün balans saxlaya bilmişik. Valyuta ehtiyatlarımız ildən-ilə artır. Eyni zamanda, ölkə iqtisadiyyatına böyük investisiya qoyulmuşdur. Bu investisiya hesabına sahibkarlığın inkişafı, infrastruktur layihələrinin

icrası mümkün olmuşdur. İndi Azərbaycanı bunlarsız təsəvvür etmək mümkün deyil.

Ümumiyyətlə, 2004-cü ildə əgər birinci proqram qəbul edilməsəydi, bugünkü Azərbaycan reallıqları tam fərqli ola bilərdi. Regionların inkişafı, sahibkarlara verilən dəstək, qeyri-neft sektorunun inkişafı, idxaldan asılılığımızın azaldılması, ixrac potensialının yaradılması son illərin əlamətidir.

Əlbəttə, əldə edilmiş bütün bu nailiyyətlər statistik göstəricilərdə də əks olunur. Qeyd etdiyim kimi, iqtisadiyyat 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmışdır. Ölkədə 1 milyon 200 min iş yeri açılmışdır ki, onların 900 mini daimi iş yeridir. Yoxsulluq təqribən 50 faizdən 5,3 faizə düşmüşdür. İşsizlik 5 faiz təşkil edir. Bu göstəricilərə görə Azərbaycan hətta inkişaf etmiş ölkələri qabaqlayır. Xarici dövlət borcumuz 8 faiz təşkil edir. Hesab edirəm ki, bu da dünya miqyasında ən yüksək göstəricidir.

Bu onu göstərir ki, biz iqtisadi siyasətimizi çox böyük dəqiqliklə, həssaslıqla aparırıq. Qoyulan investisiyalar ya xaricdən cəlb edilən investisiyalardır, ya da ki, dövlət büdcəsindən ayrılan, o cümlədən Dövlət Neft Fondunun hesabına qoyulan vəsaitdir. Yəni biz beynəlxalq maliyyə bazarlarından maliyyə resursları cəlb etməmişik. Yəni onları çox aşağı səviyyədə cəlb etmişik ki, ölkə borclanmasın. Bu gün inkişaf etmiş ölkələrdə bu göstərici 100 faizdən də çoxdur. Ancaq Azərbaycanda 8 faizdir. Misal üçün, xarici dövlət borcunun 50 faizi ümumi daxili məhsula nisbətdə məqbul hesab edilir. Biz hazırda 30 milyard dollar kredit resurslarını alsaq, yenə də bu göstərici ən yüksək səviyyədə olacaqdır. Yəni bu, Azərbaycanın iqtisadi potensialını əyani şəkildə göstərən amildir. Gələcək illərdə xarici borcun aşağı səviyyədə saxlanması hesab edirəm ki, düzgün siyasət olacaqdır.

Son 10 il ərzində ölkəmizə 160 milyard dollar investisiya cəlb edilmişdir. Son illərdə sərmayənin həcmi daha da artır. Keçən il rekord səviyyəyə çatmışdır, Azərbaycan iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulmuşdur. Daxili sər-

mayələr artıq xarici sərmayələri üstələyir. Bu da çox müsbət haldır. Düzdür, daxili sərmayələrin tərkibində dövlət investisiya xərcləri hələ ki, üstünlük təşkil edir. Bu da təbiidir. Çünki infrastruktur layihələri və ölkə iqtisadiyyatı üçün lazım olan digər proqramlar icra edilir. Ancaq özəl sektor da Azərbaycana investisiya qoyuluşunu artırır. Bu da ilk növbədə, ölkəmizdə hökm sürən sabitliyin hesabınadır və özəl sektorun Azərbaycanın gələcəyinə inamının təzahürüdür. Ona görə əminəm ki, gələcək illərdə investisiyanın həcmi, qoyulan sərmayə azalmayacaqdır. Çünki görüləsi işlər çoxdur.

Ümumiyyətlə, 160 milyard dollar həcmində qoyulan sərmayə Azərbaycan iqtisadiyyatına böyük təkan vermişdir. Bu müsbət meyillər güclənir. Gələcəkdə həm dövlət, həm özəl, həm xarici və daxili sərmayələrin qoyuluşu gözlənilir.

Azərbaycan, baxmayaraq ki, əsas neft kontraktları artıq imzalanıb və icra edilir, yenə də xarici iş adamları üçün cəlbedici ölkə kimi, çox maraqlıdır. Bu gün daha çox qeyri-neft sektorunun inkişafına vəsait qoyulur. Əlbəttə ki, biz bunu alqışlayırıq. Ölkəmizdə yaradılan investisiya iqlimi çox müsbətdir. Adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında ön sıralardadır.

Biz son 10 ildə sahibkarlığın inkişafına da çox böyük diqqət göstərmişik. Xüsusilə sahibkarların ölkə iqtisadiyyatına sərmayə qoyuluşunu təmin etmək üçün dövlət tərəfindən konkret proqramlar icra olunmuşdur, maliyyə resursları cəlb edilmişdir. Sahibkarlığa Kömək Milli Fondu hesabına 1 milyard 200 milyon manat investisiya qoyulmuşdur. Sahibkarlara güzəştli şərtlərlə kreditlər verilib. Sahibkarlığın inkişafı üçün xüsusi tövsiyə planları da tərtib edilib. Ölkə iqtisadiyyatında ən çox lazım olan sahələri inkişaf etdirmək üçün artıq Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrılır.

Beləliklə, biz son illər ərzində əsas ərzaq məhsullarımızla özümüzü daha çox təmin edirik. Mən bir neçə il bundan əvvəl qarşıya vəzifə qoymuşdum ki, biz özümüzü 100 faiz təmin edək. Hələ ki, buna çatmamışıq. Bu barədə danışacağıq. Ancaq

sahibkarların fəaliyyəti hesabına və düşünülmüş dövlət siyasəti sayəsində bu istiqamətdə də çox ciddi addımlar atılmışdır.

Mən sahibkarlarla mütəmadi qaydada görüşürəm. Son 10 il ərzində bölgələrdə 1200-dən çox obyektin açılışında şəxsən iştirak etmişəm. Sahibkarlara öz dəstəyimi həmişə göstərmişəm, göstərəcəyəm. Bu dəstək həm siyasi, həm də maddi dəstəkdir. Yəni dövlət tərəfindən güzəştli şərtlərlə ayrılan kreditlər sahibkarlığın inkişafına təkan vermişdir və verir.

Son 10 ildə infrastruktur layihələrinin icrası prioritet məsələ idi. Çünki biz yaxşı başa düşürdük ki, bu layihələr icra edilməsə, ölkəmizin inkişafı mümkün olmayacaqdır. Xüsusilə ölkəmizin enerji potensialının yaradılması istiqamətində 2004-cü ildən başlayaraq çox ciddi addımlar atılmışdır. Azərbaycanda 10 il ərzində 17 elektrik stansiyası tikilmişdir. Onların ümumi generasiya gücü 2300 meqavatdır. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi generasiya gücümüz 6300 meqavatdır. Onların 2300-ü son 10 il ərzində yaradılıb. Əgər bu elektrik stansiyaları tikilməsəydi, bu gün ölkəmizin təxminən 30 faizi işıqsız qalardı və heç bir sənaye inkişafından söhbət gedə bilməzdi. Çünki Azərbaycanda sənayenin inkişafı, əlbəttə ki, infrastruktur layihələri ilə təmin edilməlidir. Ona görə biz ilk növbədə, elektrik stansiyalarının yaradılması ilə məşğul olduq. Deyə bilərəm ki, bu gün enerji təhlükəsizliyimizi artıqlaması ilə tam təmin etmişik. Hazırda bizim təxminən 600–700 meqavat həcmində ixrac potensialımız vardır.

Ancaq Azərbaycan dinamik şəkildə inkişaf edir. Əhali artır, iqtisadiyyat inkişaf edir. Bizim gələcək sənaye inkişafımızla bağlı böyük planlarımız vardır. Azərbaycan yüksək texnologiyaları ilə özünü göstərəcəkdir. Azərbaycan müasir industrial ölkəyə çevriləcəkdir. Yüzlərlə, bəlkə də minlərlə yeni müəssisə yaranacaqdır. Ona görə enerji potensialımız tələbatımızı daim qabaqlamalıdır. Ona görə gələcəkdə elektrik stansiyalarının tikintisi nəzərdə tutulmalıdır, o cümlədən biz bərpa olunan enerji növlərinə də, əlbəttə ki, diqqət yetirəcəyik. Son illərdə bu istiqamətdə də ciddi addımlar atılıb.

Son 10 ildə qazlaşdırma ilə bağlı böyük işlər görüldü. Bu həm sosial, eyni zamanda, iqtisadi məsələdir. Çünki qaz olmayan yerlərdə insanlar daha çox elektrik enerjisindən istifadə edirlər. Bu həm onlar üçün iqtisadi cəhətdən çox səmərəsizdir, eyni zamanda, elektrik enerjisinə tələbat artır. Belə olan halda, əlbəttə ki, qazlaşdırma layihələrinə üstünlük verildi. Hazırda ölkəmizin bütün şəhərləri, kəndlərin əksəriyyəti qazlaşdırılıb və ümumilikdə Azərbaycanda təqribən 90 faizə yaxın qazlaşdırma təmin edilibdir. Ancaq əlbəttə, bəzi kəndlərə hələ ki, qaz xətləri çəkilməyib. Bu, proqramda vardır. Növbəti 5 il ərzində qazlaşdırmanın səviyyəsi 95-96 faizə çatdırılmalıdır.

Ölkəmizin hərtərəfli inkişafı üçün yol infrastrukturu da böyük rol oynayır. Yolların tikintisi məsələləri daim diqqət mərkəzində olmuşdur. İlk növbədə, magistral yollardan, ondan sonra şəhərlərarası, daha sonra kəndlərarası, kənddaxili yollardan başladıq. Bu gün bu proses geniş vüsət almışdır. Hər bir rayonda yol layihələri icra edilir. Burada əyləşən bütün rayonların icra başçıları bu işlərə fəal şəkildə cəlb edilmişlər. Mən hər bir rayonda olarkən onlardan daha yeni təkliflər alıram. Həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan kənd yollarının tikintisinə böyük vəsait ayrılır, ayrılacaqdır. Növbəti 5 il ərzində bizim bütün kəndlərimizdə asfalt yollar, yaxşı yollar olmalıdır və olacaq.

Sosial infrastrukturun yaradılması ilə bağlı son 10 il ərzində böyük işlər görülmüşdür. Su layihələri icra edilir. Mən su layihələrini sosial infrastruktur layihələrinə aid edirəm. Çünki bu ilk növbədə, sosialyönümlü tədbirlərdir. Bu gün ölkəmizin hər bir şəhərində içməli su, kanalizasiya layihələri icra edilir. Bir neçə şəhərdə artıq bu layihələr başa çatıb. Mən açılışlarda iştirak etmişəm. Artıq insanlara 24 saat ərzində fasiləsiz olaraq Ümumdünya Səhiyyə Təşkilatının standartları səviyyəsində keyfiyyətli su verilir. Növbəti 5 il ərzində bütün şəhərlərdə və əksər kəndlərdə yeni su xətləri çəkiləcək, kanalizasiya sistemi qurulacaqdır. Beləliklə, bütün dövrlərdə Azərbaycan xalqına böyük əziyyət verən su qıtlığı problemi aradan götürüləcək.

Digər sosial infrastruktur layihələri icra edilmiş, 2700 məktəb, 500-dən çox tibb müəssisəsi tikilmiş və təmir edilmişdir. 41 Olimpiya İdman Kompleksi yaradılmışdır, 8-i hələ tikilir və yenə də tikiləcəkdir. Bizim mədəniyyət ocaqları bərpa edilib.

Yəni regional dövlət proqramlarının əsas mahiyyəti ondan ibarətdir ki, bütün sahələr orada əhatə edilir. 2009-cu ildə qəbul olunmuş proqram mətbuatda da dərc edilib. Hər bir vətəndaş oxuya bilər, onun rayonunda, kəndində hansı işlər görüləcəkdir. Bu 2 proqramın formalaşmasında Azərbaycan vətəndaşları fəal iştirak etmişlər. Çünki bu proqramlar yerlərdən gələn təkliflər hesabına yarandı. Yerlərdə yaşayan insanlar daha yaxşı bilirlər ki, orada hansı işlər görülməlidir, ilk növbədə hansı problemlər öz həllini tapmalıdır. Beləliklə, yerlərdən gələn təkliflər və arzular ümumiləşdirilib, proqram halına salınıb, maliyyə resursları təşkil edilib. Hər il dövlət büdcəsi qəbul edilərkən proqramın icrası, investisiya qoyuluşu nəzərdə tutulur. Beləliklə, bu proqramlar konkret xarakter daşıyır.

Ümumiyyətlə, bizim bütün işlərimiz konkret xarakter daşıyır. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Biz populizmdən uzağıq. Qeyri-real vədləri heç vaxt vermirik. Ancaq nəyi deyiriksə, ona da əməl edirik. 2 proqramın icrası bunu bir daha təsdiq edir.

Bu illər ərzində Azərbaycan böyük uğurlara imza atıb. Şəhərlərimiz abadlaşıb. Hər bir şəhərdə, hər bir rayonda abadlıq işləri görülür, ictimai yerlər salınır, parklar, xiyabanlar, mədəniyyət ocaqları, küçələr, binalar abadlaşır. Əlbəttə ki, Bakı hər bir şəhər üçün nümunədir. Bakı bu gün artıq dünya miqyasında ən gözəl şəhərlərdən biridir, dünyanın ən gözəl şəhərlərindən biridir. Əlbəttə, təbiidir ki, digər şəhərlər də Bakıya oxşamaq istəyir. Ancaq hər bir şəhərin öz xüsusiyyəti, tarixi, özəlliyi vardır. Əsas odur ki, insanlar üçün hər bir yerdə, hər bir şəhərdə, hər bir kənddə yaşamaq, işləmək, istirahət etmək üçün normal, yaxşı şərait yaradılsın.

Bu gün Azərbaycan dövləti güclü dövlətdir, Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır. Biz bu təhlükəsizliyi, ictimai

asayişi, iqtisadi inkişafı təmin edirik. Azərbaycan dünya miqyasında öz sözünü deyən ölkələrdəndir. Bizim hər bir məsələ ilə bağlı öz fikirlərimiz, mövqemiz vardır. Beynəlxalq müstəvidə müstəqil siyasət aparmaq üçün ilk növbədə, daxildə bütün işlər lazımi səviyyədə təşkil edilməlidir. Əlbəttə ki, bizim iqtisadi gücümüz, iqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi böyük dərəcədə gücləndirmişdir.

Azərbaycanda ərzaq təhlükəsizliyi məsələləri həll edilir. Nəqliyyat təhlükəsizliyi həll olunur. Bu gün biz nəinki qitə üçün, dünya üçün nəqliyyat mərkəzinə çevrilirik. Əlbəttə ki, infrastruktur layihələri bizim coğrafi vəziyyətimizi daha da yaxşılaşdırır. Çünki infrastruktur, logistika, nəqliyyat infrastrukturu olmadan heç bir coğrafi vəziyyət heç bir məna daşımır. Necə ki, təbii resurslar. Dənizin altında, dərinlikdə yerləşən təbii resurslar çıxarılmasa, heç bir dəyəri yoxdur. Ancaq o dəyər təbii resurslar çıxarılanda yaranır. Ona görə enerji, nəqliyyat, ərzaq təhlükəsizliyi bizim əsas diqqət yetirdiyimiz sahələrdir və hər istiqamət üzrə gözəl nəticələr vardır.

Bu gün Azərbaycan enerji təhlükəsizliyi baxımından qitə üçün əvəzolunmaz tərəfdaşa çevrilib. Keçən ilin dekabr ayında XXI əsrin kontraktı imzalanmışdır. «Əsrin kontraktı», yəni XX əsrin kontraktı uğurla icra edilir, XXI əsrin kontraktı imzalanmışdır. Bu salonda böyük tədbir keçirilmişdir. Müxtəlif ölkələrdən dövlət, hökumət başçılarının iştirakı ilə tədbir keçirilmişdir. Azərbaycan əsas iqtisadi yükü və əsas məsuliyyəti öz üzərinə götürüb. Biz bu məsuliyyətə hazırıq. Bu məsuliyyəti dərk edirik və biz liderlik göstərərək bu layihələri, böyük layihələri icra edə bilərik.

Hazırda bizim liderliyimizlə icra ediləcək nəhəng enerji layihələri Avropanın ən böyük enerji və infrastruktur layihələridir. Artıq bu sözlər özlüyündə bir göstəricidir. Liderlik yenə də Azərbaycanın əlindədir. Biz inamla irəliləyirik. Qarşıda duran bütün vəzifələri icra edirik. Ölkəmizin hərtərəfli inkişafı üçün çalışırıq. 2 proqramın icrası nəticəsində bölgələrdə

yaşanan bu inkişaf və tərəqqi, əlbəttə ki, bizi daha da gücləndirir.

Bu gün biz görülən işlərlə bağlı məruzələri dinləyəcəyik. Burada daha da konkret fikirlər, faktlar səslənəcəkdir. Üçüncü Dövlət Proqramının qəbul edilməsi ilə bağlı işlər artıq görülür. Artıq bir neçə aydır ki, üçüncü Dövlət Proqramı hazırlanır və qəbul ediləcəkdir. Beləliklə, növbəti 5 il üçün bir fəaliyyət planı tərtib ediləcəkdir.

## YEKUN NİTQİ

Bu gün burada səslənən hesabat məruzələrində bir neçə istiqamət üzrə görülmüş işlər haqqında yığcam məlumat verilmişdir. Əslində son 10 il ərzində görülən işlər haqqında geniş danışsaq, bəlkə də bizə bir neçə gün lazım olacaqdır. Hər bir sahə, hər bir istiqamət üzrə böyük işlər görülmüşdür. Son 10 il ərzində Azərbaycanın hər bir nazirlik, idarə üzrə inkişafı üçün çox böyük işlər görülmüşdür. İkinci Dövlət Proqramı başa çatıb. Birinci və ikinci dövlət proqramları artıqlaması ilə yerinə yetirilib. İndi üçüncü Dövlət Proqramının qəbulu gözlənilir. Əminəm ki, bu günə qədər görə bilmədiyimiz işləri biz növbəti 5 il ərzində görəcəyik və beləliklə, regionlar qarşısında duran bütün vəzifələr icra ediləcəkdir.

Əlbəttə, növbəti illərdə ölkəmizin ümumi iqtisadi inkişafı təmin edilməlidir, makroiqtisadi vəziyyət sabit olaraq qalacaqdır. Keçən ilin nəticələri bunu deməyə əsas verir. Keçən il ölkə iqtisadiyyatına rekord həddə sərmayə qoyulmuşdur – 28 milyard dollar. Eyni zamanda, keçən il maaşlar, pensiyalar qaldırılmışdır. Sovet vaxtından qalmış əmanətlər qaytarılmışdır. Yəni ölkə iqtisadiyyatına böyük investisiyalar qoyulmuşdur və dövriyyəyə böyük pul kütləsi buraxılmışdır. İnflyasiya cəmi 2,4 faiz artmışdır. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı sağlam iqtisadiyyatdır, makroiqtisadi sabitlik qorunur və əhalinin pul gəlirləri son 10 il ərzində inflyasiyanı daim üstələyib və yenə üstələyir. Ona görə növbəti illərdə sürətli

inkişaf templərini saxlamaq və onları artırmaq üçün makroiqtisadi vəziyyət sabit olmalıdır, olacaqdır. Buna tam nəzarət edilir və beləliklə, uğurlu inkişafımız üçün gözəl əlavə imkanlar yaranacaqdır.

Maliyyə vəziyyətimizlə bağlı bu gün heç bir problemimiz yoxdur. Maliyyə vəziyyətimiz yaxşıdır, sabitdir. Maliyyə sistemimiz sağlamdır. Növbəti illərdə həm neft-qaz, eyni zamanda, qeyri-neft sektorlarının inkişafı sayəsində ölkəmizə böyük valyuta axını gözlənilir. Bu vəsait, əlbəttə ki, şəffaf şəkildə saxlanılacaq, əsas xərclər üçün istifadə ediləcək, sosial məsələlərin həllində istifadə ediləcək, eyni zamanda, infrastruktur layihələrinin icrası, sahibkarlığa dəstək məsələləri də diqqət mərkəzində olacaqdır.

Aparılan islahatlar beynəlxalq aparıcı maliyyə qurumları tərəfindən də qiymətləndirilir. Azərbaycanın kredit reytinqləri artır. Hətta böhranlı illərdə 3 əsas reytinq agentliyi Azərbaycanın kredit reytinqlərini artırmışdır. Dünyanın 1 nömrəli iqtisadi qurumu olan Dünya Davos İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyi üzrə dünya miqyasında 39-cu yerdədir. Bu da Azərbaycanda aparılan islahatların nəticəsidir.

Bir sözlə, növbəti 5 il ərzində bizim kifayət qədər iqtisadi, maliyyə və texniki resurslarımız olacaqdır ki, üçüncü proqramı uğurla icra edək. Son 10 il ərzində biz böyük təcrübə toplamışıq. Azərbaycanda minlərlə yeni şirkət yaranıb və biz çalışırıq ki, yerli şirkətləri gücləndirək. O cümlədən güzəştli şərtlər hesabına onların dövlət layihələrində iştirakı təmin edilir. Bu gün tikinti sahəsində işlərin böyük əksəriyyəti yerli şirkətlər hesabına görülür. Bu o şirkətlərin maliyyə vəziyyətini yaxşılaşdırır, iş yerlərinin açılmasına gətirib çıxarır, büdcəyə daha çox vergi ödənilir və təcrübə toplanılır. Yəni növbəti proqramın icra edilməsi əminəm ki, uğurlu olacaqdır.

Növbəti 5 il ərzində infrastruktur layihələrinin icrası tam başa çatmalıdır. Biz bu işlərə 10 il bundan əvvəl başlamışıq, görüləsi işlər həddindən artıq çox idi. Demək olar ki, bütün

infrastruktur yenilənməli idi. Burada məruzələrdə bəzi rəqəmlər səsləndi. Məsələn, biz elektrik enerjisi ilə bağlı bütün elektrik stansiyalarımızı yeniləşdirdik, yenilərini tikdik və şərti yanacağın sərfiyyatı kəskin şəkildə aşağı düşmüşdür. Su xətləri, qaz boruları yenidən tikilir, yenidən qurulur. Əvvəlki illərdə tikilmiş xətlər, kommunikasiya xətləri artıq yararsız vəziyyətə düşüb, sıradan çıxır, çürüyür. Yəni biz bütün bu işləri yenidən, sıfırdan görürük ki, yeni yaradılan bu infrastruktur bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət etsin. Ona görə hələ ki, görüləsi işlər var. Əminəm ki, növbəti 5 il ərzində bütün infrastruktur layihələri tamamilə icra ediləcək.

Elektrik xətləri də yeniləşəcək, elektrik təsərrüfatı da müasirləşəcək, qazlaşdırma qeyd etdiyim kimi, ən azı 95 faizə çatmalıdır. İçməli su və kanalizasiya layihələri bütün şəhərlərdə başa çatmalıdır və əksər kəndləri də əhatə etməlidir. Burada rəqəmlər səsləndi ki, 10 il bundan əvvəl 26 faiz əhali 24 saat ərzində fasiləsiz su alırdısa, hazırda bu rəqəm 55 faizə çatıbdır. Ancaq 55 faiz də bizim üçün öyünməli rəqəm deyil. Düzdür, Bakı şəhərində bu daha da yüksək səviyyədədir. Bakıda 10 il bundan əvvəl cəmi 29 faiz əhali 24 saat ərzində su alırdısa, hazırda bu rəqəm 78 faizə çatıb. Ancaq Bakı kimi şəhərdə 100 faiz olmalıdır, bütün başqa şəhərlərdə də, həmçinin kəndlərdə də. Ona görə görüləsi işlər hələ çoxdur, infrastruktur layihələrinə vəsait nəzərdə tutulur. O cümlədən bu ilin investisiya proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Elektrik xətlərinin, elektrik təsərrüfatının yenilənməsi, qazlaşdırma, su-kanalizasiya xətlərinin, kənd yollarının, şəhərlərarası yolların tikintisi davam etdiriləcəkdir. Bir sözlə, iqtisadiyyatın bu seqmenti əminəm ki, növbəti 5 il ərzində daha da böyük təkan alacaqdır. Beləliklə, qəbul ediləcək üçüncü proqramın həyata keçirilməsi nəticəsində bütün infrastruktur layihələri artıq tam şəkildə icra ediləcəkdir.

Su layihələrinə gəldikdə, «Azərsu» şirkətinin xətti ilə işlər görülür, eyni zamanda, artezian quyularının qazılması da böyük məna daşıyır. Keçən il 104 kənd artıq bu üsulla su ilə təmin

edilibdir. Bu ilin əvvəlində imzaladığım sərəncam əsasında vəsait ayrılmışdır ki, cari ildə əlavə 250 kənddə artezian quyuları qazılsın. Beləliklə, 100 minlərlə insan yeni su mənbələri ilə təmin ediləcəkdir. Çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırılıbdır. 100 minlərlə əhali artıq bu imkanlardan istifadə edir, bu il də investisiya proqramında bu, nəzərdə tutulub. Su, kanalizasiya problemlərini biz növbəti 5 il ərzində tam şəkildə icra etməliyik.

Meliorasiya layihələri icra edilir. Biz keçən il Taxtakörpü su anbarının açılışını qeyd etdik. Güman edirəm ki, biz bu ilin sonuna qədər Şəmkirçay su anbarının açılışını qeyd edəcəyik. Beləliklə, 2 nəhəng meliorasiya layihəsi başa çatacaq və biz bundan sonra yeni suvarılacaq torpaqlarda hansı işlərin görülməsi haqqında düşünməliyik. Əslində biz bunu indidən fikirləşməliyik – çünki müxtəlif rəqəmlər səslənir və mənə verilən arayışlarda müxtəlif rəqəmlər göstərilir – ilk növbədə, neçə min hektar torpaq suvarılacaqdır. Ancaq biz bunu dəqiqliklə bilməliyik. Ona görə bütün aidiyyəti qurumlar – İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti birgə işləsinlər və mənə dəqiq məlumat versinlər – Şəmkirçay və Taxtakörpü su anbarlarının və kanalların tikintisi nəticəsində neçə min – bəlkə də 100 minlərlə ölçülməlidir – hektar torpaq artıq əkin üçün yararlı olacaqdır və dövriyyəyə buraxılacaq bu yeni torpaqlarda hansı məhsulların yetişdirilməsi məqsədəuyğundur. Bunu biz dəqiq bilməliyik ki, öz işimizi daha böyük səmərə ilə quraq.

Kənd təsərrüfatının inkişafı növbəti illərdə iqtisadi sahədə prioritet olaraq qalacaqdır. Biz daim buna böyük diqqət göstərmişik. Kənd təsərrüfatının inkişafı ilə bağlı yeni tədbirlər görüləcək.

Nazirlikdə struktur dəyişiklikləri aparılmalıdır. Buna böyük ehtiyac vardır. Bu yeni struktur müasir tələblərə cavab verməlidir. Sistem xarakterli islahatlara üstünlük verilməlidir. Kənd təsərrüfatının inkişafında ən müasir, mütərəqqi metodlar

tətbiq edilməlidir. Dünyada bu sahədə böyük uğur qazanmış ölkələrin təcrübəsi öyrənilir, müxtəlif ölkələrə heyətlər ezam edilir, o təcrübə, texnologiya gətirilir ki, biz təbii imkanlarımızdan tam, səmərəli şəkildə istifadə edə bilək.

Məhsuldarlıq artırılmalıdır və artırılacaqdır. Böyük imkanlar var. Burada məruzədə səsləndi ki, taxılçılıq üzrə iri fermer təsərrüfatlarında məhsuldarlıq 55 sentnerə qalxmışdır. Ölkə üzrə bu rəqəm 27,5 sentnerdir, yəni 2 dəfə çoxdur. Bu təcrübə hər yerdə tətbiq edilməlidir. Dövlət öz imkanlarını ortaya qoyur. Bütün infrastruktur, kommunikasiya, suvarma məsələlərini öz üzərinə götürür. Sahibkarlara kreditləri də dövlət verir. Təki sahibkarlar gedib bu torpaqdan səmərəli şəkildə istifadə etsinlər və məhsuldarlıq artsın. Əgər 2 dəfə də olmasa, ümumi məhsuldarlıq 60–70 faiz artarsa, o zaman bizim bütün daxili tələbatımız ödəniləcək və böyük ixrac potensialımız da yaranacaqdır.

Kənd təsərrüfatının inkişafı üçün müasir texnikanın alınması davam etdiriləcəkdir. Buna da ehtiyac vardır. Bütün texnika yenilənməlidir. Ən qabaqcıl texnika gətirilməlidir. Müvafiq göstərişlər verilibdir və artıq proses başlanmışdır. Əvvəlki illərdə də texnika alınırdı. Əgər o texnika alınmasaydı, biz bu gün böyük problemlərlə üzləşə bilərdik. Ancaq hələ ki, buna ehtiyac vardır. Biz özümüzü müasir texnika ilə tam şəkildə təmin edə bilmirik. Növbəti 3-4 il ərzində, bəlkə də ondan da qısa bir müddətdə özümüzü ən müasir texnika – kombayn, traktor və digər texnika ilə tam şəkildə təmin edəcəyik.

Mən əvvəlki müşavirələrdə də qeyd etmişəm. Bu gün də qeyd etmək istəyirəm ki, fermerlərin elektron qeydiyyat sistemi yaradılmalıdır.

Bölgələr üzrə ixtisaslaşma aparılmalıdır. Mən bu barədə də dəfələrlə öz fikirlərimi bildirmişəm. Müəyyən işlər görülübdür. Ancaq daha da konkret və ciddi təkliflər verilməlidir ki, biz bu ixtisaslaşmanı formalaşdıraq və yetişdirilən hər bir məhsul üzrə xüsusi stimullaşdırma amilləri də olmalıdır. Yəni burada belə kortəbii yanaşma qəbuledilməzdir. Hər bir bölgə üzrə,

yetişdirilən hər bir kənd təsərrüfatı məhsulu üzrə xüsusi bir yanaşma tərzi olmalıdır. Əminəm ki, bax, dediyim bu struktur islahatları, kənd təsərrüfatının inkişafı üçün yeni metodların tətbiq edilməsi, müasir yanaşma, dediyim məsələlərin həllinə şərait yaradacaqdır.

Torpaqların elektron uçot sistemi yaradılmayıb, yaradılmalıdır. Əgər biz kənd təsərrüfatını müasir metodlarla inkişaf etdirmək istəyiriksə, mütləq Azərbaycanda hər bir sahədə ən qabaqcıl təcrübəni tətbiq etməliyik. O cümlədən kənd təsərrüfatının elmi əsaslarla inkişafına da nail olmalıyıq. Bu məqsədlə struktur dəyişiklikləri aparılacaqdır və elm son nəticəyə xidmət etməlidir. Ancaq bu təqdirdə o elmin faydası və xeyri vardır.

Kənd təsərrüfatının intensiv metodlarla inkişaf etdirilməsi indi bütün inkişaf etmiş ölkələrdə mövcuddur, bizdə də belə olmalıdır. Bu barədə artıq burada deyildi. Eyni zamanda, əvvəlki tezisə də qayıtmaq istəyirəm ki, biz dövriyyəyə buraxılacaq yeni əkin sahələrini də təmin etməliyik və edəcəyik.

Burada məruzələrdə səsləndi ki, biz iri fermer təsərrüfatlarını yaradırıq, yaratmalıyıq. Ancaq kiçik və ailə fermer təsərrüfatları da yaddan çıxmamalıdır. Bu sahədə də gözəl beynəlxalq təcrübə vardır. Sadəcə olaraq, biz bunu Azərbaycanda tətbiq etməliyik ki, ailə fermer təsərrüfatları yaradılsın, xüsusilə südçülükdə. Dövlət də öz dəstəyini verəcəkdir, o cümlədən maliyyə dəstəyini kreditlər şəklində verəcəkdir.

Subsidiyaların verilməsində tam şəffaflıq təmin edilməlidir. Mən keçən dəfə də, bir il əvvəl də bu barədə danışmışam, bu gün də məcburam bu barədə öz fikirlərimi bildirim. Burada biz şəffaflığa nail olmamışıq. Şəffaflıq təmin edilmir və burada oturanlar bilirlər şəffaflıq nəyə görə təmin edilmir. Bu mənim son xəbərdarlığımdır. Subsidiyanın verilməsində tam şəkildə nəzarət-uçot sistemi yaradılmalıdır. Kənd Təsərrüfatı Nazirliyinə bu göstərişlər verilmişdir. Yerli icra orqanlarının nümayəndələri də burada öz müsbət rolunu oynamalıdır. Çünki bəzi hallarda subsidiyalar fermerlərə çatmır. Ona görə konkret

təkliflər veriləcəkdir və yeni müvafiq sərəncam da imzalanacaqdır. Bu, kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi, islahatyönümlü sərəncam olacaqdır. Bütün mərkəzi və yerli icra orqanlarının nümayəndələri bir daha demək istəyirəm ki, ümumi məqsədə xidmət etməlidirlər. Ümumi məqsəd şəffaflığı yaratmaq kənd təsərrüfatını inkişaf etdirmək və fermer təsərrüfatlarına yardım etməkdir.

Fermerlərin əsas problemlərindən biri də istehsal etdikləri məhsulların satışı ilə bağlıdır. Dövlət burada da, əlbəttə ki, öz yardımını göstərməlidir, göstərəcəkdir. Biz çalışmalıyıq ki, ilk növbədə, Azərbaycanda istehsal olunan məhsullar bazara çıxarılsın və burada aidiyyəti dövlət qurumları bu işləri tənzimləməlidir. Azərbaycanda istehsal olunan məhsullar ola-ola, qala-qala xaricdən məhsullar idxal edilir. Burada da ciddi nəzarət olmalıdır. Əgər biz özümüz bu məhsulu istehsal ediriksə, niyə onu xaricdən idxal etməliyik, niyə şərait yaratmalıyıq?! Hər bir dövlət öz bazarını qorumalıdır, qoruyur və Azərbaycan da bu yolla gedir. Bilirsiniz ki, biz hələ Dünya Ticarət Təşkilatına üzv olmamışıq, baxmayaraq bizi böyük təkidlə oraya dəvət edirlər. Demək olar, bu məsələ Azərbaycan qarşısında mütəmadi qaydada qaldırılır ki, nə üçün Azərbaycan Dünya Ticarət Təşkilatına üzv olmur? Bunun səbəbləri vardır və səbəblərdən ən birincisi yerli istehsalçının müdafiəsidir, Azərbaycan bazarının qorunmasıdır. Biz ilk növbədə, öz fermerlərimizə, şirkətlərimizə şərait yaratmalıyıq. Yoxsa biz öz bazarımızı, necə deyərlər, açsaq və buraya keyfiyyətsiz, ucuz xarici məhsullar sərbəst şəkildə buraxılsa, o zaman yerli istehsal öləcəkdir, kəndli zərər çəkəcəkdir. Ona görə biz buna getmirik. Mən bu gün də demək istəyirəm ki, Dünya Ticarət Təşkilatına üzv olacağıq, ancaq nə vaxt, onu biz bilirik. O vaxt ki, Azərbaycanda həm kənd təsərrüfatında, həm sənaye sahəsində ixracyönümlü məhsullar üstünlük təşkil edəcəkdir, o vaxt biz Dünya Ticarət Təşkilatına üzv olacağıq və baxarıq görərik o vaxt bizi belə təkidlə oraya dəvət edəcəklər, yoxsa yox. Çünki Azərbaycan bazarı dinamik bazardır, böyüyən bazardır.

Azərbaycan zəngin ölkəyə çevrilir, əhali artır. Əlbəttə ki, bu bazara, necə deyərlər, sərbəst gəlmək üçün böyük səylər göstərilir. Bir daha demək istəyirəm ki, yerli istehsalın gücləndirilməsi, idxaldan asılılığımızın azaldılması, ixracyönümlü məhsulların yetişdirilməsi prioritet məsələdir. Bu məsələlərin həllinə bütün dövlət qurumları kömək göstərməlidir.

Kənd təsərrüfatına yararlı torpaqlardan bəzi bölgələrdə təyinatı üzrə istifadə edilmir. Bu məsələyə də diqqət yetirilməlidir. Ərzağın keyfiyyəti daim diqqət mərkəzində olmalıdır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanda yetişdirilən kənd təsərrüfatı məhsulları təbiidir, keyfiyyətlidir. Biz burada kəmiyyət dalınca qaçmamalıyıq və bu təbii keyfiyyəti saxlamalıyıq.

Aqroparkların, logistika mərkəzlərinin yaradılması məsələlərinə diqqət yetirilməlidir. Həm Azərbaycanda, həm başqa ölkələrdə logistika mərkəzləri yaradılmalıdır və biz yeni istehlak bazarlarına çıxmalıyıq. Bu gün Azərbaycan artıq öz kənd təsərrüfatı məhsullarını ixrac edir və gələcəkdə bu daha da böyük rəqəmlərlə ölçüləcəkdir. Ona görə yeni bazarlara çıxışı təmin etmək vacib məsələdir. Bir sözlə, Azərbaycanda ərzaq təhlükəsizliyi 100 faiz daxili istehsal hesabına təmin edilməlidir. Son illərdə biz özümüzü əsas ərzaq məhsulları ilə böyük dərəcədə təmin edə bilmişik. Ancaq hələ ki, buna tam şəkildə nail olmamışıq. Mən bəzi rəqəmləri gətirmək istəyirəm. Ət və ət məhsullarının özünütəminetmə səviyyəsi 94 faizdir, quş əti 92 faizdir. Bax, bu sahədə çox böyük irəliləyiş olubdur. Ona görə ki, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə quş fabriklərinin yaradılmasına böyük kreditlər verilmişdir. Özümüzü yumurta ilə 96,5 faiz, süd və süd məhsulları ilə 75 faiz, taxılla 65 faiz, üzümlə 94 faiz, kartofla 98 faiz, bostan məhsulları ilə 100 faiz təmin edirik. Meyvə və giləmeyvə 126 faiz, yəni böyük ixrac potensialımız da vardır. Tərəvəz 100 faiz, duz 72 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar 174 faiz –

bu, ən böyük ixrac potensialımızdır – bitki yağları və marqarin 70 faiz, kərə yağı 50 faiz.

Bax, bu cədvəldən açıq-aydın görünür, biz növbəti illərdə hansı sahələrə üstünlük verməliyik ki, burada bütün rəqəmlər 100 faizdən aşağı olmasın və buna nail ola bilərik. Ona görə də burada süd və süd məhsullarının 75 faiz səviyyəsində istehsalı, əlbəttə, bizi qane edə bilməz. Bu, 100 faiz olmalıdır. Dövlət qurumları və sahibkarlar bu istiqamətə daha da ciddi diqqət yetirməlidirlər. Azərbaycanda kərə yağı da, bitki yağları da az istehsal edilir. Artıq bu cədvəldən hər şey görünür. Bu cədvəl həm dövlət orqanları, həm də sahibkarlar üçün bir yol xəritəsi olmalıdır. Mən hər il bu rəqəmləri səsləndirirəm, bəzi məhsullar üzrə irəliləyiş vardır. Amma bəzi sahələr üzrə əvvəlki illə builki vəziyyət eynidir. Xüsusilə kərə yağı, meyvə, giləmeyvə, bostan məhsulları, bax, bu sahələrdə istehsal artmayıb.

Mən sahibkarlığın inkişafı ilə bağlı artıq giriş sözümdə fikirlərimi bildirdim. Dəstək davam etdiriləcəkdir. Bu dəstək hesabına böyük işlər görülmüşdür. Son 10 il ərzində Azərbaycanda 55 min yeni müəssisə yaradılmışdır. Dövlət xətti ilə 1 milyard 200 milyon manat güzəştli şərtlərlə kredit verilmişdir. Misal üçün, keçən il 275 milyon manat kredit verilmişdir. Bütün bu kreditlər vaxtında qaytarılır. Bu da sahibkarlığın inkişafına yeni dəstək olur. Çünki həmin vəsait yenə də kredit şəklində sahibkarlara verilir. Sahibkarlar da qeyd etməliyəm ki, bu kreditlərə böyük məsuliyyətlə yanaşırlar. Yəni bütün vəsaiti vaxtında qaytarırlar. Gələcəkdə biz hər il təxminən 270–300 milyon manat həcmində güzəştli kreditlər verəcəyik. Beləliklə, proqramın sonuna – 2018-ci ilə qədər təxminən 1 milyard yarım manat vəsait kredit veriləcəkdir. Bu vəsait də iqtisadiyyatın real sektoruna qoyulacaqdır.

Azərbaycanda son illərdə bank sektoru da sürətlə inkişaf edib. Bizim banklarımız böyüdü, gücləndi. Hesab edirəm, vaxt gəlib çatıb ki, banklar iqtisadiyyatın real sektoruna daha çox maliyyə resursları ayırsınlar. Hazırda belə deyildir. Ancaq bankların funksiyalarından biri də ondan ibarətdir ki, ölkə

iqtisadiyyatına daha da böyük təkan versinlər. Xüsusilə dövlət də bank sektorunun inkişafına böyük dəstək verir. Əhali tərəfindən banklara inamın artırılması üçün dövlət çox böyük tədbirlər görüb. Bilirsiniz ki, əmanətlər sığortalanır və bu addım banklara inamı böyük dərəcədə artırıb. Ona görə banklar da öz sosial məsuliyyətini dərk etməlidir və iqtisadiyyatın real sektoruna kredit şəklində daha çox vəsait ayırmalıdır.

Növbəti illərdə bölgələrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi davam etdiriləcək. Hər bir şəhərə genişzolaqlı internet çəkilməlidir. Bu sahədə Azərbaycan qısa müddət ərzində böyük uğurlara imza atdı. Biz bu gün kosmik dövlətlər sırasındayıq. İnternet istifadəçilərinin sayı 70 faizdən çoxdur, sürətlə artır. Ona görə hər bir şəhərdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı böyük məna daşıyır. Nəzərə alsaq ki, biz «Elektron hökumət» sisteminə keçirik, «ASAN xidmət» artıq bölgələrə gəlibdir. Ona görə bu sahə də daim diqqət mərkəzində olacaqdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə bundan sonra da ən ciddi şəkildə davam etdiriləcəkdir. Bu, böyük sosial bəladır, böyük yaradır. Korrupsiyanın, rüşvətxorluğun aradan qaldırılması üçün Azərbaycan dövləti əlindən gələni edir. Rüşvətxorluq üçün meydan daralır. Sistem xarakterli tədbirlər görülür, islahatlar aparılır. Eyni zamanda, inzibati metodlar, cəza tədbirləri də görülür və görüləcəkdir. Ancaq hesab edirəm ki, burada sistem xarakterli tədbirlər daha da böyük səmərə verəcəkdir. Mən «ASAN xidmət»in fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Cəmi 1 il ərzində «ASAN xidmət»ə 1 milyon müraciət olmuşdur. Tam şəffaflıq təmin edilibdir, mədəni xidmət və Azərbaycan vətəndaşına layiq olan hörmət göstərilir. Ona görə «ASAN xidmət»in funksiyaları bundan sonra da genişlənəcəkdir. Bütün insanlarla birbaşa ünsiyyətdə olan qurumlar da bu prinsiplərlə yaşamalıdır.

Əminəm ki, növbəti illərdə rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizəmiz daha da gözəl nəticələr verəcəkdir. Bunu deməyə əsas verən görülən işlərdir, aparılan islahatlardır və

güclü siyasi iradəmizdir. Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa yer olmamalıdır. Bütün dövlət məmurları bunu eşitsinlər, bilsinlər və elə işləsinlər ki, həmişə dövlət və xalq qarşısında alnıaçıq, üzüağ olsunlar.

Hər bir dövlət məmuru öz məsuliyyətini dərk etməlidir. Hər bir dövlət məmuru təmiz işləməlidir, xalqla bir yerdə olmalıdır, təvazökar, işgüzar və vətənpərvər olmalıdır, rüşvət almamalıdır, özünü xalqdan üstün tutmamalıdır, işlədiyi bölgələrdə, sahələrdə hörmət qazanmalıdır və Vətənə sadiq, sədaqətli olmalıdır. Heç bir xarici dairənin təsiri altına düşməməlidir. Bax, budur əsas prinsiplər. Hər bir dövlət məmurundan tələb edirəm ki, bu prinsiplərə əməl etsin.

Biz güclü dövlət qurmuşuq. Bu gün Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir dövlətdir. Təsadüfi deyildir ki, BMT Təhlükəsizlik Şurasına üzv seçilərkən dünya birliyinin böyük əksəriyyəti bizim namizədliyimizi dəstəkləmişdir –155 ölkə, dünya birliyinin üçdə iki hissəsi.

Biz güclü iqtisadiyyat qurmuşuq. Qısa müddət ərzində rəqabətqabliyyətliliyinə görə 39-cu yerə qalxmışıq. Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır və bu, rekord göstəricidir, analoqu olmayan inkişafdır.

Bizim daxili vəziyyətimiz çox sabitdir. Sabitlik qorunur. Sabitliyi qoruyan əsas şərtlər xalqla iqtidar arasındakı birlikdir, xalqın gördüyümüz işlərə dəstəyidir, inamıdır. Budur sabitliyi şərtləndirən əsas amil. Daxili vəziyyət sabitdir. Xaricdən olan bəzi təzyiqlər görürsünüz ki, heç bir səmərə vermir. Bəzi satılmış müxalifət qruplarının fəaliyyəti heç bir səmərə vermir. Bizim ayağımıza dolaşmaq istəyənlər yenə də rəzil olurlar. Son prezident seçkiləri də bunu göstərdi. Xalqın böyük əksəriyyəti onların çirkin kampaniyasına uymadı. Xalq reallığa, inandığı adama səs verdi. Ona görə xaricdən ianə alan, vicdanını xaricilərə satan ünsürlərə Azərbaycan siyasətində yer yoxdur. Bunu son seçkilər də göstərdi. Son seçkilər müxalifətin sonu idi. Bu onların rəzalət zirvəsi idi.

Bütün bu amillər ola-ola biz korrupsiyaya, rüşvətxorluğa niyə göz yummalıyıq?! Niyə bu yara bizi içimizdən sarsıtsın, niyə bu yara bizi zəhərləsin?! Ona görə mən deyirəm ki, hər kəs nəticə çıxarsın. Cəza tədbirləri görülür, görüləcəkdir. Burada heç kimdə immunitet yoxdur, olmayacaqdır. Dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidirlər. Ona görə mən bir daha bunu demək istəyirəm ki, növbəti illərdə də rüşvətxorluğa bulaşmış insanlar çox ciddi şəkildə cəzalandırılacaqlar. Kimsə nəticə çıxarmayıbsa, nəticə çıxarsın. Növbəti 5 il ərzində Azərbaycan korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də nümunəvi ölkə olmalıdır.

Regionların sosial infrastrukturu növbəti 5 il ərzində, əlbəttə ki, yeniləşəcəkdir. Məktəb, xəstəxana, mədəniyyət ocaqlarının tikintisi davam etdiriləcək, məcburi köçkünlərin problemləri öz həllini tapacaqdır. Keçən il 28 min köçkün yeni evlərə, mənzillərə köçürülmüşdür. Bu il də yəqin ki, buna yaxın bir rəqəm olacaqdır. Yəni bu məsələ daim diqqət mərkəzindədir.

Bölgələrin turizm potensialı böyüyür, güclənir. Daxili turizm böyük dərəcədə artır və əminəm ki, xarici turizmdə də böyük artım olacaqdır. Artım var, amma hələ ki, istədiyimiz səviyyədə deyil. Daha da böyük artım olacaqdır. Yeni turizm zonaları yaradılır. Sadəcə, son 5 il ərzində «Şahdağ» dağ-xizək kompleksi yaradılıbdır. Orada artıq 4 gözəl hotel fəaliyyət göstərir, 1 hotel tikilir. «Tufan» dağ-xizək mərkəzi yaradılıbdır. Onun ətrafında 10-a yaxın hotel, beynəlxalq aeroport tikilibdir. Biz Naftalanın keçmiş şöhrətini bərpa edirik. Naftalan vaxtilə Ümumittifaq turizm mərkəzi idi. Bu gün biz bunu beynəlxalq turizm mərkəzinə çeviririk. Artıq 2 gözəl hotel fəaliyyət göstərir, üçüncüsü də tikilir. «Qalaaltı» müalicə mərkəzinin bərpası yekunlaşır. Bu da kurort turizminin inkişafı üçün çox vacib bir obyekt olacaqdır.

Cənub və qərb zonalarının, Naxçıvan Muxtar Respublikasının turizm potensialı kifayət qədər genişdir. Burada da böyük işlər görülür və görüləcəkdir. Əlbəttə ki, ekoloji tədbirlər

ciddi şəkildə görülməlidir. Bu barədə mən dəfələrlə öz fikirlərimi bildirmişəm. Biz ətraf mühiti qorumalıyıq, Bakını və Abşeron yarımadasını əsrlərboyu yığılan tullantılardan təmizləməliyik. Biz «Qara şəhər»i «Ağ şəhər»ə çeviririk. Bütün bölgələrdə görülən işlər, yeni açılan müəssisələr ən yüksək ekoloji standartlara cavab verməlidir.

Bu il «Sənaye ili»dir. Sənayenin inkişafına xüsusi diqqət göstəriləcəkdir və göstərilir. Texnoparkların yaradılması prosesi sürətlə gedir. Bölgələrdə – Gəncədə, Sumqayıtda, Mingəçevirdə texnoparkların yaradılması nəzərdə tutulmuşdur. Hər bir şəhərdə xüsusi sənaye yerləri, sənaye zonaları yaradılmalıdır. Çünki iqtisadiyyatımız, sənaye potensialı, əhali artır. İş yerləri nə qədər yaradılsa da, yenə də yaradılmalıdır. Çünki elə ölkələr var ki, orada əhali azalır, orada iş yerləri o qədər də ciddi problem deyildir. Ancaq bizdə keçən il əhali 170 mindən çox artmışdır. Bu artım çox müsbət haldır, iqtisadi inkişafımızın təzahürüdür. Ancaq bizim iqtisadi imkanlarımız, sənaye imkanlarımız buna uyğun olmalıdır. Ona görə hər bir şəhərdə, yəqin ki, şəhərlərin kənarlarında xüsusi sənaye zonaları ayrılmalıdır. Orada dövlət hesabına infrastruktur, kommunikasiya xətləri çəkilməlidir, yeni müəssisələrin tikilməsi üçün imkanlar yaradılmalıdır ki, sahibkarlar gedib orada özləri üçün iş qursunlar.

Bir sözlə, demək istəyirəm ki, son 10 il ərzində qarşıda duran vəzifələrin hamısı icra edilib, 2 Dövlət Proqramı artıqlaması ilə icra edilib. Bu, ölkəmizin inkişafına çox böyük dəstək olmuşdur. Əminəm ki, qəbul ediləcək növbəti – üçüncü proqram da vaxtında icra olunacaq və beləliklə, ölkəmizin uğurlu, dinamik inkişafı təmin ediləcəkdir.

Sağ olun.

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*6 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Soçidə keçiriləcək Qış Olimpiya oyunlarının rəsmi açılışında iştirak etmək üçün fevralın 6-da Rusiya Federasiyasına işgüzar səfərə gəlmişlər.*

## LİTVANIN BAŞ NAZİRİ ALQİRDAS BUTKEVİÇİUS İLƏ GÖRÜŞ

*Soçi*

*6 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Soçidə Litvanın Baş naziri Alqirdas Butkeviçius ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Litva arasında əlaqələrin inkişafından məmnunluq ifadə edildi, bu əlaqələrin yaxşı perspektivlərinin olduğu bildirildi. Ölkələrimiz arasında müxtəlif sahələrdə, xüsusilə enerji sektorunda əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİ İLƏ GÖRÜŞ

*Soçi*

*6 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Soçidə Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Tani ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğu bildirildi, əlaqələrin dinamik inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərin gücləndirilməsinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin, xüsusilə ticarət, sərmayə qoyuluşu, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş İran xalqına ən səmimi təbriklərimi yetirirəm.

Ölkələrimiz arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən və ortaq mənəvi dəyərlərimizdən qaynaqlanır.

İnanıram ki, Davos İqtisadi Forumu zamanı keçirdiyimiz görüşdə ifadə etdiyimiz kimi, ikitərəfli münasibətlərimizin xoş ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2014-cü il*

## ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMAN İLƏ GÖRÜŞ

*Soçi*

*7 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Soçidə Çex Respublikasının Prezidenti Miloş Zeman ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin son vaxtlarda inkişafından məmnunluq ifadə olundu. Azərbaycan Respublikası ilə Çex Respublikası arasında siyasi əlaqələrin yaxşılaşmasının müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə də əlverişli şərait yaratdığı bildirildi.*

*Daha sonra görüşdə kənd təsərrüfatı, ticarət, səhiyyə, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları barədə ətraflı fikir mübadiləsi aparıldı.*

## XXII QIŞ OLİMPİYA OYUNLARININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Soçi*

*7 fevral 2014-cü il*

*Fevralın 7-də Soçidəki «Fişt» stadionunda XXII Qış Olimpiya oyunlarının rəsmi açılışı mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*BMT-nin Baş katibi Pan Gi Mun 2014-cü ilin Olimpiya oyunlarının rəsmi açılışına 10 dəqiqə qalmış Soçi Olimpiadasının iştirakçılarını və tamaşaçılarını salamladı.*

*Bu Olimpiya oyunları bir neçə göstərici üzrə rekord olacaq. Belə ki, Soçidə 88 ölkədən olan idmançılar çıxış edəcəklər ki, bu da 4 il əvvəl Vankuverdə keçirilmiş oyunlardan 6 ölkə çoxdur. Ümumiyyətlə, 98 medal dəsti uğrunda mübarizə gedəcəkdir. Bu, 2010-cu ildəkindən 12 dəst çoxdur.*

*Soçi Qış Olimpiadası Azərbaycan yığması üçün beşinci Olimpiadadır. Soçidə ölkəmizi idmanın 2 növündə yarışacaq 4 idmançı təmsil edir. Kişilər arasında dağ xizəksürmə yarışlarında Azərbaycanı Patrik Braxner və Sedrik Hots təmsil edəcəklər. Bundan başqa, Soçidə fiqurlu konkisürmə yarışlarında idman rəqslərində Yuliya Zlobina və Aleksey Sitnikov Azərbaycan bayrağı altında çıxış edəcəklər.*

*XXII Qış Olimpiya oyunlarının açılışı mərasimi videoçarxın nümayişi ilə başlandı. Videoçarxda tamaşaçıları Olimpiadaya ev sahibliyi edən ölkə, onun nailiyyətləri və tanınmış nümayəndələri ilə əlifba üzrə tanış etdilər.*

*Sonra Rusiya Federasiyasının bayrağı qaldırıldı, bu ölkənin himni səsləndirildi.*

*Daha sonra iştirakçı ölkələrin ənənəvi paradı başlandı. Azərbaycan komandası dördüncü keçdi. Ölkəmizin bayrağını Patrik Braxner aparırdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mehriban Əliyeva Fəxri qonaqlar üçün tribunadan idmançılarımızı salamladılar.*

*İdmançıların paradı başa çatdıqdan sonra «Rusiya haqqında yuxular» adlı səhnələşdirilmiş tamaşa nümayiş etdirildi.*

*Daha sonra stadionu XXII Qış Olimpiya oyunlarının rəmzləri bəzədi və lazer effektləri ilə xüsusi şounun nümayişinə başlanıldı. Bu şounun mahiyyətini Rusiya tarixi və onun əsas dövrlərinə aid kompozisiyalar təşkil edirdi. 18 fəsildən ibarət şouda XX əsrin əvvəlinə və rus inqilabına həsr edilmiş kütləvi səhnələr maraqla qarşılandı. Avanqard incəsənət ruhunda hazırlanan bu hissə 2 saatdan çox davam etdi. Açılış mərasiminin kütləvi səhnələrində, o cümlədən rəqs, balet, akrobatik və sirk nömrələrində 3 min aktyor və 2 mindən çox könüllü iştirak edirdi. Direktoru və ssenari müəllifi Rusiyanın Birinci telekanalının baş direktoru Konstantin Ernst olan şounu dünyada televiziya vasitəsilə 3 milyarddan çox insan izləmişdir.*

*Şou başa çatdıqdan sonra «SOÇİ–2014»ün Təşkilat Komitəsinin sədri Dmitri Çernışenko çıxış edərək, qonaqları və idmançıları salamladı, bu oyunların Rusiyada keçirilməsindən fəxr etdiklərini bildirdi.*

*Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, 1976-cı il Olimpiya oyunlarının qalibi Tomas Bax da Soçidə baş tutan bu idman bayramının olimpiya tarixində yeni səhifə açdığını vurğulayaraq idmançılara qələbə əzmi arzuladı.*

*Sonra Rusiya prezidenti Vladimir Putin XXII Qış Olimpiya oyunlarını açıq elan etdi.*

*Rejissor Nikita Mixalkov, aktrisa və «Həyat bəxş et» Fondunun həmtəsisçisi Çulpan Xamatova, xokkeyçi Vyaçeslav Fetisov, konkisürən Lidiya Skoblikova, ilk qadın kosmonavtı*

*Valentina Tereşkova, «Vesti»nin Suriyadakı xüsusi müxbiri Anastasiya Popova, dirijor Valeri Gergiyev və kiberyürüşçü Alan Yenileyev Olimpiya bayrağını stadiona gətirdilər.*

*Olimpiya himni səsləndirildi. İdmançıların, hakimlərin və məşqçilərin adından olimpiya andı içildi.*

*Mərasimin sonunda stadionda olimpiya məşəli alovlandırıldı. Məşəli fiqurlu konkisürmə üzrə üçqat olimpiya, onqat dünya çempionu İrina Rodnina və məşhur xokkey qapıçısı, üçqat olimpiya çempionu Vladislav Tretyak yandırdılar.*

*Mərasim bayram atəşfəşanlığı ilə başa çatdı.*

## YÜKSƏK SƏVİYYƏLİ QONAQLAR ÜÇÜN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Soçi*

*7 fevral 2014-cü il*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından fevralın 7-də XXII Qış Olimpiya oyunlarının açılışı mərasimində iştirak etmək üçün Soçiyə gələn yüksək səviyyəli qonaqların şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak etdilər.*

## KONKİSÜRMƏ OYUNLARINA BAXIŞ

*Soçi*

*8 fevral 2014-cü il*

*Rusiya Federasiyasının Soçi şəhərində keçirilən XXII Qış Olimpiya oyunlarının ilk günü idmanın bir çox növlərində maraqlı məqamlarla yadda qalmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 8-də kişilər arasında 5000 metr məsafəyə sürətli konkisürmə yarışlarına baxdılar.*

*Qeyd edək ki, 1998-ci ildən Qış Olimpiya oyunlarında iştirak edən Azərbaycan budəfəki Olimpiadada idmanın dağ xizəyi və fiqurlu konkisürmə növləri üzrə 4 idmançı ilə təmsil olunur.*

## «VTB» BANKININ PREZİDENTİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*10 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da «VTB» Bankının prezidenti Andrey Kostini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də əlaqələrin uğurla həyata keçirildiyi vurğulandı, Azərbaycanın müvafiq qurumları ilə «VTB» Bankı arasında əməkdaşlığın bu əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əlcəzair xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2014-cü il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Serbiya əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2014-cü il*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 fevral 2014-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin fevralın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan Respublikasının Prezidentinə raport verdi.*

*Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Gürcüstan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Georgi Marqvelaşviliyə, Gürcüstanın nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 fevral 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq bildirildi. Ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 fevral 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha salamlayıram. Xoş gəlmisiniz! Sizin səfəriniz xalqlarımız və ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərini bundan sonra da inkişaf etdirmək üçün çox böyük əhəmiyyət daşıyır. Bizi tarix və qonşuluq münasibətləri bağlayır.

Bu gün biz müstəqil dövlətlər kimi, bütün sahələrdə fəal əməkdaşlıq edirik. Bu gün biz Sizinlə ikitərəfli və çoxtərəfli münasibətlərdə qarşılıqlı maraq kəsb edən məsələlərə dair qısa fikir mübadiləsi apardıq. Əminəm ki, biz bundan sonra da qarşılıqlı faydalı əməkdaşlığın potensialını artıracağıq. Gürcüstan bizim üçün qardaş, yaxın ölkədir, qonşu, tərəfdaş və dostdur. Əminəm ki, münasibətlərimizin gələcək inkişafı çox müsbət və dinamik olacaqdır.

Bizi istər regional, istərsə də qlobal xarakterli çoxlu layihə birləşdirir. Biz uzun illər ərzində həmişə ümumi məqsədlərimizə sadiqlik nümayiş etdirmişik. Onları həyata keçirmək üçün qarşıdan gələn illərdə də fəal işləyəcəyik.

Siz dediniz ki, çoxdandır Azərbaycanda olmamısınız. Əminəm ki, bu səfər çox faydalı, maraqlı olacaq və münasibətlərimizin daha da inkişaf etməsinə yaxşı təkan verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**G e o r g i  M a r q v e l a ş v i l i:** Çox sağ olun, cənab Prezident! Bəli, bu səfər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Biz azərbaycanlı həmkarlarımızla inkişaf etdirdiyimiz şəxsi münasibətlərə xüsusi həssaslıqla yanaşırıq. Siz düzgün olaraq xatırlatdınız ki, ölkələrimiz əməkdaşlığın xüsusi presedentini yaradır, nümunəvi əməkdaşlıq üçün problemləri deyil, imkanları inkişaf etdirmək üçün şərait yaradır. Görüşümüzdə Siz bizim birlikdə inkişaf etdirdiyimiz, faktiki olaraq artıq tarixə çevrilən, istər regionumuzda, istərsə də regionumuzun hüdudlarından kənarda yaşayan xalqlar üçün tarixi imkanlar yaradan istiqamətləri düzgün vurğuladınız. Biz imkanlar yaradırıq. Biz bu imkanları birlikdə qururuq. Biz çox şadıq ki, belə səviyyədə əməkdaşlıq təkcə zəmanəmizdə deyil, gələcəyə baxanda da inkişaf edən, regionda yeni layihələr, yeni dinamika yaradan əməkdaşlıq kimi görünür.

## GÜRCÜSTAN PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 fevral 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Georgi Marqvelaşvili fevralın 12-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Ölkəmizə xoş gəlmisiniz! Biz Gürcüstan prezidentinin Azərbaycana səfərinə çox böyük əhəmiyyət veririk. Şadam ki, bizim çox yaxşı müzakirələrimiz və söhbətimiz oldu. Biz bir daha münasibətlərimizin strateji xarakterini təsdiqlədik.

Xalqlarımız arasında münasibətlər ölkələrimiz arasındakı əlaqələr üçün əsasdır. Bu gün Gürcüstan və Azərbaycan 2 müstəqil dövlətdir və beynəlxalq təsisatlarda bir-birinə dəstək verir. Çox güclü siyasi münasibətlərimiz mövcuddur. Biz BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar daxilində birgə işləyirik və hər zaman bir-birimizə dəstək veririk. Ölkələrimizin ərazi bütövlüyü məsələsində biz hər zaman bir-birimizi dəstəkləyirik. Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü, eləcə də beynəlxalq hüquq normaları kobud şəkildə pozulub.

Bu gün biz, həmçinin iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Hesab edirik ki, iqtisadi əlaqələrimizi, ticarət dövriyyəsini artırmaq üçün böyük potensial vardır. Ticari mübadilələr səviyyəsi arta bilər. Eyni zamanda, qarşılıqlı sərmayələr üçün yaxşı imkanlar vardır və biz Gürcüstanda sərmayə qoyuluşunun təfərrüatlarını dəyərləndirəcəyik. Bununla belə, Azərbaycan şirkətləri Gürcüstanın infrastruktur, enerji və nəqliyyat sektorlarına artıq sərmayə qoymağa başlamışlar. Bu, sənaye sektoruna da aiddir.

Əlbəttə, bu gün biz enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi ilə bağlı qarşılıqlı layihələrimizə aid olan məsələləri də müzakirə etdik. Enerji sahəsində əməkdaşlığın yaxşı tarixi vardır. Azərbaycandan neft və qazı nəql edən əsas ixrac boru kəmərləri Gürcüstan ərazisindən keçir. Bu əməkdaşlıq uzun illər ərzində çox uğurlu olub. Əlbəttə ki, biz enerji şaxələndirilməsi ilə bağlı gələcək planlarımızı da müzakirə etdik. Bildiyiniz kimi, ötən ilin dekabr ayında XXI əsrin müqaviləsi Bakıda imzalandı. Bu, Avropada ən iri infrastruktur və enerji layihəsidir. İnvestisiyaların ümumi həcmi 45 milyard dollar olacaqdır. Əlbəttə ki, Azərbaycan, Gürcüstan, digər tərəfdaşlar və dostlar bu tarixi layihəni həyata keçirmək üçün əllərindən gələni edəcəklər.

Daşımalar, həmçinin ikitərəfli əməkdaşlığımızın mühüm hissəsidir. Bu sahədə də biz regionları və qitələri birləşdirəcək layihəni həyata keçirməkdəyik.

Biz humanitar sahədəki əməkdaşlığı, insanlar arasında təmasları da müzakirə etdik. Çox məmnunam ki, Gürcüstan Prezidenti sabah Azərbaycanın rayonlarına səfər edəcək və Azərbaycanın gürcü icması ilə görüşəcəkdir. Bir neçə il əvvəl, mən Marneulidə yaşayan azərbaycanlılarla görüşdüm. Bu cür görüşlər, həmçinin münasibətlərimizin gələcək inkişafı üçün vacibdir. Azərbaycandakı gürcülər və Gürcüstandakı azərbaycanlılar bizim böyük zənginliyimizdir. Onların həyatı və fəaliyyəti ikitərəfli əlaqələrimiz üçün vacibdir. Bildirmək istəyirəm ki, tarixin bütün illəri ərzində gürcülər və azər-

baycanlılar hər zaman sülh və dostluq şəraitində yaşayıblar. Bu gün münasibətlərimiz qardaş, dost və strateji tərəfdaşlar arasında olan münasibətlərdir. Gürcüstan Prezidentinin səfəri söylədiyim sözləri bir daha təsdiqləyir.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz və ümid edirəm ki, ölkəmizə səfəriniz uğurlu olacaqdır.

## Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin bəyanatı

Sağ olun, cənab Prezident!

Bakıya səfərimizin çox yaxşı başlanğıcını, apardığımız mühüm görüşü və qəbulu bir daha qeyd etmək istəyirəm. İlk saatlardan qonaqpərvərliyinizi duyduq.

Bəli, dövlətlərimiz strateji rifaha aparan münasibətlərin qurulması işində, ölkənin və regionun gələcəyi üçün nümunəvi olublar. Həyata keçirdiyimiz layihələr nəinki dövlətlərimiz, o cümlədən digər regionlar üçün də daha yaxşı gələcək imkanlarını yaradır. Bu səbəbdən, dövlətlərimiz arasında müstəsna tərəfdaşlıq, birgə həyata keçirdiyimiz enerji və daşıma layihələrinə sadiqlik regionda və onun hüdudlarından kənarda milyonlarla insana daha yaxşı gələcəyi təmin edəcəkdir.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Gürcüstan üçün nəinki böyük layihələr, neft və qaz, eləcə də nəqliyyat sahəsində əməkdaşlıq, o cümlədən mədəniyyət, elm və fərdlər arasında münasibətlər baxımından olduqca vacibdir.

Artıq qeyd etdiyim kimi, siyasi sahədə tərəfdaşlığımızı həyata keçiririk və inkişaf etdiririk. Bu həmçinin bizim üçün çox vacibdir, çünki bu tərəfdaşlıqla bir-birimizin cəmiyyətlərini və dövlətlərini zənginləşdiririk.

Aydındır ki, ərazi bütövlüyü ilə bağlı ciddi problemlər vardır. İnanıram ki, biz həmin problemlərin sülh yolu ilə həllində ən düzgün yoldayıq, düzgün istiqamətdəyik. Həmin problemlərin həlli yolu dövlətlərimizin rifahının daha da artırılmasından, çox mühüm birgə layihələrin reallaşdırılmasından keçir.

Dövlətlərimiz arasında yüksək səviyyəli səfərlərin həyata keçirilməsini səbirsizliklə gözləyirik. Biz prezident Əliyevin Gürcüstana səfərini səmimiyyətlə arzulayırıq. Biz azərbaycanlıların Gürcüstanda, gürcülərin isə Azərbaycanda həyat tərzinin daha da yaxşılaşdırılmasını səmimi-qəlbdən arzulayırıq.

Bu sahədə də biz tərəfdaşlığın müstəsna imkanlarını nümayiş etdiririk.

Bu gün mən Prezidentə bildirdim ki, Tbilisiyə, Gürcüstana qayıtdıqdan sonra mən Novruz bayramında azərbaycanlı həmvətənlərimizlə görüşəcəyəm və bu bayramı onlarla qeyd edəcəyəm. Bu sahədə biz, həmçinin tərəfdaşlıq edirik və dövlətlərimiz arasında xüsusi əməkdaşlıq imkanlarını nümayiş etdiririk.

Bir daha sağ olun, cənab Prezident!

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından fevralın 13-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Mərasimdə dövlət başçıları çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Biz bu gün səhərdən Sizinlə birlikdə danışıqlar apardıq, ikitərəfli münasibətlərin bir çox mühüm, o cümlədən regional məsələlərini müzakirə etdik. Əlaqələrimizin gələcək inkişafı üzrə fikir mübadiləsi apardıq. Deyə bilərəm ki, müzakirə olunan bütün məsələlərdə fikirlərimiz üst-üstə düşür. Ən başlıcası odur ki, biz ikitərəfli əlaqələrimizi bütün istiqamətlərdə fəal inkişaf etdirmək niyyətindəyik. Bu gün biz bir növ, görülən işləri təhlil etdik və gələcək üçün əlaqələrin inkişaf yollarını müəyyənləşdirdik. Birinci növbədə, qarşılıqlı siyasi fəaliyyətin möhkəmləndirilməsi, beynəlxalq təsisatlarda qarşılıqlı dəstək, mühüm qlobal enerji və nəqliyyat layihələrinin reallaşdırılmasına sadiqlik – bunlar çox vacib məsələlərdir. Çünki Gürcüstan və Azərbaycan bu məsələlərdə – onun əlaqələndirilməsində, qarşılıqlı fəaliyyətində və qarşılıqlı dəstəkdə çox mühüm rol oynayırlar. Artıq regional çərçivədən kənara çıxan layihələrin reallaşdırılmasında bütün bunlar çox vacibdir.

Əminəm ki, energetika sahəsində, nəqliyyat, kommunikasiya infrastrukturlarında biz qarşıdakı illərdə daha böyük uğurlara nail olacağıq. Biz həmçinin iqtisadi əlaqələrin inkişafı perspektivlərini müzakirə etdik. Hesab edirəm ki, əmtəə dövriyyəsinin artırılması üçün yaxşı imkanlar vardır. Ölkələrimizin potensialından daha geniş istifadə etmək və sahibkarlara daha yaxşı şərait yaratmaq lazımdır ki, onlar bazarın tələblərinə uyğun olaraq istehsal edilən məhsulların ixracını artırsınlar. Artıq investisiya layihələri həyata keçirilir. Gələcək üçün də perspektivlər vardır.

Hesab edirəm ki, qarşıdakı illərdə biz daha böyük həcmdə investisiyalar yatıracağıq. Bununla da iqtisadiyyatlarımızın daha çox inteqrasiya etməsinə təkan verəcəyik. Bütövlükdə humanitar əməkdaşlıq da daxil olmaqla, müzakirə edilən bütün məsələlərdə bizdə qarşılıqlı anlaşma, münasibətlərimizin perspektivinə dəqiq nöqteyi-nəzər mövcuddur. Əsas odur ki, Gürcüstan və Azərbaycan bu gün 2 müstəqil dövlət kimi, regional və kontinental məsələlərdə mühüm rol oynayır. Bu qarşılıqlı fəaliyyətin bünövrəsi isə, əlbəttə ki, xalqlarımızın arasındakı münasibətdir. Əsrlərboyu xalqlarımız qonşu yaşayıblar, hər zaman bir-birinə dayaq olublar, bir-birini dəstəkləyiblər və gələcəkdə də belə dostluq və anlaşma şəraitində yaşayacaqlar. Bu bizim qoruya bildiyimiz əsas sərvətdir və biz bunu gələcəkdə daha da zənginləşdirəcəyik.

Əlbəttə, xalqlarımız görəndə ki, dövlət rəhbərləri oxşar, eyni mövqeyə malikdirlər və bir-birilərini dəstəkləyirlər, bu da həmçinin onlar üçün qarşılıqlı fəaliyyətin bütün səviyyələrində münasibətlərin möhkəmləndirilməsi və inkişafı üçün yeni imkanlar yaratmaq baxımından yaxşı işarədir. Bizim uğurlu gələcəyimiz yalnız sıx qarşılıqlı fəaliyyət sayəsində mümkündür. Bu məsələlərdə baxışlarımız tam vəhdət təşkil edir. Əminəm ki, ölkələrimiz inkişaf etmiş dövlətə çevrilmək üçün qarşıya qoyulan məqsədlərə nail olacaqdır.

Bilirəm ki, hazırda Gürcüstanda dövlət rəhbərliyi həyatın bütün sahələrində yaxşı nəticələr verən fəal islahatlara başlayıb.

Bu islahatlarda onlara uğurlar arzulamaq istərdim. Əminəm ki, nəzərdə tutulanların hamısı gerçəkləşəcəkdir. Biz də öz tərəfimizdən sizin nailiyyətlərinizə, qələbələrinizə yalnız sevinəcəyik və dost, qardaş kimi, həmişə yanınızda olacağıq. Tarixin hökmü belədir. Zənnimcə bu, tarixin, yəqin həm də təbiətin xalqlarımıza xoş münasibətidir ki, biz qonşu olmuşuq. Bizim münasibətlərin nümunəsi fikrimcə, öyrənilməyə layiqdir. Heç də həmişə hər qonşu xalqlar Gürcüstan və Azərbaycan dövlətləri və xalqları kimi mehriban dostluq, anlaşma və sülh şəraitində yaşamırlar və 2 dövlət kimi, qarşılıqlı fəaliyyət göstərmirlər. Bu elə bir sərvətdir ki, biz bunu qorumalı və saxlamalıyıq, belə də edəcəyik. Bizim insanlarımızın, vətəndaşlarımızın güzəranını daha da yaxşılaşdırmaq, ölkələrimizin isə daha güclü olması üçün birgə işləyəcəyik. Gürcüstana uğurlar, qələbələr və gürcü xalqına tərəqqi arzulayırıq.

**Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin çıxışı**

Cənab Prezident, ilk növbədə, istərdim ki, mənim və nümayəndə heyətimizin üzvlərinin Azərbaycanın paytaxtı Bakıda gördüklərimizə heyrətimizi bildirim.

Əlbəttə, səfərimiz bizim ilk görüşümüzün təəssüratları ilə başladı. Biz görüşərək regionun və ölkələrimizin gələcəyi haqqında söhbət açdıq. Amma mən qeyd etmək istərdim ki, gələcək layihələr, problemlər və onların həlli yollarına baxışlarımız üst-üstə düşür. Düşünürəm ki, bu da regionun və bu layihələrin gələcək inkişafına müsbət təsir göstərəcəkdir. Təbii ki, Azərbaycanda gerçəkləşən layihələrə və sürətlə gedən inkişafa heyrətlənməmək mümkün deyildir. Biz bu gün yeniləşən və müasirləşən Bakını görmək imkanı əldə etdik. Biz bütün gördüklərimizin xoş təsiri altında olduq. Təbii ki, Azərbaycan və hökumətiniz bu inkişafı Heydər Əliyevin rəhbərliyi altında gedən keçmiş proseslərdən alır və çox şadıq

ki, bu proseslər bu gün də davam edir, dərinləşir və öz bəhrələrini verir.

Sizin qeyd etdiyiniz kimi, ölkələrimiz arasındakı əməkdaşlıq nəinki region, həm də bir çox xalqlar üçün nümunədir. Biz Sovet İttifaqı dağılandan sonra həm öz dövlətçiliyimizi, həm də bir-birimiz arasında münasibətləri qardaşlıq, qarşılıqlı anlaşma və hörmət əsasında formalaşdıra bildik. Təbii ki, biz gələcəyə böyük planlarla gedirik. Qeyd etdiyiniz kimi, enerji və nəqliyyat layihələri təkcə ölkələrimizin və xalqlarımızın deyil, həm də digər dövlətlərin inkişafına real təminat verir. İnanıram ki, müasir dünyanın əksər dövlətləri bizim əməkdaşlığa baxır və əmin olurlar ki, bu əməkdaşlıq gələcəkdə öz bəhrələrini verəcəkdir. Müvafiq olaraq bu layihələrin inkişafı istiqamətində işləyən tərəfdaş və tranzit ölkə kimi, biz əsası qoyulmuş prinsiplərə sadiqik və bu layihələrin gələcəkdə daha da inkişafına ümid edirik. Bir daha qeyd etmək istərdim ki, biz siyasi sahədə də səmərəli əməkdaşlıq edirik. Bu əməkdaşlığın artıq öz tarixi vardır.

Bəli, biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Azərbaycan da Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Biz bu mövqemizi beynəlxalq forumlarda mütəşəkkil şəkildə nümayiş etdiririk. Təəssüf ki, bizim dövlətlərdə bu problemlər yaranıb və əminəm ki, onlar beynəlxalq hüquq normaları çərçivəsində və sülh yolu ilə öz həllini tapacaqdır. Bizim əməkdaşlığımız bunun üçün zəmin yaradır.

Son 20 il ərzində necə əməkdaşlıq etdiyimizə bir daha nəzər yetirsək görərik ki, bu əməkdaşlıqda xalqlarımız böyük rol oynayır. O xalqlar ki, qardaşlaşıblar, öz ölkələrini inkişaf etdiriblər və qonşu ölkələrə hörmətlə yanaşıblar. Burada ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfə vermiş Azərbaycan mənşəli Gürcüstan vətəndaşlarının və gürcü mənşəli Azərbaycan vətəndaşlarının mühüm rolunu qeyd etməmək olmaz.

Bir daha qeyd edim ki, bu gün mənin üçün unudulmaz bir gündür. Əminəm ki, bizim nümayəndə heyətimiz üçün də

unudulmazdır. Ölkələrimiz arasında yaranmış dostluq, əmək-daşlıq, mehriban qonşuluq hisslərimizi müvafiq olaraq real layihələrə, real gələcəyə, iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yönəldəcəyik. Bütün bunlar olduqca əhəmiyyətlidir. Çünki iqtisadi layihələrin arxasında mədəni və mənəvi birlik dayanır. Biz təhsil, elm sahələrində layihələrin inkişafını böyük diqqətlə izləyəcəyik. Əminəm ki, bu sahələr Gürcüstanda da, Azərbaycanda da inkişaf edəcək və bu sahələrdə əməkdaşlığa ümidlə baxacağıq. Qəbula görə Sizə bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm.

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Litva münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2014-cü il*

# AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YENİ İNZİBATİ-TƏDRİS KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*13 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2000-ci ildə imzaladığı fərmanla yaranan Azərbaycan Milli Konservatoriyası müstəqillik dövründə fəaliyyətə başlayan ilk ali məktəblərdən biridir. Milli Konservatoriya milli mədəniyyətin öyrənilməsi, tədrisi və ixtisaslaşması kimi məsələlərin ölkəmizin ictimai-mədəni həyatında aktuallıq kəsb etdiyi bir vaxtda meydana gəldi. Elə həmin dövrdə muğam, milli alət ifaçılığı üzrə ali təhsilli kadrlara, muğamların nəzəri tədqiqinə və tətbiqinə yeni yanaşma zərurətinin ortaya çıxması Milli Konservatoriya ideyası ilə vəhdət təşkil etdi. Ulu öndərin 2001-ci il 10 avqust tarixli «Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında» Sərəncamı ilə Bakı Musiqi Kolleci və Respublika İncəsənət Gimnaziyası Milli Konservatoriyanın tərkibinə daxil edildi. Beləliklə, ümummilli lider Heydər Əliyevin təhsilin və mədəniyyətin inkişafına göstərdiyi qayğı yeni tarixi dövrdə xalqımıza daha bir təhsil ocağını – Milli Konservatoriyanı bəxş etdi.*

*Sonrakı dövrdə Milli Konservatoriyanın fəaliyyəti dövlətimizin başçısı İlham Əliyevin diqqətindən kənarda qalmadı. 2006-cı ildən Milli Konservatoriyanın yeni inzibati-tədris*

*kompleksinin tikintisinə başlanıldı. 2012-ci ildə prezident İlham Əliyev bu təhsil ocağının inşası ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzaladı və müvafiq maliyyə vəsaiti ayrıldı. Bütün bunlar da ondan irəli gəldi ki, dövlətimizin başçısı ölkədə mədəniyyətin inkişafına xüsusi diqqətlə yanaşır və son illərdə bu sahənin tərəqqisi istiqamətində həyata keçirilən tədbirlər mühüm uğurlarla müşayiət olunur. Bütün ölkə miqyasında mədəniyyət ocaqları yenidən qurulur, qədim tarixi abidələrimizə yeni həyat verilir, mədəniyyət xadimlərinin, bu sahədə çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu işlərə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da öz layihələri ilə dəstək verir. Azərbaycan mədəniyyətinin dünya miqyasında təbliği, milli muğam sənətinin yaşadılması ilə bağlı görülən işlər indi ölkəmizin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır.*

*Dövlətimizin başçısına məlumat verən Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Səyavuş Kərimi bildirdi ki, binada tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafı ilə bağlı həyata keçirdikləri işləri əks etdirən muzey yaradılıb. Muzeydə həm ulu öndərin, həm də dövlətimizin başçısının müxtəlif mədəniyyət tədbirlərində iştirakından və incəsənət xadimləri ilə görüşlərindən çəkilmiş fotoşəkillərə geniş yer verilib.*

*Milli Konservatoriyanın kitabxanası da zəruri ədəbiyyatla təchiz olunaraq tələbələrin istifadəsinə verilib. Lazımi avadanlıqlarla təmin edilən sinif otaqlarında tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Tələbələrin ixtiyarında olacaq idman zalında da müxtəlif yarışların keçirilməsi üçün hər cür imkan vardır.*

*Azərbaycan Milli Konservatoriyası ifaçılıq və tarix-nəzəriyyə fakültələrindən ibarətdir. Bu fakültələrin nəzdində dekanlıq və 8 kafedra fəaliyyət göstərir. Hazırda 287 tələbənin*

*təhsil aldığı konservatoriyanın yeni binası 1000 tələbənin burada oxumasına imkan verir. Azərbaycan Milli Konservatoriyasının professor-müəllim heyətinin tərkibi xalq çalğı alətləri üzrə görkəmli ifaçılar, peşəkar dirijor, xanəndə, tanınmış musiqişünas, bəstəkar və ictimai fənlər sahəsində bir çox alimlərdən ibarətdir. Milli Konservatoriyada təhsil və elmin əlaqələndirilməsi məqsədilə «Milli musiqinin tətbiqi» və «Milli musiqi alətlərinin araşdırılması» elmi laboratoriyaları yaradılıb. Bu laboratoriyalarda qədim xalq çalğı alətlərimizin bərpası, təkmilləşdirilməsi, onların ifaçılıq və tədrisdə tətbiqinə xüsusi diqqət göstərilir. Elmi-praktik fəaliyyətin çox ciddi istiqamətlərindən biri xalq musiqisi nümunələrinin toplanılması, sənədləşdirilməsi, nota yazılması və tədrisdə istifadə edilməsidir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Konservatoriyanın müəllim heyəti, görkəmli mədəniyyət xadimləri ilə görüşdülər.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını salamladı.*

**İ l h a m  Ə l i y e v:** Bu gün çox gözəl bir gündür, əlamətdar bir gündür. Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni binası açılır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Artıq konservatoriyanın da öz gözəl binası vardır. Mənə indi göstərdilər əvvəlki vəziyyəti necə idi. Əlbəttə ki, indiki vəziyyətlə onu müqayisə etmək mümkün deyildir. Bu şərait ən yüksək səviyyədədir. Gözəl sinif otaqları, konsert salonları, idman kompleksi də vardır. Mənə dedilər ki, burada səsyazma studiyası, Muğam klubu vardır. Yəni bütün şərait var və əminəm ki, bundan sonra konservatoriyanın fəaliyyəti daha da uğurlu olacaqdır. Çünki daha da çox tələbə qəbul etmək üçün imkan olacaqdır. Məncə, burada tələbələrin sayını bəlkə də 2 dəfə artırmaq olar. Əlbəttə, burada seçim düzgün aparılmalıdır. Bunu da siz hamıdan yaxşı bilirsiniz.

Bütövlükdə, Azərbaycanda son illərdə tikilmiş ali məktəblərin səviyyəsi, bax, bu cürdür. Orta məktəblər, ali məktəblər təmir olunur, tikilir və bu, artıq Azərbaycan standartlarıdır. Bu

gün ölkəmizdə gedən quruculuq işləri bu sahəyə də öz təsirini göstərmişdir. Bizim tikilən, təmir edilən bütün ali məktəblərimiz gözəl səviyyədədir. Əlbəttə, burada tədris prosesi də yüksək səviyyədə təşkil edilməlidir. Mən buna şübhə etmirəm. Bir halda ki, sizin kimi məşhur sənət adamları konservatoriyanın fəaliyyətinə öz dəstəyinizi verirsiniz, əminəm, burada oxuyan tələbələr gələcəkdə sizin yerinizi tutacaqlar. Buna ehtiyac var. Çünki Azərbaycan musiqi sənəti çox zəngindir, dünya miqyasında tanınır və bizim musiqi sənətimizin əsası milli musiqimizdir. Milli musiqi Azərbaycan xalqının istedadını göstərir, nə qədər istedadlı xalq olduğumuzu dünyaya nümayiş etdirir. Milli ənənələrimizin qorunması üçün milli musiqimizin çox böyük yeri vardır. Milli musiqimizi ifaçılar, sənətkarlar, bəstəkarlar yaşadırlar. Ona görə əminəm ki, bundan sonra da bu gözəl ənənələr davam edəcəkdir.

Nəzərə almalıyıq ki, gənclərin milli musiqiyə çox böyük marağı vardır. Ölkəmizdə keçirilən müsabiqələr, festivallar bu marağı daha da artırır. Canlı efirdə göstərilən muğam festivalları, muğam müsabiqələri cavanları da, gəncləri də bu istiqamətə sövq edir. Bizim böyük bəstəkarlarımızın da yaradıcılığında milli musiqimizin sədaları eşidilir və böyük klassik əsərlərimiz də milli musiqi zəminində yaradılıb.

Bizdə veteran ifaçılara da diqqət göstərilir. Bizim dahi bəstəkarlarımızın xatirəsi böyük hörmətlə qorunur. Bakıda Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, son illərdə Fikrət Əmirovun, Bülbülün, Qara Qarayevin abidələri ucaldılmışdır. Bu, dövlətin və xalqın dahi bəstəkarlarımızın, ifaçılarımızın xatirəsinə olan hörmətinin əlamətidir.

Bütövlükdə Azərbaycanın musiqi həyatı çox zəngindir, çoxsaylı tədbirlər – festivallar, beynəlxalq muğam müsabiqələri məhz Azərbaycanda keçirilir. Bu bir daha onu göstərir ki, muğamın vətəni Azərbaycandır. Artıq bu müsabiqədə iştirak edənlər də bunu etiraf edirlər. Bu çox vacibdir, çünki biz ilk növbədə, çalışmalıyıq ki, bu nadir sənətimiz daim yaşasın, digər tərəfdən, dünya da bunu bilsin. Çünki muğam sənəti

ümumdünya musiqi sənətinin zirvəsidir və Bakıda tikilmiş Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanda keçirilən muğam müsabiqələri, Qəbələ Musiqi Festivalı, digər festivallar bizim musiqi həyatımızı daha da zənginləşdirir və Azərbaycanı bu bölgənin mədəniyyət mərkəzinə çevirir. Bu gün sirr deyil ki, Azərbaycan bölgənin iqtisadi və siyasi mərkəzidir. Artıq bu reallıqdır və Azərbaycan humanitar sahədə, mədəniyyət sahəsində öz liderlik rolunu nümayiş etdirir. Ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlar, musiqi festivalları diqqəti cəlb edir və bizə imkan verir ki, özümüzü dünyada daha da dolğun şəkildə təmsil edək.

Başqa sahələrdə də ifaçılarımız böyük uğurlar qazanırlar. «Eurovision» mahnı müsabiqəsində Azərbaycan ifaçıları qısa müddət ərzində birinci yeri tutmuşlar. Beynəlxalq caz festivallarında ifaçılarımız ən qabaqcıl yerlərdədir. Milli musiqi ilə bağlı keçirilən müsabiqələrdə də biz ön yerlərdəyik. Bu onu göstərir ki, xalqımız istedadlı xalqdır. Çox şadam ki, milli musiqimiz digər sahələrə – klassik musiqiyə, estrada musiqisinə də müsbət təsir göstərir. İndi dünyada qloballaşma prosesi gedir və bu proses istər-istəməz müxtəlif sahələri əhatə edir. Son zamanlar qloballaşmanın daha çox mənfi cəhətləri haqqında diskussiyalar gedir, bu da təbiidir. Çünki bu proses istər-istəməz milli əsasları bir növ sarsıdır. Biz elə etməliyik ki, gənc nəsil milli ruhda böyüsün, vətənpərvər, Vətənə sadiq olsun, Vətən üçün işləsin, çalışsın. Bunu etmək üçün güclü vətənpərvərlik hissi və milli ruh lazımdır. Milli ruhun da təməlində milli ənənələr, musiqi, ədəbiyyat, ana dili dayanır. Ona görə bu sahə ölkəmizin gələcək inkişafı üçün çox önəmlidir. Çalışmalıyıq ki, milli musiqimiz yaşasın, inkişaf etsin, zənginləşsin. Siz və sizin kimi ifaçılar bu gün milli musiqimizi tərənnüm edirsiniz, gənclərə də yol göstərirsiniz. Bax, televiziyada 100 minlərlə tamaşaçı muğam müsabiqələrini seyr edir, həm də gənc ifaçıları dinləyir. Mənim üçün də sizin təhlilləriniz maraqlıdır. Çünki o təhlildə bilmədiyimiz məqamlar üzə çıxır və bir növ, hamımız üçün bir dərs keçirilir.

Ona görə sizin bu sahədəki fəaliyyətinizi mən bir daha qeyd etmək istəyirəm. Sizə böyük hörmətim vardır. Əminəm ki, siz bundan sonra da bu gözəl şəraitdə gənclərə öz təcrübənizi çatdıracaqsınız. Bir daha sizi təbrik edirəm.

**Əlibaba Məmmədov** (*Xalq artisti*): Əzizimiz və çox hörmətli cənab Prezidentimiz! İcazənizlə, ağsaqqal musiqiçi olaraq mən bizim Milli Konservatoriyanın bütün əməkdaşları adından, öz adımdan Sizə böyük təşəkkürümü, minnətdarlığımı bildirim ki, Siz bizim üçün belə bir möhtəşəm bina yaratmısınız.

Bizi çox sevindirdiniz. Bu saat bizim musiqiçilərin, konservatoriyada çalışanların sevincinin həddi-hüdudu yoxdur. Mən buna görə Sizə «Çox sağ olun!» – deyirəm. Var olun, Allah-Taala Sizi qorusun.

Bir az da muğamatımızdan danışmaq istəyirəm. Muğamatımız keçmişdə də var idi, amma sağ olsun Mehriban xanım ki, – Siz qeyd etdiniz – onu yenidən bütün dünyaya tanıtdırdı, bütün musiqilərin tacı etdi. Bu saat Fransadan, başqa ölkələrdən Milli Konservatoriyaya da, mənim yanıma da gəlirlər. Məndən soruşurlar, muğamları kim yaradıb? Deyirəm ki, xalq. Xalq deyəndə, inanmırlar. Deyirlər xalq bunu yarada bilməz, bunu bəstəkar yarada bilər. Amma xalq yaradıb. Bu Azərbaycanındır.

Mehriban xanım bizim muğamatımıza elə bir möhür vurdu və bütün dünya bildi ki, muğam Azərbaycanındır. Qarabağ xanəndələrinin disklərini dünyaya yaydı. Dünya bildi ki, Qarabağ bizimdir, muğam da bizimdir. Buna görə Mehriban xanım, Sizə də çox böyük minnətdarlığımı, təşəkkürümü bildirirəm. Çox sağ olun ki, varsınız. Ürəyinizdə nə arzunuz varsa, Allah yerinə yetirsin.

**Arif Babayev** (*Xalq artisti, professor*): Cənab Prezident, qısaca da olsa, mən də öz fikrimi söyləyəcəyəm. Çox sağ olun, Allah Sizi qorusun.

Bu binanın tikilməsi, bizim ixtiyarımıza verilməsi tarixi bir gündür, böyük bir gündür. Biz sənət adamları bunu heç vaxt yadımızdan çıxarmayacağıq, öz əməllərimizlə, işimizlə bu etimadı doğruldacağıq.

Sizin göstərişinizlə nəinki bu bina, neçə-neçə belə binalar tikilib sənət adamlarının ixtiyarına verilibdir. Köhnə binalarımızda dərs keçmək çox çətin idi. Çox sağ olun ki, milli musiqimiz üçün belə şərait yaratmısınız.

Mən Mehriban xanıma da öz minnətdarlığımı bildirirəm, «Sağ olun!» – deyirəm. Ona görə ki, əgər respublika müsabiqələri, beynəlxalq müsabiqələr olmasaydı, bizim sənətə bu qədər axın olmazdı. Çox böyük axın vardır. Milli musiqimizə heç vaxt bu qədər axın olmayıb. Allah Sizi qorusun. Cavanlarımızın çoxu bu müsabiqələrdə mükafata layiq yerləri tutublar, Qran-pri alıblar. Təyyar, Babək, Ehtiram və digər cavanlarımız var ki, onlar öz ifaları ilə muğamımızı yaşadır, inkişaf etdirirlər. Bu kimin zəhmətinin nəticəsidir? Bu işlər Sizin böyük zəhmətinizin əsnasında görülüb. Biz çalışacağıq ki, bu etimadı doğruldaq. Çox sağ olun, Allah Sizdən razı olsun. Allah Sizi Azərbaycan üçün qorusun. Allah Sizi ona görə qorusun ki, Siz xalqın sevimlisisiniz. Mən prezident seçkilərində camaatın necə gülə-gülə, ürəklə, canla-başla səs verdiyinin şahidi oldum. Onlar səs verib ki, Siz bizim Prezidentimiz olasınız və biz də bu xoş günləri, gözəl günləri görək.

**İlham Əliyev:** Çox sağ olun.

**Ağaxan Abdullayev** (*Xalq artisti*): Əgər icazə versəniz, mən də ürək sözlərimi deyərdim.

Cənab Prezident, ağsaqqallar qeyd etdilər, bu gözəl, möhtəşəm binanı Siz bizə bəxş etdiniz. Ona görə Sizə minnətdarıq, «Çox sağ olun!» – deyirik. Allah-Taala Sizə, Mehriban xanıma cansağlığı versin.

Mən bu gün burada, bizə bəxş etdiyiniz bu gözəl binada Sizinlə üzbəüz olmağıma görə çox şadam. Mən 3 il bundan əvvəl ağır xəstələndim. Bunu bütün dostlar bilir. Göydə Allah, yerdə Mehriban xanım mənə kömək oldu, 3 dəfə məni Almaniyaya göndərdi. Bütün məni tanıyanlar, ailəm, dostlarım adından Sizə «Çox sağ olun!» – deyirəm, Sizə minnətdaram.

Siz məni həyata qaytardınız. Şükür Allaha, yaxşıyam, səsim də yerinə gəlib, yavaş-yavaş oxuya bilirəm, oxuyuram. Bunlara görə də Sizə minnətdaram, bütün bu işlərə görə Sizə minnətdaram.

O ki qaldı muğam müsabiqələrimizə, gəncləri biz seçirik, çox istedadlı gənclər gəlir. Bölgələrə, rayonlara gedib seçirik. Çünki o gənclər orada dərs almırlar. Onlar Bakıya gəlirlər, biz onların yaxşı səsi olanını, istedadlılarını seçirik. Sonra onlar Milli Konservatoriyaya daxil olmaqda çox əziyyət çəkirlər. Xahiş edirəm, nəzərə alasınız ki, istedadı olanlara güzəşt edilsin ki, o uşaqlar kənarda qalmasınlar.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu təklif də nəzərə alınacaq. Düz deyirsiniz, burada istedad ön planda olmalıdır. Ona görə siz də təklif hazırlayın, biz bunu hansı yollarla tənzimləyə bilək ki, istedadlı uşaqlar kənarda qalmasınlar. Bir də ki, bildiyimə görə indi konservatoriyada yataqxana da vardır.

**S ə y a v u ş K ə r i m i:** Bəli, biz «E» korpusunda 70 yerlik yataqxana hazırlayırıq. İndi orada komplektləşmə gedir.

**İ l h a m Ə l i y e v:** Yəni olacaq.

**S ə y a v u ş K ə r i m i:** Bəli, olacaq. Bizim fikrimiz odur ki, buraya xarici tələbələri cəlb edək. Ən vacibi budur.

**İ l h a m Ə l i y e v:** O da yaxşı olar. Bölgələrdən uşaqlar da gəlib burada qala bilərlər. Əlbəttə ki, xaricdən tələbələri cəlb etmək də düzgün fikirdir. Beləliklə, Azərbaycan bir musiqi mərkəzi kimi, özünü daha da çox göstərəcək. Əlbəttə ki, xaricdən gələnlər də burada yüksək təhsil, bilik alacaqlar.

O ki qaldı Ağaxan müəllimin sözlərinə, əlbəttə, burada olan və olmayan böyük sənətkarlarımız – siz bizim milli sərvətimizsiniz. Bu həqiqətdir, bu sadəcə, söz deyildir. Doğrudan da siz milli musiqimizi yaşadırsınız, təbliğ edirsiniz. Gənclərə öz təcrübənizi çatdırırsınız. Ona görə təbiidir ki, əgər Allah eləməsin hər hansı bir xoşagəlməz hal baş verərsə, dövlət və ictimai qurum olan Heydər Əliyev Fondu mütləq öz sözünü deməlidir. Mehriban xanım elə insandır ki, o hər kəsə kömək etməyə hazırdır. Xüsusilə xalq üçün, Vətən üçün çox böyük

xidmətlər göstərmiş insanların sağlamlığı ilə bağlı bütün lazımi tədbirlər görülür. Biz çox şadıq ki, müalicə də yaxşı nəticə verdi. Allah sizin hamınıza cansağlığı, uzun ömür versin. Siz dövlətə, xalqa, gənclərə lazımsınız. Əminəm ki, uzun illər bundan sonra da siz müəllim, ifaçı, münsiflər heyətinin üzvü kimi fəal işləyəcəksiniz və cəmiyyətdə bu istiqamətdə daha da çox maarifləndirmə işləri aparılacaqdır. Buna da böyük ehtiyac vardır. Çünki əgər indi Azərbaycanda muğam müsabiqələri keçirilməsəydi, burada oturan laureatları heç kim tanımazdı. Bizdə daha çox estrada müğənniləri tanınır. Mən etiraz etmirəm, tanınsın, ancaq milli musiqimizi yaşadanlar da kənarda qalmasınlar. Onlar da əsl ulduz olmalıdırlar. Çünki milli sənət budur.

Mən təsadüfi demədim ki, qloballaşma gedir və sərhədlər silinir. O cümlədən mədəniyyət, incəsənət sahəsində bir eyniləşmə prosesi gedir. Biz bilirik ki, bu proses kimin xeyrinədir. Ancaq özünə hörmət edən hər bir dövlət və xalq öz milli xüsusiyyətlərini qorumalıdır. Qorumasa, onda müəyyən müddətdən sonra bir xalq kimi yaşaya da bilməyəcəkdir. Biz ən çətin illərdə öz milli musiqimizi, adətlərimizi, həyat tərzimizi qoruya bilmişik. Biz əsrlərboyu başqa dövlətlərin tərkibində yaşamışıq. Başqa dövlətlərin təsiri altında olmuşuq, müstəqil olmamışıq. Mən dəfələrlə bunu demişəm, bir daha demək istəyirəm, tam əminəm ki, bizi bir xalq kimi qoruyan mədəniyyətimiz olubdur. Əgər o da əlimizdən alınsaydı, bu gün heç müstəqilliyimiz də olmayacaqdı. Biz bir xalq kimi də qalmayacaqdıq. Assimilyasiyaya uğraya bilərdik. Mədəniyyət, ana dili, musiqi, poeziya – bizi bunlar qorudu. Yəni əgər müstəqil olmadığımız bir dövrdə bunu qorumuşuqsa, müstəqillik dövründə biz bunu necə itirə bilərik?! Belə təhlükə varmı?! Əlbəttə ki, var. Hər bir ölkə üçün, xüsusilə o qədər də böyük olmayan ölkələr üçün belə bir təhlükə vardır. Bu təhlükədən özümüzü qorumaq üçün milli-mənəvi dəyərlər möhkəm olmalıdır. Mənəvi dəyərlərin də tərkib hissəsi bizim milli musiqidir. Ona görə biz həm öz keçmişimizə hörmətlə yanaşmalıyıq, eyni zamanda, gələcəyə baxaraq, bu müsbət meyilləri

cəmiyyətdə gücləndirməliyik ki, Azərbaycan dəyərləri sarsılmasın, əriməsin, bizim həyat tərzimiz daim ənənəvi olsun və milli musiqimiz yaşasın.

Mən görürəm ki, indi bəzi ölkələrdə artıq bu proseslər mənfi istiqamətdə gedir. Bəzi ölkələrdə milli musiqi anlayışı artıq yoxdur. Bütün efiri ancaq ümumi – ya klassik, ya estrada musiqisi zəbt edibdir. Yəni milli musiqi sadəcə olaraq, folklor, yəni ekzotika kimi haradasa qalıb, müxtəlif festivallarda nümayiş etdirilir. Amma cəmiyyətdə milli musiqi anlayışı yoxdur. Biz indi dünyada, ölkələrdə gedən prosesləri, işləri bilirik. Amma bizim üstünlüyümüz ondadır ki, musiqi mədəniyyətimizin böyük hissəsi milli musiqidir. Elə də olmalıdır. Biz milli musiqimizin ümumi musiqi mədəniyyətimizdə faiz dərəcəsini qaldırmalıyıq. Azalmamalıdır, qalxmalıdır. Belə olan halda, necə deyərlər, biz öz yolumuzu da qoruyacağıq, ənənələrimizi də yaşadacağıq və gənclər də milli ruhda yaşayacaqlar, çalışacaqlar. Azərbaycan gələcəkdə daim müstəqillik yolu ilə gedəcəkdir.

**M e h r i b a n  Ə l i y e v a** *(Heydər Əliyev Fondunun prezidenti):* İlk növbədə, mən sizin hamınızı Milli Konservatoriyanın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Əlbəttə, böyük hadisədir. Əminəm ki, ölkəmizin milli mədəniyyətinin inkişafına böyük bir təkan verəcəkdir. Əlbəttə, belə bir şəraitdə gənc nəsil böyüyəcək, siz ustadların təcrübəsindən bəhrələnəcəkdir.

Amma mən bu gün üzümü sizlərə – bizim ustadlara tutub ilk növbədə, sizə olan dərin hörmətimi və məhəbbətimi çatdırmaq istəyirəm. Sizinlə bizim hər görüşümüz, ünsiyyətimiz mənim üçün çox dəyərlidir. Bu gün biz çox sözlər eşitdik. Bütün bunların hamısı həqiqətdir. Amma mən bir şeyi də qeyd etmək istərdim ki, siz hamınız, əlbəttə, böyük incəsənət xadimisiniz. Amma bununla yanaşı, siz böyük şəxsiyyətsiniz. Prezidentin dediyi kimi, sizin Azərbaycan xalqının ən gözəl ənənələrinə sadiq olmağınız, həyat tərziniz, təvazökarlığınız həm gənclər, həm də, ümumiyyətlə, Azərbaycan cəmiyyəti üçün çox böyük əhəmiyyət daşıyır. Ona görə bizim cəmiyyətdə ümumbəşəri

dəyərlərin yaşaması – çünki bu doğrudan da bu gün çox vacibdir – humanizm dəyərlərinin yaşaması üçün mən sizə cansağlığı və uzun ömür arzulayıram. Mən də hər zaman əlimdən gələni etməyə hazıram. Sizə cansağlığı diləyirəm.

**S ə y a v u ş  K ə r i m i:** Cənab Prezident, Bakıda və Şuşada milli musiqi alətləri istehsal edən kiçik fabriklər var idi.

**İ l h a m  Ə l i y e v:** Olub, bəli.

**S ə y a v u ş  K ə r i m i:** İndi nə Bakıda var, nə də təbii ki, Şuşada. Biz bunu nəzərə aldıq. Bu konservatoriyanın zirzəmisində çox böyük – təqribən 600 kvadratmetrdən böyük olan bir sahəni ayırdıq ki, gələcəkdə bunu kiçik bir fabrikə çevirək. Çünki bilirsiniz, tar bahalı alətdir. Hər bir ailənin bunu almağa imkanı yoxdur. Ya da bilmir ki, uşağı gələcəkdə ifa edəcək, yoxsa yox. Eləcə də kamança və digər alətlər. Ona görə əvvəllər, yadıma gəlir, xüsusən sovet vaxtı mağazalarda, univermaqlarda öyrənmək üçün 18–20 manata tar satırdılar ki, alsınlar, öyrənsinlər. Əgər öyrənə bilirdilərsə, artıq gedib sifariş edirdilər. Yəni biz bunu nəzərə alaraq belə bir laboratoriya yaratmışıq. İndi istəyirik ki, müxtəlif bölgələrdən ustaları cəlb edək və ümumiyyətlə, bu prosesi burada qura bilək.

Bundan başqa yeni alətlər istehsalı barədə də fikirləşirik. Yeni alətlər də olmalıdır. Yəni biz bunu da fikirləşirik: yeni alətlər, milli musiqidə yeni rənglər, yeni tembrlər, tembr xüsusiyyətlərinə cavab verə biləcək alətlər. Çünki bizim milli musiqimiz zil səslidir. Bunu harmoniyalaşdırmaq mümkün deyildir. Ona görə müxtəlif tembrlər lazımdır ki, bunu harmoniya edə bilək. Niyə bizim xalq çalğı alətləri orkestri Motsartın və yaxud Sviridovun, Şostakoviçin əsərlərini çalmasın? Çalsın. Yaxud da ki, tarı, kamançanı Avropaya çıxarmaq lazımdır. Bizdə simfonik əsərlər vardır ki, orada məsələn, solonu tar aləti ifa edir. Yəni tar bizim alətimizdir. Gitara ispan alətidir. Bu aləti bütün dünya çalır. Niyə tar aləti sabah ümumdünyəvi alət ola bilməsin?! Yəni bunun üçün belə fikirlərimiz, addımlarımız vardır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Emalatxananın fəaliyyəti çox vacibdir. Əlbəttə, burada istehsal təşkil ediləcək. İndi alətlər harada istehsal olunur? Fərdi qaydada?

**S ə y a v u ş K ə r i m i:** Bəli, fərdi qaydada istehsal olunur.

**İ l h a m Ə l i y e v:** Bəlkə də qədimdən qalan, indi istifadə olunmayan alətləri də bərpa etmək olar. Çünki bölgələrdə tarix-diyarşünaslıq muzeylərində qədim alətlər nümayiş etdirilir. O alətlərdən indi heç kim istifadə etmir. Bəlkə onlara da bir nəzər salmaq, onları, necə deyərlər, dövriyyəyə qaytarmaq olar ki, həmin alətlərdən də istifadə edilsin.

**S ə y a v u ş K ə r i m i:** Bu sahədə bizim milli musiqi alətlərinin təkmilləşdirmə laboratoriyası fəaliyyət göstərir, eyni vaxtda iş gedir. Biz balaban alətinin müxtəlif modifikasiyalarını, kamançanın bəm variantını yaratdıq. İndi yeni alət – burada qoyulub – Azərbaycan santurunu yaratmışıq, gələcəkdə bunun digər modifikasiyaları yaradıla bilər. Sadəcə, bunların ifaçılarını yetişdirmək məsələsi vardır. Bəzi alətlərdən artıq bizim xalq çalğı alətləri orkestrində istifadə edilir. İndi biz çox arzu edirik ki, Siz bizim konservatoriyaya, buradakı konsertlərə tez-tez gələsiniz. Əlbəttə, biz çalışacağıq ki, Sizi təəccübləndirə bilək.

Arif müəllimin bir tələbəsi var. Dünyanın çox maraqlı regionundan – Koreyadan gəlib bizdə muğam öyrənir.

**A r i f B a b a y e v:** Biz onu bilmədik ki, o, muğamı necə öyrənəcək, məəttəl qaldıq.

**İ l h a m Ə l i y e v:** Öyrəndi?

**S ə y a v u ş K ə r i m i:** Mən ona dedim ki, muğamı öyrənmək sənin nəyinə lazımdır? O dedi ki, mən gedib öz vətənimdə məktəb açacağam. Mən təəccüb etmərəm ki, 20–25 ildən sonra hansısa bir koreyalı muğam ifaçısı buraya qastrola gəlib konsert versin. Təbii ki, o gedəndə özü ilə Alim Qasımovun, Ağaxan müəllimin, Arif müəllimin disklərini aparacaq, orada təbliğ edəcək, öyrədəcək. O buraya ödənişli qaydalarla gəlib və istəyəcək ki, öz vəsaitini geri götürsün. İrandan, Türkiyədən gəlirlər.

**A ğ a x a n A b d u l l a y e v:** Səyavuş müəllim, hətta birinci beynəlxalq müsabiqədən sonra bir isveçrəli gəldi və o zamanlar mənim sinfimdə muğam öyrənirdi.

**S ə y a v u ş K ə r i m i:** Çox gəlirlər. Maraq çox böyükdür.

**İ l h a m Ə l i y e v:** Çox maraqlıdır. Maraq böyükdür. Ona görə yaxşı fikirdir ki, gəlin belə edək. Həm ənənəvi, yəni qonşu ölkələrdən, həm də Avropadan maraq böyükdürsə, qoy gəlsinlər öyrənsinlər. Yəni onda muğam Azərbaycan ifaçılıq sənəti kimi, dünyada daha da geniş şəkildə tanınacaq.

**S ə y a v u ş K ə r i m i:** Bir qədər əvvəl mən bizim emalatxana haqqında Sizə məlumat verdim. Hörmətli Mehriban xanımın çox böyük səyi nəticəsində tar ifaçılığı təxminən 1 il bundan əvvəl YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil edilmişdir. Bu gün musiqi alətlərindən tar ən güclü silahımızdır. Ona görə bizim ustalar – çox yaxşı ustalarımız vardır – bizim 2 milli alətimizi – tar və kamançanı Sizin üçün hədiyyə kimi düzəldiblər. İcazə versəydiniz, biz onları Sizə təqdim edərdik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Tədbirin sonunda prezident İlham Əliyevə milli musiqi alətlərimiz olan tar və kamança hədiyyə olundu.*

*Mərasimdə muğam səsləndi.*

*Daha sonra prezident İlham Əliyevə Milli Konservatoriyanın maketi təqdim olundu, gələcəkdə burada görüləcək işlər barədə məlumat verildi.*

*Dövlətimizin başçısı yeməkxanada yaradılan şəraitlə də tanış oldu. Qeyd edildi ki, binanın daxilində yüksək zövqlə tərtib olunan üzgüçülük hovuzu da vardır.*

**LİVİYA DÖVLƏTİ ÜMUMMİLLİ KONQRESİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NURİ ƏLİ ƏBU SƏHMEYNƏ**

Hörmətli cənab Sədr!

Liviya Dövlətinin milli bayramı münasibətilə Sizə və xalqınıza təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Liviya arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Liviya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2014-cü il*

## MİLLİ GİMNASTİKA ARENASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*17 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 17-də Bakıda Milli Gimnastika Arenasında tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Son illərdə ölkəmizdə idman infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər görülür, yeni obyektlər tikilib istifadəyə verilir. Təsadüfi deyildir ki, beynəlxalq olimpiya hərəkatının fəal üzvlərindən olan Azərbaycanda tikilən olimpiya-idman komplekslərinin sayı 40-ı ötür. Mövcud idman obyektlərində aparılan yenidənqurma işləri beynəlxalq yarışların keçirilməsi üçün ölkəmizin imkanlarını daha da artırır. Azərbaycan 2015-ci ildə keçiriləcək I Avropa oyunlarına hazırlaşır. İdman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Milli Gimnastika Arenasında görülən işlər də xüsusi əhəmiyyətə malikdir. Təməli 2009-cu ilin avqustunda dövlətimizin başçısının iştirakı ilə qoyulan arenada tikinti işləri artıq başa çatmaq üzrədir.*

*Gənclər və İdman naziri Azad Rəhimov arenada görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, kompleksin fasadı xüsusi formada işlənib. Burada maraqlı illüminasiya elementlərini təqdim edən ekranlar quraşdırılıb. Əsasən gimnastika yarışları üçün nəzərdə tutulan arenanın əhəmiyyətini artıran mühüm amillərdən biri də buranın digər idman tədbirlərinin və yarışlarının keçirilməsi üçün uyğunlaşdırılmasıdır. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 9 min 600-ə qədər artırmaq mümkündür. Dünya standartlarına uyğun inşa*

olunan kompleksdə Mətbuat Mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Avropada ən yaxşı gimnastika komplekslərindən biri olacaq bu idman qurğusunda hotel də yaradılıb.

Diqqətə çatdırıldı ki, Milli Gimnastika Arenasında bu ilin iyununda bədii gimnastika üzrə Avropa çempionatının keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, 2015-ci ildə I Avropa oyunları çərçivəsində 6 gimnastika fənni üzrə yarışların, 2019-cu ildə isə bədii gimnastika üzrə 2020-ci il Olimpiadasına lisenziya xarakterli dünya çempionatının burada keçirilməsi planlaşdırılır.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrıca inşa edilmiş məşq zalında yaradılan şəraitlə tanış oldular. Dövlətimizin başçısı və xanımı burada gimnastların məşq prosesini izlədilər. Məşq zalında idmançılar üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, Avropa Gimnastika İttifaqının prezidenti də arenada yaradılan şəraiti yüksək qiymətləndirdi. Zalda ən son gimnastika avadanlığı quraşdırılıb. Həmin avadanlıq Avropa Gimnastika İttifaqının və Azərbaycan Gimnastika Federasiyasının tövsiyələrinə əsasən yerləşdirilib. Hazırda burada bədii gimnastika və kişilər arasında idman gimnastikası, batut, akrobatika, tamblinq üzrə yığma komandalar məşq edirlər. Burada eyni zamanda, Beynəlxalq Gimnastika Federasiyasının təşkil etdiyi məşqçi kursları keçirilir. Son 2 ayda təlim-məşq hazırlığını Türkiyədən, Qazaxıstandan, Latviyadan, Meksikadan və Macarıstandan olan qadın gimnastlar keçmişlər. Kanada, Çexiya, Yunanıstan və Finlandiyadan da qadın gimnastların yaxın zamanlarda Bakıya gəlişi gözlənilir.

Dövlətimizin başçısına və xanımına milli yığmanın forması təqdim olundu.

## MONAKO KNYAZI II ALBERT İLƏ GÖRÜŞ

*18 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də ölkəmizə səfərə gəlmiş Monako knyazı II Albert ilə görüşmüşdür.*

*Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Monako knyazı II Albert prezident İlham Əliyev ilə müxtəlif vaxtlarda keçirdiyi görüşlərini məmnunluqla xatırlatdı. 2015-ci ildə ölkəmizdə keçiriləcək ilk Avropa oyunlarının önəmini qeyd edən Monako knyazı bu böyük idman tədbirinin uğurla təşkil olunacağına əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Monako knyazı II Albertin ölkəmizə səfərinin Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını dedi. 2015-ci ildə Azərbaycanda keçiriləcək ilk Avropa oyunlarına toxunan prezident İlham Əliyev az vaxt qalmasına baxmayaraq, bu idman tədbirinə hazırlıq proseslərinin uğurla həyata keçirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Monako arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İNQUŞETİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*19 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Rusiya Federasiyası İnquşetiya Respublikasının sabiq prezidenti Ruslan Auşevi qəbul etmişdir.*

*İnquşetiyanın sabiq prezidenti Ruslan Auşevin ölkəmizin və xalqımızın böyük dostu olduğunu vurğulayan dövlətimizin başçısı onun regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində fəal iştirak etdiyini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Şimali Qafqaz respublikaları arasında ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsində böyük rol oynadığını yüksək dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası və Rusiya Federasiyası xalqları arasında əlaqələrin möhkəmləndirilməsi, regionda sülhün və əmin-amanlığın bərqərar olması sahəsində xidmətlərinə görə Ruslan Auşevin Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeni ilə təltif edildiyini dedi və ordeni ona təqdim etdi.*

*Rusiya Federasiyası İnquşetiya Respublikasının sabiq prezidenti Ruslan Auşev ona Bakıda prezident İlham Əliyev tərəfindən Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninin təqdim edilməsindən böyük qürur hissi keçirdiyini dedi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad etdi.*

*Ruslan Auşev ötən dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ PLAMEN OREŞARSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarski arasında əvvəlcə təkbətək görüş oldu.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən energetika sektorunda genişləndirilməsinin önəmi vurğulandı, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonra görüş nümayəndə heyətinin iştirakı ilə davam etdirildi.*

*Azərbaycan ilə Bolqarıstan arasında siyasi sahədə əlaqələrin razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi. Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarskinin Azərbaycana ötən səfəri zamanı energetika sahəsində əməkdaşlığa dair mühüm sənədlərin imzalandığına toxunan prezident İlham Əliyev Azərbaycanın və Bolqarıstanın tərəfdaş ölkələr kimi, nəhəng regional infrastruktur layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyətə başlamasından məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində birgə layihənin önəmini qeyd edən dövlətimizin başçısı bunun energetika, investisiya qoyuluşu, biznes, birgə istehsal sahə-*

lərinin yaradılması, turizm, kənd təsərrüfatı və digər sahələrdə genişləndirilməsi üçün də yaxşı imkan yaratdığını vurğuladı. Bolqarıstan şirkətlərini ölkəmizdə həyata keçirilən layihələrdə iştirak etməyə dəvət edən prezident İlham Əliyev Azərbaycanın da Bolqarıstanda tərəfdaş və investor kimi fəaliyyət göstərməkdə maraqlı olduğunu dedi. Dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsində siyasi münasibətlərin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarskinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı səmərəli müzakirələr aparılacağına ümidvar olduğunu bildirdi.

Yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən Bolqarıstanın Baş naziri Plamen Oreşarski səfəri zamanı Azərbaycan xalqının bolqar xalqına olan dostluq münasibətinin bir daha şahidi olduğundan məmnunluğunu bildirdi. Baş nazir Bolqarıstan ilə Azərbaycan arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən Bolqarıstanın Baş naziri sürətlə inkişaf edən Azərbaycanda nəqliyyat, kimya, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu diqqətə çatdırdı.

# QAZAXISTAN RESPUBLİKASI PARLAMENTİ MƏCLİSİNİN SƏDRİ NURLAN NİQMATULİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayev ilə bu yaxınlarda Soçidə görüşünü məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın daha da möhkəmləndirilməsində parlamentlərarası əlaqələrin önəmini qeyd etdi. Ölkələrimizin istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulinin ölkəmizə səfərinin münasibətlərimizin gələcəkdə daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin prezident Nursultan Nazarbayevin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, ölkəmizə səfərə gələrkən Qazaxıstan Prezidenti onu şəxsən qəbul etdi və prezident İlham Əliyevə ən səmimi arzularını, möhkəm cansağlığı və Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq diləklərini çatdırmağı xahiş etdi. Parlament Məclisinin Sədri Nurlan Niqmatulin ölkələrimiz arasında əlaqələrin inkişafında*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Qazaxıstan prezidenti Nursultan Nazarbayev arasında* dostluq *münasibətlərinin və qarşılıqlı hörmətin* rolunu *xüsusi* vurğuladı. *O bu əlaqələrin hazırda* daha da *genişləndirilməsində dövlətlərimizin başçıları arasında səmimi* dostluq *münasibətlərinin önəmini vurğuladı. Nurlan Niqmatulin Qazaxıstan prezidenti Nursultan Nazarbayevin məktubunu dövlətimizin başçısına təqdim* etdi.

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın bir sıra sahələrdə genişləndirilməsinə* dair *məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını* bildirdi, *onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

Əlahəzrət!

Bruney Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Bruney arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bruney Darüssalamın dost xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2014-cü il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Estoniya əlaqələrinin genişləndirilməsi, dostluq və əməkdaşlıq münasibətlərimizin möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2014-cü il*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Küveyt əlaqələrinin, ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2014-cü il*

## KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞAHZADƏ ŞEYX NƏVVAF ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2014-cü il*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*24 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİLO MEDİNAYA**

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Dominikan Respublikası arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 fevral 2014-cü il*

# SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*25 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Sumqayıt şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son vaxtlar şəhərdə görülən işlər barədə Azərbaycan Prezidentinə məlumat verdi.*

## «Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Azərbaycan kağız və karton istehsalat kombinatının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Sumqayıtda «Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Azərbaycan kağız və karton istehsalat kombinatının açılışında iştirak etmişdir.*

*Azərbaycanda həyata keçirilən genişmiqyaslı iqtisadi siyasətin əsas nailiyyətlərindən biri də ölkədə sənayenin müxtəlif istiqamətlərinin müəyyən olunması və inkişaf etdirilməsidir. Bu baxımdan son dövrlərdə neftdən əldə edilən gəlirlərin yeni istehsal müəssisələrinin yaradılmasına yönəldilməsi təsadüfi deyildir. Artıq bu istiqamətdə çox mühüm və ardıcıl layihələr həyata keçirilir. Dövlətimizin başçısının müvafiq tapşırıq və sərəncamlarına uyğun olaraq müasir istehsal sahələrinin yaradılması və istifadəyə verilməsi respublika iqtisadiyyatının gücləndirilməsinə xidmət edir. Bu da ölkədə rəqabətədavamlı və keyfiyyətli məhsullar istehsal etməyə geniş imkanlar açır.*

*Sumqayıtda «Azərsun Sənaye Parkı»nın nəzdində Azərbaycan kağız və karton istehsalat kombinatının yaradılması sənayenin bu sahəsinin inkişafını daha da sürətləndirəcəkdir. Belə müəssisələr həm də rəqabətədavamlı məhsul istehsal etməklə, ölkəmizdə gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verəcəkdir. Digər tərəfdən, bu cür müəssisələr ölkənin iqtisadi inkişaf strategiyasının mühüm komponentlərinin daha keyfiyyətlə və uğurla icrasına təminat verir. Prezident İlham Əliyevin sərəncamı ilə 2014-cü il ölkədə «Sənaye ili» elan edilmişdir. Belə müəssisələrin məhz bu il istifadəyə verilməsi isə «Sənaye ili»nin uğurlu olacağının daha bir göstəricisidir. Bu müəssisə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kredit və «Azərsun Holdinq» MMC-nin vəsaiti hesabına inşa olunub.*

*Kombinatın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin «Azərsun Holdinq» MMC-nin müxtəlif müəssisələrinin açılışlarında iştiraklarını əks etdirən fotostend qurulub.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına kombinatın iş strukturu barədə məlumat verdi. Qeyd edildi ki, prezident İlham Əliyevin tapşırıqlarına əsasən kombinatda yeni və müasir texnologiyalar tətbiq olunub.*

*Prezident İlham Əliyev kombinatı işə saldı.*

*Müəssisədə istehsal prosesi tam avtomatlaşdırılıb. Böyük həcmdə investisiya tələb edən bu kombinat Qafqazda yeganə olaraq Azərbaycanda qurulub. İstehsal korpusu, müxtəlif bölmələr və hazır məhsul anbarından ibarət olan müəssisə aparıcı ölkələrin tanınmış şirkətlərinin müasir avadanlıqları ilə təchiz edilib. Burada qurulan avadanlıqlar hesabına yüksəkkeyfiyyətli və rəqabətədavamlı məhsul əldə etmək mümkündür. Ümumilikdə, kombinatda istehsal prosesi dünya standartları və təcrübəsi əsasında həyata keçirilir. Kombinatın illik emal gücü 50 min tondur. Bu layihənin Sumqayıt ərazisində həyata keçirilməsi şəhərin sosial-iqtisadi inkişafında və əhalinin*

*məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Kombinatda 150 nəfər işlə təmin edilib.*

*Məlumat verildi ki, müəssisənin fəaliyyətə başlaması kağız tullantılarının təkrar istifadəsini təmin etməklə yanaşı, ətraf mühitin çirklənməsinin qarşısının alınmasında mühüm rol oynayır. Hesablamalara görə, müəssisənin fəaliyyəti nəticəsində ildə 850 min şam ağacının kəsilməsinin və meşələrin məhv olmasının, həmçinin atmosferə xeyli miqdarda zərərli maddələrin buraxılmasının qarşısı alınacaqdır. Müəssisənin xammala tələbatının 90 faizi tullantı kağızın tədarükü hesabına ödəniləcəkdir. Bu məqsədlə respublikanın regionlarında tədarük məntəqələrinin yaradılması nəzərdə tutulur. Layihənin reallaşdırılması bölgələrdə yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır. Belə ki, bu sahədə 1000 nəfərin işlə təmin edilməsi mümkün olacaqdır. «Azərsun Holdinq» MMC-nin Xırdalanda da Karton fabriki vardır.*

*Dövlətimizin başçısı həmin fabrikdə və gələcəkdə kombinatda istehsal olunacaq məhsullara baxdı. «Azərsun Sənaye Parkı»nın nəzdində logistika mərkəzi, plastik kütlə və xüsusi karton məmulatlarının istehsal müəssisələri də qurulacaqdır.*

## «Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Sumqayıt yağ fabrikinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də «Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Sumqayıt yağ fabrikinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmiz sürətlə tərəqqi edir. Son illərdə iqtisadiyyatın qeyri-neft sektorunun davamlı inkişafına nail olunmuşdur. Buna imkan yaradan əsas amillərdən biri özəl sektorun inkişafının diqqət mərkəzində saxlanılmasıdır. Təsadüfi deyildir ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq*

mexanizmlərinin tətbiq edilməsidir. Bütün bunlar dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatının dinamik inkişaf etməsinə geniş imkanlar açıb.

Azərbaycan Prezidentinin tapşırıqlarına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Bu sahəyə yönəldilən investisiyalar keyfiyyətli yerli məhsullar istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. «Azərsun Sənaye Parkı»nın nəzdində Sumqayıt yağ fabrikinin yaradılması da məhz rəqabətədavamlı və müasir standartlara cavab verən qida sənayesinin inkişafına mühüm töhfə hesab oluna bilər. Belə layihələrin reallaşması ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar dövlətimizin başçısının verdiyi tapşırıqların icrasının uğurlu və davamlı xarakter daşıdığını nümayiş etdirir.

Fabrikin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin «Azərsun Holdinq» MMC-nin müəssisələrində olduqları zaman çəkilmiş fotoları nümayiş etdirilir.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Prezident İlham Əliyevə fabrikin fəaliyyəti və istehsal prosesi barədə məlumat verildi.

Müasir texnologiyalarla təchiz edilən fabrik dövlətin ayırdığı güzəştli kredit və «Azərsun Holdinq» MMC-nin vəsaiti hesabına inşa olunub. Xam yağ qəbulu, rafinləşdirmə bölmələri, marqarin paketləmə, duru yağ qablaşdırma, şokolad istehsalı, əridilmiş yağın qablaşdırılması və metal qablaşdırma sahələrindən ibarət müəssisədə müxtəlif istehsal xətləri quraşdırılıb. İstehsal sahələri böyük təcrübəyə malik şirkətlərin müasir avadanlıqları ilə təchiz edilib.

Fabrikdə xam yağın kənar maddələrdən təmizlənməsi üçün rafinləşdirmə bölməsi yaradılıb. Saflaşdırılma üsulları əsas prosesin getdiyi mexanizmə uyğun olaraq fiziki-kimyəvi üsullarla aparılır. Fabrikdə illik 270 min ton yağ məmulatı, o cümlədən qarğıdalı, günəbaxan, marqarin yağları və əridilmiş yağlar, şokolad yağları və mayonezlər istehsal olunacaqdır.

*Müasir texnologiyaların və avadanlıqların hesabına burada istehsal edilən məhsullar ekoloji cəhətdən təmiz olmaqla yanaşı, rəqabətədavamlılığı ilə seçilir. Məhsulların Gürcüstan, İraq, Tacikistan, Qazaxıstan, Türkmənistan və digər ölkələrə ixrac edilməsi də nəzərdə tutulub. Fabrikdə 250 yeni iş yeri yaradılıb. Gələcəkdə iş yerlərinin sayının 700-ə çatdırılması nəzərdə tutulur.*

*Bu müəssisənin işə düşməsi bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə yerli xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müasir sənaye komplekslərinin yaradılması, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər uğurla davam etdirilir.*

**İ l h a m  Ə l i y e v:** Bu gün Sumqayıtda əlamətdar bir gündür. Sumqayıt şəhərində 3 zavodun açılışı baş verir. Onlardan ikisi bu ərazidədir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu zavodların fəaliyyətə başlaması Azərbaycanda sənayenin inkişafının təzahürüdür. Sənayenin inkişafı bizim üçün prioritetdir və təsadüfi deyil ki, bu il Azərbaycanda «Sənaye ili» elan edilmişdir.

Biz bundan sonra daha da çox çalışmalıyıq ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı yüksək sürətlə getsin. Əslində bu islahatlar artıq uzun illərdir ki, aparılır. Bu islahatlar nəticəsində bu gün Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır. Bizim əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafı, neft amilindən asılılığımızın azaldılması idi. Biz, demək olar ki, buna nail ola bilmişik. Hazırda bizim ümumi iqtisadi potensialımızın 55 faizi qeyri-neft sektorunda formalaşır. Əlbəttə, biz gələcəkdə çalışmalıyıq ki, qeyri-neft sənayesinin inkişafı daha da sürətlə getsin. Belə böyük zavodların fəaliyyətə başlaması, əlbəttə ki, bu istiqamətdə aparılan siyasətin nəticəsidir.

Burada ən müasir avadanlıqlar quraşdırılıb, ən son texnologiyalar tətbiq edilir, iş şəraiti çox yaxşıdır. Burada istehsal olunan məhsullar rəqabətqabliyyətli məhsullardır. Bu da əsas məsələdir. Biz çalışmalıyıq ki, Azərbaycanda yaranmaqda olan,

yaxud da ki, yaradılacaq bütün zavodların məhsulları rəqabətqabliyyətli olsun, dünyanın istənilən ölkəsinə ixrac edilə bilsin və beləliklə, biz xarici bazarlara keyfiyyətli hazır məhsullarla daha da böyük həcmdə çıxa bilək. Bu gün iqtisadiyyatımızın rəqabətqabliyyətliliyi artır. Beynəlxalq qurumlar da bunu qeyd edir. Belə zavodların fəaliyyətə başlaması bizim potensialımızı daha da artıracaqdır. Bu zavodlarda yüzlərlə iş yerləri açılır, yüksək maaş verilir. Gələcəkdə sənayenin inkişafı daha da sürətlə gedəcəkdir.

Bildiyiniz kimi, Sumqayıt şəhəri Azərbaycanın sənaye mərkəzidir. Bakıdan sonra Cənubi Qafqazda ikinci böyük sənaye şəhəridir. Əslində Sumqayıt sənaye şəhəri kimi yaradılmışdır. Hazırda Sumqayıt müasir sənaye şəhərinə çevrilir. Burada onlarla zavod, fabrik fəaliyyət göstərir. Sumqayıt Texnologiyalar Parkı neçə ildir ki, fəaliyyət göstərir. Texnologiyalar Parkında 13 zavod fəaliyyət göstərir, 5 zavod tikilir. Keçən il Sumqayıtda Kimya Sənaye Parkının təməl daşı qoyulmuşdur. 200 hektara yaxın ərazidə yaxın illərdə böyük bir sənaye şəhəri yaradılacaqdır. O zavodların fəaliyyəti genişlənəcəkdir. Bir sözlə, Sumqayıt müasir sənaye şəhəri kimi, bu gün ölkəmizin sənaye potensialının inkişafında mühüm rol oynayır. Demək olar ki, işsizlik aradan qaldırılmışdır. Sumqayıtda sosial infrastrukturun yaranmasına diqqət göstərilir. İnfrastruktur layihələri icra edilir, şəhər abadlaşır, yeni xiyabanlar salınır, binalar bərpa edilir. Sumqayıt parklar şəhərinə çevrilir. Əlbəttə ki, sənayenin inkişafı sosial sahənin inkişafı ilə də birbaşa bağlı olmalıdır.

Ətraf mühitin qorunmasına böyük diqqət göstərilir. Bu gün Sumqayıtda fəaliyyətə başlayan bütün sənaye müəssisələri ən yüksək ekoloji standartlara cavab verməlidir. Qarşıya bu məqsəd qoyulub, nəinki Sumqayıtda, bütün Azərbaycanda fəaliyyət göstərən zavodlarda ekoloji standartlar ən yüksək səviyyədə olmalıdır. Çünki vaxtilə Sumqayıtın ekoloji vəziyyəti ilə bağlı problemlər olmuşdur. Bu problemlər, demək olar ki, aradan qaldırılıbdır. Bir sözlə, bu gün «Sənaye ili»ndə əlamətdar bir gündür. Bu zavodların fəaliyyətinə dəstək olan bütün vətəndaşlara

öz minnətdarlığımı bildirmək istəyirəm. Burada, əlbəttə ki, investorlar əsas rol oynamışlar, böyük investisiyalar qoyulmuşdur. Hər 2 zavoda 90 milyon manat investisiya qoyulmuşdur. Bu, investorların Azərbaycan iqtisadiyyatına verdikləri dəstəkdir, Azərbaycanın uğurlu gələcəyinə onların inamının təzahürüdür. Çünki ölkəmiz sürətlə inkişaf edir, bütün məsələlər uğurla həll edilir. Biz çalışmalıyıq ki, daxili və xarici investorları Azərbaycana daha da çox cəlb edək. Burada biznes mühiti də yaxşıdır. Gəlirli sahələr yaradılır. Həm sahibkarlar, həm burada işləyənlər, həm də dövlət bundan fayda götürür və götürməlidir. Bax, bu müştərək fayda əsasında Azərbaycan iqtisadiyyatı inkişaf edir.

Bu gün özəl sektor iqtisadiyyatımızın əsas hissəsini təşkil edir. Biznes üçün gözəl şərait yaradılıbdır. İş adamları ilə mənim mütəmadi görüşlərimdə daim onlara öz dəstəyimi göstəririəm. Dövlət öz xətti ilə maliyyə resurslarını da cəlb edir, hər 2 zavodda Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti də nəzərdə tutulmuşdur. Yəni burada dövlət və özəl sektor bir məqsədi güdür ki, ölkə inkişaf etsin, sənaye potensialı möhkəmlənsin, güclənsin, insanlar işlə təmin olunsunlar. Biz bundan sonra da bu yolla gedəcəyik. Bu zavodların uğurlu fəaliyyəti ölkəmizin ümumi inkişaf strategiyasını əks etdirir.

Kağız və karton istehsalat kombinatının fəaliyyəti sayəsində nəinki Sumqayıtda, bütün respublikamızda məntəqələr açılacaq, orada da iş yerləri yaradılacaqdır. O köhnə kağızları yığmaq üçün məntəqələr yaranacaq və biz eyni zamanda, ekoloji problemlərin həllinə də töhfəmizi vermiş oluruq. Çünki hazırda köhnə kağızlar, qəzetlər, sıradan çıxmış digər əşyalar yandırılır və havanı çirkləndirir. İndi bütün kağız tullantıları burada yığılacaq və beləliklə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına da biz dəstək olacağıq. Bu 2 müəssisənin xüsusiyyəti ondan ibarətdir ki, onların fəaliyyəti nəticəsində biz karton, kağız və bitki yağları sahəsində özümüzü 100 faiz təmin edəcəyik. Yəni qarşıya bu hədəf də qoyulub. Mən dəfələrlə demişəm ki, Azərbaycanda tələb olunan bütün məhsullar istehsal edilməlidir.

İxrac potensialı da yaradılır. Həm bitki yağları, həm kağız-karton məhsulları xaricə ixrac ediləcəkdir.

Bir sözlə, müəssisələrin fəaliyyətə başlaması əlamətdar hadisədir, məni çox sevindirir. Ona görə ki, burada iş yerləri, müasir sənaye sahələri yaradılır. Ona görə ki, Azərbaycanın dövlət siyasətinin nə qədər düzgün olmasını, bax, bu müəssisələrin fəaliyyətə başlaması bir daha təsdiqləyir. Sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Şərbət Mirzəyev** *(müəssisənin əməkdaşı):* Möhtərəm cənab Prezidentimiz, icazə verin, müəssisəmizin işçiləri adından Sizi salamlayım. Yaxşı xatirimdədir, 1997-ci ildə şirkətimizin ilk müəssisəsi açılan zaman mənə ulu öndərimizlə görüşmək nəsib olmuşdu. Bu gün özümü çox xoşbəxt hiss edirəm ki, Sizinlə də görüşürəm. Biz Sizin çıxışlarınızı mütəmadi izləyirik. Bilirik ki, 2014-cü ili «Sənaye ili» elan etmisiniz. İlin əvvəlindən keçən qısa müddət ərzində bir neçə müəssisəni açmısınız. Bu gün Azərbaycan sənayesi üçün modern texnologiyalara malik, tam avtomatlaşdırılmış sistemlə işləyən zavodun açılmasının xeyir-duasını verirsiniz. Bizim müəssisəmizdə gözəl iş yerləri, gözəl iş şəraiti yaradılıb. Müəssisəmizin işçiləri adından bir daha Sizə yaradılmış bu şəraitə görə dərin minnətdarlığımızı bildiririk, cənab Prezidentimiz. Çox sağ olun.

**Fəxrəddin Kərimbəyli** *(müəssisənin əməkdaşı):* Cənab Prezident, mən Kağız və karton istehsalı kombinatında gənc mütəxəssis olaraq çalışıram. Azərbaycan Texniki Universitetini bitirmişəm. Müəssisənin bünövrəsi qoyulandan burada çalışıram. Müəssisəmizdə çalışanların 80 faizini sumqayıtlı gənclər təşkil edir. Müəssisədə bizlər üçün yüksək iş şəraiti yaradılıb, yüksək əməkhaqqı ilə təmin edilmişik. Bütün bunlar Sizin biz gənclərə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir.

Müəssisəmiz ekologiyaya da müsbət təsir edir. Belə ki, xammal olaraq tullantı kağızlardan istifadə etdiyimiz üçün il ərzində 850 min şam ağacının kəsilməsinin qarşısı alınacaqdır. Bütün bunlar Sizin düşünülmüş siyasətinizin nəticəsidir.

Möhtərəm cənab Prezident, bizə töhfə etdiyiniz müəssisələrə, iş yerlərinə görə biz cavanlar Sizə təşəkkürümüzü bildiririk.

## Mis emalı zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Sumqayıta səfəri çərçivəsində Mis emalı zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindəndir. Bu siyasətə uyğun olaraq, ölkəmizdə qeyri-neft sektorunun əsas sahələrindən olan sənayenin inkişafına xüsusi diqqət yetirilir. Sumqayıtda istifadəyə verilən Mis emalı zavodu da bu istiqamətdə görülən kompleks işlərin tərkib hissəsidir.*

*Təsadüfi deyil ki, son 10 ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsullarının istehsalı 2,7 dəfə artmışdır. Diqqət çəkən ən vacib amillərdən biri də bu dövrdə ölkə sənayesinə 40 milyard manatdan çox investisiyanın yatırılmasıdır. Hazırkı mərhələdə isə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla, sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Bundan əlavə, mövcud təbii və iqtisadi ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması da diqqətdən kənarda qalmır. Bu sırada Sumqayıt mis emalı zavodu da əhəmiyyəti ilə fərqlənir.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən indiyədək ölkə üzrə 20 minədək sahibkarın investisiya layihələrinin maliyyələşdirilməsinə 1 milyard 200 milyon manat güzəştli kredit verilib. Bu layihələr hesabına 116 mindən çox yeni iş yeri yaradılıb. Sumqayıt şəhəri üzrə isə 318 investisiya layihəsinin maliyyələşdirilməsinə 89,8 milyon manat güzəştli kredit ayrılıb. Bu kreditlərdən istifadə etməklə, investisiya layihələrinin reallaşdırılması nəticəsində 6 minə yaxın yeni iş yeri yaradılıb. Sumqayıtda müasir texnologiyaların tətbiqinə əsaslanan Kağız və karton istehsalat kombinatı, Bitki yağları fabriki və Mis emalı zavoduna ümumilikdə 25 milyon manat dövlətin güzəştli kreditləri verilib.*

*Prezident İlham Əliyev Mis emalı zavodunun fəaliyyətindən bəhs edən filmə baxdı.*

*Bildirildi ki, zavodda emal prosesi dünya standartlarına uyğun həyata keçiriləcəkdir. Burada mis katod lövhələrin elektroliz üsulu ilə həm də hazır mis məmulatlarının ekoloji cəhətdən təmiz istehsalı təşkil olunacaqdır. Ümumi dəyəri 10 milyon manatdan çox olan zavodun tikintisinə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 milyon manat güzəştli kredit ayrılıb. Zavod elektroliz, mis qəbulu, ərinti və dik töküm sahələrindən ibarətdir.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

*Qeyd olundu ki, müəssisə dünyada bu sahədə tanınan şirkətlərin müasir avadanlıq və texnologiyaları əsasında qurulub. Emal prosesi 4 mərhələdə həyata keçirilir. Daxili bazarın tullantı imkanlarını nəzərə alaraq ay ərzində orta hesabla 500 tona qədər tullantı qəbul edilir. İkinci mərhələdə ay ərzində 450 ton anod xammalı əldə olunur. Prosesə laboratoriyada ciddi nəzarət edilir. Nəticədə yüksək texnoloji təmizliyə malik mis katod lövhələr alınır. Bu lövhələrin mis tərkibi ən yüksək göstərici olan 99,99 faizə malikdir. İstehsal edilən məhsulun əsas sifarişçisi Sumqayıt Texnologiyalar Parkında yerləşən müəssisə və zavodlardır. Bu məhsuldan həmin müəssisələrdə yarımfabrikat kimi istifadə*

olunaraq müxtəlif ölçülü mis naqillərin və digər mis məmulatların istehsalı həyata keçirilir.

Prezident İlham Əliyev mis emalı sahəsi ilə tanış oldu.

Dövlətimizin başçısına istehsal prosesi barədə məlumat verildi. Diqqətə çatdırıldı ki, burada istehsal prosesi tamamilə avtomatlaşdırılıb ki, bu da hazır məhsulun keyfiyyətini təmin edir. Bu texnologiyanın üstünlüyü ondadır ki, misin tərkibində oksigenin faizi minimum səviyyəyə gətirilir və nəticədə yüksək keyfiyyətə malik naqillər istehsal edilir. Bu üsulla hazırlanan mis naqillərin ötürücülük qabiliyyəti digər naqillərdən qat-qat yüksəkdir.

Qeyd edildi ki, bu məhsullara həm daxili, həm də dünya bazarında böyük tələbat vardır. Zavodda istehsal edilən 8 millimetrlik mis naqillərin əsas sifarişçisi hazırda yerli şirkətlərdir. Layihənin icrası nəticəsində 70 yeni iş yeri də yaradılıb.

Müəssisənin əhəmiyyətindən danışarkən qeyd edildi ki, müasir texnologiya və avadanlıqlar əsasında yaradılan zavod mis məmulatların idxalını aradan qaldıracaq, bu sahədə tələbatın yerli istehsal hesabına ödənilməsini təmin edəcəkdir. Digər tərəfdən, xammal kimi tullantılardan istifadə edilməsi baxımından müəssisə ekoloji vəziyyətin daha da yaxşılaşdırılması ilə bağlı ölkədə həyata keçirilən tədbirlərə töhfə verəcəkdir. Ən əsası isə zavodun imkanlarının genişləndirilməsi, qəbul məntəqələrinin açılması hesabına yeni iş yerlərinin yaradılması istiqamətində də mühüm addım atılacaqdır.

## Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkında görülən irimiqyaslı abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Sumqayıtdakı Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkında görülən irimiqyaslı abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

Azərbaycan prezidenti İlham Əliyevə məlumat verildi ki, 2011-ci ildən başlayaraq davam etdirilən işlər nəticəsində parkın

*100 hektardan çox olan ərazisində əhalinin istirahətinin təmin olunması məqsədilə geniş tikinti işləri aparılıb.*

*Dövlətimizin başçısına Bakı–Quba avtomagistralından şəhərin Koroğlu küçəsinədək yolun genişləndirilməsi planı ilə bağlı məlumat verildi. Bundan əlavə, Sumqayıtda inşa ediləcək «Yaşıl Teatr»ın layihəsi təqdim olundu. Bildirildi ki, şəhərdə həyata keçiriləcək abadlıq və yenidənqurma işləri sırasında Nəsimi parkında sahilboyu yolun çəkilməsi də planlaşdırılır.*

*Prezident İlham Əliyev 20 Yanvar və Xocalı faciələrinə həsr olunan abidələrin layihəsinə də baxdı.*

*İndiyədək Nəsimi adına Mədəniyyət və istirahət parkında bir çox iaşə obyektləri tikilmişdir və bu proses davam etdirilir. Xatırladaq ki, 1967-ci ildə yaradılan bu Mədəniyyət və istirahət parkında o vaxtlar nadir ağac növləri əkilmiş və bu ənənə hazırda aparılan yenidənqurma işləri çərçivəsində qorunub saxlanılır. 1978-ci ildən isə park dahi Azərbaycan şairi Nəsiminin adını daşıyır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli Qərarı ilə bu Mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.*

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2014-cü il*

*22 il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.*

* * *

*Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə yeksan etmişlər. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfərin taleyi isə hələ də məlum deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib.*

*Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə yarılmışdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.*

*İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.*

*Bu qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki həmin gecə baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı*

deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görməmişdi.

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və digər dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur.

Bu günlərdə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər yayımlanır.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fondun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən «Xocalıya ədalət!» kampaniyası uğurla davam edir. Kampaniyanın məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi, beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

Görülən işlərin nəticəsidir ki, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya

*və Honduras parlamentləri, eləcə də ABŞ-ın Massaçusets, Texas, Nyu-Cersi, Men, Nyu-Meksiko, Arkanzas, Corciya, Oklahoma, Tennessi, Pensilvaniya, Qərbi Virciniya, Konnektikut, Florida, Missisipi ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanımışdır.*

*Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı Qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub. Bu işğalçı ölkənin terrorçuluq siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi haqqında 4 qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ ki, yerinə yetirmir.*

*Xocalı soyqırımını törətməklə erməni millətçiləri Azərbaycan xalqını qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışmağa məcbur etmək kimi məkrli məqsədlər güdüb. Amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı, xalqımız dövlətin suverenliyinin müdafiəsində yüksək qəhrəmanlıq nümunəsi göstərdi.*

*Azərbaycan xalqı qəti əmindir ki, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilmiş, dünyada mövqeyini daha da möhkəmləndirmiş, hərbi qüdrətini təmin etmiş dövlətimiz düşmən tapdağı altında olan torpaqlarını istənilən yolla azad edəcək, şəhidlərimizin qanı yerdə, günahkarlar isə cəzasız qalmayacaqdır.*

**BOLQARISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ROSEN PLEVNELİYEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Bolqarıstan arasındakı münasibətlər bu gün dinamik şəkildə inkişaf etməkdədir. Ümidvaram ki, ənənəvi dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 fevral 2014-cü il*

## BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycan dünyada idman dövləti kimi tanınır. I Avropa oyunları kimi mötəbər idman tədbirinin ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bunun daha bir əyani göstəricisidir. Əlbəttə, belə bir qərarın qəbulunda ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitlik, sürətli iqtisadi inkişaf proseslərinin getməsi, Azərbaycanın dünyada nüfuzunun durmadan artması, respublikamızın müxtəlif mötəbər beynəlxalq idman tədbirlərinə ev sahibliyi etməsi və bu sahədə zəngin təcrübəyə malik olması mühüm rol oynayıb. İdmanın inkişaf etdirilməsinə prioritet sahələrdən biri kimi böyük önəm verən dövlətimizin başçısının birbaşa göstərişi ilə paytaxtda və regionlarda ən müasir idman infrastrukturunun yaradılması istiqamətində ardıcıl işlər həyata keçirilir. Ölkəmizin bütün regionlarında olimpiya idman kompleksləri tikilib istifadəyə verilir. İdmançılara diqqət və qayğı artırılır. Azərbaycan idmançıları dünyanın ən mötəbər yarışlarında bir-birinin ardınca parlaq qələbələr əldə edirlər. Dünya çempionatlarında və Beynəlxalq Olimpiya yarışlarında qızıl medal qazanmış idmançılarımızın sayı ildən-ilə artır. I Avropa oyunları kimi mötəbər idman tədbirinin ilk dəfə olaraq Azərbaycanda keçirilməsi məhz ölkəmizə beynəlxalq aləmdə inamın sübutudur.*

*I Avropa oyunlarının keçirilməsinə az vaxtın qalmasına baxmayaraq, ölkəmizdə bu mötəbər tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Respublikamızın*

*paytaxtında da Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi və digər belə mükəmməl infrastruktur obyektlərinin inşası davam etdirilir. Müxtəlif idman yarışlarının keçirilməsi üçün nəzərdə tutulan Bakı Olimpiya stadionunun inşası da bu istiqamətdə görülən tədbirlərdən biridir. Orijinal layihə əsasında inşa edilən Bakı Olimpiya stadionu dünyanın möhtəşəm və nadir idman qurğularından biri olacaqdır.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına ötən müddətdə layihə əsasında görülən işlər barədə ətraflı məlumat verdi. Azərbaycan Prezidentinə stadionun müxtəlif görüntüləri təqdim edildi. Bildirildi ki, tikintidə ən müasir avadanlıq və inşaat materiallarından istifadə olunur. Bakı Olimpiya stadionunun loqosu da mükəmməlliyi ilə diqqəti cəlb edir. Stadionun inşasında bu sahədə dünyada mövcud olan ən qabaqcıl təcrübədən istifadə edilir.*

*Diqqətə çatdırıldı ki, stadionun yerləşdiyi ərazi inşaat işləri üçün Azərbaycan Dövlət Neft Şirkətinin tikinti təşkilatları tərəfindən hazırlanıb. Layihənin icrasına 2012-ci ilin noyabrından başlanılıb. 2011-ci ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulan və 70 min tamaşaçı tutumu olacaq Bakı Olimpiya stadionu ən müasir standartlara uyğun inşa edilir. İndiyədək layihə çərçivəsində nəzərdə tutulan işlərin bir çox hissəsi həyata keçirilib. Burada əsas stadion, məşqlər üçün köməkçi stadion və yardımçı bina inşa olunur. İdman obyektində əlil tamaşaçılar üçün də bölmələr nəzərdə tutulub. Beynəlxalq olimpiya normativlərinə əsasən tamaşaçıların stadiona daha çox ictimai nəqliyyatdan istifadə etməklə gəlmələri nəzərdə tutulur.*

*Məlumat verildi ki, ərazidə avtomobillər üçün 3100 yerlik park da yaradılacaq. Stadionun ətrafında əsaslı abadlıq və geniş həcmdə yaşıllaşdırma işləri aparılacaq.*

*Tikinti işlərinin gedişi ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİ YAXŞILAŞDIRMAQ ÜÇÜN KOMPLEKS TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olmuşdur.*

*2015-ci ilin iyununda tarixdə ilk dəfə reallaşacaq Avropa oyunlarının Azərbaycanda keçirilməsi ilə əlaqədar Bakıda bir sıra mühüm infrastruktur layihələri icra ediləcək. Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası da bu qəbildən olan tədbirlərdəndir. İlk Avropa oyunlarına aid əksər tədbirlər Böyükşor gölünün şərq sahilində, hazırda tikilməkdə olan Bakı Olimpiya stadionu kompleksində keçiriləcək. Bu ərazi çoxsaylı qonaqları, idmançıları və turistləri qəbul edəcək. Bu baxımdan Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpasının mühüm əhəmiyyəti vardır. Bununla bağlı birinci mərhələnin bu tədbirlərdən öncə yekunlaşdırılması planlaşdırılır.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev görüləcək işlərlə bağlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması və mühafizəsinin «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın Abşeron yarımadasının 9 gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər planı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur. Gölün ekoloji bərpası ilə əlaqədar layihə 2 mərhələdə olacaqdır. 2014–2015-ci illəri əhatə edəcək birinci*

mərhələdə gölün, Olimpiya stadionunun inşa edildiyi yerin yaxınlığında yerləşən 300 hektara yaxın ərazisi bərpa olunacaq. Birinci mərhələdə gölün şimal hissəsinin tarixən neftlə çirklənmiş sahəsinin bənd vasitəsilə sahil xəttindən ayrılaraq təcrid olunması nəzərdə tutulur. Ərazinin qərb sərhədini müəyyən edən altıxətli magistral şose şəklində layihələndirilmiş bənd isə bir tərəfdən Ziya Bünyadov prospekti, digər tərəfdən isə Balaxanı–Binəqədi şosesi ilə birləşdiriləcək. Bu da öz növbəsində şəhər yol infrastrukturuna düşən yükü azaldacaqdır. Göl hissəsindəki yolun ümumi uzunluğu 1570 metr təşkil edəcək. Gölə axıdılan çirklənmiş suların qarşısı alınacaq və dövriyyə zamanı çirklənmiş su Hövsan Aerasiya Stansiyasına istiqamətləndiriləcəkdir. Göldən çirklənmiş çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi, həmçinin gölün ətrafında hazırda mövcud olan qeyri-qanuni tullantı sahələrinin ləğv edilməsi planlaşdırılır. Gölün stadion istiqamətində çirklənmənin qarşısını almaq məqsədilə çirkab su kollektoru inşa olunacaq. Sahil xətti boyunca gəzinti bulvarının inşası və buradan stadion ərazisinə keçid nəzərdə tutulur.

Böyükşor gölünün tam bərpası üzrə ikinci mərhələ 2015–2020-ci illəri əhatə edəcək. Bununla da göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq. Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən Böyükşor gölü dünyada ən mürəkkəb çirklənmiş göllərdən hesab edilir. «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda göllərin bərpası üzrə tədbirlər planının olması vətəndaşların sağlamlığı, onların sosial məsələlərinin həlli və ekoloji durumun yaxşılaşdırılması istiqamətində görülən işlərin ardıcıl xarakter daşımasının təsdiqidir.

Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpasını tarixi layihə adlandıran prezident İlham Əliyev onun ekoloji əhəmiyyətini yüksək qiymətləndirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.

# PAYTAXTIN HƏSƏN ƏLİYEV KÜÇƏSİ–ZİYA BÜNYADOV PROSPEKTİ–OLİMPİYA STADİONU AVTOMOBİL YOLUNDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda yeni salınan Həsən Əliyev küçəsi–Ziya Bünyadov prospekti–Olimpiya stadionu avtomobil yolunda görülən inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

Son illərdə paytaxtda və regionlarda çoxsaylı yolötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara verilir.

Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə də işlər uğurla icra olunur. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yürüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə yönəldilib. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin malik olduğu iqtisadi qüdrətin də göstəricisidir. İndi ölkədə həyata keçirilən nəhəng infrastruktur layihələri bir reallığı da ortaya qoyur ki, son illər ərzində qazanılan nailiyyətlər Azərbaycanın potensialını tam üzə çıxarmaqla yanaşı, ölkəmizin gələcəyinə hesablanan addımların da düzgün istiqamətdə atıldığını təsdiqləyir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən paytaxtın

*yol-nəqliyyat infrastrukturunun daha da müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər sırasına yenisi də əlavə edilir.*

*Prezident İlham Əliyevə yolun texniki göstəriciləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, paytaxtın Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinə paralel olaraq metronun «Koroğlu» stansiyasına qədər salınacaq yeni yolun uzunluğu 17 kilometrdir. Yolun bəzi hissəsi dörd, bəzi hissəsi isə altızolaqlı olacaqdır. Şəhərin bu istiqamətində əvvəlki yol dar olduğu üçün hərəkətin intensivliyinə əngəl törədirdi və tıxaclara səbəb olurdu. Yeni yol hazır olduqdan sonra bu istiqamətdə avtomobillərin rahat və maneəsiz hərəkətinə şərait yaradılacaqdır. Yolboyu körpü, tunel və piyada keçidlərinin də inşası yüksək səviyyədə həyata keçiriləcəkdir.*

*Bildirildi ki, birinci mərhələdə yolun Həsən Əliyev küçəsinə qədər hissəsi hazır olacaqdır. İkinci mərhələdə isə Həsən Əliyev küçəsindən metronun «Gənclik» stansiyasına qədər olan hissəsi inşa ediləcəkdir. Dövlət Proqramına daxil olan bu layihənin reallaşdırılmasında əsas məqsəd metronun «Koroğlu» stansiyasına gələn bütün istiqamətlərdən həm şəhərin mərkəzinə, həm də Həsən Əliyev küçəsindən keçərək «Gənclik» stansiyası istiqamətinə qədər nəqliyyat əlaqəsini təmin etməkdir. Eyni zamanda, bu magistral yol birbaşa yeni inşa olunan Olimpiya stadionu ilə də səmərəli və rahat nəqliyyat əlaqəsi qurmağa imkan verəcəkdir. Yeni avtomobil yolu, həmçinin Bakı qəsəbələrinin ölkənin beynəlxalq əhəmiyyətli magistralları ilə nəqliyyat əlaqəsinin asanlaşmasına kömək etməklə yanaşı, paytaxtın mərkəzi hissəsinin nəqliyyat yükünün azalmasına da öz təsirini göstərəcəkdir.*

*Dövlətimizin başçısının tapşırığına uyğun olaraq respublikamızda, o cümlədən Bakı şəhərində yol-nəqliyyat sisteminin yenidən qurulması zamanı beynəlxalq standartlar və milli memarlıq ənənələrinin üzvi şəkildə uzlaşdırılması əsas götürülür. Bütün yeni qurğular yüksək keyfiyyəti və müasirliyi ilə diqqəti cəlb edir. Yeni yolun çəkilişi zamanı da bu ənənə gözləniləcəkdir.*

*Prezident İlham Əliyev respublikamızın paytaxtının dünyanın ən gözəl və rahat yaşayış şəraiti olan şəhərlərindən birinə çevrilməsini qarşıya prioritet vəzifələrdən biri kimi qoyub. Son illər Bakının yol-nəqliyyat sisteminin dünyadakı qabaqcıl təcrübə əsasında yenidən qurulması da bu istiqamətdə ən vacib tədbirlərdəndir. Ötən illərin təcrübəsi göstərir ki, bu sahədə yüksək keyfiyyəti ilə diqqəti cəlb edən yenidənqurma tədbirləri ildən-ilə daha da geniş vüsət alır.*

*Prezident İlham Əliyev layihənin yüksək səviyyədə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Kunmin şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Biz bu qanlı hadisədən olduqca hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir və terrorizmə qarşı hamılıqla mübarizəni dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Çin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2014-cü il*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İcraçı direktor Devid Harris ölkəmizə son səfərindən ötən dövr ərzində Azərbaycanın çox böyük nailiyyətlər əldə etməsini məmnunluqla vurğuladı.*

*Söhbət zamanı Amerika Yəhudi Komitəsinin üzvləri ilə müntəzəm görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd edildi, bu görüşlərin Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları və Azərbaycan ilə İsrail arasında əlaqələrin inkişafına töhfə verdiyi bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Amerika Yəhudi Komitəsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ APARILACAQ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN LAYİHƏSİ İLƏ TANIŞLIQ

*4 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış olmuşdur.*

*Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri ölkə həyatının bütün sahələrinin dinamik şəkildə yenidən qurulması üçün əlverişli şərait yaradır. İqtisadi inkişaf tempinə görə sürətlə inkişaf edən ölkəmizdə prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtda və regionlarda bütün sahələrdə ən müasir infrastrukturun yaradılmasına, yeni-yeni obyektlərin inşa olunmasına, mövcud komplekslərin isə əsaslı şəkildə yenidən qurulmasına böyük önəm verilir.*

*Azərbaycanda bütün sahələr kimi, idmanın inkişaf etdirilməsi də prioritet sahələrdən biri kimi, dövlətin daim diqqət mərkəzindədir. Dünyada idman dövləti kimi tanınan ölkəmizdə ən müasir standartlara cavab verən yeni idman komplekslərinin və müasir infrastrukturun yaradılması istiqamətində ardıcıl işlər görülür. 2015-ci ildə ilk dəfə Bakıda keçiriləcək I Avropa oyunlarına ciddi şəkildə hazırlaşan ölkəmizdə mükəmməl infrastruktur obyektlərinin inşası ilə yanaşı, mövcud idman komplekslərinin əsaslı şəkildə yenidən qurulması işləri də diqqət mərkəzindədir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Heydər Əliyev adına İdman-Konsert Kompleksinin ən müasir standartlara uyğun şəkildə yenidən qurulması layihəsinin icrasına başlanılıb.*

Dövlətimizin başçısı bu idman-konsert qurğusunda görüləcək işlərlə tanış olmaq üçün Kompleksə gəldi.

Gənclər və İdman naziri Azad Rəhimov prezident İlham Əliyevə görüləcək işlərlə bağlı məlumat verdi.

Dövlətimizin başçısı Komplekslə yanaşı, ətraf ərazilərdə abadlıq işlərinin aparılması ilə bağlı tapşırıqlar verdi.

Sonra prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin arenasında, müxtəlif məşq zallarında və binanın fasadında aparılacaq təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış oldu. Bildirildi ki, Kompleksin bütün sahələrində, o cümlədən əsas və məşq korpuslarında, müxtəlif idman zallarında əsaslı təmir və bərpa işlərinə başlanılması üçün hazırlıq işləri yeni layihəyə uyğun olaraq artıq başa çatdırılıb. Kompleksdə yeni işıqlandırma, yanğından mühafizə və təhlükəsizlik, eyni zamanda, videomüşahidə və xəbərdarlıq sistemlərinin və müasir liftlərin quraşdırılması üçün işlər davam etdirilir. Kompleks yeni və sürətli internet şəbəkəsinə qoşulacaqdır. Binada ən müasir tələblərə cavab verən havalandırma sistemi artıq quraşdırılıb.

Dövlətimizin başçısı təmir və yenidənqurma işlərinin aparılacağı ayrı-ayrı sahələri gəzdi, işlərin yüksək keyfiyyətlə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.

Sonra prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin yanındakı parka gəldi.

Dövlətimizin başçısı parkın yenidən qurulması, burada abadlıq və quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə də bağlı göstərişlər verdi.

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ İLƏ GÖRÜŞ

*5 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədənini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İyad bin Amin Mədənini İslam Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. İyad bin Amin Mədəninin yeni vəzifəyə seçildikdən sonra ölkəmizə səfər etməsindən məmnunluğunu bildirən prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni baş katib seçilərkən Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.*

*Görüşdə ölkəmiz ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, təşkilata üzv olan ölkələrin iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə sıx əməkdaşlığının əhəmiyyəti qeyd olundu, beynəlxalq aləmdə baş verən proseslərlə bağlı islam ölkələrinin vahid mövqedən çıxış etmələrinin önəmi vurğulandı.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ İŞİNGER İLƏ GÖRÜŞ

*5 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşingeri qəbul etmişdir.*

*Görüşdə Münhen Təhlükəsizlik Konfransının beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından önəmi vurğulandı, ölkəmizin bu təşkilat ilə uğurla əməkdaşlıq etdiyi bildirildi, beynəlxalq və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Siz əsrlərboyu formalaşmış əxlaqi sərvətlərimizin, mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub saxlanılmasını təmin etmiş, tariximizə öz uzaqgörənliyiniz, fədakarlıq və qəhrəmanlıqlarınızla parlaq səhifələr yazmısınız. Ən dərin fikirləri dolğun ifadə qüdrətinə malik dilimizin ötən dövrlərin sınağından çıxaraq bu gün də yaşaması və zənginləşməsində misilsiz xidmətləriniz vardır. Gözəl ana kimi, gənclərimizin Vətənə və torpağa bağlılıq, müstəqil dövlətçiliyimizə, istiqlal ideallarına və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda formalaşmaları üçün bütün qüvvənizi sərf edirsiniz. Siz həm də maarifpərvər qadın ziyalılarımızın yolunu ləyaqətlə davam etdirərək, mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə istedad və bacarığınızı getdikcə daha böyük əzmlə gerçəkləşdirirsiniz.

Cəmiyyətimizin həyatına dinamizm qazandıran sosial fəallığınız və onun ahəngdarlığını təmin edən yüksək ictimai mövqeniz zəngin mənəviyyatınızın, dərin zəkanızın, təşkilatçılıq qabiliyyətinizin və işgüzarlığınızın nəticəsidir. Azərbaycanın gələcək inkişafına uyğun, mühüm əhəmiyyətli layihələrin daimi iştirakçıları olaraq müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətinizlə siz göstərilən etimadı həmişə doğrultmusunuz. İctimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə apardığınız səmərəli işlərin bəhrələri yurdumuzun hər bir guşəsində özünü aydın şəkildə büruzə verir. Ölkənin hazırkı simasının müəyyənləşməsində özünəməxsus

yer tutan və əhatə dairəsi mütəmadi genişlənən müvəffəqiyyətləriniz müasir Azərbaycan reallığının diqqətəlayiq hadisələridir.

Ümidvaram ki, siz xanımlar xalqımıza xas milli-mənəvi dəyərləri bundan sonra da yaşadacaq və tükənməz intellektual potensialınızla gündən-günə yeniləşən respublikamızın çiçəklənməsi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Ən xoş arzularla,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2014-cü il*

## PAYTAXTDA İNŞASI DAVAM ETDİRİLƏN BİR SIRA YOL QOVŞAQLARINDA VƏ YOLÖTÜRÜCÜLƏRİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də paytaxt Bakıda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yolötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Son illər paytaxtda və regionlarda yol infrastrukturunun yaradılması ilə bağlı mühüm tədbirlər görülür. Çoxsaylı yol-ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir.*

*Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər də ardıcıl olaraq davam etdirilir. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yerüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə yönəlib. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. İndi ölkədə həyata keçirilən nəhəng infrastruktur layihələri belə bir reallığı da ortaya qoyur ki, son illərdə qazanılan nailiyyətlər Azərbaycanın potensialını tam üzə çıxarmaqla yanaşı, ölkəmizin gələcəyinə hesablanan addımların da düzgün istiqamətdə atıldığını təsdiqləyir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən,*

*paytaxtın yol-nəqliyyat infrastrukturunun daha müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər sırasına yeniləri də əlavə edilir.*

*Prezident İlham Əliyev əvvəlcə paytaxtın Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində yol-ötürücüsünün tikintisi ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq, Ziya Bünyadov prospektinin yenidən qurulması layihəsinə görə 10 kilometrə yaxın uzunluğu olan 10 cərgəli avtomobil yolu ən müasir tələblər səviyyəsində salınır. Layihəyə əsasən burada müxtəlif səviyyəli 5 yol qovşağı, 4 yerüstü və 2 yeraltı piyada keçidi də inşa olunur. Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində birinci yol qovşağı tuneldən və tunel üzərində nəqliyyat vasitələrinin dairəvi hərəkətini və geriyə dönmələrini təmin edən yollardan ibarətdir. Tunelin ümumi uzunluğu 780, qapalı hissəsinin uzunluğu isə 300 metrdir. Altızolaqlı yolun eni 27 metrə yaxındır. Tunel nəqliyyat vasitələrinin Ziya Bünyadov prospekti boyunca Böyükşor və 20 Yanvar dairələri istiqamətində maneəsiz, intensiv hərəkətini təmin edəcəkdir. Tunelin üstündə inşa olunmuş avtomobil yolları isə nəqliyyat vasitələrinin dairəvi, geriyə dönmə, Müzəffər Nərimanov küçəsi ilə Heydər Əliyev prospekti istiqamətinə və əksinə hərəkətini təmin edəcəkdir. Yenidən qurulmuş Müzəffər Nərimanov küçəsi üzrə dördzolaqlı yolun ümumi uzunluğu 1740, eni 19 metrdir.*

*Sonra prezident İlham Əliyev Ziya Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində inşa olunan müxtəlif səviyyəli yol qovşağının yerləşdiyi əraziyə gəldi.*

*Burada görülən işlər barədə də dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, yol qovşağının girişlərlə birlikdə uzunluğu 600 metrdir. 328 metr uzunluğunda olan körpü 2 istiqamətdə altızolaqlıdır. Körpünün yaxınlığında piyadaların hərəkətini asanlaşdırmaq məqsədilə yerüstü keçid də inşa olunub.*

Qeyd edildi ki, şəhərin bu istiqamətində mövcud yol ensiz olduğu üçün hərəkətin intensivliyinə əngəl törədir və tıxaclara səbəb olurdu. Yeni yol və yolboyu inşa edilən körpülər hazır olduqdan sonra bu istiqamətdə avtomobillərin rahat və maneəsiz hərəkətini təmin edəcək, paytaxtın müxtəlif mikro-rayonları, xüsusilə də Binəqədi rayonu istiqamətində nəqliy-yatın intensiv hərəkətinə şərait yaradacaqdır.

Daha sonra prezident İlham Əliyev Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində – «Xutor» dairəsində inşa olunan müx-təlif səviyyəli yol qovşağında tikinti işlərinin gedişi ilə tanış oldu.

Yol qovşağının texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Qovşaqda 3 tunel, 1 körpü, 2 yeraltı piyada keçidinin inşa olunduğu qeyd edildi. Bildirildi ki, buradakı körpünün uzunluğu 630 metr olacaqdır. Layihəyə əsasən qovşaqda yan və tunelüstü yollar inşa edilir. Bu qovşağın istifadəyə verilməsi ilə Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillər 20 Yanvar dairəsi və Qələbə meydanı istiqamətinə maneəsiz hərəkət edə biləcəklər. Bundan başqa, qovşaq 20 Yanvar dairəsi və Qələbə meydanından gələn nəqliyyat vasitələrinin əks istiqamətə – Ziya Bünyadov prospektinə çıxışını təmin edəcəkdir. Qovşaqdakı körpüdən isə avtomobillər Əbdülvahab Salamzadə küçəsindən Rəşid Məmmədov küçəsinə və əks istiqamətə rahat hərəkət edə biləcəkdir.

İnşası davam etdirilən yol qovşaqlarının və yolötürücülərinin hamısında bütün kommunikasiya sistemləri, o cümlədən su, istilik, qaz, rabitə və yağıntı sularını axıdan xətlər dəyişdirilib, yeni drenaj sistemi yaradılıbdır. Yeni nəhəng yol qurğusunun istifadəyə verilməsi nəqliyyat sıxlığının aradan qaldırılması istiqamətində paytaxtda aparılan mühüm işlərin davamlı xarakter aldığını bir daha təsdiqləyir. Belə layihələrin uğurla icra olunması bir daha sübut edir ki, ölkədə aparılan sosialyönümlü tədbirlərdə başlıca məqsəd əhalinin rahatlığını təmin etməkdir.

İnşaat işlərinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq göstərişlərini verdi.

## BEYNƏLXALQ SÜLH İNSTİTUTUNUN PREZİDENTİ TERYE RÖD-LARSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da ABŞ-ın Nyu-York şəhərində yerləşən Beynəlxalq Sülh İnstitutunun prezidenti Terye Röd-Larsenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi ilə bağlı mövcud vəziyyət, bu istiqamətdə beynəlxalq və regional əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## APCO-nun «GLOBAL POLİTİCAL STRATEGİES» ŞİRKƏTİNİN SƏDRİ, ABŞ-ın NYU-MEKSİKO ŞTATININ SABİQ QUBERNATORU BİLL RİÇARDSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da APCO-nun «Global Political Strategies» şirkətinin sədri, ABŞ-ın Nyu-Meksiko ştatının sabiq qubernatoru Bill Riçardsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin uğurlu inkişaf tarixindən danışıldı, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DƏNİZKƏNARI MİLLİ PARKIN YENİ BULVAR HİSSƏSİNDƏ MÜASİR ATTRAKSİON-PANORAMIN AÇILIŞI MƏRASİMİ

*10 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 10-da Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzanmış yeni bulvar hissəsində müasir attraksion-panoramın açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyevin tapşırığı ilə Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması layihəsinin uğurla icra olunması Bakının simasını tamamilə dəyişib. Şəhər sakinlərinin və eləcə də paytaxtımıza gələn qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa vaxt ərzində burada ən müasir infrastruktur yaradılıb, müasir tələblərə cavab verən yeni-yeni müxtəlif xidmət və iaşə obyektləri tikilib istifadəyə verilib. Ərazidə uşaqların və yeniyetmələrin əyləncəsini təşkil etmək üçün də yeni layihələrin icrasına başlanılıb.*

*Qeyd edək ki, müasir attraksion-panoramın tikinti-quraşdırma işlərinə Hollandiyanın «Dutch Wheels» (Daç Vilz) şirkəti ilə bağlanmış müqaviləyə əsasən 2013-cü ilin sentyabrında başlanılıb. Tikinti-quraşdırma işləri yüksək keyfiyyətlə həyata keçirilib.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yeni qurğunun texniki göstəriciləri və xidməti imkanları barədə məlumat verildi. Qeyd edildi ki, diametri 60 metr olan yeni qurğuda hərəsində 8 nəfərlik yer olmaqla 30 kabinə var.*

*Dövlətimizin başçısı və xanımı yeni qurğu ilə yaxından tanış oldular. Yeni attraksion-panoram yaxın günlərdə paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının istifadəsinə veriləcəkdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ QURU QOŞUNLARI KOMANDANI HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bildirdi ki, Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Hərbi sahədə əməkdaşlığımızı ikitərəfli münasibətlərimizin inkişafının tərkib hissəsi kimi dəyərləndirən prezident İlham Əliyev son illər bu istiqamətdə də mühüm nailiyyətlərin əldə olunduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın bu sahədə daha da genişləndirilməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin, birgə təlimlərin keçirilməsinin və birgə istehsal sahələrinin yaradılmasının önəmini qeyd etdi.*

*Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akar ilk dəfə ölkəmizə 1994-cü ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırlatdı. Ötən dövr ərzində Bakıda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğulayan Hulusi Akar ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda yüksək təəssürat yaratdığını dedi.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ DİREKTORU HENRİ KERALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Dünya Bankının Cənubi Qafqaz regionu üzrə direktoru Henri Keralinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Henri Kerali Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf tədbirlərini, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində görülən işləri yüksək qiymətləndirdi. O, Dünya Bankı ilə ölkəmiz arasında əməkdaşlığın razılıq doğurduğunu bildirdi.*

*Son illər Azərbaycanda uğurlu iqtisadi inkişafa nail olunduğunu vurğulayan prezident İlham Əliyev hazırda ölkəmizdə yeni 5 illik iqtisadi inkişaf proqramının təsdiq edildiyini və həmin proqramda qeyri-neft sektorunun və sənayenin inkişafına əsas prioritet sahələrdən biri kimi geniş yer ayrıldığını dedi. Dövlətimizin başçısı proqramın icrasında Azərbaycanda yüksək demoqrafik inkişaf proseslərinin nəzərə alındığını da qeyd etdi. Prezident İlham Əliyev ölkədə orta təbəqənin sosial vəziyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İBRAHİM RƏHİMPURUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də İran İslam Respublikası Xarici İşlər nazirinin müavini, Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi İbrahim Rəhimpurun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İbrahim Rəhimpur İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini prezident İlham Əliyevə çatdırdı. İbrahim Rəhimpur İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin qurulduğu bir gündə ölkəmizə səfərindən və prezident İlham Əliyev ilə görüşündən məmnunluğunu ifadə etdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə Davosda görüşünü məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı prezidentlərin görüşünün ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına yeni təkan verdiyini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev prezident Həsən Ruhaninin Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da təbriklərini İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ SABİQ KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Almaniya Federativ Respublikasının sabiq kansleri Gerhard Şröderi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında ikitərəfli münasibətlərin inkişafı, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndirilməsində Alman–Azərbaycan Xarici Ticarət Palatasının rolu vurğulandı.*

## FRANSA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ DOMİNİK DE VİLLPEN İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Fransa Respublikasının sabiq Baş naziri Dominik de Villpeni qəbul etmişdir.*

*Sabiq Baş nazir Dominik de Villpen ölkəmizin əldə etdiyi yüksək iqtisadi inkişaf tempinə görə prezident İlham Əliyevi təbrik etdi. Azərbaycandakı iqtisadi artıma toxunan fransalı qonaq bu cür əhəmiyyətli nəticələrin Avropada da olmasını arzu etdiklərini vurğuladı. O, Şərq ilə Qərb arasında körpü rolunu oynayan, dünyəvi dəyərləri cəmiyyət üçün prioritet hesab edən Azərbaycanın regiondakı rolunu xüsusi qeyd etdi. Dominik de Villpen ölkəsinin Azərbaycan ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirməkdə maraqlı olduğunu dedi.*

*Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı ilə yanaşı, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə də böyük önəm verildiyini bildirdi. Fransanın Azərbaycan üçün əhəmiyyətli tərəfdaşlardan biri olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu dedi. İqtisadi sahədə əlaqələrin inkişafına toxunan prezident İlham Əliyev əməkdaşlığımızın bu istiqamətdə daha da genişləndirilməsi üçün də qarşılıqlı marağın olduğunu bildirdi.*

# RUSİYA FEDERASİYASI SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU YEVGENİ KUYVAŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Federasiyasının Sverdlovsk vilayəti ilə ölkəmiz arasında mövcud uzunmüddətli dostluq əlaqələrinə toxunan qubernator Yevgeni Kuyvaşev dedi: «Bu əlaqələrin əsası Azərbaycan xalqının ümummilli lideri, böyük şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuşdur». O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Sverdlovsk vilayətinə səfərini və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin qeyd olunduğunu məmnunluqla xatırlatdı. Yevgeni Kuyvaşev Ural Federal Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasını əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini və Azərbaycan müəssisələri ilə uğurlu işbirliyi qurulduğunu vurğulayan Yevgeni Kuyvaşev ölkəmizlə Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin artan templərlə genişləndiyini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası və onun subyektləri arasında ticarət dövriyyəsinin yüksələn xətlə inkişaf etdiyini və bunun üçün bütün şəraitin yaradıldığını dedi. Prezident İlham Əliyev ölkələrimizin bütün məsələlərdə fəal əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı Sverdlovsk vilayətində xalqımızın ümummilli lideri*

*Heydər Əliyevin xatirəsinə göstərilən böyük* ehtirama *görə minnətdarlığını ifadə* etdi. Prezident *İlham Əliyev* Rusiya *Federasiyasında yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan rusların ölkələrimizin inkişafına töhfə verdiklərini məmnunluqla* qeyd etdi. *Dövlətimizin başçısı* Rusiya *Federasiyasının* Sverdlovsk *vilayətinin* qubernatoru *Yevgeni Kuyvaşevin başçılıq* etdiyi *nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını* dedi.

**İRLANDİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–İrlandiya əlaqələri daha da inkişaf edərək, ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2014-cü il*

## İTALİYA RESPUBLİKASININ FRİULİ–VENETSİYA–CULİYA REGİONUNUN REGİONAL ŞURASININ PREZİDENTİ XANIM DEBORA SERAKKİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İtaliya Respublikasının Friuli–Venetsiya–Culiya regionunun Regional Şurasının prezidenti xanım Debora Serakkianinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə İtaliya arasında yaxşı əməkdaşlığın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin İtaliyanın müxtəlif regionları ilə də yaxın əlaqələr qurmaqda maraqlı olduğunu dedi. İqtisadi sahədə İtaliyanın ölkəmizin əsas tərəfdaşlarından biri olduğunu vurğulayan prezident İlham Əliyev digər sahələrdə də əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd etdi.*

*İtaliya Respublikasının Friuli–Venetsiya–Culiya regionunun Regional Şurasının prezidenti xanım Debora Serakkiani təmsil etdiyi regionun Azərbaycan ilə ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı.*

*Görüşdə əlaqələrimizin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizi və bütün həm-məzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Vatikan arasındakı münasibətlərin inkişafı bundan sonra da ümumbəşəri dəyərlərin təntənəsinə, insanlar arasında qarşılıqlı anlaşma, hörmət və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, müqəddəs amallar naminə fəaliyyətinizdə uğurlar, məsləkdaşlarınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2014-cü il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD MONSEF MƏRZUKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2014-cü il*

## ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİNDƏ YENİ YARADILMIŞ MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞLIQ

*17 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası ilə tanış olmuşlar.*

*«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Bakının qədim tarixinin rəmzlərindən olan, min illik tarixə malik Şirvanşahlar dövləti hökmdarlarının iqamətgahı, orta əsr Şərq memarlığının nadir incilərindən biri, YUNESKO-nun Ümumdünya irsi siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksində yeni muzey ekspozisiyasını təqdim etmişdir.*

*Dövlət Tarix-Memarlıq Qoruq-Muzey statusunu almış Şirvanşahlar Sarayı Kompleksi tarixində ilk dəfə olaraq qonaqları müasir dünya standartlarına cavab verən muzey ekspozisiyası ilə qarşılayacaq. İçərişəhər ərazisində yerləşən çoxsaylı tarixi abidələrin qorunub saxlanılması, bərpası və təbliği sahəsində həyata keçirilən genişmiqyaslı işlər prezident İlham Əliyevin milli-mədəni irsimizə göstərdiyi daimi diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.*

*Ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi-memarlıq irsinin incilərindən biri olan İçərişəhərin qorunmasında və dünyada tanıdılmasında Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük rolu xüsusi qeyd edilməlidir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə maddi mədəniyyət abidələrimizin, xalqımızın zəngin mənəvi irsinin qorunması və təbliği istiqamətində müxtəlif layihələrin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində Azərbaycan mədəniyyəti dünya miqyasında tanınmağa başlamışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası ilə yaxından tanış oldular.*

*Bildirildi ki, Şirvanşahlar Sarayı Kompleksində muzey ekspozisiyasının hazırlanması prosesində abidənin tarixi, memarlıq xüsusiyyətləri, saray həyatı və burada yaşamış hökmdarlar haqqında elmi tədqiqatlar aparılmış, müvafiq məlumatlar toplanaraq sistemləşdirilmişdir. Yeni ekspozisiyanın yaradılmasına yerli və xarici mütəxəssislər cəlb olunub və bu işlər dünya muzeylərinin tərtibatı sahəsində ixtisaslaşan Avstriyanın «Arteks» şirkəti ilə birgə həyata keçirilib. Ekspozisiyada zəngin muzey eksponatları ilə yanaşı, videoproyeksiya, animasiyalı multimedia, audio və video təqdimatlardan da geniş istifadə olunub. Bununla yanaşı, Şirvanşahlar Sarayı Kompleksində qonaqlar ilk dəfə multimedia bələdçilərindən də faydalana biləcəklər. «İpad Mini» bazasında hazırlanmış multimedia bələdçisi vasitəsilə ekspozisiyanın mövzuları ilə bağlı audio yazını Azərbaycan, ingilis, rus, alman və fransız dillərində dinləmək, müvafiq foto və video materiallarla tanış olmaq mümkün olacaqdır. Sarayın taxt-tac zalının tərtibatı və burada nümayiş etdirilən eksponatlar və video təqdimatlar Şirvanşahlar dövründə olan ab-havanı və interyer elementlərini təsəvvür etməyə imkan yaradacaq. Muzeydə, həmçinin saray həyatı, şəhər memarlığı, etnoqrafiya, musiqi, xəttatlıq, arxeologiya kimi maraqlı mövzular da təqdim olunur.*

*Dövlətimizin başçısı və xanımı kompleksin ayrı-ayrı sahələrini gəzdilər, burada yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, yeni muzey ekspozisiyası, həmçinin Saray Kompleksinin ikimərtəbəli yaşayış binasının əvvəllər bura gələnlər üçün bağlı olan aşağı mərtəbəsini də əhatə edir. Binanın aşağı mərtəbəsinin otaqlarında Şirvanşahların dənizdən müdafiə istehkamına – Bayıl Qəsrinə aid geniş ekspozisiya da təqdim edilir. Saray Kompleksinə daxil olan yaşayış binasının divarlarının əzəli daş hörgüsü bərpa edilmiş, ərazidə abadlıq işləri aparılmışdır.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və bahar əhval-ruhiyyəsi arzulayıram.

Milli varlıq və mənəviyyat xəzinəsi olan bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi, ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir.

Bahar bayramı keçmişimizin ən çətin dövrlərində belə, zehinlərdən silinməyib, gələcəyə inamımızı sarsılmağa qoymayıb. Qəlbimizin dərinliklərində kök salaraq milli özünüdərk məfkurəsini yaşatması sayəsində o, ötən əsrin sonlarına doğru Azərbaycanda müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsini təmin edən mühüm amillərdəndir. Mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini qloballaşmanın vüsət aldığı sürətlə dəyişən dünyada bütün rəngarəngliyi ilə layiqincə qoruyub saxlaması müasir Azərbaycanın tarixi-mədəni və milli-mənəvi irsə bağlılığının rəmzidir.

Yazın gəlişi onun yeniləşdirici ovqatına uyğun, yurdumuzun hər bir guşəsində aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri və insanlarımızın rifahını əsaslı surətdə yaxşılaşdıran

çoxsaylı nailiyyətlərlə səciyyələnir. Bizimlə birgə baharı azərbaycançılıq düşüncəsi işığında minlərlə soydaşımız ölkəmizin hüdudlarından uzaqlarda qarşılayırlar. Həmrəyliyimizin rəmzi olaraq bu ümumxalq bayramı qoy hər bir ailəyə bol sevinc və ruzi-bərəkət bəxş eləsin.

Hamınızın əziz Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2014-cü il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ZARAR AHMAD OSMANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Əfqanıstan İslam Respublikasının Xarici İşlər naziri Zarar Ahmad Osmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Əfqanıstan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin səviyyəsinin razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda sabitliyin və əmin-amanlığın qorunması istiqamətindəki fəaliyyətini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə də əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi istiqamətində işlərin aparılmasının zəruriliyini qeyd etdi.*

*Xarici İşlər naziri Zarar Ahmad Osmani Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzainin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, ölkəsinin prezidenti Azərbaycan ilə uzunmüddətli uğurlu əməkdaşlıqdan məmnundur.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Həmid Kərzainin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Pakistanı ənənəvi dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Ümidvaram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin daim möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı yolunda bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2014-cü il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KAROLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Yunanıstan arasındakı dostluq əlaqələrinin genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı yolunda addımlarımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Yunanıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2014-cü il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MD. ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Banqladeşin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Banqladeş əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Banqladeş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2014-cü il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.*

*Milli geyimli uşaqlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər. Uşaqlar prezident İlham Əliyevi və Mehriban Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının ən sevimli bayramlarından biridir. Novruz bayramı bizim milli dəyərimizdir,

sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalqı bu bayramı qeyd edirdi. Bu gün müstəqil Azərbaycanda Novruz bayramı dövlət bayramıdır.

Biz öz milli dəyərlərimizə həmişə sadiq olmuşuq, həmişə onları qorumuşuq. Bu gün müstəqillik şəraitində milli dəyərlər, Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Azərbaycan xalqı həmişə ənənələrə, milli dəyərlərə sadiq olmuşdur. Bu gün müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub.

Biz müstəqillik şəraitində yaşayırıq. Müstəqilliyimizin banisi Heydər Əliyev bütün sahələrdə olduğu kimi, müstəqil Azərbaycanın ideoloji əsaslarını da qoymuşdur. 1993-cü ildə bütün istiqamətlər üzrə strateji xətt müəyyən edilmişdir. Azərbaycan bu gün bu istiqamətlər üzrə inkişaf edir. Bizim strategiyamız dəyişməz olaraq qalır. Milli ideologiyamız möhkəm əsaslar üzərində qurulubdur: müstəqillik, azərbaycançılıq, müasirlik, vətənpərvərlik, milli və dini dözümlülük. Bizim əsas ideoloji dayaqlarımız bunlardır. Müstəqil Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, taleyimiz öz əlimizdə olduğu halda, xalqımız böyük zirvələrə çata bilər və çatmışdır. Bu gün müstəqil Azərbaycan istənilən sahə üzrə uğurla, inamla inkişaf edir. Biz müstəqilliyimizi qoruyuruq, qoruyacağıq və ildən-ilə müstəqilliyimiz möhkəmlənir.

Xarici siyasətlə bağlı addımlarımız beynəlxalq hüquqa və ədalətə söykənir. Bu 2 anlayış bizim üçün əsasdır. Bəzi hallarda beynəlxalq münasibətlərdə beynəlxalq hüquq və ədalət ziddiyyət təşkil edir. Buna baxmayaraq, Azərbaycan bütün məsələlərdə öz prinsipial mövqeyini ifadə edir, bu mövqeyə sadiqdir. Bundan sonra da Azərbaycan bütün məsələlərin beynəlxalq hüquq çərçivəsində ədalətli şəkildə həll edilməsində öz sözünü deyəcəkdir.

Bizim xarici siyasətimiz tam müstəqildir, Azərbaycan xalqının milli maraqlarına söykənir. Biz milli maraqlarımızı şərəflə, uğurla qoruyuruq. Deyə bilərəm ki, bu gün bölgədə gedən proseslərdə Azərbaycan dövlətinin təsiri artır. Bir çox

hallarda beynəlxalq layihələrin təşəbbüskarı da məhz Azərbaycan dövlətidir.

Xarici siyasətimizin uğurlu olmasını BMT-də 2 il bundan əvvəl aparılmış seçkilər də təsdiqləyir. Azərbaycan dünya ictimaiyyətinin mütləq əksəriyyətinin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. 2 il ərzində bu təşkilatda ləyaqətlə iştirak edib. Dediyim kimi, beynəlxalq hüququ, ədaləti müdafiə edib.

Xarici siyasətlə bağlı əsas problemimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Uzun illərdir ki, beynəlxalq hüquq, ədalət pozulur. Çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bizim tarixi, əzəli torpağımızdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər Azərbaycan xalqının mədəniyyətini, tarixini əks etdirir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın böyük bir hissəsi qədim Azərbaycan torpaqlarıdır.

Tarixi ədalət, beynəlxalq hüquq pozulub. Çünki bütün dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Azərbaycanın ərazi bütövlüyü bu məsələnin həllində əsas rol oynayacaqdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Bu, beynəlxalq hüququn əsas baza prinsipləridir və Helsinki Yekun Aktında məhz bu prinsiplər əsas götürülmüşdür.

Mən əminəm ki, bu münaqişə ədalətli və beynəlxalq hüquq əsasında öz həllini tapacaq, Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa edəcəkdir. Biz azərbaycanlılar Dağlıq Qarabağa, işğal edilmiş digər torpaqlara və bütün tarixi Azərbaycan torpaqlarına qayıdacağıq. Mən buna əminəm, buna şübhə etmirəm və buna nail olmaq üçün biz daha da güclü olmalıyıq.

Bu gün dünyada beynəlxalq münasibətlərin həllində beynəlxalq hüquq, eyni zamanda, güc amili də ön plana çıxır.

Belə olan halda hər bir ölkə öz gücünü artırmalıdır. Biz bu məsələlərlə uzun illərdir ki, məşğuluq. Uzun illərdir ki, güclü iqtisadi potensialımızı yaradırıq. Bu potensial bizə imkan verir ki, müstəqil siyasət aparaq. Çünki iqtisadi müstəqillik, hərbi güc olmadan müstəqil siyasət aparmaq çox çətindir.

Ona görə son illərdə ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti, nizam-intizam artır. Ordumuz hərbi texnika ilə təchiz edilir və hərbi büdcəmiz ildən-ilə artaraq böyük rəqəmlərə çatmışdır. Təkcə onu demək kifayətdir ki, bu gün bizim hərbi büdcəmiz Ermənistanın bütün dövlət büdcəsindən 2 dəfə çoxdur. Hərbi büdcə, döyüş hazırlığı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas rol oynayacaqdır.

Bizim ideoloji əsaslarımız aydındır. Bu barədə mən artıq öz fikirlərimi bildirdim. Ermənistan isə faşist dövlətdir. Onların milli ideologiyası faşizmdir, ayrı-seçkilikdir, millətçilikdir. Bu ideologiyanın qurbanları məhz erməni xalqıdır ki, öz müstəqil inkişafından məhrumdur. Müstəqillik böyük bir şans, böyük bir nemət, sərvətdir. Azərbaycan bu gün bu imkanlardan tam şəkildə istifadə edibdir. Ermənistan haqqında isə «müstəqil dövlət» sözünü ifadə etmək çox çətindir. Çünki nə müstəqil siyasəti, nə müstəqil iqtisadiyyatı vardır.

Azərbaycan isə öz prinsipial mövqeyi ilə bütün dövrlərdə seçilmişdir. Bir daha demək istəyirəm ki, hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqemiz vardır. Biz şərəflə yaşayırıq, biz ləyaqətli siyasət aparırıq və bizim siyasətimiz, bir daha demək istəyirəm ki, ümumbəşəri prinsiplər üzərində qurulubdur.

Ermənistan–Azərbaycan münaqişəsi həll olunandan sonra əminəm ki, Ermənistan üçün də müstəqil ölkə kimi yaşamaq imkanları yaranacaqdır. İnanmıram ki, erməni xalqı indiki vəziyyətlə razılaşa bilsin. Çünki hər bir xalq azad, hər bir dövlət müstəqil olmaq istəyir. Bu gün Ermənistan haqqında bunu demək mümkün deyildir. Çünki Ermənistan ən yaxşı halda

forpost kimi özünü göstərir. Bölgə təhlükə mənbəyidir və bütün bölgədə xoşagəlməz proseslərin təşəbbüskarı da Ermənistandır.

Mən tam əminəm ki, Azərbaycanın artan gücü, bizim potensialımız və xarici siyasətlə bağlı apardığımız düşünülmüş, ölçülüb-biçilmiş siyasət bizə imkan verəcək ki, ərazi bütövlüyümüzü bərpa edə bilək. Bunun başqa yolu yoxdur. Tarixin gedişatı, bizim demoqrafik inkişafımız, iqtisadi potensialımız bunu deməyə əsas verir ki, Azərbaycanın milli bayrağının Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyildir.

Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq. Çünki biz görürük ki, beynəlxalq aləmdə ikili standartlar mövcuddur. Biz də ikili standartların qurbanıyıq. Beynəlxalq münasibətlərin həllində güc amili ön plana çıxır. Biz daha da güclü olmalıyıq, daha da güclü olacağıq.

Əlbəttə ki, əsas məsələ burada iqtisadi potensialdır. Son 10 il ərzində Azərbaycan kimi iqtisadi sahədə sürətlə inkişaf edən ikinci ölkə olmayıb. Bu, böyük tarixi nailiyyətimizdir. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir, iqtisadi potensialımız artır, iqtisadiyyat 3 dəfədən çox artıb. Ölkədə böyük sosial layihələr, sosial proqramlar icra edilir, iqtisadi islahatlar, eyni zamanda, sosial məsələlərin həllində də bizə kömək göstərir.

Bu gün sosial cəhətdən az təmin edilmiş vətəndaşlara da Azərbaycan dövləti öz yardımını əsirgəmir.

İqtisadi potensialımızın artırılması üçün daha da gözəl imkanlar var. Çünki biz artıq iqtisadiyyatımızı şaxələndirə bilmişik. Keçən il qeyri-neft sektorumuz təxminən 10 faiz, bu ilin 2 ayında təxminən 9 faiz artmışdır. Bu onu göstərir ki, iqtisadiyyatla bağlı qarşıda duran əsas vəzifələr uğurla icra edilir. Gələcək illərdə bu sahədə islahatlar davam etdiriləcək. Azərbaycanda çox güclü sənaye potensialı yaradılacaq. Bundan sonra Azərbaycan iqtisadiyyatı qeyri-neft sektoru hesabına inkişaf edəcəkdir. Artıq biz bunu görürük və bölgələrdə aparılan işlər, sənayenin, kənd təsərrüfatının inkişafı, ərzaq

təhlükəsizliyi məsələləri ilə bağlı olan təşəbbüslər öz səmərəsini verməkdədir.

Biz iqtisadi sahədə apardığımız islahatlarla dünyanın aparıcı iqtisadi qurumlarının da yüksək qiymətlərinə layiq ola bilmişik. Bu gün dünyanın aparıcı iqtisadi qurumu olan Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür. Bu, islahatlar nəticəsində əldə edilmiş uğurlardır. Ancaq istənilən islahat ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasında özünü büruzə verməlidir və bu özünü göstərir. Bu gün yoxsulluq şəraitində yaşayan soydaşlarımızın sayı getdikcə azalır, işsizlik aradan götürülür. Ölkə iqtisadiyyatı inkişaf edir və inkişaf edəcəkdir.

Əlbəttə, Azərbaycan dünyada çox önəmli enerji təchizatçısı kimi, öz rolunu oynayır. Biz keçən ilin sonunda Avropanın ən böyük infrastruktur layihəsinə Bakı şəhərində start verdik. Azərbaycan bu sahədə də liderlik göstərə bilmişdir, nəhəng, qlobal layihənin təşəbbüskarıdır, aparıcı qüvvəsidir. Uzun illərdir ki, «Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı danışıqlar gedirdi. Mən təqribən son 7-8 il ərzində 10-dan çox beynəlxalq tədbirdə iştirak etmişəm. Ancaq bu tədbirlərin nəticəsi olmamışdır. Bəyanatdan başqa, heç bir praktiki addımlar atılmamışdır. Azərbaycan dövləti bu sahədə də liderliyi, bütün məsuliyyəti, siyasi, iqtisadi, maliyyə məsuliyyətini üzərinə götürərək, bu layihəyə də start verdi. Bu layihə bizim uğurlu gələcəyimizi təmin edəcək, Azərbaycanda sosial problemlərin həllinə kömək göstərəcəkdir. Bu layihə Azərbaycanı dünya miqyasında önəmli güc mərkəzi kimi təqdim edəcək və bizim uzunmüddətli, dayanıqlı inkişafımızı şərtləndirəcəkdir.

Azərbaycan bütün bu məsələlərdə prinsipial mövqe sərgiləyir. Əgər bizim prinsipial mövqemiz olmasaydı, əgər kimdənsə asılılığımız olsaydı və kimdənsə çəkinsəydik, biz heç vaxt bu böyük layihələrə imza atmazdıq. Bizim siyasətimizin təməlində müstəqillik dayanır, ədalət dayanır, cəsarət dayanır. Biz bütün addımlarımızı Azərbaycan xalqının maraqlarına

xidmət etmək üçün atırıq. Azərbaycanın maraqları hər şeydən üstündür, hər bir vətəndaş üçün də hər şeydən üstün olmalıdır. Bir sözlə, ölkəmizin gələcək inkişafı ilə bağlı bizim çox nikbin fikirlərimiz vardır. Əslində bu gələcəyi biz yaradırıq.

Son illər ərzində aparılan siyasi, iqtisadi islahatlar, enerji siyasətimiz bu reallığı mümkün etmişdir. Gələcək inkişafımızla bağlı bu ilin əvvəlində də önəmli addımlar atılmışdır. Keçən ay regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Qalan sosial və iqtisadi məsələlər də 2018-ci ilə qədər bu proqramın icrası nəticəsində öz həllini tapmalıdır.

Beləliklə, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı da icra edilir. 2016-cı ilə qədər bu proqram tam şəkildə icra edilməlidir və beləliklə, Bakıda bir dənə də olsun sosial infrastruktur problemi, iqtisadi problem qalmamalıdır. Qarşıya məhz belə vəzifə qoyulmuşdur. Bu proqramların icrası nəticəsində ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. Proqramların icrası təmin ediləcəkdir. Bu günə qədər verdiyimiz bütün vədlərə sadiq olmuşuq, bütün proqramları icra etmişik və bundan sonra da bu yolla gedəcəyik.

Bakımız da gözəlləşir, abadlaşır. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu Bakı sakinləri, digər bölgələrdən gələn qonaqlar görürlər, xarici qonaqlar bunu qeyd edirlər. Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız vardır. Bakıda ictimai yerlərin yaradılması, yeni infrastruktur layihələrinin icra edilməsi, şəhər nəqliyyatı ilə bağlı böyük planlarımız vardır. Artıq onların bir hissəsi icra edilir. Bakının ən cəlbedici yerlərindən biri olan Milli Parkımız, bulvarımız gözəlləşir, abadlaşır, bulvarın ənənəvi hissəsi ən yüksək səviyyədə təmir edilib. İndi yüz minlərlə insan, xüsusilə yaz-yay aylarında bu imkanlardan istifadə edir. Bayraq Meydanına qədər uzanan yeni bulvar istifadəyə verilib. Bayraq Meydanından Bibiheybət istiqamətinə gedən bulvar tikilir, ümid edirəm ki, ilin sonuna qədər o hissə də ictimaiyyət üçün açıq olacaqdır. Orada yeni şəhərciklər – «Bakı Art City» adlanan

incəsənət şəhərciyi, idman şəhərciyi yaradılır. Yəni o hissə 1 ildən sonra şəhərimizin ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Bulvarın əks istiqamətində işlər aparılır, «Ağ şəhər» bulvarı tikilir. Bu ilin sonuna qədər o istiqamətdə də əlavə 2 kilometr bulvar, avtomobil yolu, ictimai yerlər, parklar salınacaqdır. Beləliklə, bulvarın uzunluğu «Ağ şəhər»dən Bibiheybətə qədər uzanacaqdır. Bu da təqribən 16 kilometr məsafədir. Bu məqsədlə artıq göstəriş verilmişdir ki, bulvarda ekoloji cəhətdən təmiz kiçik xüsusi avtobuslar da fəaliyyətə başlasın. Çünki bu 16 kilometri piyada qət etmək o qədər də asan olmayacaqdır.

Xalça Muzeyi tikilir, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni, möhtəşəm binası tikilir, bu yaxınlarda istifadəyə veriləcəkdir. Bir sözlə, Bakının inkişafı, abadlaşması, tarixi abidələrimizin bərpası ilə bağlı çox ciddi işlər aparılır. Bakının simvolu olan Qız qalasının təmiri bu yaxınlarda başa çatmışdır. Bir neçə gün bundan əvvəl digər tarixi yerimiz – Şirvanşahlar sarayında aparılan təmir işlərindən sonra artıq açılış olmuşdur.

Bir sözlə, Bakı bizim paytaxtımızdır, gözəl, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişafı, infrastruktur, abadlıq işlərinin aparılması ilə bağlı konkret tapşırıqlar verilmişdir və biz I Avropa oyunlarına hazırlaşırıq, böyük hazırlıq gedir. Bu oyunlar Azərbaycanı bir daha dünyaya müasir, dinamik inkişaf edən ölkə kimi təqdim edəcək, Azərbaycanın potensialını nümayiş etdirəcək, xalqımızın istedadını göstərəcəkdir. Biz bu oyunları Yay Olimpiya oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Əminəm ki, biz buna nail olacağıq.

Əziz dostlar, bu gözəl gündə, gözəl bayram ərəfəsində bir daha bütün Azərbaycan xalqına öz hörmətimi, məhəbbətimi ifadə edirəm. Dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayram münasibətilə təbrik edirəm, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.*

*Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.*

*Kosa və Keçəl dövlətimizin başçısını və xanımını bayram münasibətilə təbrik etdilər, Prezident ilə yumurta döyüşdürdülər.*

*Daha sonra prezident İlham Əliyev və Mehriban Əliyeva aşıqların, muğam ifaçılarının çıxışlarını dinlədilər.*

*Milli Parkda təşkil edilən «Şərq bazarı» bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.*

*Dövlətimizin başçısı və xanımı zorxana güləşçiləri ilə xatirə şəkli çəkdirdilər.*

*Azərbaycan Prezidenti və xanımı manqalda bişirilən kababın dadına baxdılar. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi.*

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.*

*Dövlətimizin başçısı və xanımı burada nümayiş etdirilən Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva, həmçinin gənc rəssamların, modelyerlərin və el sənətkarlarının əl işlərinə tamaşa etdilər.*

*Dövlətimizin başçısı və xanımı bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində*

*təşkil edilmiş sərgisi ilə tanış* oldular. *Müxtəlif* rayonlardan *gətirilmiş* Novruz *mətbəxinin nümunələri də şənlik iştirakçılarında* maraq *doğurdu.*

*Azərbaycan* prezidenti *İlham* *Əliyevə və xanımı* Mehriban Əliyevaya *hədiyyələr təqdim* edildi.

Prezident *və xanımı* bayram *şənliyində nümayiş etdirilən «Bakı–2015» I* Avropa *oyunları ilə bağlı təqdimata baxdılar, idmanın müxtəlif növləri üzrə idmançıların çıxışlarını izlədilər.*

*Azərbaycan* Prezidenti onun *pişvazına və* bayram *gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın* qonaqlarına Novruz *münasibətilə* bir daha *xoş arzularını yetirdi.*

Novruz *bayramı münasibətilə keçirilən şənliklərdə Baş* nazir *Artur Rasizadə,* Milli *Məclisin Sədri* Oqtay *Əsədov,* Prezident Administrasiyasının *rəhbəri* Ramiz Mehdiyev *və digər rəsmi şəxslər iştirak edirdilər.*

Bayram *şənliyi incəsənət ustalarının,* el *sənətkarlarının ifasında rəngarəng* konsert *proqramı ilə* davam etdi.

## NİDERLAND KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*Haaqa*

*23 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Haaqa şəhərində keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün martın 23-də Niderland Krallığına işgüzar səfərə gəlmişdir.*

## NİDERLAND KRALLIĞI SENATININ ÜZVÜ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Haaqa*

*24 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Haaqada Niderland Krallığı Senatının üzvü Rene Van Der Linden ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin siyasi, iqtisadi, biznes və digər sahələrdə uğurlu əməkdaşlıq qurduqları vurğulandı. Azərbaycan ilə Niderlandın təhsil və elm sahələrində də yaxşı əməkdaşlıq etdikləri bildirildi.*

*Söhbət zamanı Azərbaycanın «ADA» Universiteti ilə Niderlandın Maastrixt Universiteti arasında əlaqələrin inkişafından razılıq ifadə olundu.*

## BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİYA AMANO İLƏ GÖRÜŞ

*Haaqa*

*24 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında səmərəli əməkdaşlığın qurulduğu, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğu bildirildi.*

*Yukiya Amano əməkdaşlığın daha da inkişaf etdirilməsi və radioaktiv tullantıların təmizlənməsi sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi. O bildirdi ki, Azərbaycanın nüvə təhlükəsizliyi ilə bağlı keçirilən tədbirlərdə və zirvə görüşlərində fəal iştirak etməsi məmnunluq doğurur.*

*Azərbaycan prezidenti İlham Əliyev nüvə təhlükəsizliyinin ölkəmiz, region və dünya üçün əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı Ermənistanda seysmik zonada yerləşən və artıq köhnələrək müasir standartlara cavab verməyən Atom Elektrik Stansiyasının fəaliyyətinin bütün region üçün ciddi təhlükə doğurduğunu diqqətə çatdırdı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Haaqa*

*24 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Haaqada ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ), Jak For (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşik ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## III NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*Haaqa*

*24 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Niderland Krallığının Haaqa şəhərində öz işinə başlayan III Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir.*

*Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. 50-dən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olunur.*

*Bu zirvə görüşünün mötəbər qonaqları Azərbaycanın sammitdə fəal iştirakını yüksək qiymətləndirirlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada nüvə təhlükəsizliyinə töhfə verməsi beynəlxalq birlik tərəfindən təqdir olunur.*

*Martın 24-də III Nüvə Təhlükəsizliyi Sammiti dünya liderlərinin rəsmi salamlanması ilə başlandı.*

*Niderland Krallığının Baş naziri Mark Rütte Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Sonra Nüvə Təhlükəsizliyi Sammitində «Nüvəsiz dünya» videoçarxının nümayişi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyevin iştirak etdiyi zirvə görüşünü açıq elan edən Niderlandın Baş naziri Mark Rütte*

*sammit iştirakçılarını salamladı. 2010-cu ildə ABŞ prezidenti Barak Obamanın təşəbbüsü ilə baş tutan ilk sammitdən sonra dünyada nüvə təhlükəsizliyinin təmin olunması sahəsində bir çox mühüm işlərin görüldüyünü deyən Mark Rütte bu məsələdə diplomatik səylərin gücləndirilməsinin əhəmiyyətli rol oynadığını diqqətə çatdırdı. Nüvə təhlükəsizliyinin təmin olunması ilə bəşəriyyətin gələcəyinin təminat altına alındığını deyən Niderlandın Baş naziri bu sahədə hökumətlər arasında əməkdaşlığın faydalı olduğunu bildirdi.*

*Bundan əvvəlki sammitə ev sahibliyi edən Koreya Respublikasının Prezidenti Pak Kin He çıxışında müasir dünyada nüvə təhlükəsizliyinin təmin olunmasının zərurətə çevrildiyini deyərək, ölkəsinin bu məsələdə öz dəstəyini əsirgəmədiyini vurğuladı.*

*BMT-nin Baş katibi Pan Gi Mun sammitin əhəmiyyətindən danışarkən onun ehtimal olunan nüvə terrorizminin qarşısının alınmasında xüsusi əhəmiyyəti ilə seçildiyini bildirdi. Nüvə təhlükəsizliyinin müasir dünyada qlobal xarakter daşıdığını deyən Pan Gi Mun BMT-nin bu sahədəki missiyasının səmərəli olduğunu vurğuladı.*

*Sonra sammit öz işini plenar müzakirələrlə davam etdirdi. Bu çərçivədə «Siyasətin ssenari əsasında müzakirəsi» mövzusunda iclas keçirildi.*

* * *

*Martın 24-də axşam Niderland kralı Əlahəzrət Villem-Aleksandr tərəfindən Haaqada III Nüvə Təhlükəsizliyi Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə qəbul və şam yeməyi təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.*

## III NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ ÇIXIŞ

*Haaqa*

*25 mart 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Niderland Krallığının Haaqa şəhərində öz işini davam etdirən III Nüvə Təhlükəsizliyi Sammitində çıxış etmişdir.*

*Sammitin ikinci iş günü nüvə təhlükəsizliyi sahəsində milli və beynəlxalq tədbirlərin əhəmiyyətinə həsr olundu. Bu sahədə dünya ölkələri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı. Dünya liderləri bu zirvə görüşündə də nüvə terrorizminin qarşısının alınması üzrə uzunmüddətli və səmərəli beynəlxalq əməkdaşlıq məsələsini gündəmdə saxladılar. Onlar nüvə terrorizmi təhlükəsinin hələ də mövcud olduğunu bildirərək, bu təhlükənin qarşısının alınması üçün tədbirlərin davam etdirilməsinin vacibliyini önə çəkdilər.*

*Sammitin plenar iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi.*

*Zirvə görüşü iştirakçılarını salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammiti qəbul etdiyinə və göstərdiyi qonaqpərvərliyə görə Niderland hökumətinə minnətdarlığını bildirdi. Nüvə təhlükəsizliyi tədbirlərinin gücləndirilməsində Beynəlxalq Atom Enerjisi Agentliyinin mühüm rolundan danışan Azərbaycan dövlətinin başçısı ölkəmizin nüvə təhlükəsizliyinin bir çox aspektləri üzrə bu agentliklə fəal əməkdaşlıq etdiyini vurğuladı. Azərbaycanın iştirakçı dövlət olduğu Nüvə Terrorçuluğuna qarşı Mübarizə üzrə Qlobal*

Təşəbbüsün nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində Birləşmiş Millətlər Təşkilatının göstərdiyi səyləri dəstəklədiyini, bu yaxınlarda Azərbaycanın nüvə, kimyəvi və bioloji silahların və onların çatdırılma vasitələrinin yayılmaması sahəsində gördüyü növbəti tədbirlər haqqında yeni hesabatını Birləşmiş Millətlər Təşkilatına təqdim etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, 2012-ci ildə BMT Təhlükəsizlik Şurasında sədrliyi zamanı Azərbaycan beynəlxalq terrorçuluq, o cümlədən nüvə terrorçuluğu məsələlərinə aid müzakirələr təşkil etmişdir.

Nüvə və radioaktiv təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər görülməsinin vacibliyinə toxunan prezident İlham Əliyev Azərbaycanın nüvə materiallarının qeyri-qanuni dövriyyəsində tranzit marşrutu kimi ölkənin ərazisindən istifadənin qarşısını almaq üçün böyük səylər göstərdiyini, bu məqsədlə beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək, beynəlxalq standartlara uyğun güclü qanunvericiliyə əsaslanan əhatəli milli ixraca nəzarət sistemini formalaşdırdığını vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, bu yaxınlarda qəbul edilmiş Azərbaycanın ilk «Dəniz Təhlükəsizliyi Strategiyası»nda nüvə və digər kütləvi qırğın silahlarının və onların çatdırılma vasitələrinin, eləcə də aidiyyəti materialların yayılması dəniz təhlükəsizliyinə ən böyük hədələrdən biri kimi müəyyən edilir.

Prezident İlham Əliyev təəssüflə qeyd etdi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən davam edən işğalı və azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti səbəbindən ölkəmizin öz sərhədlərinin müəyyən hissəsinə lazımi səviyyədə nəzarət etmək imkanı yoxdur.

Bu cür vəziyyət transmilli mütəşəkkil cinayətkarlığa, nüvə və radioaktiv materialların qeyri-qanuni daşınmasına, həmçinin radioaktiv tullantı materiallarını basdırmaqla Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistan tərəfindən zəhərləndirilməsinə şərait yaradır.

*Daha sonra Azərbaycan Prezidenti Ermənistanın təxminən 40 il əvvəl tikilmiş və köhnəlmiş Atom Elektrik Stansiyasının yaratdığı təhlükədən danışaraq dedi ki, bu elektrostansiya bütün region və yaxın qonşular üçün böyük təhdiddir. Oradakı hər hansı qəzanın nəticələri faciəli olacaqdır. Lakin beynəlxalq narahatlığı aradan qaldırmaq və bu elektrostansiyanı bağlamaq əvəzinə, Ermənistan həmin Atom Elektrik Stansiyasının fəaliyyətini 2026-cı ilə qədər davam etdirmək qərarına gəlib, baxmayaraq ki, o, yüksək seysmik zonada yerləşir və köhnəlmiş, olduqca təhlükəli texnologiyaya əsaslanır.*

*Azərbaycanın regionda təhlükəsizliyin və sabitliyin qorunmasında olduqca müsbət rol oynadığını deyən prezident İlham Əliyev bildirdi ki, biz regionda və bütün dünyada nüvə təhlükəsizliyinin gücləndirilməsinə aid məsələlər üzrə beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla apardığımız əməkdaşlığın davam etdirilməsi, nüvə və radioaktiv materialların qeyri-qanuni dövriyyəsindən irəli gələn hədələrin azaldılması işinə sadiqik.*

*Çıxışının sonunda Azərbaycan dövlətinin başçısı Birləşmiş Millətlər Təşkilatı başda olmaqla, beynəlxalq ictimaiyyətin davamlı səyləri ilə bütün çağırışların həll ediləcəyinə və daha təhlükəsiz dünya qurulacağına əminliyini ifadə etdi.*

* * *

*Sonra zirvə görüşünün «Nüvə təhlükəsizliyi sammitinin gələcəyi» mövzusunda qeyri-rəsmi iclası oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev sammit çərçivəsində Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron və İtaliyanın Baş naziri Matteo Rentsi ilə görüşdü.*

*Söhbət zamanı Azərbaycan ilə bu ölkələr arasında ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev zirvə görüşü zamanı Türkiyə prezidenti Abdullah Gül ilə də görüşdü.*

*Görüşdə Azərbaycan–Türkiyə əlaqələrinin* indiki *vəziyyəti və perspektivi ilə bağlı müzakirələr aparıldı.*

* * *

Sonra *dövlət və hökumət başçılarının şərəfinə işçi* nahar verildi. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak* etdi.

*Zirvə görüşünün* sonunda *yekun Kommünike qəbul* olundu.

## ATƏT-in BAKI LAYİHƏ ƏLAQƏLƏNDİRİCİSİ ALEKSİS ŞAXTAXTİNSKİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il*

*Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Bakı layihə əlaqələndiricisi Aleksis Şaxtaxtinskini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkmənistanın Baş nazirinin müavini, Xarici İşlər naziri Rəşid Meredovu qəbul etmişdir.*

*Rəşid Meredov Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun ən səmimi salamlarını və dərin ehtiramını dövlətimizin başçısına çatdırdı. O, prezident Qurbanqulu Berdıməhəmmədovun ən xoş arzularının və prezident İlham Əliyevi Türkmənistana səfərə dəvətinin ifadə olunduğu məktubunu dövlətimizin başçısına təqdim etdi. Rəşid Meredov dövlət başçıları arasında dostluq əlaqələrinin ikitərəfli münasibətlərin genişləndirilməsindəki rolunu xüsusi qeyd etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Xalqlarımızın qədim tarixə və etnik köklərə malik olduğunu qeyd edən dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə fəal əməkdaşlıq etdiyini dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin genişləndirilməsində dövlət başçıları arasında əlaqələrin və yüksək səviyyəli görüşlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı Türkmənistanın Baş nazirinin müavini, Xarici İşlər naziri Rəşid Meredovun Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev prezident Qurbanqulu Berdıməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ NECDƏT ÖZƏLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev* aprelin *2-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Necdət Özəlin başçılıq* etdiyi *nümayəndə* he-*yətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında* dostluq *və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə,* o *cümlədən hərbi-*texniki *sahədə uğurla inkişaf* etdiyi *vurğulandı, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Necdət Özəlin ölkəmizə səfərinin* bu *sahədə əlaqələrimizin* daha da *genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə* olundu, *ölkələrimiz arasında hərbi-*texniki *əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AVSTRİYA PARLAMENTİNİN İKİNCİ PREZİDENTİ KARLHAYNTS KOPFUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopfun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopf ölkəmizin əldə etdiyi uğurlu iqtisadi inkişaf münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Avstriyalı qonaq ölkəmizdə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Avstriyaya keçənilki səfərini və orada biznes ictimaiyyəti ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı Avstriya şirkətlərinin Azərbaycandakı uğurlu fəaliyyətinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopfun ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

## TACİKİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SİROCİDDİN ASLOV İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Tacikistanın Xarici İşlər naziri Sirociddin Aslovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Tacikistan prezidenti Emoməli Rəhmonun ölkəmizə səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev bu səfərin əlaqələrimizin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Tacikistanın Xarici İşlər naziri Sirociddin Aslovun Azərbaycana səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Tacikistanın Xarici İşlər naziri Sirociddin Aslov prezident Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, prezident Emoməli Rəhmonun Azərbaycan prezidenti İlham Əliyevi Tacikistana rəsmi səfərə dəvət məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Görüşdə Azərbaycan ilə Tacikistan arasında əməkdaşlıq üçün yaxşı hüquqi bazanın mövcudluğu vurğulandı, ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, ticarət, sənaye, sərmayə qoyuluşu və digər sahələrdə əlaqələrinin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.*

*Dövlətimizin başçısı prezident Emoməli Rəhmonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifaini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda turizmin, o cümlədən dağ turizminin inkişafı və bu istiqamətdə müasir infrastrukturun yaradılması ilə bağlı görülən işlərdən danışıldı, Bakıda keçirilən XIII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinin və BMT-nin Dünya Turizm Təşkilatı Avropa Komissiyasının 57-ci konfransının önəmi qeyd olundu. Söhbət zamanı Azərbaycan ilə Dünya Turizm Təşkilatı arasında əməkdaşlığın daha da genişləndirilməsi, ölkəmizin turizm imkanları və bu sahədə görüləcək işlərlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİ İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini qəbul etmişdir.*

*Patrik Hikki «Bakı–2015» Avropa Oyunlarının Əlaqələndirmə Komitəsinin 3-cü toplantısı zamanı Azərbaycanda Avropa oyunlarına hazırlıq işləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını qeyd etdi. Hazırlıq işlərinin qrafikə uyğun şəkildə görüldüyünü vurğulayan Patrik Hikki bu işlərin bütün sahələrdə yüksək səviyyədə həyata keçirilməsindən razılığını bildirdi.*

*Görüşdə Azərbaycanın müvafiq qurumları ilə Avropa Olimpiya Komitəsi arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SLOVAKİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDREY KİSKAYA

Hörmətli cənab Kiska!

Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Slovakiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız birgə səylərimizlə xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2014-cü il*

## «AITF–2014» XIII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*4 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 4-də Bakı Ekspo Mərkəzində «AITF–2014» XIII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus–2014» VIII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.*

*Bu gün Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti ölkəmizin turizm mərkəzi kimi də bütün dünyada tanınmasında mühüm rol oynayır. Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına bu sahəyə göstərilən yüksək dövlət qayğısı, Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması müsbət təsir göstərir. Azərbaycanda turizm sektorunun inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, ölkədə dünya səviyyəli turizm brendlərinin tətbiqi geniş vüsət alıb. Bakıda və bölgələrdə beşulduzlu mehmanxana komplekslərinin tikilməsi və istifadəyə verilməsi məhz bu amilə əsaslanır. Bütün bunlar da ölkədə geniş şəbəkəyə malik turizm infrastrukturunun yaradılmasına və inkişafına xidmət edir.*

*Son illər Azərbaycanın turizm potensialını nümayiş etdirmək məqsədilə keçirilən bir sıra mühüm tədbirlər də bu sahəyə marağı artırmışdır. Bu baxımdan Bakıda hər il keçirilən beynəlxalq turizm və səyahətlər, o cümlədən mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar*

sərgilərinin xüsusi rolu vardır. Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ölkəmizin, ümumilikdə Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri hesab edilir. Məhz buna görə də ildən-ilə marağın artdığı bu sərgi böyük nüfuz qazanıb. Builki sərgidə əvvəlki illərlə müqayisədə milli stendlərin sayı da xeyli çoxdur. Sərgidə Azərbaycan ilə yanaşı, Argentina, Bolqarıstan, Macarıstan, Yunanıstan, Dominikan Respublikası, Xorvatiya, Hindistan, İndoneziya, İtaliya, Çin, Malayziya, Mərakeş, Tailand, Türkiyə, Fransa, Monteneqro, Çex Respublikası və digər ölkələrdən 24 milli və regional qrup iştirak edir. Bundan əlavə, bu il sərgiyə Litva, Xorvatiya, Rusiya və Monteneqrodan turizm sənayesi üzrə beynəlxalq ekspertlər və Rusiyanın Stavropol diyarından, eləcə də digər ölkələrdən nümayəndə heyətləri qatılmışlar. Tədbirin daha bir mühüm xüsusiyyəti turizm xidmətlərinin geniş çeşidini nümayiş etdirmək, turagentlik və turoperatorları, milli qrupları, beynəlxalq nümayəndəlikləri, avtomobil, hava və dəniz daşımaları üzrə şirkətləri, müxtəlif ölkələrin mehmanxana biznesi üzrə nümayəndələrini, turizm və ticarət assosiasiyalarını, eləcə də fəal və ekstremal istirahət turlarının təşkilatçılarını bir yerə toplamaqdır.

Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bildirdi ki, sərgidə bu il də iştirakçıların sayında xeyli artım müşahidə olunur. 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdısa, indi onların sayı 38-ə çatıb. Ümumilikdə, bu ölkələrdən 351 şirkət və təşkilat sərgidə xidmətlərini təqdim edir. Sərgi iştirakçılarının 60 faizdən çoxunu xarici, 40 faizini isə yerli şirkətlər təşkil edir. Ölkəmizin turizm sənayesinin inkişafında böyük əhəmiyyət kəsb edən bu sərgiyə maraq son illər Azərbaycanda turizm sahəsində həyata keçirilən mühüm infrastruktur layihələrinin dünya turizm aləmində böyük rəğbət və maraqla qarşılandığını göstərir. Bu tədbirlər həm də ölkəyə gələn turistlərin sayının xeyli artmasına səbəb olur.

Azərbaycan regionlarının milli pavilyonları sərgini daha da maraqlı və koloritli edir. Regional ekspozisiyada Azərbaycanın

*müxtəlif rayonlarının turizm imkanları nümayiş etdirilir. Burada turizm fəaliyyətinin müxtəlif növləri, o cümlədən kənd və ekoloji turizm, dağ-xizək və dəniz kurortları nümayiş etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin pavilyonları ilə tanış oldular.*

*Litvanın stendi ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkə turizmin müxtəlif istiqamətlərini, o cümlədən sanatoriya, tibbi klinikalar üzrə xidmətlərini nümayiş etdirir. Bir neçə dəfə sərgidə iştirak edən Litva bu dəfə 18 şirkətlə təmsil olunur.*

*Prezident İlham Əliyev ikinci dəfə sərgiyə qatılan Monteneqronun stendinə də baxdı. Keçənilki sərgidən sonra yay mövsümündə Azərbaycandan Monteneqroya birbaşa çarter reysləri həyata keçirilib. Builki turizm mövsümündə də çarter reysləri bərpa ediləcəkdir.*

*İndoneziya da ardıcıl olaraq bu sərgidə təmsil olunur. Bu ölkənin stendində İndoneziyanın turizm imkanları və turizm marşrutları təqdim edilir.*

*Dövlətimizin başçısı Rusiyanın Stavropol vilayətinin stendinə baxdı. Sərgidə çoxlu şirkətlərlə təmsil olunan bu vilayət əsasən tibbi turizm istiqamətində xidmətlərini nümayiş etdirir. Ümumilikdə, sərgidə Stavropol diyarının Mineralnıye Vodı, Pyatiqorsk, Yessentuki və Kislovodskda olan turizm-sağlamlıq obyektlərinin xidmətləri təqdim edilir.*

*Şamaxıda yerləşən və Naftalan nefti ilə müalicə imkanlarını təqdim edən sanatoriya da sərgidə iştirak edir. Naftalan neftinin şöhrəti bütün dünyada məşhurdur. Naftalan şəhərindəki mənbələrdən çıxarılan neft nadirliyi ilə seçilir və bununla bağlı xidmətlər indi ölkəmizin müxtəlif regionlarında da təqdim olunur.*

*Prezident İlham Əliyev «HOREX Caucasus–2014» VIII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi ilə də tanış oldu. Burada Azərbaycan, Almaniya, Gürcüstan, Niderland Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Türkiyə və İsveçrədən olan*

*aparıcı şirkətlər məhsullarını nümayiş etdirir. Sərginin daimi iştirakçıları arasında bir sıra aparıcı şirkətlərin olması onun beynəlxalq nüfuzundan xəbər verir.*

*Dominikan Respublikası da ilk dəfə bu sərgidə iştirak edir. Bu ölkəyə məxsus stenddə əsasən ekzotik turizm növləri təqdim olunur.*

*Dövlətimizin başçısı Mərakeş və Yunanıstan stendlərinə baxdı. Hər 2 ölkə ikinci dəfədir ki, sərgiyə qatılır. Mərakeşə məxsus pavilyonda ölkənin kurort zonaları, mədəni və ekskursiya turizmi, bir neçə şirkətlə təmsil olunan Yunanıstan stendində isə əsasən yay turizmi, xüsusilə də ekskursiyalar, dəniz səyahəti təqdim edilir.*

*Sloveniya isə sərgidə 11 şirkətlə təmsil olunur.*

*Əvvəlki sərgilərdə olduğu kimi, bu il də Türkiyə sərgiyə geniş tərkibdə – 30 turizm şirkəti ilə qatılıb. Bu ölkəyə məxsus stenddə alternativ turizm də daxil olmaqla, bütün istiqamətlər nümayiş etdirilir. Türkiyəni təmsil edən şirkətlərin müxtəlif stendlərində ölkənin turizm marşrutları, yaradılan infrastruktur barədə geniş məlumatlar əksini tapıb.*

*Bolqarıstan da bu sərgiyə olduqca böyük maraq göstərir. Bu ölkə də turizm potensialını qonaqlara yüksək səviyyədə təqdim edir.*

*Diqqətə çatdırıldı ki, «Bütün dünya – bir sərgi» devizini tam doğruldan «AITF–2014»də 80-dən çox turizm marşrutu nümayiş olunur. Eyni zamanda, bu sərgi turizm bazarında həm maraqlı istiqamətlərin, həm də yeniliklərin nümayişi ilə seçilir. Sərginin debütantları arasında Şri-Lanka, Keniya və Cənubi Afrika Respublikasının turizm şirkətləri də yer alıb.*

*Bildirildi ki, «AITF–2014» sərgisində tibbi turizm istiqamətini nümayiş etdirən iştirakçıların sayı xeyli artmışdır.*

*Sonra «City Sightseeing Baku» şirkətinin təqdimatı oldu.*

*Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə bu şirkət dünya brendi kimi tanınan və 33 ölkənin 100-dən çox şəhərində fəaliyyət göstərən «City Sightseeing Worldwide» şirkəti arasında bağlanmış razılaşmaya əsasən yaradılıb. «City*

*Sightseeing Baku» ötən il mindən çox avtobusla 10 milyondan çox insana ekskursiya xidməti göstərib. Şirkətin fəaliyyəti turistlərə Bakının mədəni irsinin və turizm potensialının geniş təbliğ olunması sahəsində mühüm əhəmiyyət kəsb edir. Avtobuslarda turistlər üçün bütün şərait yaradılıb. Nəqliyyat vasitələrində xüsusi sistemlə yaradılan avadanlıq turistlərə paytaxtın görməli və tarixi yerləri barədə məlumat əldə etməyə imkan verir.*

*Prezident İlham Əliyev sərginin işinə uğurlar arzuladı.*

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*4 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 4-də ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Türkiyənin Baş nazirini qarşıladı.*

*Sonra təkbətək görüş oldu. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişlənməsi baxımından önəmi qeyd edildi. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*4 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş nazir, əziz qardaşım, hörmətli qonaqlar! Bir daha Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Fürsətdən istifadə edərək, bir daha rəhbərlik etdiyiniz partiyanın bələdiyyə seçkilərində qazandığı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu, böyük qələbədir. Gördüyünüz işlərə verilən böyük qiymətdir.

Çox şadam ki, bu gün biz görüşürük. Biz artıq geniş fikir mübadiləsi apardıq. Bir çox məsələləri müzakirə etdik. Bir daha əmin olduq ki, Türkiyə–Azərbaycan əlaqələri çox möhkəm zəmin, dostluq, qardaşlıq üzərində qurulmuş, strateji partnyorluq, tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bizi birləşdirən bir çox layihələr vardır. Onların hamısı uğurla icra edilir. Əminəm ki, səfəriniz gələcək əlaqələrimizin inkişafı üçün də çox faydalı olacaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram və «Xoş gəlmisiniz!» – deyirəm.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Mən də hörmətli Prezidentimizə, xüsusilə bu qəbullara görə çox təşəkkür edirəm. Məlumdur ki, bizim ənənəvi keçmişimizə baxdıqda hər seçkilərdən sonra ilk ziyarət etdiyimiz yer Azərbaycan olur. Əlbəttə, bu seçkilərdən sonra da. Əlbəttə, bu seçimin bizim üçün bir mənası da etimadın göstərilməsi idi. Bu seçkilərdən də çox yüksək bir uğurla çıxdıq. Bu ənənəmizi yerinə yetirmək üçün qardaş Azərbaycana belə bir səfər etmək istədik.

Aramızda çox məhsuldar bir toplantı keçirdik. İstər ikitərəfli, istərsə də regional münasibətlərimizi, prosesləri dəyərləndirməyə fürsətimiz oldu. İnanıram ki, bundan sonrakı müddətdə də aramızdakı bu münasibətlərimizi davam etdirmək süräti ilə Türkiyə–Azərbaycan həmrəyliyini gələcəyə daha güclü şəkildə, güclənərək çatdıracağıq.

Bu qəbula görə şəxsən öz adımdan və nümayəndə heyətim adından Sizə çox təşəkkür edirəm.

Sağ olun, var olun!

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*4 aprel 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın aprelin 4-də birgə mətbuat konfransı olmuşdur.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

İlk növbədə, əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu, bələdiyyə seçkilərindən sonra Sizin ilk səfərinizdir. Biz çox şadıq ki, ilk səfəriniz məhz Azərbaycana olan səfərdir. Mən də xatırlayıram ki, keçən il prezident seçkilərindən sonra ilk xarici səfərimi qardaş Türkiyəyə etmişdim. Bu ənənə yaşayır, yaşayacaqdır və bir daha Türkiyə–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasını göstərir.

Fürsətdən istifadə edərək, rəhbərlik etdiyiniz partiyanı bələdiyyə seçkilərində qazandığı böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Bu qələbə bir daha Sizin gördüyünüz işlərə türk xalqı tərəfindən verilən yüksək qiymətdir. Sizin rəhbərliyinizlə son illərdə Türkiyə böyük və şərəfli yol keçmişdir. Türkiyənin iqtisadi, siyasi, sənaye

potensialı böyük dərəcədə artmışdır. Türkiyə bu gün böyük 20-lərin sırasındadır. Dünyanı bir neçə il bundan əvvəl bürümüş iqtisadi və maliyyə böhranı Türkiyəyə heç bir təsir etməmişdir. Çünki Türkiyənin Sizin kimi rəhbəri vardır. Müdrik, öz xalqını sevən, xalqa bağlı olan lider var ki, Türkiyəni bu yolla irəliyə aparır.

Biz Türkiyənin uğurlarını öz uğurlarımız kimi qəbul edirik. Bütün uğurlara sevinirik və çox şadıq ki, bu gün Türkiyə–Azərbaycan əlaqələri dinamik inkişaf dövrünü yaşayır. Biz bütün sahələrdə qardaş, dost kimi, birgə fəaliyyət göstəririk. Bugünkü səfər əsnasında apardığımız danışıqlar və etdiyimiz söhbətlər bir daha bizim birliyimizi təsdiq edir. Biz siyasi sahədə müttəfiqik. Bu gün dünyada ikinci belə ölkələr tapılmaz ki, bir-birinə Türkiyə–Azərbaycan kimi yaxın olsun. Biz iqtisadi sahədə böyük layihələrə imza atırıq. Qarşılıqlı sərmayə qoyuluşu uğurla həll edilir və Azərbaycan sərmayələri Türkiyəyə, Türkiyə sərmayələri Azərbaycana yatırılır. Bu proses uğurla davam etdirilir. Növbəti 7-8 il ərzində təqribən 20 milyard dollara yaxın Azərbaycan sərmayəsi Türkiyə iqtisadiyyatına yatırılacaqdır. Bu da bizim xaricə yatırdığımız ən böyük sərmayədir.

Bizi birləşdirən enerji layihələri vardır. Biz bu layihələri bərabər icra edirik. Türkiyə və Azərbaycan bu layihələrin icrasında öz liderlik rolunu göstərir. Artıq bu layihələr regional çərçivədən çıxıb və dünya miqyaslı layihələrdir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TANAP layihələri dünyanın enerji xəritəsini dəyişdirib.

Digər istiqamətlər üzrə də birgə fəaliyyət göstərilir. Bizi birləşdirən nəqliyyat, enerji dəhlizləri xalqlarımız, qonşularımız üçün də böyük fayda verəcəkdir.

Bu gün biz eyni zamanda, hərbi sahədə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Bu sahədə də çox yaxşı imkanlar, perspektivlər və nəticələr vardır. Təbii ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri bu gün müzakirə edildi. Biz Türkiyə dövlətinə minnətdarıq ki, daim bizə diqqət göstərir, Azərbaycanın haqq işində bizə

həmişə dəstəkdir, dayaqdır. Bildiyiniz kimi, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz uzun illərdir ki, Ermənistan tərəfindən pozulub, torpaqlarımız işğal altındadır. Bu işğal, ədalətsizlik davam edir. Buna son qoyulmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və işğaldan əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Əminəm ki, belə də olacaqdır. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və olacağıq.

Bir sözlə, bugünkü səfər bir daha bizim ikitərəfli münasibətlərimizin inkişafı üçün çox gözəl addım olmuşdur. Çox şadam ki, yenidən öz dostum, qardaşımla görüşürəm. Bir daha Sizə, bütün türk xalqına xoşbəxtlik və yeni uğurlar arzulayıram. Bir daha xoş gəlmisiniz!

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

Çox təşəkkür edirəm, hörmətli Prezident, dəyərli media nümayəndələri, xanımlar, cənablar!

Əvvəla, ənənəvi hal alan səfərlərimizin birincisini martın 30-da keçirilən yerli seçkilərdən sonra qardaş Azərbaycana etməkdən məmnunluq duyuram. Bu səfəri nazir və deputat dostlarımızla birlikdə həyata keçirdik və bu gün Azərbaycan–Türkiyə arasındakı ikitərəfli əlaqələrimizi, regional məsələləri müzakirə etmək imkanımız oldu. Çoxmənalı bu müzakirələr nəticəsində xarici ticarət dövriyyəsi təqribən 15 milyard dollara doğru gedən 2 ölkənin gələcəyə baxışındakı bünövrə günbəgün daha da möhkəmlənir. Bir az əvvəl cənab Prezidentin də ifadə etdiyi kimi, Türkiyədəki Azərbaycan sərmayələrinin hədəfləri həqiqətən, çox böyükdür. Bunların ən əhəmiyyətlisi də təbii ki, TANAP layihəsidir. Bu layihə ilə əlaqədar başlanan rəsmiləşdirmə işləri ilə bağlı Nazirlər Kabinetinin qərarı da qəbul edilmişdir. Qarşıdakı aylarda, inşallah, burada addımlar atılacaq və TANAP-la bağlı 2018-ci il hədəfinə nail olacağımız an inanıram ki, bu beynəlxalq layihə aramızdakı qardaşlığımızı qat-qat gücləndirəcəkdir.

Təbii ki, bununla yanaşı, cənab Prezidentin də ifadə etdiyi kimi, Bakı–Tbilisi–Ceyhan neft kəməri məsələsi, ondan sonra eyni şəkildə yenə Bakı–Tbilisi–Qars dəmir yolu məsələsi, ondan sonra yenə Şahdəniz–Ərzurum layihəsi, bütün bunlar həqiqətən, Azərbaycan–Türkiyə arasındakı bağların nə qədər güclü olduğunu göstərən ən mühüm sərmayələrdir.

Bizim aramızda təbii ki, siyasi, hərbi, mədəni, iqtisadi, ticarət – bütün bu sahələrdəki birlik, həmrəylik qardaşlığımızın hansı səviyyədə olduğunu göstərən ən gözəl nümunələrdir. Gələcəkdə çox ciddi sərmayələri birlikdə yatıracağımıza inanıram. Xüsusilə təbii qaz məsələsində yatırmaqda olduğumuz, yatıracağımız sərmayələr və bu mövzu ilə əlaqədar olaraq daha əvvəl «Petkim»də başlayan proses və «Petkim»dəki yeni investisiyalar bu addımların nə qədər əhəmiyyət daşıdığını ifadə edir.

Bizim bu həmrəyliyimiz, bu qardaşlığımız bundan sonrakı dövrdə də eyni qətiyyətlə davam edəcəkdir. Bu məsələdə tərəflərdə heç bir narahatlıq yoxdur. Təkbətək görüşümüzdə bunları əhatəli müzakirə etmək, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə isə bunları eyni şəkildə dəyərləndirmək imkanımız oldu.

Nazirlərimiz öz aralarında istər enerji, istər müdafiə sənayesi istiqamətində birlikdə nələr edə biləcəyimizi müzakirə etdilər. Fikir verirsinizsə, Azərbaycan ilə Türkiyə arasındakı yüksəksəviyyəli səfərlər son vaxtlarda daha da artmağa başlamışdır. İstər prezidentlər arasındakı, istər Baş nazir, nazirlər arasındakı görüşlər hər keçən gün daha da artaraq davam edir. Bunlar bundan sonra da tərəddüdsüz şəkildə davam edəcəkdir. Bizim bu məsələdəki qətiyyətimiz həmişəki kimi, eyni şəkildə davam etməkdədir.

Təbii ki, bu gün aramızda yenə Qarabağ məsələsini müzakirə etmək imkanımız oldu. Bunu təkrar aramızda müzakirə etdik və Dağlıq Qarabağ mövzusunda biz bu günə qədər necə bir qətiyyət, mövqe göstərmişiksə, bundan sonra da yenə eyni qətiyyətli mövqedə olmaqda davam edəcəyik. Burada

güzəştə getməyimiz əsla müzakirə mövzusu ola bilməz. Bunun xüsusilə ekran qarşısında bizi izləyənlərin bilməsini bir daha istəyirəm. Bu baxımdan bunu ifadə edirəm.

Mən bizə göstərilən qonaqpərvərliyə, xüsusilə media nümayəndələrinə dərin minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l** *(«Əl-Cəzirə Türk» Televiziyasının aparıcı müxbiri Didəm Özəl Tümər):* **Cənab Baş nazir, TANAP-da təməl-qoyma mərasiminin daha əvvəl 2014-cü ildə olacağı açıqlanmışdı. Bu görüşdə bir tarix müəyyən edə bildinizmi? Sizə başqa bir sualım, «Camaat məktəbləri» olaraq tanınan türk məktəblərinin Azərbaycandakı fəaliyyəti ilə bağlı cənab Əliyevdən hər hansı bir istəyiniz oldumu?**

**Cənab Əliyev, həmin məktəblərlə əlaqədar olaraq fikriniz nədir? Bir də türk mətbuatında «Gülən camaatı»nın Azərbaycandakı fəaliyyəti ilə bağlı bəzi xəbərlər çıxdı, bəzi yüksək səviyyəli bürokratların vəzifədən azad edildiyi şəkildə. «Camaat»ın fəaliyyəti ilə bağlı Sizin fikriniz nədir?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Əvvəla, təbii ki, mənim buraya səfərimin ən mühüm səbəbi ənənəyə uyğun olaraq hər seçkidən sonra ilk səfərimizin Azərbaycana olmasıdır. Bu səfərimiz də ənənəyə uyğun olaraq atdığımız addımdır. İkitərəfli münasibətlərimizi müzakirə edirik. Təbii ki, ölkələrimizdə hər hansı bir sıxıntı varsa və bu sıxıntı ölkələrimizi həqiqətən narahat edirsə, bunları da aramızda ayrıca müzakirə edirik.

TANAP ilə əlaqədar məsələyə gəldikdə, Nazirlər Kabinetinin qərarı ilə hazırda rəsmiləşdirmə prosesi başlamışdır. Bu prosesi davam etdirib başa çatdıra bilsək, hər halda, bu ilin sonuna qədər kəmərin təməlini qoya bilərik. Bu məsələ ilə bağlı

narahatlığımız yoxdur. Bizim əsas məqsədimiz odur ki, bir an əvvəl buldozerlər işləməyə başlasın və qısa müddətdə, inşallah, TANAP marşrutu ortaya çıxsın. Təbii ki, bunlar layihə və plan şəklində vardır. Amma bu kanallar açılmağa başladığı andan etibarən, bütün borular orada göründüyü anda artıq dünya bunu çox yaxından izləyəcəkdir. Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** TANAP layihəsi ilə bağlı istərdim ki, bir-iki kəlmə söz əlavə edim. Bu layihə birgə layihəmizdir. Türkiyə və Azərbaycan bu layihənin müəllifidir, lideridir. Bu layihənin həyata keçirilməsində Türkiyə və Azərbaycan rəhbərliyinin iradəsi və qətiyyəti ən böyük rol oynamışdır. Bu layihənin həyata keçirilməsi nəticəsində bizim ölkələrimiz bir-birinə daha da sıx bağlı olacaq, siyasi və iqtisadi imkanlarımız böyük dərəcədə artacaqdır. Biz çalışacağıq ki, bu layihəni vaxtında icra edək. Hər halda, bizə verilən məlumata görə hər şey cədvəl üzrə gedir. Ümid edirəm ki, 2018-ci ildə biz bu layihənin açılışını əziz qardaşımla bərabər qeyd edəcəyik.

O ki qaldı sualın digər hissəsinə, əziz qardaşımın dediyi kimi, bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Biz ildə bir neçə dəfə görüşürük. Keçən dəfə 4 ay bundan əvvəl görüşmüşük, bu dəfə də görüşürük. Gələn ay da görüşümüz ola bilər. İyun ayında görüşümüz olacaqdır. Yəni bu təbiidir. Biz müttəfiqik, biz dostuq, biz qardaşıq. Bizim aramızda olan söhbətlər, əlbəttə ki, çox geniş sahəni əhatə edir. Elə bir məsələ yoxdur ki, biz bu məsələni səmimiyyətlə, dost, qardaş kimi müzakirə etməyək. Əsas məsələ ondan ibarətdir ki, burada Türkiyə və Azərbaycan tərəfi başqa sahələrdə olduğu kimi, həmfikirdir ki, biz əlaqələrimizə zərrə qədər zərər verə biləcək hər hansı bir addımı qəbul etmirik, imkan vermirik və verməyəcəyik. Biz dostuq, qardaşıq, rəhbərlər qardaşdır, xalqlar qardaşdır. Belə də olmalıdır. Gələcək uğurlu inkişafımız və dünyada yerimizi möhkəmləndirmək üçün Türkiyə–Azərbaycan birliyi bundan sonra da davam edəcəkdir, etməlidir. Bu, xalqların iradəsindən doğan bir sifarişdir, Türkiyə və Azərbaycan rəhbərliyinin əqidəsidir. Biz həmişə bir-birimizin

yanındayıq, bir-birimizi müdafiə edəcəyik, yaxşı günlərdə və o qədər də yaxşı olmayan günlərdə də həmişə bir yerdə olmalıyıq. Zatən, qardaşlar belə olmalıdır və biz də belə qardaşlardanıq.

**S u a l** (*Mehriban Məmmədova:Azərbaycan İctimai Televiziyasının müxbiri):* **Cənab Baş nazir, bəzi ölkələrin KİV-lərində Sizin rəhbərlik etdiyiniz partiyanın «nurçuluqla» bağlı olduğu söylənilir. Hazırda Türkiyədə «nurçuluq» meyilləri ilə mübarizə aparılması müşahidə olunur. Sizin bu vəziyyətə münasibətinizi bilmək istəyərdik. Çox sağ olun.**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Bu, təbii ki, mənə çox qəribə gəldi. Bizim elə bir bağlantımız təbii ki, yoxdur. Bizim yeganə bağlantımız millətlədir. Millətlə olan bağlantımız çox yaxşı olduğu üçün 46 faiz səs aldıq. Bu seçki də məlumdur ki, necə deyərlər, etimadın doğrulması idi və bunu bacardıq. Biz xalqımızın içərisində hər hansı bir ayrı-seçkiliyə imkan verməri̇k. Ayrı-seçkiliyə tamamilə qarşıyıq. Baxın, hazırda Türkiyənin, demək olar ki, bütün vilayətlərində üzvləri bələdiyyə sədri seçilən tək partiya bizik. Bununla yanaşı, bizim 7 bölgəmiz vardır, bu 7 bölgənin altısında birinci partiyayıq, digər bölgədə də bərabərik. Bizim belə bir xüsusiyyətimiz də vardır.

Bu haradan qaynaqlanır? Biz bütün xalqı əhatə edirik. Digərləri əhatə edə bilmir. Bəziləri irqçilik, bəziləri bölgəçilik edir. Bizdə bu yoxdur. Biz 77 milyonun partiyasıyıq. Biz 780 min kvadratkilometrin partiyasıyıq. Mən həmişə deyirəm, bizim 4 əsas prinsipimiz var: tək millət, tək bayraq, tək Vətən, tək dövlət. Bu, xalqımızın bizə olan xoş münasibətini artırmışdır. Təşəkkür edirəm.

## QEYDLƏR

**1. Kəmaləddin Heydərov,** Kəmaləddin Fəttah oğlu (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 6

**2. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK

Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs

elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 80, 84, 87, 88, 89, 91, 94, 96, 98, 106, 111,119, 130, 138, 148, 141, 170,174, 175, 246, 249, 258, 260, 271, 295, 300, 315.

**3. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 11, 115, 202–204, 206–211, 212, 246, 300–301, 327, 343, 344.

**4. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 11, 208.

**5. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 28 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 13–16.

**6. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 13, 14, 95, 103, 104, 113, 124, 180, 269, 300, 306.

**7. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. –

13, 14, 24, 26, 27, 28, 95, 104, 113, 139, 173, 202, 207-211, 229, 230, 231, 238, 243, 244, 269, 294, 306, 307, 314, 322, 323, 342, 344.

**8. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 18,1 19, 35, 65, 66, 68, 69, 105, 110, 111, 158,166, 178, 294, 316, 317, 351, 353.

**9. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 19, 39, 143–149, 152–166, 189, 319.

**10. İsa,** İisus Xristos – xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə, İsa «Allah insandır» və «Allah oğludur». Rəvayətə görə, İsa Roma imperatoru Avqustun dövründə Fələstinin Vifleyem şəhərində doğulmuş, İudeya, Qalleya, Samirə və s. yerlərdə yeni dini təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra dirilərək qeyb olmuşdur. İsaya etiqad xristianlığın əsas ehkamlarındandır. – 23.

**11. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü

var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 33, 64, 66, 76, 99, 198, 272, 331.

**12. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 41, 51, 353.

**13. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 58 –69.

**14. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 60– 69.

**15. Anders Foq Rasmussen** (d.1953) – Danimarka siyasətçisi. 2009–2014-cü illərdə NATO-nun baş katibi, 2001–2009-cu illərdə isə Danimarkanın Baş naziri olmuşdur. – 60 – 69.

**16. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i -k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi

34,7 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 60, 61, 62, 63, 68, 310.

**17. Vaqif Axundov,** V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1993-cü ildən Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 2003-cü ildən Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisidir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 80, 81.

**18. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 86–87.

**19. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 87, 269, 323.

**20. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan

Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 87, 269, 323.

**21. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 87,269, 323.

**22. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 92, 94, 95, 97, 104, 113–116, 120, 173.

**23. Məhsəti Gəncəvi** (1089–1160) – XII əsr Azərbaycan şairəsi. Məhsəti Gəncəvi əsasən rübai janrında yazmışdır. Rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. – 92, 95, 103–105, 116.

**24. Fuad Əliyev,** F u a d Y u s i f o ğ l u (d.1950) – kimya elmləri doktoru, professor, AMEA-nın Gəncə bölməsi üzrə sədri, AMEA-nın həqiqi üzvü , Əməkdar elm xadimi, 1983-cü ildən Gəncə Regional Elm Mərkəzinin sədridir. – 96–98.

**25. Cavad xan** (? – 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilin qonşu 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 97, 119.

**26. Mirzə Şəfi Vazeh** (1796–1852) – Azərbaycan şairi, mütəfəkkir, maarifçi. Əlyazması halında olan şeir məcmuəsini F.Bodenştedtə hədiyyə vermişdir. Almaniyaya qayıdan Bodenşted həmin şeirləri almancaya çevirərək, «Şərqdə min bir gün», «Mirzə Şəfinin şərqiləri» kitablarında nəşr etdirmişdir. Vazehin şeirlərinin Avropada şöhrət qazandığını görən Bodenşted 1875-ci ildə özünü onların müəllifi elan etdi. Ədəbi irsinin cüzi hissəsi bizə çatmışdır. – 97.

**27. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 640,7 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı 2 palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 104, 115, 160, 166, 299, 327, 343.

**28. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 106, 107, 108, 109, 111, 124.

**29. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107.

**30. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107.

**31. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107.

**32. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 109, 111.

**33. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız

insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 111, 172, 318.

**34. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 107, 124, 268, 269–278.

**35. Xocavənd rayonu** (1930–91-ci illərdə Martuni rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. Kiçik Qafqazda Qarabağ silsiləsinin cənub-şərq hissəsində yerləşir. Sahəsi 1458 km$^2$, əhalisi 43,4 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107.

**36. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 116, 272, 282, 292, 293, 327.

**37. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 115, 298, 344.

**38. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 113, 271, 300.

**39. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı» haqqında Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 119, 130.

**40. Səfəvilər** (1501–1736)–Səfəvilər dövləti hökmdarları sülaləsi. Banisi I Şah İsmayıldır (Xətai) (1487–1524). Səfəvilər dövründə Azərbaycanın Cənub və Şimal torpaqları vahid dövlət çərçivəsində birləşmiş, ölkə iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etmiş, beynəlxalq əlaqələr xeyli genişlənmişdi. – 131.

**41. Ağqoyunlular** (1378–1503) – Ağqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin (1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdi. – 131.

**42. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,2 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət 2 palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 143–149, 152–166, 344.

**43. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 153, 154, 244, 295, 332, 336, 343, 347–356.

**44. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 154, 215–227.

**45. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Pa-

dan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 154, 332, 343.

**46. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 156, 177, 324–333, 344.

**47. Klaus Şvab** (d.1938) – alman iqtisadçısı, Davosda keçirilən Dünya İqtisadi Forumunun yaradıcısı və icraçı sədri. – 157, 163, 165.

**48. Qara Qarayev,** Qara Əbülfəs oğlu (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 169–176.

**49. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycan və SSRİ Xalq artisti, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 171–172.

**50. Arif Məlikov,** Arif Cahangir oğlu (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət

qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 172–173.

**51. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Xalq yazıçısı. 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Azərbaycan və SSRİ Dövlət, «Heydər Əliyev» mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və komissiya sədri olmuşdur. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 173–174.

**52. Georgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 215–227.

**53. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. –172, 232.

**54. Səyavuş Kərimi,** S ə y a v u ş Ə ş r ə f o ğ l u (d.1954) – bəstəkar, Xalq artisti, professor. Azərbaycan Milli Konservatoriyasının rektorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 230, 236, 239, 240, 241.

**55. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ- l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azər-

baycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 232.

**56. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m- m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 172, 232.

**57. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a-h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1,76 milyon km$^2$, əhalisi 6,5 milyon nəfərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 242.

**58. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 244, 249–250, 261, 332.

**59. Monako,** M o n a k o K n y a z l ı ğ ı – Cənubi Avropada, Aralıq dənizi sahilində dövlət. Sahəsi 2,02 km$^2$, əhalisi 37,3 min nəfərdir. İnzibati cəhətdən 3 mahal – şəhərdən ibarətdir. Monako Knyazlığı konstitusiyalı monarxiyadır. Dövlət başçısı knyazdır. Qanunverici hakimiyyət knyaza və Milli Şuraya (parlamentə) məxsusdur. Paytaxtı Monako şəhəridir. – 245.

**60. II Albert** (d.1958) – 2005-ci ildən Monako knyazı. – 245.

**61. Bruney,** B r u n e y D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 434 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 251.

**62. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 251.

**63. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 281.

**64. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXP Mərkəzi Hərbi Şurasının Sədridir. – 281.

**65. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 296.

**66. Tunis,** T u n i s  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 305.

**67. Məhəmməd Monsef Mərzuki** (d.1945) – Tunis siyasətçisi və dövlət xadimi, hüquq mühafizəçisi, yazıçı, hakim, 2011–2014-cü illərdə Tunis Respublikasının Prezidenti olmuşdur. – 305.

**68. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 208 milyon

nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 271, 311.

**69. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 332.

**70. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 115, 332.

**71. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 332.

**72. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin

Prezidenti seçildi. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 347–356.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Ağaxan** – 235, 241
**Abdullayev Rövnəq** – 275
**Axundov Vaqif** – 80, 81
**Akar Hulusi** – 295
**II Albert** *(Monako knyazı)* – 245
**Alvarado Xuan** – 167
**Amil Şeyx Bahəddin Məhəmməd** – 129
**Amano Yukiya** – 326
**Aslov Sirociddin** – 338
**Auşev Ruslan** – 246
**Babayev Arif** – 240
**Bax Tomas** – 208
**Berdıməhəmmədov Qurbanqulu** – 335
**Bədəlbəyli Fərhad** – 171–172
**Bolkiah Həssənal** – 251
**Braxner Patrik** – 207
**Brays Kventin** – 151
**Burkhalter Didye** – 158
**Buteflikay Əbdüləziz** – 213
**Butkeviçius Alqirdas** – 203
**Bülbül** – 172
**Cavad xan** – 97, 119
**Cəfərova Bahar** – 8
**Çakrabarti Suma** – 148
**De Villipen Dominik** – 299
**De Jong Ronald** – 155
**Ernst Konstantin** – 208
**Əs-Sabah Nəvvaf** – 254
**Əl-Tani Təmim** – 204

**Əl-Tüveycri Əbdüləziz** – 255
**Əliyev Heydər** – 6, 80, 84, 87, 88, 89,91,94,96, 98, 106, 111,119,130,138,148, 141,170,174, 175,246,249,258, 260, 271, 295,300,312
**Əliyev Fuad** – 96–98
**Əliyeva Leyla** – 113, 271, 300
**Əliyeva Mehriban** – 13, 14, 24, 26, 27, 28, 95, 104, 113, 139, 173, 202, 207-211, 229, 230, 231, 238, 243, 244, 269, 294, 306, 307, 314, 322, 323, 342, 344
**Əmirov Fikrət** – 172, 232
**Ərdoğan Rəcəb Tayyib** – 347–356
**Əs-Sabah əl-Cabir** – 253
**Əs-Sabah Nəvvaf** – 254
**Əsgərov Toğrul** – 93
**Əsədov Oqtay** – 87, 269, 323
**Əzizov Eldar** – 257
**Fabius Loran** – 166
**Fontana Bernar** – 144
**For Jak** – 178
**Fransisk** *(Roma Papası)* – 304
**Füzuli Məhəmməd** – 174
**Gergiyev Valeri** – 209
**Gəncəvi Məhsəti** – 92, 95, 103–105, 116, 120
**Gəncəvi Nizami** – 92, 94, 95, 97, 104, 113–116, 173
**Gül Abdullah** – 332
**Hacıbəyli Üzeyir** – 232
**Harris Devid** – 282
**Heydərov Kəmaləddin** – 6
**Həsənov Əli** – 106
**Higgins Maykl** – 302
**Hikki Patrik** – 340

**Hots Sedrik** – 207
**Hüseyn Məmnun** – 311
**Xamatova Çulpan** – 208
**İlves Toomas** – 252
**İsa** *(Peyğəmbər)* – 23
**İşinger Volfqanq** – 286
**Kasprşik Anji** – 178
**Kastro Raul** – 12
**Kemeron Devid** – 332
**Keralin Henri** – 296
**Keyxosrov** *(fars hökmdarı)* – 119
**Kərimbəyli Fəxrəddin** – 264–265
**Kərimi Səyavuş** – 230, 236, 239, 240, 241
**Kərimov İmam** – 123
**Kərzai Həmid** – 310
**Kiska Andrey** – 341
**Kostin Andrey** – 212
**Korf Karlhaynts** – 337
**Kurtua Jan** – 162
**Kuyvaşev Yevgeni** – 300–301
**Qafarov Aydın** – 8
**Qarayev Əbülfəs** – 343
**Qarayev Fərəc** – 174–175
**Qarayev Qara** – 169–176, 232
**Lefort Filip** – 59
**Linden Rene** – 325
**Livermor Ann** – 159
**Maqomayev Müslüm** – 232
**Marqvelaşvili Georgi** – 215
**Medina Danilo** – 256
**Mehdiyev Ramiz** – 87, 269, 323
**Meredov Rəşid** – 335
**Mestrale Jerar** – 160
**Mədəni İyad** – 285
**Məlikov Arif** – 172–173

**Məmmədova Ofeliya** – 108, 111, 112, 113
**Mixalkov Nikita** – 208
**Mərzuki Məhəmməd** – 305
**Mirzəyev Şərbət** – 264
**MD. Əbdül Həmid** – 313
**Motsart Volfqanq** – 172
**Mustafayev Şahin** – 258, 265, 276
**Mukherci Pranab** – 150
**Mustafayev Çingiz** – 70–79
**Nazarbayev Nursultan** – 249–250
**Netanyahu Benyamin** – 149
**Nəcəfov Fazil** – 174, 175
**Nəsimi İmadəddin** – 268
**Niqmatulin Nurlan** – 249–250
**Nikoliç Tomislav** – 214
**Nuriyev Samir** – 14
**Nuru Paşa** – 119
**Obama Barak** – 329
**Oreşarski Plamen** – 247–248
**Osman oğlu İbrahim** – 120
**Osmani Zarar** – 310
**Özəl Necdət** – 336
**Pak Kin He** – 329
**Pan Gi Mun** – 207, 329
**Parker Martin** – 146
**Papulyas Karolos** – 312
**Peres Şimon** – 57, 147
**Plevneliyev Rosen** – 273
**Popov İqor** – 178, 327
**Popova Anastasiya** – 209
**Pummer Erix** – 14
**Putin Vladimir** – 11, 208
**Racapaksa Mahinda** – 168
**Rasmussen Anders** – 60–69
**Rasizadə Artur** – 87, 269, 323

**Rentsi Matteo** – 332
**Rəhimov Azad** – 134
**Rəhmon Emoməli** – 338
**Rifai Taleb** – 339
**Rəhimov Azad** – 243, 284
**Ruhani Həsən** – 163, 205, 297
**Rəhimpur İbrahim** – 297
**Riçardson Bill** – 293
**Röd-Larsen Terye** – 292
**Rimski-Korsakov** – 173
**Rodnina İrina** – 209
**Rutte Mark** – 156, 328, 329
**Rzayev Anar** – 173–174
**Rzayev Vidadi** – 138–139
**Sadıxlı Fərid** – 127–128
**Sadıqov Həsənbala** – 98–99
**Seyidov Arif** – 130
**Seyidov Vüqar** – 67
**Seyn Theyn** – 17
**Səhmeyn Nuri** – 242
**Si Cinpin** – 281
**Sitnikov Aleksey** – 207
**Skoblikova Lidiya** – 208
**Stravinski İqor** – 172
**Stakovski Leopold** – 172
**Şaxtaxtinski Aleksis** – 334
**Şaron Ariel** – 57
**Şirəliyev Oqtay** – 28
**Şostakoviç Dmitri** – 172, 173
**Şröder Gerhard** – 298
**Şvab Klaus** – 157, 163, 165
**Tağıyeva Nigar** – 127
**Talamoni Jan** – 145
**Tereşkova Valentina** – 208
**Tretyak Vladislav** – 209

**Timmermans Frans** – 177
**Uorlik Ceyms** – 178, 327
**Vazeh Mirzə Şəfi** – 97, 172
**Vəliyev Elmar** – 88
**Yenileyev Alan** – 209
**Zeman Miloş** – 206
**Zeynalov Elçin** – 93, 94
**Zlobina Yuliya** – 207

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımada*) – 200
**Afrika** – 172
**Ağdam** – 107
**Almaniya** – 115, 298, 344
**Amerika Birləşmiş Ştatları** – 116, 272, 282, 292, 293, 327
**Argentina** – 343
**Asiya** – 154
**Aşıqlı** – 132
**Avropa** – 55, 60, 61, 67, 68, 74, 100, 101, 154, 299
**Avstriya** – 115, 307, 337
**Avstraliya** – 151
**Banqladeş** – 313
**Birləşmiş Ərəb Əmirlikləri** – 344
**Belçika** – 58–69
**Bolqarıstan** – 247–248, 273,
**Bosniya və Herseqovina** – 271
**Bruney** – 251
**Brüssel** – 59– 69
**Böyük Britaniya** – 115, 332
**Cəbrayıl** – 107
**Cənubi Afrika Respublikası** – 345

**Cənubi Qafqaz** – 59, 60, 63, 74, 152, 153, 154, 179, 262, 272, 296, 343
**Çaykənd** – 132
**Çexiya** – 206, 244, 271, 343
**Çin** – 281, 343
**Dağlıq Qarabağ** – 18, 19, 35, 65, 66, 68, 69, 105, 110, 111, 158,166, 178, 294, 316, 317, 351, 353.
**Daşkəsən** – 124
**Davos** – 74, 143–149, 152–166, 297
**Dominikan** – 256, 343, 344
**Estoniya** – 252
**Əfqanıstan** – 60, 61, 62, 63, 68, 310
**Əlcəzair** – 213
**Fələstin** – 34
**Finlandiya** – 244
**Fransa** – 104,115,160,166,299,327,343
**Füzuli** – 107
**Gədəbəy** – 124
**Gəncə** – 88–129, 200
**Goranboy** – 124
**Göygöl** – 124, 130–142
**Göyçəkənd** – 132
**Gürcüstan** – 154, 215–227, 261
**Haaqa** – 324–333
**Hacıkənd** – 132
**Hindistan** – 150, 343
**Honduras** – 167, 272
**Xankəndi** – 318
**Xəzər dənizi** – 50
**Xırdalan** – 259
**Xocalı** – 107, 124, 268, 269–272
**Xocavənd** – 107
**Xorvatiya** – 343

**İndoneziya** – 343
**İnquşetiya** – 246
**İraq** – 261
**İran** – 163, 205, 297
**İrlandiya** – 302
**İsgəndəriyyə** – 115
**İordaniya** – 271
**İsrail** – 57
**İsveçrə** – 143–149, 152–166, 344
**İtaliya** – 154, 332, 343
**Kanada** – 244, 271
**Keniya** – 345
**Kəlbəcər** – 106, 107, 108, 109, 111, 124
**Kislovodsk** – 344
**Kolumbiya** – 271
**Kuba** – 12
**Kutaisi** – 120
**Küveyt** – 253, 254
**Qafqaz** – 60, 61, 114, 163, 164, 246, 258
**Qazaxıstan** – 244, 249–250, 261, 332
**Qəbələ** – 24–26, 31, 56
**Qətər** – 204
**Laçın** – 107, 109, 111
**Latviya** – 244
**Liviya** – 242
**Litva** – 203, 228, 323, 344
**London** – 172
**Lvov** – 172
**Macarıstan** – 244, 343
**Malayziya** – 343
**Meksika** – 244, 271
**Mərakeş** – 343
**Mərkəzi Asiya** – 152, 153, 154
**Mixaylovka** – 132
**Mingəçevir** – 200

**Miluz** – 104
**Misir** – 115
**Monako** – 245
**Monteneqro** – 343, 344
**Moskva** – 87, 172, 174
**Münhen** – 286
**Myanma** – 17
**Naxçıvan Muxtar Respublikası**– 180, 200
**Naftalan** – 124, 200
**Niderland** – 156, 177, 324–333, 344
**Nyu-York** – 172, 292
**Nyu-Meksiko** – 293
**Orta Asiya** – 74
**Orta Şərq** – 114
**Pakistan** – 271, 311
**Paris** – 172
**Peru** – 271
**Praqa** – 172
**Pyatiqorsk** – 344
**Reyms** – 104
**Rusiya** – 11,115,202–204,206–211,217, 246, 300–301, 327, 343,344
**Samux** – 124
**Serbiya** – 214
**Slovakiya** – 341
**Soçi** – 202–204, 206–111
**Strasburq** – 116
**Sumqayıt** – 125, 200, 257–268
**Sverdlovsk** *(RF-də vilayət)* – 300–301
**Suriya** – 208
**Şəmkir** – 124
**Şimali Qafqaz** – 246
**Şri-Lanka** – 168, 345
**Şuşa** – 107, 111, 172, 318
**Tacikistan** – 261, 338

**Tailand** – 343
**Toğana** – 132
**Tunis** – 305
**Türkiyə** – 153, 154, 244, 295, 332, 336, 343, 347–356
**Türkmənistan** – 261, 335
**Vatikan** – 304
**Vankuver** – 207
**Volqoqrad** – 11
**Vyana** – 67
**Yessentuki** – 344
**Yaxın Şərq** – 114
**Yeni Zod** – 132
**Yunanıstan** – 244, 312
**Zəngilan** – 107

## MÜNDƏRİCAT

FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYA
BİNASININ AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2013-cü il..........................................................................5*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*29 dekabr 2013-cü il..........................................................................11*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ
NAZİRLƏR ŞURASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*29 dekabr 2013-cü il..........................................................................12*

QIZ QALASINDA HƏYATA KEÇİRİLƏN KONSERVASİYA İŞLƏRİ VƏ YENİ YARADILAN MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞLIQ

*30 dekabr 2013-cü il*..........................................................................13

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ

*30 dekabr 2013-cü il*..........................................................................17

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2013-cü il* .........................................................................18

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*3 yanvar 2014-cü il*.............................................................................23

«TUFAN» DAĞ-XİZƏK YAY-QIŞ İSTİRAHƏT KOMPLEKSİNİN BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞI MƏRASİMİ

*3 yanvar 2014-cü il*.............................................................................24

BAKI SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*7 yanvar 2014-cü il* ............................................................................27

NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2014-cü İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 yanvar 2014-cü il* ............................................................................32

YEKUN NİTQİ

*9 yanvar 2014-cü il*.............................................................................44

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*12 yanvar 2014-cü il*......................................................................*57*

BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*14 yanvar 2014-cü il* ......................................................................*58*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*15 yanvar 2014-cü il* ......................................................................*59*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ
GÖRÜŞ

*15 yanvar 2014-cü il* ......................................................................*60*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ
BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA
ÇIXIŞLAR

*15 yanvar 2014-cü il* ......................................................................*61*

NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASINDA ÜZV
DÖVLƏTLƏRİN NATO YANINDA DAİMİ
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 yanvar 2014-cü il* ......................................................................*68*

MİLLİ QƏHRƏMAN ÇİNGİZ MUSTAFAYEV FONDU VƏ
ANS ŞİRKƏTLƏR QRUPUNUN «2013-cü İLİN ADAMI»
MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİ

*17 yanvar 2014-cü il* ......................................................................*70*

XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN HƏRBİ
ŞƏHƏRCİYİNDƏ APARILAN TİKİNTİ VƏ
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ, İDMAN
KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*18 yanvar 2014-cü il* ......................................................................*80*

QANLI YANVAR FACİƏSİNİN 24-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2014-cü il* ..........................................................................*86*

GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*21 yanvar 2014-cü il* ..........................................................................*88*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2014-cü il* ..........................................................................*91*

GÖYGÖL RAYONUNA SƏFƏR

*21 yanvar 2014-cü il* ........................................................................*130*

OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA GÖYGÖL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2014-cü il*..........................................................................*134*

İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*21 yanvar 2014-cü il* ........................................................................*143*

«HOLCİM» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU BERNAR FONTANA İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* ........................................................................*144*

«AİRBUS GROUP INTERNATİONAL» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN PYER TALAMONİ İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* ........................................................................*145*

«SWİSS RE» ŞİRKƏTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ SƏDRİ MARTİN PARKER İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* .................................................................................*146*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* .................................................................................*147*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* .................................................................................*148*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*22 yanvar 2014-cü il* .................................................................................*149*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*23 yanvar 2014-cü il*..................................................................................*150*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU XANIM KVENTİN BRAYSA

*23 yanvar 2014-cü il*..................................................................................*151*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN «AVRASİYA – YENİ SƏRHƏDLƏR» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*23 yanvar 2014-cü il* .................................................................................*152*

«PHİLİPS» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ RONALD DE JONG İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il* .................................................................................*155*

NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
MARK RUTTE İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................156*

DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS
ŞVAB İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................157*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE
BURKHALTER İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................158*

«HEWLETT-PACKARD» ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN
ÜZVÜ XANIM ANN LİVERMOR
İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................159*

«GDF SUEZ» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
JERAR MESTRALE İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................160*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN
RUHANİ İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................161*

«MİCROSOFT INTERNATİONAL» ŞİRKƏTİNİN
PREZİDENTİ JAN FİLİP KURTUA
İLƏ GÖRÜŞ

*23 yanvar 2014-cü il .........................................................................162*

«CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA: QLOBAL
İQTİSADİYYATA YOL» MÖVZUSUNDA QƏBULDA
İŞTİRAK

*23 yanvar 2014-cü il .........................................................................163*

FRANSA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
LORAN FABİUS İLƏ GÖRÜŞ

*24 yanvar 2014-cü il .........................................................................166*

HONDURAS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO ERNANDES
ALVARADOYA

*27 yanvar 2014-cü il .........................................................................167*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ
PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA

*31 yanvar 2014-cü il..........................................................................168*

GÖRKƏMLİ BƏSTƏKAR QARA QARAYEVİN BAKIDA
ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*3 fevral 2014-cü il ............................................................................169*

NİDERLAND KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ
FRANS TİMMERMANSIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 fevral 2014-cü il ............................................................................177*
ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in
HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*4 fevral 2014-cü il ............................................................................178*

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT
PROQRAMLARININ İCRASINA HƏSR OLUNMUŞ
KONFRANSDA İŞTİRAK

*5 fevral 2014-cü il ............................................................................179*

YEKUN NİTQİ

*5 fevral 2014-cü il ............................................................................188*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*6 fevral 2014-cü il* ..........................................................................*202*

LİTVANIN BAŞ NAZİRİ ALQİRDAS BUTKEVİÇİUS İLƏ GÖRÜŞ

*6 fevral 2014-cü il* ..........................................................................*203*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİ İLƏ GÖRÜŞ

*6 fevral 2014-cü il* ..........................................................................*204*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*7 fevral 2014-cü il* ............................................................................*205*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMAN İLƏ GÖRÜŞ

*7 fevral 2014-cü il* ..........................................................................*206*

XXII QIŞ OLİMPİYA OYUNLARININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*7 fevral 2014-cü il* ..........................................................................*207*

YÜKSƏK SƏVİYYƏLİ QONAQLAR ÜÇÜN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*7 fevral 2014-cü il* ..........................................................................*210*

KONKİSÜRMƏ OYUNLARINA BAXIŞ

*8 fevral 2014-cü il* ..........................................................................*211*

«VTB» BANKININ PREZİDENTİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*10 fevral 2014-cü il* ........................................................................*212*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*12 fevral 2014-cü il ....................................................................................213*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMİSLAV NİKOLİÇƏ

*12 fevral 2014-cü il ....................................................................................214*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 fevral 2014-cü il ..................................................................................215*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 fevral 2014-cü il ..................................................................................216*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 fevral 2014-cü il ..................................................................................217*

GÜRCÜSTAN PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 fevral 2014-cü il ..................................................................................219*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 fevral 2014-cü il ..................................................................................223*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*13 fevral 2014-cü il ....................................................................................228*

AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YENİ İNZİBATİ-TƏDRİS KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*13 fevral 2014-cü il ..................................................................................229*

LİVİYA DÖVLƏTİ ÜMUMMİLLİ KONQRESİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB NURİ ƏLİ ƏBU SƏHMEYNƏ

*14 fevral 2014-cü il ..........................................................................242*

MİLLİ GİMNASTİKA ARENASINDA TİKİNTİ İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*17 fevral 2014-cü il ..........................................................................243*

MONAKO KNYAZI II ALBERT İLƏ GÖRÜŞ

*18 fevral 2014-cü il ..........................................................................245*

İNQUŞETİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*19 fevral 2014-cü il ..........................................................................246*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ PLAMEN
OREŞARSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*20 fevral 2014-cü il ..........................................................................247*

QAZAXISTAN RESPUBLİKASI PARLAMENTİ MƏCLİSİNİN
SƏDRİ NURLAN NİQMATULİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2014-cü il ..........................................................................249*

BRUNEY DARÜSSALAMIN SULTANI
ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*20 fevral 2014-cü il ..........................................................................251*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*21 fevral 2014-cü il ..........................................................................252*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*21 fevral 2014-cü il ........................................................................253*

KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞAHZADƏ
ŞEYX NƏVVAF ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*21 fevral 2014-cü il ........................................................................254*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ
BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*24 fevral 2014-cü il ........................................................................255*

DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA

*24 fevral 2014-cü il ........................................................................256*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*25 fevral 2014-cü il ........................................................................257*

XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA
MƏRASİMİ

*26 fevral 2014-cü il ........................................................................269*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

*28 fevral 2014-cü il ........................................................................273*

BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il ........................................................................274*

BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİ YAXŞILAŞDIRMAQ ÜÇÜN KOMPLEKS TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il ............................................................................276*

PAYTAXTIN HƏSƏN ƏLİYEV KÜÇƏSİ–ZİYA BÜNYADOV PROSPEKTİ–OLİMPİYA STADİONU AVTOMOBİL YOLUNDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 fevral 2014-cü il ............................................................................278*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*3 mart 2014-cü il.................................................................................281*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2014-cü il ................................................................................282*

HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ APARILACAQ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN LAYİHƏSİ İLƏ TANIŞLIQ

*4 mart 2014-cü il ................................................................................283*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ İLƏ GÖRÜŞ

*5 mart 2014-cü il ................................................................................285*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ İŞİNGER İLƏ GÖRÜŞ

*5 mart 2014-cü il ................................................................................286*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*7 mart 2014-cü il* ........................................................................... *287*

PAYTAXTDA İNŞASI DAVAM ETDİRİLƏN
BİR SIRA YOL QOVŞAQLARINDA VƏ
YOLÖTÜRÜCÜLƏRİNDƏ TİKİNTİ
İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 mart 2014-cü il* ........................................................................... *289*

BEYNƏLXALQ SÜLH İNSTİTUTUNUN PREZİDENTİ
TERYE RÖD-LARSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2014-cü il* ......................................................................... *292*

APCO-nun «GLOBAL POLİTİCAL STRATEGİES»
ŞİRKƏTİNİN SƏDRİ, ABŞ-ın NYU-MEKSİKO ŞTATININ
SABİQ QUBERNATORU BİLL RİÇARDSONUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2014-cü il* ......................................................................... *293*

DƏNİZKƏNARI MİLLİ PARKIN YENİ BULVAR
HİSSƏSİNDƏ MÜASİR ATTRAKSİON-PANORAMIN
AÇILIŞI MƏRASİMİ

*10 mart 2014-cü il* ......................................................................... *294*

TÜRKİYƏ RESPUBLİKASININ QURU QOŞUNLARI
KOMANDANI HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2014-cü il* ......................................................................... *295*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ
DİREKTORU HENRİ KERALİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2014-cü il* ......................................................................... *296*

İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İBRAHİM RƏHİMPURUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 mart 2014-cü il .......................................................................297*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ SABİQ KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il .......................................................................298*

FRANSA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ DOMİNİK DE VİLLPEN İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il .......................................................................299*

RUSİYA FEDERASİYASI SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU YEVGENİ KUYVAŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2014-cü il .......................................................................300*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*14 mart 2014-cü il .........................................................................302*

İTALİYA RESPUBLİKASININ FRİULİ–VENETSİYA–CULİYA REGİONUNUN REGİONAL ŞURASININ PREZİDENTİ XANIM DEBORA SERAKKİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2014-cü il .......................................................................303*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*17 mart 2014-cü il .........................................................................304*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MONSEF MƏRZUKİYƏ

*17 mart 2014-cü il .........................................................................305*

ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİNDƏ YENİ YARADILMIŞ MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞLIQ

*17 mart 2014-cü il ..........................................................................306*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2014-cü il ........................................................................... 308*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ZARAR AHMAD OSMANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2014-cü il ..........................................................................310*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*19 mart 2014-cü il ............................................................................311*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*19 mart 2014-cü il ............................................................................312*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MD. ƏBDÜL HƏMİDƏ

*19 mart 2014-cü il ............................................................................313*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2014-cü il ..........................................................................314*

NİDERLAND KRALLIĞINDA İŞGÜZAR SƏFƏR

*23 mart 2014-cü il ..........................................................................324*

NİDERLAND KRALLIĞI SENATININ ÜZVÜ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*24 mart 2014-cü il* ........................................................................*325*

BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİYA AMANO İLƏ GÖRÜŞ

*24 mart 2014-cü il* ........................................................................*326*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*24 mart 2014-cü il* ........................................................................*327*

III NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*24 mart 2014-cü il* ........................................................................*328*

III NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ ÇIXIŞ

*25 mart 2014-cü il* ........................................................................*330*

ATƏT-in BAKI LAYİHƏ ƏLAQƏLƏNDİRİCİSİ ALEKSİS ŞAXTAXTİNSKİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il* ........................................................................*334*

TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il* ........................................................................*335*

TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ NECDƏT ÖZƏLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il* ........................................................................*336*

AVSTRİYA PARLAMENTİNİN İKİNCİ PREZİDENTİ KARLHAYNTS KOPFUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2014-cü il* ........................................................................*337*

TACİKİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
SİROCİDDİN ASLOV İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il ..........................................................................338*

DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ
TALEB RİFAİ İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il ..........................................................................339*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK
HİKKİ İLƏ GÖRÜŞ

*3 aprel 2014-cü il ..........................................................................340*

SLOVAKİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ANDREY KİSKAYA

*4 aprel 2014-cü il ............................................................................341*

«AITF–2014» XIII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM
VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*4 aprel 2014-cü il ..........................................................................342*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR
SƏFƏRİ

*4 aprel 2014-cü il ..........................................................................347*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*4 aprel 2014-cü il ..........................................................................348*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*4 aprel 2014-cü il ..........................................................................350*

QEYDLƏR....................................................................................................357

*Şəxsi adlar göstəricisi*........................................................................................*376*

*Coğrafi adlar göstəricisi* ....................................................................................*381*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.